# Ramiz Dəniz

# Həqiqət

Bakı - 2014

Məsləhətçi: Xalq yazıçısı Çingiz Abdullayev
Ön söz: Tənqidçi-ədəbiyyatşünas Əsəd Cahangir
Korrektor: Filoloq Luiza Məmmədova
Kompüterdə yığan: Sinay
Dizayn: Sevinc

**Ramiz Dəniz. "Həqiqət". Bakı, "MM-S" müəssisəsi, 2014, 440 səh..**

**ISBN – 978-9952-8230-9-7**

Əsərdə cərəyan edən hadisələr, Qarabağın bir kəndində yaşamış iki - azərbaycanlı və erməni ailəsinin taleyindən bəhs edir. Öz dədə-baba torpağından qovulan azərbaycanlılar ermənilər tərəfindən fiziki və mənəvi məhrumiyyətlərə məruz qalsalar da, insanlıq sifətini itirmiş, bilavasitə azərbaycanlılara qarşı cinayətlər törədən həmin erməni ailə Sankt-Peterburq şəhərində Sergey adlı rus ziyalısının sadəlövhlüyündən istifadə edərək, qaçqın kimi onun evinə sığınır. İllər ötəndən sonra əsərdəki personajlar – yəhudi biznesmeni, Bakı ermənisi, gürcü pedaqoqu və rus arxeoloqu ermənilərin Qarabağda törətdikləri cinayətləri Sergeyə söyləyirlər və sığınacaq tapmış erməni ailəsinin əməlləri bütünlüklə ifşa edilərək, biabırçı şəkildə evdən qovulurlar. Lakin həqiqəti dərk etmək üçün ilk öncə rus ziyalısı Pyatiqorskiyə, İrəvana, Xankəndinə, əsas personajların vətəni olan Xocavəndin Qaradağlı kəndinə, qarət edilərək dağıdılmış Azərbaycan kəndlərinə və Bakıya səfər edir və əlləri azərbaycanlıların qanına bulaşan ermənilərin əsl simasını üzə çıxarmaq üçün müvafiq faktlara söykənən məlumatlar toplayır.

© R.Dəniz 2014

***Əsərin nəşr olunmasında mənə maddi və mənəvi yardım göstərdiyi üçün Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin rəhbərliyinə təşəkkür və minnətdarlığımı bildirirəm***

***Kitab Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin ayırdığı qrant hesabına "Partnyor Elmin İnkişafina Dəstək" İctimai Birliyinin sifarişi əsasında çap olunmuşdur***

***Əsər erməni millətçiləri və quldurlarının azərbaycanlılara qarşı törətdikləri soyqırım, qətliamlar, vəhşiliklərin və ümumiyyətlə, işğal edilmiş Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayan, başda Heydər Əliyev Fondunun rəhbərliyi olmaqla yanaşı, hər bir şəxsin fədakar fəaliyyətinə həsr olunur.***

***"Həqiqət" romanı birbaşa Qarabağda baş verən faciənin miqyasını işıqlandıraraq, erməni millətçilərinin nə dərəcədə həyasız, qəddar və miskin olduğunu üzə çıxarır. Bundan sonra on illər keçsə belə, bizim xalq onların kimliyini unutmamalıdır, ona görə ki, əsrlər boyu onlar nəyə qadir olduqlarını bütün qonşularına nümayiş etdirərək, xasiyyətlərinin dəyişməz qaldığını sübuta yetiriblər.***

**Xalq yazıçısı Çingiz Abdullayev**

## Tarixi və bədii həqiqətin sintezi

Son iyirmi beş ildə Qarabağ hadisələriylə bağlı onlarla kitab işıq üzü görsə də, bu mövzu öz aktuallığını itrmir və hətta yarım əsr keçsə belə, bu mövzunun indiki nəslin yaddaşından silinəcəyinə inanmaq çətindir. Ramiz Dəniz müasir dövrdə bir neçə janrda yazan, o cümlədən, tarixin müəyyən dövrünü araşdıran, erkən və orta əsrlər coğrafi kəşflər tarixi ilə məşğul olan yazıçı-tədqiqatçı kimi tanınır.

İlkin bədii-tarixi əsərləri - **"Konkistadorların Mərkəzi Çili sahillərində faciəli ölümü"**, **"Müqəddəs missiya"** və **"Cənnətə gedənlər cənnətə düşürlər"**; romanlarından ibarət trilogiya müəllifin ilk yaradıcılıq məhsulları olsa da, bir çox qələm adamlarının marağına səbə olmuşdu. Çünki tarixi-macəra janrında yazılmış bu əsərlər Azərbaycan ədəbiyyatı üçün o qədər də səciyyəvi deyil və öz yeniliyi ilə diqqəti çəkirdi.

Trilogiya ispan imperiyasının XVI əsrin sonunda Ekvador, Peru və Çilidə apardığı işğalçılıq müharibələrindən bəhs edir. Konkistadorların yerli aborigenlərə qarşı döyüşləri zamanı baş verən rəngarəhng olaylar cəza ekspedisiyasinda iştirak edən qoca səyyahın dilindən nəql olunur: X. Kolumb, F. Magellan, M. Leqaspinin səyahətləri, Magellanın ekspedisiyadan aralı düşən "Trinidad" gəmisinin taleyi, ispan konkistadoru Pedro Valdiviyanın Çiliyə yürüşləri,

Vasko de Balboanın ekspedisiyası və Panama ilə Sakit okeanın kəşfi, Roma papası, İspaniya və Portuqaliyanın Yeni Dünyanı öz aralarında bölüşdürməsi, Araukaniya ölkəsinin flora və faunası, Buenos-Ayresin əsasının qoyulması, Cəbəllüttariq qalası və onun tarixi, "Məğlubedilməz armada"nın 1588-ci ildə La-Manşda və 1571-ci ildə Lepantoda dəniz döyüşləri, Kanar və Madeyra adaları ilə bağlı maraqlı, zəngin tarixi məlumatlar...

Müəllifin qələmə aldığı **"Fitva", "Qismət", "Aqibət"** romanlarında müasir cəmiyyətimizdə baş verən və oxucunu düşünməyə vadar edən bir çox neqativ və pozitiv olaylar təsvir olunub. Həyatda özü üçün münasib mövqe tutmaq istəyən hər kəs çətinliklərlə üzləşir, ən ağır sınaqlardan çıxmağa çalışır, lakin bəzən sosial mübarizədən qalib kimi ayrıla bilmir. R. Dəniz bu əsərlərdə mədəniyyəti, əxlaqı, etikanı ön plana çəkir və təzadlarla dolu cəmiyyətdə hər hansı bir vətəndaşın formalaşması üçün mənəviyyatın maddi amillərdən üstün olmasını söyləyir.

Əsərlərinin məhsuldarlığı ilə bir çox yaradıcı insanlardan geri qalmayan R. Dəniz görkəmli Azərbaycan nasiri, ədəbiyyatşünası və pedaqoqu professor Mir Cəlalın həyat və yaradıcılığını əks etdirən **"Qəlblərdə yaşayan Mir Cəlal"** adlı publisist və XIII əsrdə yaşayıb-yaratmış dünya şöhrətli görkəmli Azərbaycan alimi, filosofu, riyaziyyatçısı,

həndəsəşünası, astronomu Mühəmməd Nəsirəddin Tusinin həyat və elmi-yaradıcılığından bəhs edən **“Əsləri qabaqlamış alim”** adlı fundamental elmi-tədqiqat əsərini ərsəyə gətiribdir. Bundan əlavə o, erkən və orta əsrlər coğrafi kəşflər tarixi silsiləsindən Amerika qitəsinin və ayrılıqda Braziliyanın kəşfi ilə bağlı elmi-tədqiqat əsərlərini – **“Xristofor Kolumb, Nəsirəddin tusi və Amerika qitəsinin həqiqi kəşfi”** və **“Braziliyanın müəmmalı kəşfi”** – yazıb elmi ictimaiyyətin istifadəsinə veribdir.

Xüsusilə də qeyd etmək istəyirəm ki, adları çəkilən son üç əsər igilis və rus dillərinə tərcümə olunaraq, Azərbaycanın xarici ölkələrdəki diplomatik missiyalarının vasitəsilə 20-dən çox ölkədə yayımlanıbdır.

Müəllifin sonuncu əsəri – **“Həqiqət”** romanı isə Azərbaycan xalqının ağrılı yeri olan Qarabağ problemindən söz açır. R. Dəniz göstərir ki, vaxtilə ermənilərə öz ağuşunu açan, onunla son çörəyini bölən, ona ölkənin ən səfalı yerlərdə məskunlaşmağa imkan verən Azərbaycan xalqı, elə həmin mənfur ermənilər tərəfindən amansızcasına təcavüzə məruz qalmış və insanlığa zidd olan ən ağlasımaz vəhşilikləri, dəhşətləri öz taleyində yaşamışdır.

Torpaqlarmızın 20 faizindən çoxunu işğal edən, on minlərlə dinc sakini qətlə yetirən, minlyondan çox adamı öz dədə-baba torpaqlarından didərgin salan ermənilər, bu

azmış kimi özlərini dünya ictimaiyyəti qarşısında məzlum, əzabkeş xalq kimi nümayiş etdirir, əliqanlı erməni diasporasının səyləri hesabına Qarabağ məsələsində azərbaycanlıların özlərini günahkar çıxarırlar.

**"Həqiqət"**in müəllifin əsas məqsədi tarixi həqiqəti ortaya qoymaqdır. Qarabağ olaylarını göstərmək üçün o, öz üzrəinə həm yazıçı, həm də tədqiqatçı vəzifəsini götürür. Romanda Qarabağ hadisələrinin bir hissəsi olan Qaradağlı kəndi sakinlərinin blokada şəraitindəki həyatı, çətinliklərə sinə gərməsi, bütün müasir silahlarla silahlanan daşnaklara müqavimət göstərməsi, nəhayət, kəndin işğalı əks olunur. Romanın preambulasında 1991-ci il noyabırın 20-də Azərbaycanın siyasi, dövlət, ictimai xadimləri və beynəlxalq müşahidə missiyası nümayəndələrinin olduğu helikopterin ermənilər tərəfindən vurulması göstərilir və cinayətin necə baş verdiyi açıqlanır.

Roman, bir kənddə uzun müddət yaşamış iki qonşu - azərbaycanlı və erməni ailəsindən bəhs edir. Elə ki, havadarlarına arxalanan erməni millətçiləri və ekstremistləri Azərbaycan ərazisində quldurluq əməllərinə başlayır, qonşular arasına düşmənçilik toxumu səpilir və ermənilər öz məkrli planlarını həyata keçirməyə başlayırlar - azərbaycanlılara məxsus malı-mülkü ələ keçirir, əsir düşənlərə

qarşı qeyri-insani işgəncələr tətbiq edir, onların əksəriyyətini fiziki cəhətdən məhv edirlər.

Müəllif Qaradağlı kəndində baş verən faciəli olaylarda məşhur terroristlər Monte Melkonyan, Manvel Yegizaryan və Aram Toqromyanla yanaşı, Ermənistanın eks-prezidenti Robert Köçəryanın xüsusi rolunu nəzərdən qaçırmır. Bundan sonrakı hadisələr daha maraqlıdır: Qaradağlı qətliamından birtəhər salamat çıxmış Əliyevlər ailəsi qohumları və yurd-yuvasını itirəndən sonra çadır şəhərciyində məskunlaşır; qonşuları Muradyanlar ailəsi isə onların ev-eşiyini mənimsəyərək, Sankt-Peterburq şəhərinə gedir, orada özlərini ev-eşikləri əlindən alınan qaçqın kimi təqdim edirlər.

Muradyanların ailə başçısı Eduard Qarabağdakı əhaliyə qarşı qətliamlar törətsə də, o, iddia edir ki, bir baçısı guya Bakıda girov (Klara əri azərbaycanlı olduğu üçün Bakıda yaşayırdı) saxlanılır, digər bacısının əri Sumqayıt hadisələri zamanı guya azərbaycanlılar tərəfindən öldürülüb və özü zorlanıb (əslində, onu tanınmış qatil Eduard Qriqoryan zorlamış və ərini də həmin quldur qətlə yetirmişdi), qardaşı Artur isə guya Qarabağda (dinc əhaliyə divan tutan Artur azərbaycanlı əsgərlər tərəfindən zərərsizləşdirilmişdi) qətlə yetirilib. O, Qarabağı tərk etməmişdən əvvəl bir kənddə yaşadığı öz milliyyətinin nümayəndələrini aldadaraq, onla-

rın, quldurluqlaqla əldə etdikləri məzar daşları satmaq adı ilə mənimsəyərək, doğma ocağından didərgin düşür.

Ermənilərə yazığı gələn rus ziyalısı dövlət tərəfindən ev verilənə qədər özünün iki sot torpaq və həmin torpaqda tikdirdiyi mənzilini onlara verir. Öz cinayətlərini ört-basdır edən Eduard Sankt-Peterbuqda azərbaycanlıları yerli əhalinin gözündən salmaq üçün ən iyrənc şər-böhtan kompaniyası aparır və uzun illər xeyli sayda adamları aldatmağa nail olur. Lakin on səkkiz ildən sonra həmin rus ziyalısı xüsusi dəvətlə İrəvana, Xankəndinə, Eduardın anadan olduğu Qaradağlıya və xarabazarlığa çevrilmiş digər azərbaycanlı şəhər və kəndlərinə gedib, orada əsl həqiqəti öz gözü ilə görür və ermənilərin necə yırtıcı bir millət olduğunu dərk edir. O, Bakıya qonaq gələndə isə azərbaycanlıların nə dərəcədə ürəyiaçıq, qonaqpərvər, tolerant bir millət olmasının şahidinə çevrilir və doğma şəhərinə qayıdan kimi qarayaxmalarla, iftiralarla məşğul olan erməni ailəsini qovaraq, dərs verdiyi universitetdə təhsil alan, həqiqi mənada qaçqın olan azərbaycanlı tələbəsinə həmin evdə məskunlaşmaq icazəsi verir.

Romandakı obrazlar beynəlmiləl xarakter daşıyır – azərbaycanlı qaçqın ailəsi, həyasız erməni ailəsi, rus ziyalısı, gürcü pedaqoqu, yəhudi biznesmeni, Bakıda əmin-amanlıq şəraitində öz ailəsi ilə birgə yaşayan erməni qadını,

Stavropolda məskunlaşan Bakı və Sumqayıt ermənilәri. Hadisələrin miqyası da kifayət qədər genişdir: ermənilər tərəfindən həyata keçirilən genosid və vandalizm, çağdaş sivilizasiyaya uyğun olmayan vəhşiliklər, soyğunçuluq, qətl, mənimsəmə və özününküləşdirmə siyasəti, dünyanın bir çox yerlərində Azərbaycana qarşı aparılan iyrənc təbliğat... Amma müəllif sadəcə son iyirmi-iyirmi beş illə kifayətlənməyib, tarixə də üz tutur, bir neçə əsr bundan əvvəl Qafqazın cənubunda baş verən olaylardan da danışır və bununla da, hadisələrin kökünə gedir. Əsərin kulimina-siya nöqtəsi özlərini məzlum, əzabkeş, əzilmiş, qaçqın kimi təqdim edən erməni ailəsinin planlarının alt-üst olması, onların ifşa olunması epizodlarında öz əksini tapır. Ermənilər bütün dost-tanışların qarşısında fiaskoya uğrayırlar.

Aktual bir mövzuya həsr olunmuş **"Həqiqət"** romanı Qarabağda baş verən hadisələrin müəyyən bir dövrünü tarixi obyektivliklə əks etdirməsi baxımından gənc nəslin dünyagörüşünə müəyyən istiqamət verə bilər.

**Tənqidçi, ədəbiyyatşünas Əsəd Cahangir**

# I hissə:

## Faciə ilə üzləşən məzlum insanların şərlənməsi

# I fəsil. Tutqun havada helikopterin vurulması

Öz gözəlliyi ilə bir çox turistləri cəlb edən Qarabağ ilin üç fəslində həddindən artıq gözəl görünürdü. Boynuna topa ağ buludlardan şərf düzəltmiş çılpaq qayalardan başqa bütün ətraf yaşıllığa qərq olmuşdu və soyuqların düşməsinə baxmayaraq, ağaclar hələ də öz möhtəşəmliyini qoruyub saxlayırdı. Bülbüllərin xoş nəğməsi, dağlardan daşan çayların şırıltısı, yüksəkliklərdən sallanan rəngarəng bitkilər, şəffaf sulu bulaqların qayalar arasında cığır yaratması burada olan hər bir insanı valeh edirdi. Sıldırım qayalar üzərində salınan bir çox yaşayış məntəqələri Allahın bəxş etdiyi təbiət ilə açıq havada gözəl harmoniya yaratmışdı. Lakin Yaxın Şərqdən və Ermənistandan "qara qarğalar" kimi bu əraziyə doluşan, beynəlxalq terror təşkilatlarının fəal üzvləri olan saqqallı ermənilər, özləri ilə faciə, ölüm, təlafat, təlatüm, xarabalıq adlı fəsadları gətirmişdilər. Həmin quldurlar Qarabağda yerləşən strateji əhəmiyyətli azərbaycanlıların məskunlaşdığı kəndləri ələ keçirmək üçün bütün mümkün olan variantlardan istifadə edirdilər. Belə yaşayış məntəqələrdən biri Xocavənd rayonunun Qaradağlı kəndi idi.

Başqa kəndlərə nisbətən burada azərbaycanlılarla yanaşı xeyli sayda ermənilər də yaşayırdı. Digər kəndlərdə olduğu

kimi, buradakı əhali də baxmayaraq ki, müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri idi bir-birilərinə xoş manasibət bəsləyirdilər. Yorğan-döşək sırımaq, xalça toxumaq, ağartı məhsulları hazırlamaq lazım gəldikdə ermənilər azərbaycanlılara, ev təmirini həyata keçirmək üçün azərbaycanlılar ermənilərə müraciət edirdillər. Bir sözlə, onların demək olar ki, hər bir əlçatmaz işi br-birilərindən keçirdi.

1991-ci ilin payız fəslinin ortası idi. Bəzi yerlərdə hava tutqun idi, bəzi yerlərdə isə çiskin yağış yağırdı. Qaradağlı kəndinin ən yaşlı sakinlərindən biri cılız bədənli, saçı tökülmüş 81 yaşlı Qasım baba Ağdamın Əlimədətli kəndindən qonaq gələn oğlu Əvəzin dostlarını Bakıya ötürmək üçün yola çıxmışdı. Qonaqpərvərliyini nümayiş etdirən Qasım baba istəmirdi ki, evinə gələn qonaqları yalnız Əvəz ötürsün. Onlar Xankəndi-Xocavənd avtomobil yoluna çıxıb, milis maşını ilə müşayiət olunan avtomobil gözləməyə başladılar. Günortadan iki saat keçsə də münasib minik maşını hələ də görünmürdü. Yalnız arabir rus hərbçiləri ilə dolu olan yük maşını və milis “UAZ”-ları həmin yoldan keçirdi.

Qaradağlı kəndi hər tərəfdən 20-yə yaxın erməni yaşayış məntəqələri ilə əhatə olunmasına baxmayaraq dörd il müddətində düşmənlə təkbaşına mübarizə aparır, onlara

layiqli müqavimət göstərirdi. Bütövlükdə 20-yə yaxın erməni kəndinin əhatəsində olan Qaradağlı kəndi Xankəndi ilə Xocavənd şəhərini birləşdirən magistral yolun üzərində, strateji əhəmiyyətə malik ərazidə yerləşirdi. Bu da ermənilərin gələcək hərbi planlarını əsaslı şəkildə əngəlləyirdi. Dörd il müddətində ermənilərin bu yoldan istifadə etmələri ümumiyyətlə, mümkün olmadığından, onlar yüksək dağlıq ərazilərdən keçən yeni yol çəkməyə məcbur olmuşdurlar.

1991-ci ilin oktyabr ayında Qaradağlının müdafiəçilərinə kömək etmək məqsədilə, Eyvaz Hüseynovun rəhbərlik etdiyi 9 nəfərdən ibarət olan dəstə, şimal-qərb hissədə Kəndxord kəndi istiqamətində mövqe tutdu. Onlar kəndə gələn kimi müdafiənin qurulması və möhkəmləndirilməsi istiqamətində mühüm işlər gördülər.

Kənddə vəziyyət günbəgün ağırlaşırdı. Bir gün əvvəl rayonunun Xocavənd kəndi ermənilər tərəfindən işğal olunduqdan sonra Qaradağlı tamamilə mühasirə vəziyyətinə düşdü. Artıq kəndlə əlaqə yalnız helikopterlər vasitəsilə mümkün idi. Məhz bu səbəbdən kəndə gələn qonaqlar tələsik şəkildə buradan uzaqlaşmağa can atırdılar. Bəxtləri gətirsə, hər hansı bir minik maşını ilə, yox mümkün olmasa, onda helikopter gözləməli olacaqlar.

Ağdam şəhəri ilə mütəmadi olaraq əlaqə saxlayan İsgəndər dəqiq bilirdi ki, Qarabağda beynəlxalq müşahidə

qrupu tərəflər arasında araşdırma apardığından, ermənilərin quldur dəstələri gizlənmiş və hər hansı bir nəqliyyat vasitəsi təhlükəsiz şəkildə, bir mənzildən o biri mənzilə kimi hərəkət etmək mümkün idi.

İsgəndər hündürboylu, şax qamətli, 65 yaşında enli sifət bir ciddi baxışlı kişi idi. Onun kül rənginə dönmüş saçı qara şlyapanın altında qalsa da, kənarlardan çıxan bəzi tüklər soyuq küləyin təsirindən dalğalanırdı. Uzun müddət orta kənd məktəbində pedaqoq kimi çalışan İsgəndər ətrafda baş verən hər şeyə diqqət yetirməyi xoşlayırdı. Qaradağlı kəndi dərədə yerləşdiyindən orada olan bir çox səslər yola kimi gəlib çıxırdı. Sakinlərin hamısı başını aşağı salıb öz problemləri ilə məşğul idilər.

Böyük Vətən müharibəsinin veteranı Qasım baba asudə vaxtlarının əksəriyyətini şəxsi təsərrüfatına daxil olan yüzdən çox qoyun sürüsü saxlayırdı. Bu dəfə qonaqları ötürdüyündən həmin işi onun kiçik oğlu İlqar icra edirdi. İlqar sürünü buradan bir neçə kilometr aralıya dağların yamacına aparmışdı. Həmin istiqamətdən muğamat səsi eşidilirdi. Maraqlı o idi ki, həmin mahnı canlı şəkildə təbiətin qoynunda ifa edilirdi. Muğamat eşqi ilə yaşayan pedaqoq nəzərlərini yanındakı adamlara yönəltsə də, qulaqlarını həmin səmtə şəkləmişdi.

Nazimin gözü əvvəlki kimi yolda olsa da, hələ də hansısa bir minik avtomaşınından əsər-əlamət yox idi. Uzaqdakı dağlar tərəfdə, Qarakənd kəndi istiqamətində iri helikopterin mühərriklərinin səsi eşidilirdi. Əvəz həmin istiqamətə nəzər yetirsə də, aşağı enmiş boz buludların tutqun pərdəsindən həmin uçaq obyektini görə bilmirdi.

- Görünür, yenə də Ermənistandan buradakı quldurlara silah gətizdirilir. – nəzərlərini səs gələn tərəfdən çəkməyən Əvəz köksünü dərindən ötürərək, təəssüf hissi ilə dilləndi.

- Həqiqətən də Qarabağda qəribə hadisələr baş verir. – deyə İsgəndər də bikef halda dilləndi. – Daim təhlükə altında olan bizim kəndlərdə yaşayan millətimizdən bütün ov tüfəngləri yığışdırılmış, amma bizimlə yanaşı yaşayan ermənilər ən müasir atıcı silahlarla silahlanırlar.

- İsgəndər müəllim, bu məlumatı haradan almısınız, - deyə Əvəz ona sualedici nəzər salaraq təəccübləndi. – olmaya belə şayiələri camaat əlacsızlıqdan yaradıbdır?

- Bütün bunlar şayiələr deyil, əsl həqiqətdir. – deyə pedaqoq uzaqdan gələn muğamata qulaq asa-asa təşəxxüslə dilləndi. – Son zamanlar baş verən bütün terror aktlarında erməni quldurları ən müasir atıcı silahlardan istifadə ediblər. Bunu Qarabağda dislokasiyada olan rus hərbçiləri söyləyirlər. Yadınıza salmaq istəyirəm ki, elə təxminən 10 ay bundan əvvəl ***“Molodyoj Azerbaydjana” (“Azərbaycan***

***Gəncləri*”) qəzetinin müxbiri, 20 yanvar faciəsini və Qarabağdakı prosesləri işıqlandıran mərd Azərbaycan qadını Salatın Əsgərova Şuşa rayonu ərazisində rus zabitləri ilə birlikdə vəhşicəsinə qətlə yetiriləndə erməni quldurları elə rus hərbçilərindən əldə etdikləri “Kalaşnikov” avtomatlarından istifadə etmişdilər.

Maarif işçisi bu hadisəni yada salmaqla qeyd etmək istəyirdi ki, ermənilər hər hansı bir terror aktını həyata keçirmək üçün heç bir məhdudiyyət qoymurdular. 1991-ci il yanvarın 9-da pusquda durmuş erməni terrorçuları tərəfindən Yevlax-Lacın yolunun 141 km-də (Şuşa rayonu ərazisi) Gəncə şəhərinin 44682 saylı hərbi hissəsinə məxsus “UZ 469” markalı avtomaşın atəşə tutulmuş və nəticədə sürücü, kəşfiyyat batalyonunun komandiri, polkovnik O. Larionov, Lacın rayonu hərbi komendaturasının qərargah rəisi, mayor İ. İvanov və ***“Azərbaycan Gəncləri”*** qəzetinin müxbiri Salatın Əsgərova həlak olmuşdular.

- Həmin hadisədən sonra mən elə başa düşdüm ki, erməni terrorçuları bütün bölgədə sıxışdırılacaq və onların quldur əməllərinə birdəfəlik son qoyulacaqdır. – deyə Nazim başını çarəsiz halda yellədərək, ümidsiz halda dilləndi. - Lakin göründüyü kimi Qarabağdakı qanlı terror hələ də davam edir və bütün bunların hamısı rus hərbçilərinin və dövlət nümayəndələrinin gözü qarşısında baş verir.

- Amma mən əminəm ki, - deyə Əvəz başını dik tutaraq nikbinliklə dilləndi. - nə qədər İsmət Qayıbov kimi prinsipial Baş prokuror və Məhəmməd Əsədov kimi mərd və qorxmaz milis generalımız var, cinayət törədən hər bir kəs milliyyətindən və dinindən asılı olmayaraq öz cəzalarına çatacaq.

- Bala, sən Bakıda yaşadığından buradakı vəziyyətin ciddiliyini dərk etmirsən. – deyə Qasım baba dilləndi. – Qarabağda yaşayan ermənilər xaricdən gətirilən muzdlu həmyerlilərindən çəkinərək, qeyri-ixtiyari şəkildə yavaş-yavaş onların tərəfinə keçir və bizim aramızda olan dostluq münasibətləri soyumaqdadır.

Uzaqdan eşidilən helikopterin səsi daha da aydın eşidilməyə başladı. Dumanlı havada həmin uçaq obyektini görməyə çalışan İsgəndər qətiyyətlə dedi:

- Bu, faciənin başında isə, elə özünü yaradıcı insan kimi qələmə verən, türk vətəndaşlarının, xüsusən də körpə uşaqların qanını içən, cəllad xislətli Zori Balayanın özü durur. – sonra pedaqoq üzünü oğluna tərəf tutub ciddi halda sözünə davam etdi. – Nazim, sən o, mənfur yazıçı haqqında şeir bəstələmisən. Onu dostlarımıza söyləsən hamının ürəyin-dən olacaq.

Nazim qamətinə düzəliş verib ürəkdən dedi:

...Xəbərsizsən millətindən, özündən,
Çörəyimiz gəlsin sənin gözündən.
Deyirəm ki, sümük düşsün dizindən,
Donuz təki qışqırırsan balayan...

Çaqqaltəki dağıldınız düzlərə,
İtə dönüb hürüşdünüz bizlərə.
"Ocağın"da düzəliş ver sözlərə,
Yalanlarla dolaşırsan balayan.

Qapılarda baban sümük gəmirdi,
Tez qudurdu qulağını itirdi.
Nuru paşa onu yaman bitrdi,
Eşidəndə alışırsan balayan.

Biz olanda utan barı danışma,
Qarabağın sən işinə qarışma.
İblis təki əl-ayağa dolaşma,
Çaqqal təki ulayırsan balayan...

- Əhsən, sənə ay bala. – deyə Qasım kişi hərarətlə dilləndi. – Elə hamımıza bədbəxtlik həmin əfi ilandan gəlir. Sənin yerinə olsam, oxuduğun şeiri bir zərfə qoyub, birbaşa

onun özünə göndərərəm. O, qonşuluqda olan Kəndxord kəndindəndir.

- Qasım baba, onun haradan olduğunu yaxşı bilirəm. – deyə Nazim təmkinlə dilləndi. - Ona görə ki, mən poçt vasitəsi ilə yazdığım şeiri ona göndərmişəm.

Onlar nə qədər söhbət etsələr də, buradan uzaqlaşmaq üçün lazım olan avtomaşın hələ də yolda görünmürdü. Həmişə səbrli olan Nazim bu dəfə nigaran olduğunu açıq-aydın büruzə verdi. Hətta o, tab gətirməyib Əvəzdən saatın neçə olduğunu soruşdu.

- Üçə iyirmi dəqiqə qalıbdır. – deyə Əvəz tələsik halda cavab verdi və üzünü ona tərəf tutub gülə-gülə soruşdu. – Nə olub, səbirsizlikdə bizdən uzaqlaşmaq istəyirsən?

- Xeyr! – deyə asudə vaxtlarında poeziya ilə məşğul olan Nazim utancaq halda dilləndi. – İstəmirəm ki, Bakıya gecə vaxtı çatım. Geçəyə düşsəm, iri şəhərin küçələrində gicələk qalacağam.

- Nazim, sən özünü elə nigaran aparırsan ki, sanki bu gün noyabrın 20-də iş yerində olmalısan? – deyə İsgəndər narazı halda dilləndi. – Ayın 21-nə hələ bir gün qalıbdır. Sən isə sabah işdə olmalısan.

Elə gənc şair sözünü bitirmişdi ki, birdən helikopter uçan tərəfdə parlaq bir şüa yarandı və 5-6 saniyədən sonra

həmin istiqamətdən bərk partlayış səsi eşidildi. Bir neçə saniyə keçən kimi ikinci partlayış səsi əmələ gəldi.

- İsgəndər müəllim, yanılmıramsa, Qarakənd kəndinin yaxınlığında helikopter partladı. – deyə həmin istiqamətə nəzər salan və orada nəyisə görməyə cəhd edən Əvəz həyəcanla dilləndi.

- Mənə də elə gəlir, ermənilər hansısa bir helikopteri vurdular. – deyə yaşlı ziyalı partlayış səsi gələn tərəfə nəzərlərini yönəldərək tərəddüdlə dilləndi və dərhal üzünü Nazimə tutub hökmlə sözünə davam etdi. – Oğlum Nazim, sən bu gün Bakıya gedəsi olmadın. Bu ərazidə nəsə, dəhşətli hadisə baş verdi. Ola bilsin yollar, nəzarətə götürülsün.

- Elədirsə, hamınız burada qalası olacaqsınız. – deyə Qasım baba nigarançılıqla dilləndi. – Əbəs yerə başınız ağramasın deyə, gecəni bizdə qalın, səhər tezdən isə yola düşərsiniz. Tez olun, evə qayıdaq. Burada qalmaq heç də təhlükəsiz deyil.

- Mən təcili Bakıda olmalıyam. – deyə Əvəz narahat halda dilləndi. – Orada Allahverdi müəllimin həyat yoldaşı xəstəxanada yatır və onun müəalicəsi ilə mən məşğulam.

- Allahverdi Bağırov Qarabağda çox hörmətli adam sayılır, lakin bir günə görə sən öz həyatını risqə qoya bilmərsən. - Qasım baba təşvişlə dilləndi. - İndi isə evə gedirik.

## II fəsil. Azərbaycanlıların qonşularına göstərdikləri qayğı və nəvazişləri

Həqiqətən də Ağdamın Mərzili kəndi ərazisində erməni həbiləşdirilmiş dəstələri və rus muzdluları raket qurğusu ilə, saat 14:42-də Xocavənd rayonunun Qarakənd kəndi üzərində 300 metr yüksəklikdə uçan Mİ-8 N72 helikopterini vurmuşdular. Azərbaycanın dövlət və hökumət rəhbərlərinin, jurnalistlərin və hərbçilərin uçduğu helikopter erməni terrorunun qurbanı oldular. Dövlət katibi Tofiq İsmayılov, Baş prokuror İsmət Qayıbov, Daxili İşlər naziri Məhəmməd Əsədov, Baş nazirin müavini Zülfü Hacıyev, nazir müavini Qurban Namazəliyev, nazir müavini Vaqif Cəfərov, xalq deputatı Vəli Məmmədov, Prezident aparatının şöbə müdiri Osman Mirzəyev, jurnalist Alı Mustafayev, operatorlar Fəxrəddin Şahbazov və Arif Hüseynzadə xalqın haqqı, ədaləti və nicatı uğrunda canlarından keçdilər. Lakin rəhbərliyin biganəliyi ucbatından onların qanı yerdə qaldı. Bundan əlavə həmin missiya zamanı DQMV-nin prokuroru İqor Plavski, DQMV-nin Daxili İşlər İdarəsinin rəisi Vladimir Kovalyov, Dağlıq Qarabağ üzrə milli təhlükəsizlik şöbəsinin rəisi Sergey İvanov, fövqəladə vəziyyət rayonunun komendantı Nikolay Jinkin, Qazaxstanın DİN-nin müavini Sanlal Serikov, milis general-mayoru Mixail

Lukaşov, polkovnik-leytenant Oleq Koçerev, helikopter heyətinin komandiri və üzvləri Vyaçeslav Kotov, Gennadi Domov və Dmitri Yarovenko həmin terror aktının qurbanı olmuşdular.

Qanlı faciəni və beynəlxalq miqyaslı sui-qəsdi törədən ermənilər demək olar ki, məsuliyyətə cəlb olunmadılar. Cinayətin açılmasında maraqlı olmayan Rusiya höküməti istintaq qrupunu iflic etdi. Bu ondan xəbər verirdi ki, helikopterin partladılmasında erməni yaraqlıları ilə birlikdə Rusiya məxfi orqanlarının əli olubdur.

Xocavəndin Qaradağlı kəndində yaşayan camaat da gərginlik altında yaşayırdı. Ona görə ki, hər gün müxtəlif yerlərdə, xüsusən də bu kəndə yaxın yerlərdə baş verən terror aktları, dinc əhalinin quldurlar tərəfindən öldürülməsi xəbəri ildırım surətilə gəlib çatırdı. Yuxarıda qeyd edildiyi kimi əksəriyyəti azərbaycanlılar olan bu kənddə bir çox erməni ailəsi də yaşayırdı. Bu səbəbdən kənddə rus hərbçilərindən ibarət komendatura yaradılmışdı ki, ermənilərlə azərbaycanlılar arasında münaqişə baş verməsin. Lakin buna baxmayaraq ermənilərdən çox azərbaycanlılar təhlükə altında idilər. Ona görə ki, bütün ətraf bir neçə cərgədə yerləşmiş erməni kəndləri ilə əhatə olunmuş və ekstremistlərlə, terrorçuların çox hissəsi məhz həmin kəndlərdə məskunlaşmışdı.

Təxminən bir il əvvəl, noyabrın 24-də yolçuların dayandığı elə həmin yerdə, Xocavənd-Xankəndi yolunda ermənilər 3 nəfər azərbaycanlını (biri Qaradağlı kəndindən, ikisi isə həmin kəndə qonaq gəlmişdi) vəhşicəsinə qətlə yetirir və onların sinələrinə xaç şəkli çəkirlər.

Enişli-yoxuşlu sahələrdən ibarət olan yaşayış məntəqəsi demək olar ki, hündür meşəli və çılpaq yüksəkliklərlə əhatə olunmuşdu. Kənddə hamı bir-birini yaxşı tanıyır və arada yaranan ixtilaflara baxmayaraq, hələ də mehribançılıqlarını qoruyub saxlayırdılar. Ona görə ki, halal çörək qazanan, kənd təsərrüfatı və heyvandarlıqla məşğul olan hər bir erməni azərbaycanlıları təzyiq altında saxlayan muzdlu saqqallıların qanunsuz fəaliyyətindən narazı idi.

Qasım baba Böyük Vətən müharibəsinin iştirakçısı kimi kənd camaatı arasında böyük nüfuza malik idi və qoyunçuluqla məşğul olmasına baxmayaraq çoxları ondan lazımi məsləhətlər alırdı, o cümlədən ermənilər də. Övladlarından aldığı məlumata əsasən o, hiss edirdi ki, rus hərbçilərinin dəstəyinə arxalanan ermənilər kənddə iğtişaş törətmək istəyirlər. Müharibə veteranı hələ də anlaya bilmirdi ki, yaxşı yerlərdə yaşayan, nüfuzlu yerlərdə işləyən, daim yerli sakinlərin hörməti ilə üzləşən ermənilər nədən narazıdırlar? Baxmayaraq ki, ermənilər Qarabağın çox hissəsində terror aktı keçiriblər, bu günə kimi Qara-

dağlı kəndinin sakinləri qonşuları ilə sülh və əminamanlıq şəraitində yaşayırdılar.

Qış fəsli idi, yeni ilin başlanmasına beş gün qalırdı. İşıq olmadığından bütün kənd qaranlıqda yoxa çıxmışdı. Kimi şam, kimi isə nöyüt lampası yandıraraq, evlərini işıqlandırmağa çalışırdı. Halbuki dağlarda yerləşən erməni kəndləri elektrik enerjisi ilə təmin olunurdu.

Qasım Əliyevin on bir uşağı – beş oğlu və altı qızı vardı. Uşaqlardan yalnız biri, o da ki, Əvəz Bakıda işlədiyi yerdən aldığı yataqxanada qalırdı, qalanları isə Qarabağdan kənara çıxmamışdılar.

Qasım babanın oğlu Əvəz həkim işlədiyindən o, nə vaxt kəndə gəlirdisə, bir çox kənd sakinləri müalicə olunmaq üçün birbaşa ona müraciət edirdilər. İş ondadır ki, o, vaxtilə bu kənddə işləmiş və hamı onun şəfaverici əl qabiliyyətinə bələd idi. Elə buna görə də kənd camaatı milliyyətindən asılı olmayaraq, onun xətrini çox istəyirdi. Bu dəfə də Əvəz kəndə gələn kimi qonşuluqda olan, uşaqlıqda bir yerdə böyüyən həmyaşıdı Artur özünü ona çatdıraraq atasının xəstələndiyini dostuna bildirdi.

Hazırda Qasım babanın evinə bir neçə qonşu qonaq gəlsə də o, da oğlu ilə birlikdə Arturun atası Albertin yanına getməyi məsləhət bildi. Çünki müharibə veteranı özü də xəstə olan zaman Albert onu yoxlamaq üçün demək

olar ki, hər gün ağsaqqalın yanında olurdu. Lakin son məqamda Əvəz qonşunun evinə atası ilə yox, qardaşı İlqar ilə getməyi qərara aldı. O, bunu onunla əsaslandırırdı ki, hava qaranlıq olduğundan ətrafda hər şey zülmət içərisindədir və belə bir havada 81 yaşlı ahıl insan üçün hərəkət etmək çətin olacaq.

Evdə olan qonaqlardan bir neçəsi vəziyyətdən hali olan kimi Əvəzə bildirdilər ki, indiki durumda ermənilər azərbaycanlılara qarşı düşmənçilik mövqeyi bəslədiyindən, onlara kömək etmək bir çox yerli sakinlərdə ikrah hissi doğuracaq. Lakin bütün iradlara baxmayaraq o, bir insan olaraq, tutduğu peşəyə əsasən, kimliyindən asılı olmadan hər bir xəstəyə kömək etməyə borcludur. Əvəzin fikirincə, Qarabağda yaranan xaosda Arturun ailəsinin təqsiri olmadığından, onları təhlükəli şəxslər siyasına salmaq olmaz. Bundan əlavə, 1988-ci ildəki Sumqayıt hadisələri zamanı onun yezinəsinin öldürülməsi, qızının isə zorlanmasından kənd camaatı halı idi. Alberti dəhşətə gətirən o idi ki, həmin qalmaqalda azərbaycanlıların adı hallansa da, amansız qətli, məhz ermənilərin özləri həyata keçirmişdilər. Bu məlumatı başqa yad adamlar yox, onun qızı Janna bəyan etmişdi. Bir sözlə, erməni ekstremist-quldur dəstələrinin fəaliyyətindən azərbaycanlılar və ya digər millətlər yox, elə ermənilərin özləri də bezmişdilər.

Əvəz həkim çantasını götürüb qardaşı ilə birlikdə birbaşa xəstə qonşusunun yanına getdi.

Qarayanız, enli sifət, balacaboy, daz başlı, sallaq qarınlı, 55 yaşlı Albert yataq otağındakı çarpayıda uzanıb, bədənində yaranan ağrılardan arabir zarıyırdı. Bu adam Qaradağlıda yaşayandan azərbaycanlılarla xoş münasibətdə idi və həmin əlaqələri indi də saxlayırdı. Sakit həyat tərzi sürməyi xoşlayan Albertin də buralarda baş verən erməni təxribatlarına mövqeyi birmənlı deyildi. Onun dörd uşağı – Artur və Eduard adlı iki oğlu və Janna ilə Klara adında iki qızı - vardı.

Hava soyuq olduğundan hamı balaca otağa doluşmuşdu. İçəridəkilərin bəziləri gələnləri salamlayan kimi o biri otağa keçdilər. Albertin yanında yalnız bir Artur qaldı və həkimin verəcəyi tapşırığı gözləməyə başladı.

Xəstə sobanın yanında salınmış yataqda hərarət içərisində uzanmışdı. Əvəz onu yoxlayan zaman həmin an dedi ki, evin sahibi möhkəm soyuqlayıbdır və vəziyyəti ağırlaşmasın deyə, onu dərhal xəstəxanaya aparmaq lazımdır. Özündə güc tapan Albert gülümsəyərək qəti olaraq xəstəxanaya getməkdən boyun qaçırdı. Çarəsiz qalan həkim vaxt itirmədən ilkin tibbi yardım göstərməyə başladı. Əvəz iki dənə iynə vurandan sonra hərarəti salmaq üçün ona müvafiq dərmanlar verdi.

Beş dəqiqə keçəndən sonra xəstə bir qədər özünə gəldi və minnətdarlığını bildirən kimi təşəxxüslə dedi:

- Əziz, təəssüflər olsun ki, mən sənin qaldığın evə gələ bilmirəm. Millətlərimiz arasında yaranan ixtilaf buna imkan vermir. Mənə elə gəlir aramıza nifaq salan ruslardır.

- Məndə də elə təəssürat yaranır. Millətlərimizin mehribancasına yaşamasına Qarbaçovun səriştəsizcəsinə yürütdüyü naşı siyasəti mane olur. Bundan da istifadə edən kriminal keçmişli ünsürlər sabitliyi pozmağa çalışırlar.

Azərbaycanlılara möhkəm öyrəşən Albert dərindən köksünü alaraq dərhal dedi:

- Əziz dostum, Qarabağdakı sabitlikdən demək olar ki, heç nə qalmayıbdır. Hər şey nəzarətdən çıxıbdır. Özünə şalvar ala bilməyən və ailəsini qeyrətlə saxlaya bilməyən kəslər silaha sarılıb, burada iğtişaşlar yaradır.

- Təmamilə doğru deyirsən, sanki milis orqanları burada fəaliyyət göstərmir. – həkim təqdiredici tərzdə dilləndi. – Ekstremist qüvvələr və millətçilər növbəti dəfə Qarabağı al qana boyamaq istəyirlər. Bu məsələdə rus hərbçiləri və məxfi orqanların əməkdaşları passivlik göstərirlər.

- Belə getsə, bu kənddəki sabitlik tam pozulacaq. – Albert məyus halda dilləndi. – Ekstremistlər hara gəldi burunlarını soxurlar. Hərbi münaqişə başlansa millətlərimiz arasında böyük düşmənçilik yaranacaq.

- Əldə etdiyimiz dostluğa son qoyulsa, bundan sonra onu bərpa etmək qeyri-mümkün olacaq. – deyə başını təəssüflə tərpədən Əvəz də məyus halda dilləndi. – Aramızda böyük uçurum yaranacaq.

- Dua etmək lazımdır ki, hər şey faciəsiz keçsin. – deyə Albert fikirli halda dilləndi. – Xankəndidə hər şey nəzarətdən çıxıbdır. Oradan evlərə mənşəyi bilinməyən quldurlar gəlirlər ki, Azərbaycan qanunlarına tabe olmayaq, rəhbərlərin göstərişlərinə itaət etməyək, xalq və kənd təsərrüfatına ziyan vuraq. Artur hərbi hissədə nə baş verdiyini söyləyəndə, mən dəhşətə gəldim. Yaxın Şərqdən gələn quldurlar açıq-aşkar hərbi hissələrə daxil olur və oradakı bəzi hərbçiləri öz tərəflərinə çəkirlər.

- Quldurların törətdikləri cinayət xarakterli əməllərinə görə məsul şəxslər əməli tədbir görmürlərsə, - hakim səbirsizliklə dilləndi. - onda xaos yox, əsl faciənin baş verməsi labüddür. Helikopter vurulan kimi canilərin axtarılması üçün geniş miqyaslı ciddi istintaq tədbirləri görülməli idi. Qatillər məsuliyyətə cəlb olunmayanda, onda onlar daha da azğınlaşırlar.

- Əvəz, Azərinform və respublika televiziyası tərəfindən bütün dünyaya bildirilmişdir ki, helikopter dumana düşmüş və dağa dəyərək partlamışdır. – deyə Artur araya girib öz

fikirini bildirdi. – Həmin hadisə ilə bağlı cinayətkar axtarmaq absurd iş sayılır.

- Şahidlər əmin edirlər ki, helikopter yerə düşməmişdən əvvəl hələ göydə partlamışdı. – deyə həkim qətiyyətlə dilləndi. – Deməli, həmin obyekt raketlə vurulubdur. İş ondadır ki, mən özüm hadisə baş verən zaman yoldaydım və onda iki partlayış səsi eşitdim. Təəssüflər olsun ki, həmin gün hava tutqun olduğundan mən helikopterin vurulduğunu görə bilmədim.

- Elə atamız da həmin gün sənin yanında olubdur və eyni ilə sənin dediklərini təsdiqləyir. – İlqar üzünü qardaşına tutub həqarətlə söhbətə qarışdı. – Maraqlı odur ki, istintaqı aparan prokuror bir dəfə də olsun nə kişini, nə də ki, başqa şahidləri dindirməyiblər.

Elə bu vaxt Albertin arvadı Marqo onlara çiyələk mürəbbəsi ilə birlikdə çay gətirdi. Qapı onun arxasınca örtülən kimi Albert yarımçıq qalan sözünü davam etdirmək üçün dedi:

- Həmin hadisənin arxasında nə durduğunu biz bilmərik, lakin onu bilirəm ki, həmin faciənin baş verməsi ilə böyük fəlakətin başlağıcının təməli qoyulub. Əziz dostum, vəziyyətin belə bir xoşagəlməz şəkildə cərəyan etməsi ondan xəbər verir ki, Sumqayıtda, Bakıda olduğu kimi Qarabağda da bizim millət sizin millətlə dostluq və əminamanlıq

şəraitində yaşaya bilməyəcək. Ona görə də qərara aldım ki, qanunlar bərqərar olmayınca, əvvəlki sabitlik yaranmayınca doğma yurduma qayıtmayacam.

- Ən əsas isə milli ədavəti araya salan ekstremistlər camaat qarşısında cəzalandırılmalıdır ki, başqalarına dərs olsun. – deyə İlqar əlavə etdi.

- Əziz dostum, Eduardı göndərmişəm, bizim üçün təhlükəsiz bir yerdə ev tapsın. – Albert birtəhər yerindən qalxıb elə uzandığı döşəyin üstündə əyləşərək təşəxxüslə dilləndi. – Ola bilsin, bir-iki günə o, qayıtsın və biz buradan köçək. Mən əsasən, Klaraya görə narahatam. Sən yaxşı bilirsən ki, o, Bakıda yaşadığından biz heç cürə əlaqə yarada bilmirik. Yalnız bir dəfə biz Pyatiqorskidə, o da ki, Jannanın evində görüşmüşük. İstədiyim odur ki, biz buradan gedəndən sonra sən Klara ilə Bakıda əlaqə yaradıb, ondan muğayat olasan.

- Biz çalışıb onu "Qırmızı Xaç"ın vasitəsi ilə Bakıdan çıxaracağıq. – Artur ailənin məqsədini açıqladı.

- Mən biləni Klara Nazim ilə çox yaxşı yaşayır. – deyə Əvəz öz fikirini bildirdi. – Həm də oradakı qonşular da onlarla pis davranmırlar.

- Elə Janna da Sumqayıtda pis yaşamırdı. – deyə Artur isti çayı içə-içə ciddi halda dilləndi. – Amma gördünüz, həmin şəhərdə onların başına hansı müsibəti açdılar. Əri

öldürüldü, özü isə körpə uşaqla gücbəla ilə canını götürüb qaçdı.

- Artur, Jannanın dediyinə görə, Sumqayıt hadisələri zamanı Qriqoryan soyadlı bir erməni həmin müsibətləri onun başına gətirmişdi. – Əvəz təkzib verməyə başladı. - Lakin onun dediklərinə məxfi orqanların əməkdaşları ciddi əhəmiyyət verməmiş və istintaqı başqa istiqamətdə aparmışdılar. Elə bu haqsızlığa görə də Janna acıq edib, Cənubi Qafqazı birdəfəlik tərk etdi. O ki qaldı Klaraya görə narahat olmağın, mən deyərdim ki, bu barədə sən ürəyini buz kimi saxlaya bilərsən. Mən nə vaxt Bakıya getsəm, daim onu yoxlamaq üçün evlərinə gedəcəm.

- Buna görə mən daim sizin ailənizə minnətdar olacam. – deyə xəstə adam sevincək halda dilləndi və hər iki qardaşın əlini sıxaraq, qarşısında olan çayı içməyə başladı.

Onlar bir qədər də söhbət edib ondan sonra ayrıldılar. İlqar evə çatanda qoyunlara baxmaq üçün tövləyə girdi.

## III fəsil. Bakıdan gələn könüllülər

Qarabağın bir çox yerlərində fəaliyyət göstərən hüquq-mühafizə orqanlarının əməkdaşları və blok-postlarda, komendaturalarda olan rus əsgərləri, hər hansı bir kriminogen hadisə və ya azərbaycanlılara qarşı terror aktı baş verən kimi dərhal azərbaycanlıların məskunlaşdığı yaşayış məntəqələrində reyd keçirir və ermənilərin azğınlaşmasına qarşı etiraz edən fəalları həbs edirdilər. Lakin bütün bu haqsızlıqlara baxmayaraq sıravi insanlar hələ də ümid edirdilər ki, burada dislokasiya olunan rus hərbi hissələrinin əsgərləri münasib bir məqamda quldurluqla məşğul olan erməni ekstremistlərini və terrorçularının hamısını həbs edib, ədalətli məhkəməyə təhvil verəcəklər.

Hava xeyli soyumuşdu. Dağlara yağan qarın nəticəsində əsən külək oradakı şaxtanı bu kəndə gətirirdi. Artıq yeri qırov bağlayırdı. Bir az keçəndən sonra kimsə həyət qapısını döyməyə başladı. İlqar ayaq tappıltılarından çöldə bir neçə nəfərin olduğunu müəyyənləşdirdi. O, tövlədən çıxanda kimlərin gəldiyini soruşdu. Gələnlər könüllü dəstələrin birində döyüşən, ailə ilə dostluq edən Füzuli, Kamil, Heydər və Vahid adlı hərbçilər idi və onlar bir neçə saat bundan əvvəl Bakıdan gəlmişdilər.

Onlar Əvəzin gəlişindən hali olan kimi onunla görüşüb söhbət etmək istədiklərini bildirdilər. İlqar tərəddüd etmədən onları evinə dəvət etdi. Gələn qonaqlar evdəkilərlə salamlaşan kimi Əvəz ilə birlikdə qonaq otağına keçdilər.

- Yaxşıdır ki, gəldiniz. – deyə kəndə gələn müddətə, burada həkim kimi fəaliyyət göstərən Əvəz səbirsizliklə dilləndi. – Məlumatsızlıqdan lap bağrım çartlayırdı. Sizi gecənin ortasına kimi buradan buraxmayacağam. Elə şamı da bir yerdə yeyəcəyik. Hə, danışın görüm rayonda vəziyyət necədir?

Onlar hamısı demək olar ki, eyni boyda idilər, yalnız Kamil o birilərindən cüzi fərqlə hündür görünürdü. O, iriqamətli, enli kürək, azacıq dolu bədənli, ağır gövdəli, ləng hərəkətli, enlisifət, başı daz qırxılmış, vahimə doğuran sərt baxışlı, Füzuli isə ondan azacıq arıq, çevik hərəkətli, iti baxışlı, yumru cod sifətli, qısa qalın saçlı, lakin elə Kamil kimi enli kürək və iriqamətli idi. Onların hər ikisi saqqallı olduğundan görkəmlərini daha vücudlu göstərirdi. Vahid hər iki silahdaşlarına nisbətən arıq, hərəkətli, balaca sifət, saçı səliqə ilə daranmış, üzü qırxılmış, üst-başına diqqət yetirən, qayğılı baxışlı bir döyüşçü kimi görünürdü. Ən cavanı olan yaraşıqlı, uzunsifət, düz burunlu, balaca gözləri içəri batmış, cod saçlı, cəld hərəkətli Heydər isə boyda yalnız Kamildən azacıq alçaq idi.

Köhüllü dəstəsinin komandiri olan Füzuli 30, o biriləri isə 28 yaşlarında idi və Qarabağda ilk döyüş əməliyyatları başlayandan bəri, silaha sarılaraq, Vətən torpağının azadlığı uğrunda mübarizə aparırdılar.

- Uşaqlar, dünən magistral yoldan bir qədər aralıda güclü atışma səsləri eşidilirdi. – deyə İlqar maraqlandı. – Deyəsən, dığalar hücuma keçmək istəyiblər?

- 15 nəfərlik quldur dəstəsi təxribat törətmək üçün kəndə yaxınlaşmağa çalışdılar, lakin onlar bizim pusquya düşdülər. – deyə Kamil qalın səsi ilə dilləndi. - Yarım saatlıq döyüşdən sonra onlar silah-sursatlarını, bütün avadanlıqlarını, hətta meyidlərini də qoyub aradan çıxdılar.

- Ölənlər çox idi? – deyə Əvəz maraqlandı.

- Altı nəfərin meyidi mal peynlərinin arasında qalmışdı. – Kamil rişxəndlə dilləndi.

Füzuli qabağına qoyulan çaydan içə-içə təşəxxüslə dedi:

- Rayondakı vəziyyət heç də ürəkaçan deyil. Ermənilər rus hərbçilərinin köməyi ilə əməlli-başlı silahlanır, biz isə əlacsız qalaraq, onların azğınlaşmasını seyr edirik. Mütləq silahlanmaq lazımdır. Lakin Moskvanın təsiri altında olan rəsmi dairələrimiz buna imkan vermirlər.

- Axı, nəyə görə? – deyə İlqar təəccüblə soruşdu və sanki soyuqdan üşüyürmüş kimi sıxılmış vəziyyətdə sözünə davam etdi. – Allahverdi Bağırov öz nüfuzundan istifadə

edib Ağdamda yerli camaatın yığdığı pul ilə rus hərbçilərindən silah alır və demək olar ki, hər bir kənddə özünümüdafiə dəstələri yaradaraq, quldurlara layiqli müqavimət göstərirlər.

- Hər hansı bir dəstəni silahlandırıb, düşmənə qarşı müqavimət göstərmək üçün güc strukturları ilə əlaqən olmalıdır. – deyə Kamil məyus halda dilləndi. – Ermənilər isə rusların vasitəsilə silahlanırlar. Görünür, bu məsələdə Qorbaçovun məxfi tapşırığı var.

- Düz deyirsən, ermənilər siçan kimi qorxaqdırlar. – deyə Əvəz təqdiredici tərzdə dilləndi. – Rüşvətə görə ölkəni dağıdan Qorbaçov açıq-aşkar onlara dəstək verir. Belə olmasa, Yaxın Şərqdən çıxan erməni terroristləri burada nə edirlər?

- Qarabağda güc strukturlarında çalışan bəzi ruslar deyirlər ki, onların əksəriyyəti beynəlxalq axtarışdadırlar. – deyə Füzuli təəssüflə dilləndi. - Qarbaçov isə həmin terroristlərin burada toplaşmasına göz yumur.

- Onların əsas məqsədi Qaradağlını işğal etməkdir. – İlqar dilləndi. – Yoxsa, onlar Xocavənddə toplaşmazdılar.

- Bakı isə gözləmə mövqeyi tutubdur. – deyə Heydər ürəkyanğısı ilə dilləndi.

Qaradağlı özünün strateji əhəmiyyətinə görə Xankəndi ilə Əsgəranı birləşdirən magistral yolun üzərində yerləşən

Xocalı şəhəri ilə müqayisə oluna bilərdi. Hər iki məntəqə ermənilərin hədəfində idi. 1991-ci ilin dekabr ayının axırlarında sovet qoşunları Qarabağdan "çıxarılandan" sonra məlum oldu ki, tərəflər arasında güç balansı kəskin şəkildə fərqlənir. Rusların 366-cı alayın hərbi sursat və texnikasından, hətta şəxsi heyətindən istifadə edən separatçı qüvvələr, beynəlxalq terrorçu Monte Melkonyanın və Manvel Yegizaryanın başçılıq etdiyi **"Arabo"** və Aram Toqromyanın başçılıq etdiyi terrorçu **"Aramo"** dəstələri Qarabağda hərbi texnikalarının iştirakı ilə hərbi əməliyyatlara başladılar.

Dağlıq Qarabağın digər kəndlərində olduğu kimi Qaradağlıda da özünümüdafiə dəstəsi yaradıldı. Artıq 100 mm-lik doludağıdan top əldə edilmişdi və onu Qaraçuğ dağ silsiləsinin Kəmərqaya adlanan yüksəkliyinin yaxınlığında, "Daşpartladan" adlanan ərazidə yerləşdirmişdilər ki, bu da azərbaycanlılara Xocavənd şəhərində və ətraf ərazidə olan düşmən mövqelərini atəş altında saxlamaq imkanı vermişdi.

Əvəz bir çox mətləbləri öz daxilində götür-qoy edəndən sonra məyus halda dedi:

- Bakıda camaat mitinqlərə çıxıb hakimiyyəti Qarabağla bağlı əməli tədbirlər görülməsini tələb edir. Hakimiyyətin fəaliyyətsizliyi daşnakların fəallaşmasına gətirib çıxarıbdır.

- Onların azğınlaşması helikopterin Qarakənddə vurulmasından sonra, daha da qabarıq şəkildə özünü büruzə verdi. – deyə ümidsiz halda görünən İlqar təşəxxüslə dilləndi və üzünü könüllülərə tutub maraqla soruşdu. - Uşaqlar, sizin həm hərbçilər, həm də milis əməkdaşları arasında tanışlarınız çoxdur. Onlar həmin terror aktı ilə bağlı nə deyirlər? Ermənilərin hamısı bir ağızdan deyirlər ki, helikopter dumanlı havada dağa çırpılaraq qəzaya uğrayıbdır.

- İstintaqa rəhbərlik edənlər də bu cəfəngiyyatı camaata sırımaq istəyirlər. – deyə səbirsizliyini nümayiş etdirən Kamil hamının yerinə dilləndi. - Allahverdi istintaqla maraqlandığından mən bu haqda onunla xeyli söhbət etmişəm. O, hamıya bəyan edir ki, noyabrın 20-də Qaradağlı səmasında terror aktı baş veribdir, istintaq isə bu işi başqa səmtə yönəltməyə çalışır. Mənə elə gəlir, bu cinayətdə rus hərbçiləri daşnaklara köməklik göstəriblər. İş ondadır ki, onlar Bakıdan Ağdama müşavirəyə gələndə aralarında rus ordusunun generalları da var idi. Lakin helikopter Xankəndinə yola düşəndə həmin generallar Ağdamda qaldılar.

- Ən maraqlısı isə odur ki, - deyə Vahid bu məsələ ilə fikrini bölüşdürmək üçün araya girdi. - istintaqı arapmaq üçün Xankəndində yerləşən rus hərbi qarnizonunun hərbi prokuroru, polkovnik-leytenant İ. Lazutikinə tapşırıq verilir. Məndə olan məlumata əsasən, onun anası Emilya

Baqdasaryan Axalkalakidə anadan olub, İ. Lazutikin özü isə 1989-cü llədək Cavaxetiyada işləyibdir.

"Qara qutu"nu əlinə keçirən həmin erməni məlumat yaydı ki, "qara qutu" istidən, yanğından və partlayışdan sıradan çıxıb, əriyib. Prokuror İ. Lazutikin hamını aldadır. Onun sıradan çıxması üçün $3800^0$ istilik lazımdır. Hadisədən bir neçə gün sonra izi itirmək üçün "qara qutu"nu Rusiyaya göndəriblər. Bu haqda Allahverdi Respublika Prokurorluğuna məlumat da göndəribdir.

- Hamını maraqlandıran suallardan biri odur ki, niyə içərisində dövlət katibi, daxili işlər naziri, baş prokuror, prezidentin mətbuat katibi və bir çox məsul şəxslər olan, hərbi əməliyyat zonası üzərindən uçan Mi-8-i silahlı mühafizə helikopteri müşaiyət etmirdi? – deyə həmin faciənin acısını hələ də yaddan çıxarda bilməyən Heydər hüznlə dilləndi.

Otaqdakıların başı söhbətə elə qarışmışdı ki, onlar hətta qarşılarında olan çayı içməyə macal tapmırdılar. Məhz buna görə də İlqar vaxt tapan kimi soyuq çayları isti çayla dəyişdi.

Bəzi məqamları öz daxilində götür-qoy edən Füzuli saqqalını qaşıyaraq fəhmlə dedi:

- Qanunun aliliyini rəhbər tutan İsmət Qayıbov hərtərəfli olaraq mərkəzə bildirirdi ki, Qarabağa Ermənistan rəhbər-

liyinin dəstəyi ilə beynəlxalq terrorçular gəlib, burada qətllər törədirlər. Məhəmməd Əsədovun əməli tədbirləri sayəsində bir çox cinayətkarlar həbsə alınmışdı. Elə bu səbəbdən Füzuli və Xocavəndin hərbi komendantı general Volox bizimkilərlə olan söhbətdə ağzından belə bir ifadə qaçırıbdır: "Cəsur, igid adam olan Məhəmməd Əsədovun çətin vəziyyətlərdə verdiyi mühüm qərarlar heç də yuxarıları qane etmir".

Füzulinin həyəcan dolu hisslərlə danışması təbii idi. Çünki həmin cinayəti planlaşdıraraq həyata keçirənlər, istintaqı öz istəklərinə uyğun bir məcraya yönəltmişdilər. Sonradan aparılan araşdırmalar nəticəsində məlum olur ki, Mi-8 72 hərbi helikopterinə Amerika istehsalı olan “Barret M82A1” silahından atəş açılıb (silahın tərkibində birləşmiş uran izotopu U-238 var). 50 kalibrli, tərkibində nüvə olan bu snayperli silahla 2 km. məsafədə uçan təyyarələri, helikopterləri, həmçinin zirehli maşınları siradan çıxarmaq mümkündür. ABŞ Konqresində adı hallanan bu silah həm də kütləvi qırğın silahları cərgəsində gedir. Bu silah hədəfə dəyərkən, ilkin olaraq güclü yanğın törədir. Buna "nüvə yanğını" deyirlər. Bu yanğının yayılma zərbəsindən obyektin qalıqlarının mərkəzdən 500-600 metr kənara atılır.

- Buradan nəticə çıxarmaq olar ki, - deyə Heydər daxilində yaranan qəzəbi birtəhər boğaraq ciddi halda dilləndi. -

ermənipərəst Qorbaçov hərtərəfli olaraq ermənilərə dəstək verir və bundan sonra da həmin terror aktına uyğun cinayətlər törədiləcək. Cinayətin açılması üçün isə müstəntiq və ya prokuror erməni təyin ediləcək ki, qanlı iz hündür dağların arasında itib batsın. Mən belə başa düşdüm ki, bizim millətin haqlı mövqeyini müdafiə edən hər bir kəs vəzifəsindən və mənsubiyyətindən asılı olmayaraq, Mərkəzin göndərdiyi xüsusi sindikat qrupları tərəfindən fiziki cəhəcə məhv edilməlidir.

Ümumiyyətlə, Qarabağda başlanan erməni-azərbaycanlı münaqişəsi və bu münaqişədə erməni ekstrimistləri, separatçıları və millətçilərinin dəstəklənməsi SSRİ-nin dağılmasının təməlini qoydu. M. Qorbaçovun ətrafına erməni mafiyasını yığması, onların diktəsi ilə hərəkət etməsi oldu. 1987-ci il noyabrın 18-də onunla akademik A. Aqanbekyan arasında Kremldə 3 saata yaxın davam edən görüş keçirildi. Görüşdə Aqanbekyan Qorbaçovu Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistana verilməsinin zəruriliyinə razı sala bildi.

Dağlıq Qarabağda ermənilərin öz adamı hesab edilən Arkadi Volski Xüsusi İdarə Komitəsinin rəhbəri təyin edildi. Məhz onun dövründə Qarabağda elan olunmamış müharibə başlandı. Bütün bu haqsızlıqlar azərbaycanlıları adekvat addımlar atmağa məcbur edirdi.

Qarabağ müharibəsi başlayanda ilk yaradılan taburlardan birinə, ***“Vətən oğulları”*** taburuna, Allahverdi Bağırov rəhbərlik edir. Ağdam əhalisi tərəfindən göstərilən maddi yardım və öz şəxsi vəsaiti ilə Qarabağ kəndlərində yaradılmış kiçik özünümüdafiə dəstələrinə yaxından köməklik göstərirdi. Onun bu addımı öz soydaşları tərəfindən alqışlanır və camaat basqın edən terrorçuları məhv etməyə başlayırlar. Allahverdi nəinki Ağdam rayonu ərazisindəki əraziləri, hətta ona yaxın olan qonşu rayonların sərhədyanı kəndlərini də millətçi ermənilərin geniş miqyaslı hücumundan müdafiə edərək, ermənilərin havadarlarını qıcıqlandırırdı.

Onlar söhbət edən zaman kəndin yuxarı hissəsində iriçaplı pulemyotların səsi eşidilməyə başladı. Atışma intensivləşən kimi döyüşçülər silahlarını götürüb evdən çıxır və dərhal həmin istiqamətə yollandılar. Özünümüdafiə dəstəsi lazım olan mövqelərdə durub, kəndi hər hansı bir hücumdan müdafiə etməyə hazır idi.

# IV fəsil. Vəziyyətin gərginləşməsinə baxmayaraq həmyerlilər arasında münasibətlər pozulmayıbdır

Münaqişə başlayandan bir çox erməni ailələri azərbaycanlıları qıcıqlandırmamaq üçün kənddən köçməyə məcbur olmuşdular. Lakin yerli adamlara həddindən artıq bağlı olan bəzi ermənilər hələ də öz evlərini tərk edib buradan köçməmişdilər.

Qarşıdakı təhlükəni hiss edən Albert ailəsinə izah edir ki, gec-tez burada hərbi əməliyyatlar başlayacaq və belə bir vəziyyətdə onlar əsl faciə ilə üzləşə bilərlər. Çünki erməni quldurları ilə sıx təmasda olan Albertin böyük oğlu Eduard, bu kəndə yaraqlılar tərəfindən hücum ediləcəyini dəqiq bilirdi. Məhz buna görə də onlar müvəqqəti olsa da, bu kənddən uzaqlaşmağı qərara aldılar. Artıq Albert bu haqda daim hörmət bəslədiyi qonşusuna da xəbər vermişdi.

Əvvəlcədən nəzərdə tutulduğu kimi onlar qonşuluqda yerləşən Qarakənd kəndinə köçməliydilər. Orada Albertin kiçik qardaşı Aşot yaşayırdı. Aşot isə qətiyyətlə bildirir ki, onlar Qarakənd və yaxud Qarabağın digər yaşayış məntəqəsinə köç edə bilərlər, amma Qarabağdan çıxmağa onlara imkan verilməyəcək. Onda qərara alınır ki, evin bütün əşyaları məhz Azərbaycan vasitəsi ilə Rusiya ərazisinə

çıxarılsın. Bunun üçün Muradyanlar ailəsi kənddə yaşayan azərbaycanlıların köməyindən istifadə edib, “Kamaz” markalı yük maşını ilə evin əşyalarını Ağdam şəhəri istiqamətində çıxarmağa müvəffəq oldular. Həmişə loyallığını bildirən azərbaycanlılar qəti olaraq onların nə getməsinə, nə də ki, məişət və təsərrüfat mallarının çıxarılmasına mane oldular.

Albertin anadan olduğu kəndi tərk etməsi onun həyat yoldaşına pis təsir göstərdi. Ona görə ki, onlar burada yaşayan azərbaycanlılarla çox gözəl münasibətdə idilər və belə bir durumda onlardan ayrılmaq yaşlı qadın üçün qəribə görünürdü. Marqo qəti olaraq özü üçün doğma olan kəndi tərk etmək istəmədiyini bildirdi. Yaşlı qadının bu hərəkəti kənd camaatı tərəfindən birmənalı şəkildə qarşılanmadı.

Artur atasından fərqli olaraq, anası kimi Qarabağda qalacağını bəyan etmişdi. Lakin o, anası kimi hazırda azərbaycanlıların böyük üstünlük təşkil etdiyi bu kənddə yox, əmisinin yaşadığı qonşu kənddə qalmağı qərara almışdı. O, mexanizator kimi yaxınlıqda olan motoatıcı alayda işə düzəlmiş və orada sıradan çıxmış zirehli texnikanın təmiri ilə məşğul idi.

Daim yerli əhaliyə yaltaqlanan və onlardan istifadə edən Eduard isə gizlin şəkildə ekstremistlərlə əlaqəyə girmiş, azərbaycanlıların yaşadıqları kənddə destabilizasiya yarat-

maqda terrorçu qruplara köməklik göstərirdi. Lakin hər beş-altı gündən bir o, kəndə gəlib anasını yoxlayır və yerli qonşularla ünsiyyət yaradırdı.

Gecənin ortasına az qalmış Eduard qardaşı Arturla birlikdə gizlin yollarla anasının yanına gəlib onu yad etdilər və öz işlərini ehtiyatlı tutmaq üçün Qasım babanın köməyindən istifadə etməyi qərara aldılar. Onlar quldurlar kimi kəndin ara cığırları ilə hər şeydən ehtiyat edə-edə müharibə veteranının evinə yollandılar. Gizlin gəldikləri üçün yolda onları heç kim görmədi. İki millət arasında olan dostluq münasibətlərində dərin uçurum yarandığından qonşular bir-birilərindən ehtiyat edirdilər. Qasım baba öz otağında yatdığından, gecənin ortasına baxmayaraq onun oğulları Marizlə İlqar qonaqları balaca otağda qarşıladılar. Vəziyyəin ağırlığını hiss edən Eduard boynunu əyib yazıq görkəmdə İlqara dedi:

- Qonşu, Qarabağdakı vəziyyət daha kəskin xarakter alıbdır. Artıq silahlı adamlar mülki adamları qətlə yetirməkdən belə çəkinmirlər. Evlər qarət edilir, bəzi hallarda isə yandırılaraq külə döndərilir. Bizim millətin nümayəndələri qorxudan öz evlərini tərk edib daha təhlükəsiz yerlərə qaçırlar.

- Edik, bu təxribatları əsasən, elə erməni millətçiləri həyata keçirir və iki millət arasında düşmənçilik toxumu

səpirlər. Onlar demək olar ki, hər həftə azərbaycanlıların yaşadıqları kəndin birini ələ keçirir və onların əmlakını qarət edirlər. Bizim soydaşların ölüm siyahısı günü-gündən artır və bu qətllər cəzasız qalır.

- Millətçilərdən bizə nə? – deyə Artur məzlum halda araya girib qardaşının yerinə dilləndi. - Biz daim bir yerdə olmuş, xeyir-şərdə iştirak etmiş və bundan sonra da bir yerdə olacayıq. Dediyim odur ki, belə bir ağır günlərdə biz bir-birimizdən möhkəm yapışmalı və bir-birimizə yardım etməliyik. Şəxsən mən söz verirəm ki, işdir, bu kənd bizim millət tərəfindən təcavüzə məruz qalsa, onda mən bütün varlığımla burada yaşayan camaatı, onların mülkünü qoruyacaq və imkan verməyəcəm ki, burada nahaq qan axıdılsın. Əks təqdrdə burada yediyim tonlarla çörək mənim gözümdən gələr.

- Gec-tez cinayətkarlrın hamısı ədalət məhkəməsi qarşısında cavab verəcəklər. – deyə Mariz dilləndi. - Fitnəkarlar isə Qarabağ torpağından sürgün edilməlidir. Mən daim sənin ailənlə dostluq etmiş və ən ağır vəziyyətlərdə onları hər hansı təhlükədən qorumağa hazıram. Bizim dostluğumuza heç kim maneəçilik törətməz.

- Elə atam da məni bura göndərəndə xahiş etdi ki, anamızdan muğayat olasan. – deyə Artur ümidlə dilləndi. -

Yaxşı bilirsiniz ki, anam sizlərə güvənərək burada qalmağa qərar vermişdi.

- Artur, bu barədə qəti olaraq narahat olma. – deyə İlqar qətiyyətlə dilləndi. - Marqo xalanı nəinki biz, hətta kənddə yaşayan hər bir azərbaycanlı müdafiə etməyə hazırdır.

Belə bir qənaətbəxş cavabdan məmnun olan hər iki erməni qardaşı dərindən nəfəs aldılar və rahat şəkildə qarşılarında olan çayı içməyə başladılar. Tülkü kimi hiylə-gər olan Eduard boş stəkanı nəlbəkiyə qoyan kimi dedi:

- Mən, təəssüflənirəm ki, doğulduğum kənddən qaçaq düşmüşəm. Bütün bu oyunları bizm başımıza açan türklərlə ruslardır. Onlar elə hey istəyirlər ki, aramızda müharibə başlasın və gəlib bizim torpağa yiyə dursunlar.

- Rusları başa düşdüm, bəs türklərin bu məsələlərə nə aidiyyatı var? – deyə çiyinlərini çəkən Mariz təəccüblə soruşdu.

- Guya bilmirsən, türklər bizim əzəli düşmənlərimizdir? – deyə Eduard əvvəlki tərzdə dilləndi. – 1915-ci ildə sülh və əminamanlıq şəraitində yaşadığımız şəraitdə onlar heç bir səbəb göstərilmədən milyon yarım ermənini qılıncdan keçirdilər. Elə indi də onlar belə bir fürsət axtarırlar. Onların imkanı olsa Yer kürəsində nə qədər erməni var, hamısını məhv edərlər.

- İndiki zamanda türklərdən çox, ruslar bizim hamımıza təhlükə yaradır. – deyə İlqar Eduardın fikri ilə razılaşmadı. – Ona görə ki, hal-hazırda bizim torpaqda at oynadan ruslardır. Onlar da passivlik göstərməklə ekstremistlərin baş qaldırmasına, terrorçuların təxribat törətmələrinə şərait yaradıblar.

- İncimə qonşu, sən Qafqaz tarixindən çox zəifsən. – deyə Eduard öz dediyindən əl çəkmədi. – Türklər həmişə imperiya dövləti olubdur və indi də imperiya ambisiyalarından əl çəkməyiblər. Çar Rusiyası süqut edən kimi Osmanlılar 1918-ci ildə Cənubi Qafqaza hücum etmiş, burada yaşayan yerli əhalini qılıncdan keçirmiş, Bakını isə bütün rayonlarla birlikdə işğal etmişdilər.

Deyilən sözlərin qarşısında aciz qalan bisavad olan hər iki azərbaycanlı qardaş bir-birilərinə key nəzər salmaqdan başqa çarələri qalmadı. Ona görə ki, Sovet rejimi dönəmində Türkiyəyə qarşı ifrat düşmənçilik yaratmaq üçün, yalanı doğruya çevirərək, belə bir iyrənc təbliğatdan istifadə edilmişdi.

Onlar bir qədər də söhbət edib ondan sonra ayrıldılar. Kənddə çox qalmağı özləri üçün təhlükəli hal hesab edən erməni qardaşlar qaranlıq mühitdə ağacların arasında yoxa çıxdılar. Onlar qorxurdular ki, yerli milis əməkdaşları onla-

rı saxlayıb əbəs yerə sorğu-sual edər və heç nədən başlarını ağradarlar.

## V fəsil. Qaradağlının işğalı və qaradağlıların qara günləri

Get-gedə Qaradağlının vəziyyəti ağırlaşırdı. Erməni quldurları mütəmadi olaraq kəndi atəşə tutur və bəzi hallarda hücum da edirdilər. Ümidini itirməyən sakinlər hələ də öz ocaqlarını tərk etmək fikirində deyildilər. Blokada şəraitində olan sakinlər belə qərar vermişdilər ki, düşmən güclü hücum etsə belə, onlar nəinki kəndi qoyub qaçacaq, hətta işğalçılara layiqinçə müqavimət göstərəcəklər.

Heç bir təhlükəyə əhəmiyyət verməyən Qasım baba həmişə olduğu kimi qoyun sürüsünü qarşısına qatıb, kənddən kənara düzənliyə çıxdı. Yanvarın 8-i olsa da hələ də yerdə ot vardı. Ömürboyu ermənilərə göstərdiyi yaxşılıqlara görə özünü arxayın hiss edən Böyük Vətən müharibəsi veteranı inana bilməzdi ki, məhz həmin millət tərəfdən ona təhlükə gələcək. Günün günorta çağı çaqqal kimi pusquda olan ermənilər ahıl kişinin kənddən aralandığını görüb, onu

vəhşicəsinə qətlə yetirir və yüzdən çox olan qoyun sürüsünü qabaqlarına qatıb öz kəndlərinə apardılar. Hadisə yerindən bir qədər aralı olan Milli Ordunun Məzahir Gülverdiyev adlı 23 yaşlı əsgəri quldurlara qarşı döyüşə başlayır. Lakin qüvvələr qeyri-bərabər olduğundan o, şəhid olur.

Öldürülən qocanın yas mərasimi də çətin şəraitdə keçdi. Onun cənazəsi qəbristanlıqda torpağa tapşırılan zaman quldurlar mərasim iştirakçılarını avtomat və pulemyot atəşinə tuturlar, lakin xoşbəxtlikdən heç kim xəsarət almır. Kənd blokadada olduğundan Əziz atasının dəfninə gələ bilmir.

Təxminən elə həmin ərəfədə Şuşa ətrafında vəziyyət gərginləşdiyindən Füzulini dəstəsi ilə birlikdə həmin əraziyə göndərirlər.

Vəziyyət getdikcə kəskin xaraker alır. 1992-ci ilin əvvəlindən Xocavənd rayonunun Tuğ, Salakətin, Xocavənd və Axul kəndləri erməni quldur dəstələri tərəfindən işğal ediləndən sonra Qaradağlı demək olar ki, tam şəkildə blokadaya alındı. Qaradağlı bir neçə yerdən mühasirəyə alınsa da, buranın camaatı elə bilirdi ki, yaxınlıqda olan rus hərbçiləri onları erməni quldurlarının hücumundan müdafiə edəcək. Məhz bu səbəbdən onların çoxu evlərdə olan əmlakı daha təhlükəsiz yerlərə çıxarmağa cəhd etmədilər.

Noyabrın 20-də Qarakənd kəndində vurulan helikopterin istintaqı gedən zaman yanvarın 28-i 1992-ci ildə Ağdamdan Şuşaya uçan sərnişin helikopteri Xankəndi ərazisində ermənilər tərəfindən vuruldu. Helikopteri yerə endirmək mümkün olmadığından, bütün sərnişinlər və heyət həlak oldu. Erməni terroru nəticəsində 47 nəfər (qadınlar, uşaqlar, qocalar), o cümlədən, bütöv bir ailə qətlə yetirilmişdir. Bundan sonra Qarabağdakı azərbaycanlılar başa düşürlər ki, hökümət hər hansı bir terror aktından və ya quldur hücumudan onları müdafiə etmək iqtidarında deyil. Hər bir sərnişin nəqliyyatından, xüsusən də helikopterdən istifadə etmək həyatları üçün həddindən artıq təhlükəli hal sayılırdı. Məhz bundan sonra azərbaycanlılar yerli ermənilərdən, hətta tanıdıqları ermənilərdən ehtiyat etməyə başladılar.

Ermənilər Qaradağlı ətrafında olan halqanı daha da sıxır və həmin yerlərdə həm hərbi texnika, həm də canlı qüvvə yerləşdirirdilər. Kəndin müdafiəçiləri hiss edirdilər ki, yaxın günlərdə şiddətli döyüş başlayacaq, odur ki, ixtiyarlarında olan hər bir güllə göz bəbəyi kimi qorunurdu.

Qardağlıya yaxın olan Malıbəyli kəndi fevralın 12-də yandırıldı. Lakin adekvat addımlar atılmadı. Hamıya aydın idi ki, növbəti hədəf Qaradağlıdır. Fevralın 14-də kəndin bütün yolları, o cümlədən hava yolu da demək olar ki, tam

kəsildi. 14 əsgərlə yanaşı kənddə 104 əliyalın sakin də qalmışdı.

Elə həmin gün fürsətdən istifadə edən ermənilər fevralın 14-də hücuma keçdilər. Elə ilk dəqiqələrdə kənd güclü atəşə tutuldu. İlkin müdəfiəçilər düşmən gülləsinə tuş gələndən və qumbaraatanlarla bir-iki ev vurulandan sonra burada olan mülki əhali pərən-pərən düşərək, evlərini tərk edib, daha təhlükəsiz binalara sığınmağa başladılar. İlqar, Mariz və onların digər qohumları evdən yalnız sənədləri götrürb müdafiəçilərə qoşuldular.

Atəşin intensivliyindən müəyyən etmişdilər ki, düşmən bu döyüşə ciddi-cəhdlə hazırlaşmış və qarşıdakı yaşayış məntəqəsini ələ keçirməyi məqsəd kimi qarşılarına qoymuşdu. Kəndxord (cəllad Zori Balayanın anadan olduğu kənd) Qağarza, Ağkənd, Aşan, Müşkabad, Ninqi-Xankəndi və digər erməni kəndləri istiqamətində xarici muzdluların, Xankəndidə yerləşən keçmiş Sovet ordusunun 366-cı alayın texnikasından və canlı qüvvəsindən istifadə edən ermənilər köməksiz qalan Qaradağlı kəndinə qəti və sürətli hücuma keçmişdilər. Avtomat silahlardan istifadə edən 14 nəfər əsgər kənd camaatı ilə birlikdə amansız və qeyri-bərabər döyüşə girmiş və çoxsaylı quldur dəstələrinin qüvvəsini mərdliklə dəf edirdilər. Müqavimətin şiddətini görən ermənilər elə zənn edirdilər ki, kəndi 5-6 taqım əsgər

müdafiə edir, odur artilleriyaya üstünlük verdilər. Lakin buna baxmayaraq qaradağlılar son patronlarına qədər 4 gün döyüşdülər. Döyüş vaxtı onlarla erməni yaraqlısı məhv edilmişdi.

Artıq fevralın 17-də ermənilər bütün ətrafda olan qüvvələrini cəmləşdirib hərbi texnikanın köməyi ilə total hücuma keçdilər. Kəndin alınmasında birbaşa qaniçən kimi tanınan Robert Köçəryan rəhbərlik edirdi. Ev-eşiklərini tələm-tələsik halda tərk edən əhali bir-birinə qarışmışdı. Uşaqların vahiməli səsi, bir-birilərini aramaq üçün böyüklərin qıçqırtısı, mərmi partlayışlarının və atəş səsləri qaçqınların arasında xaos yaratmışdı. Əllərində heç bir silah olmayan mülki əhali yüksəkliklərdə mövqe tutmuş erməni quldurları tərəfindən minaatanlarla atəşə tutulurdu.

Elə birinci saatda qohum-qohumdan aralı düşdü. Yanındakı arvad-uşağa kömək edən İlqar qısa müddət əzrində öz əzizlərindən bir çoxunu gözdən itirdi. Bir-iki saat keçəndən sonra o, qardaşı Marizi və dayısı oğlu Faiqi xəstəxana binasının həyətində tapdı. Onlar tərəddüd etmədən kömək etmək üçün məktəb tərəfdə müdafiə olunan əsgərlərin yanına getdilər. Onların yanında yaxşı tanıdıqları və dostluq etdikləri əslən, Masallı rayonundan olan milis leytenantı Səfəralı Məmmədovun meyidi vardı. Döyüş zamanı böyük fədakarlıq, xüsusi şücaət göstərən milis zabiti aldığı

çoxsaylı güllə yarasından şəhid olmuşdu. Atışma şiddətli olduğundan qardaşlar onu basdıra bilmədilər.

Bir qədər keçəndən sonra erməni quldurları məktəbi ələ keçirmək üçün cinahlardan hücuma keçdilər. İntensiv atılan güllələrdən bir neçəsi Faiqi yerə sərdi. İlqar cəld əyilib qohumunu qaldırmaq istədi, lakin atılan güllələrdən biri arxadan onun çiyninə dəydi və o, özünü saxlaya bilməyib dizləri üstə yerə çökdü. Mariz qardaşının yarasından axan qanı saxlamağa cəhd edəndə, həmin vaxt dayısı oğlu Faiq əbədi olaraq gözlərini yumdu. İçəridə müqavimət göstərənlərin sursatı qurtarandan sonra müqavimət dayandı. Lakin onlar hələ də təslim olmaq fikirində deyildilər.

Vaxtilə bu kənddə yaşayan ermənilərdən bir neçəsi qabağa keçib həmkəndlilərini təslim olmağa çağırdılar. Belə olan halda sağ qalanların hamısı əfv olunacaqlarına söz verildi. Çox çəkmədən erməni quldurları məktəbə daxil olub, burada sağ qalanların hamısını əsir aldılar.

Əsir alınan hər bir kəs yaşından və cinsindən asılı olmayaraq quldurlar tərəfindən döyülə-döyülə kəndin mərkəzi meydanına yığıldı. İlk növbədə, ölümlə hədələnən sakinlərin üst-başı axtarıldı və qiymətli nə vardısa hər şey əllərindən alındı.

Hərbi əməliyyata başçılıq etmiş Robert Köçəryan Saro Yeremyanla birlikdə 366-cı alaya məxsus olan "UAZ"

markalı maşınla kəndin əsas küçələrini gəzib, əldə olunan uğurun nəticəsinə tamaşa edirdilər. Həddindən artıq özlərindən razı olan qaniçən komandirlərin gəzişməsinin bir məqsədi vardı, onlar imkanlı sakinlərin evlərini tapıb orada olan qiymətli əşyalrı qənimət kimi əldə etmək istəyirdilər. Halbuki Köçəryan yaxşı bilirdi ki, azərbaycanlıların kənddə böyük üstünlük təşkil etmələrinə baxmayaraq, buradakı ermənilər onlardan imkanlı olublar.

Əli dirsəyə qədər qana bulaşan Köçəryan mis samovarları və əl ilə toxunan xalçaların siyahıya alınaraq, məhz ona təhvil verilməsini tələb etdi. Paralel olaraq o, girov götürülənlərdən kimi yerindəcə edam ediləcəyini seçməyə başladı. Günahsız insanların qanının axıdılmasını səbirsizliklə gözləyən Köçəryan, edam olunanların əzabına tamaşa etmək istəirdi.

Anadan olandan cəllad kimi böyüyən erməni millətçiləri komandirlərinə xoş olmaq üçün, onların şərəfinə 33 nəfər kənd sakinini başqa əsirlərin gözü qarşısında xüsusi qəddarlıqla öldürdülər. Digər əsirlər, əsasən öldürülənlərin qohumları ah-nalə edir, ağlayır, ermənilər isə qəh-qəhə çəkib gülürdülər. Azərbaycanlıları dəhşətə gətirən o idi ki, bu əməliyyatda onlarla uzun müddət yanyanaşı yaşamış bir neçə yerli erməni sakini də iştirak etmiş və onlar vaxtilə xoşları gəlmədikləri qonşularını qabağa çıxarıb amansız-

casına döyməyə başlayırdılar. Onların içərisində İlqarın bir küçədə böyüyüb başa çatmış Eduard da vardı. O, əsasən qarətlə məşğul idi. Qardaşların xəbəri yox idi ki, mədəniyyət evinin, xəstəxananın, məktəbin alınmasında Eduard bələdçilik etmiş və həmin tikililərin ən zəif yerlərini muzdlu yaraqlılara göstərmişdi.

İlqar döyüş zamanı təsadüfən yaralandığından, quldurlar bunu onun silahlı müqavimət göstərməsi kimi dəyərləndirdilər və yaralı sakin hamının gözü qarşısında huşu itənə qədər döyüldü. Başqaları dindirilən zaman o, özünə gələn kimi ermənilər aman vermədən ağır çəkmələrlə yarasını basaraq, səsini ərşəyə qaldırırdılar. Burada səs-səsə qarışmışdı. Acınacaqlı hal o idi ki, Mariz yarımcan hala salınmış qardaşına heç cürə kömək edə bilmirdi. Qardaşlar ümid edirdilər ki, Eduard onları görən kimi köhnə və yaxın qonşu kimi mümkün olan köməyini əsirgəməyəcək.

Öldürülənlərin cəsədləri bilərkdən ortada qalmışdı ki, qalanları tam şəkildə qorxuya düşüb vahimə altında qalsınlar. Köçəryanın tapşırığı ilə əsir düşənlərin kimliyi öyrənilməli və müqavimət zamanı fəallıq göstərənlər hamının gözü qarşısında edam edilməli idi. Buna qədər isə öldürülən qadın və uşaqların cəsədlərini kəndin yaxınlığındakı “Bəylər bağı” adlanan yerdə “silos” quyusuna töküb üzərini torpaqladılar. Həmin vaxt ermənilər kənd sakinləri-

ni güllələyir, hələ ölməmiş adamları isə quyuya doldururdular. Bütün bu cinayət İrəvandan gəlmiş müxbirlər tərəfindən video kassetə yazılır, yaraqlılar isə öldürülən cəsədlərin yanında şəkil çəkdirirdilər. Köçəryan üstü torpaqla örtülmüş "silos" quyusunun üzərində gəzişə-gəzişə bütün bu qeyri-insani səhnədən həzz aldığını media nümayəndələrinə bəyan etməkdən çəkinmirdi.

Qaradağlının işğalı günü kənddə 118 nəfər olmuşdur ki, onların hamısı əsir götürülmüşdür. Onlardan 104 nəfəri Qaradağlı kənd sakini idi. Ümumilikdə, onların 54 nəfəri öldürüldü, onlarıdan 10-u qadın, 8-i isə məktəbli idi. 14 nəfər Milli Ordunun əsgərindən 12 nəfəri xüsusi amansızlıqla hamının gözü qarşısında edam edildi.

Erməni quldur qüvvələrinin manevr etməsi, dislokasiyası və ən nəhayət, erməni silahlı birləşmələrinin sonrakı fəaliyyətlərini genişləndirməsinə böyük maneə olan və ən əsası döyüşlərdə kifayət qədər təcrübə toplamış Qaradağlı kəndinin götürülməsi ermənilər üçün həyati məsələ idi.

Azərbaycanlıların əks hücumundan çəkinən ermənilər salamat qalmış əsirləri Xankəndinə aparmağa qərar verdilər. Yolda əsirlər dəhşətli işgəncələrlə qarşılaşdılar. İstirahət edən zaman ermənilər həzz almaqdan ötrü iki kənd sakininin başını toxmaqla yararaq, onları əzabla öldürdülər. Quldurlar bu edamı həyata keçirən zaman saatlarına baxıb

ölçüldülər ki, həmin adamlar belə bir vəziyyətdə neçə dəqiqə yaşayacaq. Hazırda əsirlərin sayı 70-dən yuxarı olsa da, onlardan bir neçəsi yaralı idi və aldıqları yaradan əzab-əziyyət çəksinlər, səsləri ərşəyə çəkilsin deyə, onları öldürmürdülər. Mariz təzyiq altında olmasına baxmayaraq, qardaşına mümkün dərəcədə kömək edirdi ki, səhhəti tamamilə korlanmasın.

Onları əvvəlcə Lingin kəndinə gətirdilər. Quldurlar yerli sakinlərin qarşısında vəhşiliklərini nümayiş etdirmək və əhval-ruhiyyələrini qaldırmaq üçün orada üç nəfəri, Malıbəyli kəndindən isə 12 nəfəri güllələdilər. Ölüm hökmünə məhkum olunanların seçilməsində Eduard da iştirak edir və o, bilərəkdən yaxın qonşularını həmin siyahıya daxil etmirdi. Çünki o, yaxşı bilirdi ki, bacısı Bakıda ərdədir və Əvəz vaxtaşırı ona dəyib öz köməkliyini göstərirdi.

Həqiqətən də dinc sakinlərin əksəriyyəti belə bir edamlardan həzz alırdılar. Malıbəylidə hamını maşınlardan töküb, piyada Xankəndinə qədər apardılar. Yol boyu fiziki cəhətdən zəifləyən əsirlər ermənilərin təhqirləri ilə qarşılaşırdılar. Taqətsiz qalan İlqar son gücünü toplayıb həmkəndliləri ilə birlikdə uzun məsafəni piyada qət edirdi. O, qardaşına sarılmışdı və ona artıq yük olmamaq üçün ayaq saxlamaq istədi, lakin son məqamda Mariz onu bu fikirindən döndərməyə müvəffəq oldu.

- Qardaş, bir qədər də döz, bir-iki saata Xankəndinə çatacayıq. - özünü şux göstərməyə çalışan Mariz dilləndi.

- Mariz, mənə görə sən də əldən düşürsən. – deyə yarasının ağrısını birtəhər daxilində boğan İlqar həqarətlə dilləndi. – Mən getməkdən imtina edəcəm. Onsuz da bizim hamımızı o biriləri kimi edam edəcəklər.

- Elə demə, Allahın işini bilmək olmaz. Bəlkə bizi əsir düşən ermənilərlə dəyişdilər. Necə olsa, onların da adamları bizimkilərə əsir düşübdür.

- İnanmaram ki, bizi hansısa ermənilərlə dəyişsinlər. – İlqar ümidsiz halda dilləndi. - Onlar bizi öldürməmiş, əl çəkməyəcəklər. Özünə əziyyət vermə, mən burada qalacağam. Qoy məni öldürsünlər.

- Ağlını başına yığ. Onlar səni öldürməyəcəklər, cismani əzab verib həzz alacaqlar. Sən ayaq saxlasan, onlar səni maşının arxasına bağlayıb Xankəndinə kimi sürüyəcəklər.

Əsirləri Xankəndinə gətirən kimi həbsxanaya yerləşdirdilər. Orada onların əsl qara günləri başlandı. Əsirlərə nə yemək, nə də ki, su verilmir, onları vəhşicəsinə döyür və namuslarına təcavüz edirdilər. Natəmizlikdən kameraları üfunət bürümüşdü. Yerli əhali, xüsusən də məktəbli uşaqlar üçün həbsxanaya ekskursiya təşkil olunurdu və onlara bildirilirdi ki, həmin əsirlər erməni millətinin əzəli düşməni türklərdir. Söyüş-söyən kim, ən axırıncı sözlərlə mənliyə

toxunan kim, üzlərinə tüpürən, hətta əl qaldıranlar da tapılırdı. Həbsxana işçiləri əsirləri tamaşaya gələn uşaqların qarşısında amansızcasına döyərək, öz simalarını nümayiş etdirirdilər. Həyasızcasına bildirirdilər ki, humanist olduqları üçün düşmənlərini öldürmürlər.

Lakin əsl ekzekusiya fevralın 26-da və ondan sonra təşkil edildi. Ermənilər həmin gün Xocalını işğal etmiş və əsirlərin bir hissəsini – təxminən yüzdən artıq adamı Xankəndindəki həbsxanaya gətirdilər. Səhəri gün bütün əsirlərin, o cümlədən yerli əhalinin qarşısında 60-a yaxın Xocalı sakininin başını kəsdilər. Edam olunanların arasında uşaq və qadınlar da var idi. Ən dəhşətlisi isə o idi ki, ekzekusiya ermənilərin dünya ictimaiyyətinə yazıçı kimi təqdim etdikləri qaniçən Zori Balayan, Ermənistan respublikasının gələcək prezidentləri Robert Köçəryan, Serj Sarkisyan və digər siyasi, ictimai və elm xadimlərinin iştirakı ilə baş vermiş və insanlığa sığmayan həmin tükürpədici qətliam videokassetlərə çəkildi.

Həbsxana divarlarında əsl dəhşətlər baş verirdi. Mütəmadi döyülən əsirlərə nə su, nə də ki, bir tikə də olsun çörək verilmirdi. Yalnız damlarda saxlanılan heyvanlara arpa və ya buğda gətiriləndə, onların hərəsinə həmin bitkilərdən bir ovuc verilirdi. Kameralarda 8 Qaradağlı sakinini acından öldü. Ermənilər o dərəsədə insan qiyafə-sindən

çıxmışdılar ki, hətta ölənləri kameralardan götürüb aparmırdılar.

Ac, susuz qalan İlqarın bütün bədənini ağrılar bürüdüyündən keyidiyindən o, ara bir zarıldayaraq həbsxananın işçilərini qıcıqlandırırdı. Əsirlərə tapşırılmışdı ki, döyüləndən sonra hamı kameralarda sakit oturmalıdır. Əks təqdirdə zarıyan şəxs təkrarən döyüləcəkdi. Başqalarına nisbətən İlqar yaralı olmasına baxmayaraq onu demək olar ki, hər gün döyürdülər. Vəzifəsindən asılı olmayaraq hansı erməni hayıf çıxmaq istəyirdisə, gəlib seçdiyi hər bir əsirə cismani əzab verirdi. Belə bir seçim vaxtı İlqar yaralı olduğu üçün üç ermənininin nəzərindən yan qaça bilmədi. Onu və bir cavan yaşlı əsgəri sürüyə-sürüyə həbsxanadan kənarda yerləşən balaca bir evə apardılar. Hər iki əsirə bildirdilər ki, bu onların sonuncu günüdür.

İlqar yolda olarkən öz-özünə düşünməyə başladı: İşə bir bax da, indiyənə qədər mən, bu murdar millətə heç bir pislik etməmişəm, müqavimət zamanı isə onlara tərəf bir güllə də olsun atmamışam, amma onlar məni zəlil günə salıblar. Hazırda həbsxanadan çıxarıblarsa, çox güman ki, məni öldürməyə aparırlar. Yeganə adam Eduard idi ki, mənə kömək edəcəkdi, lakin o, Malibəyidən sonra yoxa çıxıbdır. Deməli, sağ qalmaq üçün mənim heç bir şansım yoxdur.

Onlar qapıya çatanda içəridən bağırtı səsi gəlirdi, sanki kiməsə ağır işgəncə verirdilər. Həmin səs gəldikcə kimsə erməni dilində qışqırırdı ki, səsini kəssin, əks təqdirdə öldürüləcək. Heç bir dəqiqə keçməmiş qapı açıldı və sir-sifəti al qana boyanmış iki yaşlı əsir ağzı-burnundan qan axa-axa çölə çıxdılar. Əsirin sifəti tanınmaz hala salınsa da, İlqar həmin an öz həmkəndlisini tanıya bildi. Bu, Qaradağlı kənd sakini Oruc Əliyev idi. Ermənilər onun ağzında olan qızıl dişləri mismar kəlbətinlə çıxarıb yarımcan hala salmışdılar.

Vahiməyə düşən İqargil anladılar ki, belə bir ağlasığmaz işgəncələr onları da gözləyir. Əsgəri otağa salmamış elə qapının ağzında vəhşicəsinə döyməyə başladılar. Ermənilər mümkün olan dərəcədə onun ən zəif yerlərinə sarsıdıcı zərbələr endirərək, huşsuz hala saldılar. Halsız olan İlqarı isə otağa salan kimi onu erməni dilində sorğu-suala tutmağa başladılar. Masa arxasında əyləşmiş ortaboylu, ortayaşlı, eybəcər sifətli, qarayanız, kobud bədən quruluşuna malik olan yaraqlı əlində xəncəl oynada-oynada ikrah hissilə dedi:

- Siz, türklərin hamısını tikə-tikə doğrayıb itlərə yem edəcəyik. De görüm, bizimkilərdən neçəsini öldürmüsən?

- Mən indiyənə kimi nəinki adam, heç toyuq da öldürməmişəm. – deyə İlqar təəccüblə dilləndi.

- Kəs səsini, küçük. – həmin erməni bərkdən qışqırdı. – Sən bizimkiləri atəşə tutanda yaralanmısan. İndi isə günahını boynuna almaq istəmirsən. Yaxın qohumlardan yanında kimlər var?

- Kənd tutulan zaman deyəsən, onların hamısı öldürülübdür. – İlqar qardaşının burada olmasını gizlətməyə çalışdı.

Həmin erməni sol tərəfdə əyləşən yaraqlıya tapşırdı ki, İlqarın burada hansısa qohumlarının olduğunu öyrənsin. O birilərinə nisbətən cavan olan yaraqlı sorğuya tutduğu əsirin adını və soyadını öyrənən kimi bildirdi ki, ən yaxın qohumlardan İlqarın qardaşı buradadır. Komandir kimi özünü aparan erməni tapşırıq verdi ki, Marizi gətirsinlər.

Elə bu vaxt yarımcan halda olan əsgəri içəri salıb yerə tulladılar. Aclıqdan xeyli arıqlayan hərbi qulluqçunun sifəti tanınmaz hala salınmışdı. Göstəriş verən erməni ayağa qalxıb yıxılan əsgərin başı üzərində dayandı və həmin an üzünü İlqara tutub qəzəblə dedi:

- Bax, bu türkü də dindirəndə deyir ki, bizimkilərə atəş açmayıbdır. Atəş açmayıbsa, bəs əynindəki murdar forma haradandır? Deməli, o, bizim hamımıza kələk gəlmək istəyir. – sonra o, ayağı ilə əsgərin sifətini döşəməyə sıxaraq, əlindəki xəncəli hərlədə-hərlədə qurbanının üstünə qışqırdı. – De görüm, neçə soydaşımızı qətlə yetirmisən? Yalan danışsan, səni əzabla öldürəcəm.

Əsgər erməni dilini bilmədiyindən o, heç bir cavab vermədən zarımağa başladı. Üç yaraqlının arasında ən hündürboylusu istehza ilə komandirinə dedi ki, o, erməni dilini bilmədiyindən heç bir cavab verə bilmir. Onda komandir silahdaşına izah edir ki, əsgər erməni dilini bilmədiyi üçün edm edilməlidir. O, aşağı əyilib əsgərin sol qulağından tutub xəncəl ilə dibindən kəsdi. Əsgər yarasını əli ilə tutub qışqırmağa başlayanda qapı açıldı və iki yaraqlı Marizin başına vura-vura onu içəri saldılar.

Əlləri arxadan bağlı olan qardaşlar yanyana dayandılar. Ortaboylu erməni Marizi görən kimi dərhal ondan soruşdu ki, İlqarın nəyidir? Çaşqınlıq içərisində olan əsir qardaş olduğunu bildirən kimi həmin erməni ara vermədən soruşdu:

- Qardaşının burada olduğunu bilirdin?

- Bizi bura bir yerdə gətiriblər. – deyə vəziyyətdən hali olmayan Mariz tərəddüd etmədən dilləndi.

- Görürəm, sən yalançı deyilsən.– deyə bağırtısı otağı bürüyən erməni bu dəfə sakit tərzdə dilləndi. - Düzünü de, siz ikiniz bizim əsgərlərə atəş açmısınız, ya yox?

- Əlbəttə yox! – Mariz qətiyyətlə cavab verdi. – Bunu hər bir qaradağlı təsdiqləyə bilər.

- Hələlik sənə inanacam, amma bilsəm ki, bu yalandır, səni ən dəhşətli ölüm gözləyir. – deyə həmin erməni ciddi

halda dilləndi və üzünü İlqara tərəf tutub hirslə sözünə davam etdi. – Səni isə yalan danışdığına görə qardaşının yanında əzabla öldürəcəm. Bəs, deyirdin ki, qohumlarının burada olmasından hali deyilsən. - Ondan sonra o, aşağı əyilib əsgərin başını arxadan tutub əsəbi halda qışqırdı. – De görüm, neçə erməni öldürmüsən? Məni aldatsan başını kəsəcəm.

Erməninin nə dediyini anlamayan yarımcan halda olan əsgər susmaqla kifayətləndi. Artıq o, hiss edirdi ki, bu onun son dəqiqələridir. Lakin buna baxmayaraq müqavimət göstərmək üçün əsgərin heç bir taqəti qalmamışdı. Qurbanının susduğunu görən erməni daha da coşdu və onun sifətini döşəməyə vurub ayırdan qaldırdı və xəncəl ilə köməksiz adamın başını kəsməyə başladı. Sanki o, qoyun başı kəsirdi. Bir anın içərisində bütün döşəmə al qana boyandı. Bu dəhşətli səhnə hər iki qardaşı sarsıtdı və onlar şok vəziyyətində bir-birilərinə qısıldılar. Qardaşlar başa düşdülər ki, eyni üsul ilə onlar da belə bir edama məruz qalacaqlar.

Cəllad funksiyasını yerinə yetirən komandir kəsilən başı divara vurulmuş mismara taxan kimi o biriləri alqışlayaraq, əl çalmağa başladılar. Hirsi soyumayan ortaboylu erməni həmin an İlqara yaxınlaşıb - "məni aldatmaq istədin?" – deyərək, onun sifətinə möhkəm yumruq zərbəsi endirdi.

Vahiməyə düşən İlqarləngər vursa da, yerə yıxılmadı və zərbə dəyən yeri əli ilə tutaraq divara sıxıldı. Komandirin işarəsi ilə o biriləri İlqara sarsıdıcı zərbələr endirərək onu yerə sərdilər. Arxadan əlləri bağlanan yaralı əsir elə vəziyyətə salındı ki, onun müqavimət göstərməyə heç bir halı olmadı. Lakin o, qışqırıq ilə izah edirdi ki, onun heç bir təqsiri yoxdur. Cəllad hirsini soyutmaq üçün üzü üstə uzanan İlqarın yaralı çiynini dizi ilə basıb, onun başını arxadan qaldırıb xəncəli boğazına dirədi. Ölümünü gözünün qabağına gətirən İlqar aramsız şəkildə daxilində Allahı köməyə çağırdı: Allah, mənə rəhmin gəlsin. Ümidim yalnız Sənədir, məni bu bəladan qurtar.

Məhz həmin kəlamlardan sonra gözlənilməz hadisə baş verdi. Həmin vaxt qapı açıldı və içəri Albertin oğlu Artur daxil oldu. O, buradakı səs-küyü eşitdiyindən maraq üçün içəri daxil olmuş və təsadüfən qonşularını belə bir vəziyyətdə görür.

- İlqar, bu sənsən? - deyə soydaşlarınln hərəkətlərinə əhəmiyyət verməyən Artur həyəcanla soruşdu və həmin an üzünü cəllad ermənıyə tutub tələsik halda sözünə əlavə etdi.
– Bu bədbəxti niyə öldürürsən?

Özünü komandir kimi aparan erməni altındakı qurbanın yarasını əsas gətirərək bildirir ki, İlqar döyüş zamanı müqavimət göstərəndə yaralanıbdır. Dodaqlarında acı

təbəssüm yaranan Artur onun əlindən tutub, ciddi halda dedi:

- Qarik, sən yaxşı bilirsən ki, bizim kənddəki camaat silahsız idi və onlar heç cürə bizimkilərə atəş aça bilməzdilər. Göstərişə əsasən, kimin əynində hərbçi və ya milis forması varsa, həmin adamlar sorğu-suala tutulmadan məhv edilməlidirlər. Qardaşlarla işin yoxdur, onlar ailəlikcə bizimkilərə əl tutublar.

- Bəs, onun çiynindəki yaraya nə deyə bilərsən? – deyə çaşqınlıq içərisində olan Qarik narazı halda soruşdu.

- Hücum zamanı atılan güllələrdən dinc sakinlərə dəydiyini, sən də yaxşı bilirsən. – deyə Artur hökmlə dilləndi. - Onları dəyişdiriləcək əsirlərin siyahısına salmaq lazımdır.

İlqarın anası namaz üstə imiş. Dualardan sonra həqiqətən də Allahın ona rəhmi gəlmişdi. Yaralı əsir başa düşdü ki, Artur buradakı ermənilər arasında xüsusi səlahiyyətlərə malikdir və onun təkidi ilə hər iki qardaş ölümdən xilas olunacaq.

Arturun bura gəlişi təsadüf sayılmırdı. İş ondadır ki, Qaradağlı işğal olunanda, orada çoxsaylı dinc sakinlərin girov götürüldüyü xəbəri Əvəzə çatır və o, yaxın qohumlarının axtarışı ilə məşğul olmağa başlayır. Ona dəqiq məlum olur ki, qardaşları İlqarla Mariz, digər qohumlarla birlikdə sağdır və onlar Xankəndi həbsxanasında saxlanır-

lar. Artıq bir neçə qohumunu kənddə gedən döyüşlər zamanı itirmiş Əvəz bütün varlığı ilə sağ qalan qohumlarını girovluqdan azad etmək üçün bütün mümkün olan variantlara əl atır və Ağdama gedib, orada köhnə dostu batalyon komandiri Allahverdi Bağırovla əlaqə yaradaraq, dərdini ona söyləyir. Allahverdi girov götürülənlərin siyahısını dəqiqləşdirəndən sonra bir neçə erməni komandiri, o cümlədən, Artur ilə görüşür və ələ keçirdiyi erməniləri azərbaycanlı girovları ilə dəyişmək təklifini verir. Məhz ondan sonra Artur siyahıya əsasən, qonşularını Xankəndidə tapır və onları demək olar ki, ölümün pəncəsindən xilas edir.

Həmin il martın 17-də Allahverdi Bağırovun köməkliyi ilə işgəncələrdən yarımcan hala düşmüş bir neçə girov, o cümlədən İqarla Mariz və dişləri kəlbətinlə çıxarılan Oruc Əliyev dəyişdirilərək qohumlarına təhvil verilir.

## VI fəsil. Törədilən cinayətlərə görə layiqli cəzanın verilməsi və nəticədə Muradyanlar ailəsi Qarabağı tərk etməli olurlar

Mayın 19-u 1992-ci ildə Laçın rayonu işğal ediləndən sonra Qarabağdakı ermənilər Ermənistanla birbaşa quru yol əlaqəsi yaratmağa müvəffəq oldular. Bu hadisəyə qədər, hələ, ermənilərin "xaç atası" olan Arkadi Volskinin iştirakı və dəstəyi ilə humanitar yük gətirən maşın karvanlarının, xüsusən də helikopterlərin vasitəsilə Yaxın Şərqdə, Avropada, Amerikada, Kanadada terrorçu kimi məşhur olan erməni quldurları Qarabağa doluşmuş və muzdlu rus hərbçiləri ilə birlikdə, əliyalın olan Azərbaycan vətəndaşlarını qətlə yetirərək, onların yaşayış məskənlərini ələ keçirmişdilər. İndi isə həmin terrorçular Laçın dəhlizi ilə Ermənistandan Azərbaycan ərazilərinə soxulurdular.

Təəccübləndirən hal o idi ki, dinc əhaliyə qarşı tətbiq olunan ən amansız qətlləri törədən həmin qəddar canilərə Ermənistan hökuməti aşkar şəkildə dəstək verir, regionu isə nəzarətdə saxlayan Rusiya hökuməti belə bir ağlasığmaz cinayətlərə göz yumurdu. Bir sözlə, dünyanın bir çox paytaxt şəhərlərində terrorçu kimi tanınan, səfirləri, siyasi, ictimai, elm xadimləri xüsusi amansızlıqla qətlə yetirən

beynəlxalq terrorçu qruplaşmalarının üzvləri artıq postsovet məkanda sığınacaq tapmışdılar.

İşğala məruz qalan hər bir yaşayış məntəqəsi ani şəkildə boşaldılırdı ki, Xocalı soyqırımı kimi yırtıcı qətliam bir daha təkrarlanmasın. Köç zamanı demək olar ki, bütün qohumlar bir-birindən aralı düşmüş və Azərbaycanın bir çox rayonlarında müvəqqəti olaraq, birtəhər vaqondan, barakdan, tövlədən, çadırdan, çoban daxmasından ibarət olan sığınacaq yeri tapmışdılar. Bir sözlə, doğma ocağından didərgin düşən həmin qaçqınlar yaşayıb fəaliyyət göstərmək üçün hər şeyi sıfırdan başlamalı idilər. Ümumiyyətlə, bütün Azərbaycan miqrasiya zonasına çevirilmişdi. Qaçqınlar nəinki Arana və Muğana, hətta talışların yaşadıqları cənub-şərq və ləzgilərin ömür sürdükləri şimal-şərq rayonlarına da gedib çıxmışdılar. Vaxtilə kompakt şəkildə yaşayan qonşular, qohumlar, tanışlar eyni zamanda bir neçə rayonlara səpələnərək bir-birilərindən aralı düşdülər. Bütün bunların hamısı həm yerli, həm də xaricdən gələn səlahiyyətli və nüfuzlu şəxslərin gözləri önündə baş verirdi. Beynəlxalq təşkilatlar, o cümlədən terrorçulara qarşı mübarizə aparan hegemon dövlətlər ermənilərin insanlığa sığmayan üsullarla törətdikləri vəhşiliklərə göz yumurdular.

Laçının işğalı hərtərəfli olaraq ermənilərin əl-qolunu açmışdı. Erməni quldur dəstələri günahı olmayan hər bir

azərbaycanlını yaşından asılı olmadan öldürür, onların əmlakını qarət edir və quldurluqla əldə etdikləri malları, xüsusən də qızıl, gümüş və misdən hazırlanmış bəzək əşyaları, xalça, kilim, xurcun, yorğan-döşək, mebel dəstləri, məişət-texniki cihazlar, minik, yük avtomobillər, öldürülən adamlardan çıxardılmış qızıl dişlər və s. təhlükəsiz halda Ermənistana aparılır, oradan isə üçüncü dövlətlərdə satılırdı. Bir sözlə, ermənilər dədə-babadan onlara miras qalan - köhnə oğurluq və quldurluq peşəsinə yiyələnərək, bu yolla varlanmağı qarşılarına məqsəd qoymuşdular.

Elə ki, bir aydan sonra Azərbaycan Milli Ordusu Qarabağda geniş miqyaslı hücuma keçdi, silahlı əsgərlərlə üzüzə gəlməkdən çəkinən ermənilərin quldur tabur və alayları geri çəkilməyə başladı. Qaniçən quldurlar elə qaçırdılar ki, hətta Rus hərbi bazalarının onlara bəxşiş və ya satdıqları silah və sursat böyük həcmdə Azərbaycan əsgərlərinin əlinə keçirdi.

Hələ şiddətli döyüşlər başlamamışdan əvvəl cəbhə xəttinə yaxın yerdə yaşayan imkanlı erməni ailələri yolları mühafizə edən hərbçilər və məxfi orqanların əməkdaşları ilə dil tapıb, böyük pul müqabilində öz əşyalarını yük maşınlarına yığıb Qarabağı tərk edirdilər. Əmlakını çıxarmağa müvəffəq olan həmin adamlar Gürcüstana, oradan isə Rusiyanın ərazisinə, əsasən Şimali Qafqaza köçür və

gətirdikləri əmlakı satandan sonra hamıya bəyan edirdilər ki, onların illərlə topladıqları mal-dövlət azərbaycanlılar tərəfindən qarət edilib, özləri isə gücbəla ilə canlarını götürüb qaçıblar.

Son il Qaradağlı kəndindən iki millətin - azərbaycanlıların və azlıq təşkil edən ermənilərin köçməsi baş vermişdi. Adətən bir-biri ilə düşmən olan tayfalar güc gəlmək üçün çoxluqdan, say üstünlüyündən istifadə edirdi. Adı çəkilən kənddə isə hər şeyin əksi baş vermişdi. Burada əhalinin 70 faizi azərbaycanlılar olmasına baxmayaraq, iki millətin arasında vəziyyət gərginləşəndə, ermənilər evdəki bütün avadanlıqları və əşyaları götürüb rahat şəkildə istədikləri məkana yollanmışdılar. Azərbaycanlılar isə ermənilərdən fərqli olaraq öz torpaqlarında yaşasalar da, onlar mütəşəkkil quldur dəstələrinin hücumu nəticəsində ömrüboyu əldə etdikləri varidatı evində qoymuş, ancaq canlarını götürüb qaçmalı olmuşdular.

Yuxarıda göstərildiyi kimi Albert ailəsi ilə birlikdə varidatını qoltuğuna vurub əvvəlcə Stavropol diyarında peyda olur, oradan isə Rusiyanın hansı şəhərinə və yaxud dünyanın hansı bir ölkəsinə istəsə gedə bilərdi. Həm də iftira və yalandan münasib silah kimi istifadə edən ermənilər hara çatırdılar, orada car çəkirdilər ki, onlar xristian olduqları üçün müsəlmanlar bütün milləti fiziki cəhətcə məhv edir.

Albert oğlu Eduardla birlikdə bütün əmlakını götürüb Pyatiqorskidə yaşayan qızı Jannagilə gəldi və orada qala-qala yerli hökümət dairələrindən sığınacaq yeri tələb etməyə başladı. Şəhərdə isə bildirirdilər ki, onlar erməni milliyyətinin nümayəndələri olduqları üçün, birbaşa Ermənistana yollanmalı və 1988-ci ilin sonunda həmin ölkədən kütləvi şəkildə deportasiya edilən azərbaycanlıların boş qalmış evlərində məskunlaşmalıdırlar. Həyasızlıqlarını nümayiş etdirən həmin qaçqınlar isə cavab verirdilər ki, vaxtilə Ermənistanda yaşayan azərbaycanlıların sayı həddindən artıq az olduğundan həmin evlər Bakıdan və Sumqayıtdan qaçaq düşənlərə belə çatmayıbdır. Həm də onlar hamıya car çəkirdilər ki, Azərbaycan əsgərlərinin hücumu nəticəsində, guya bir neçə ən yaxın qohumları qətlə yetirilmiş, bir neçə nəfəri girov götürülmüş, əmlakları qarət edilmiş, evləri isə darmadağın edilmişdi. Belə bir düsturdan demək olar ki, hər bir erməni ailəsi istifadə edirdi. Odur ki, şəhər rəhbərliyi həmin ailələr barəsində yaşadıqları yerə sorğu göndərərək, onların kimliyini öyrənməyə məcbur olurdu. Lakin buna baxmayaraq Pyatiqorskidə olan ermənilər və həmin millətə hörmətlə yanaşan digər sakinlər Albertgilə lazım olan köməkliyi göstərməyə başladılar. Belə bir şirin münasibəti görən həmin ailə müvəqqəti olsa da, özləri üçün rahat yaşayış əldə etdilər.

Özünü arsızlığa vuran Eduard işlə təmin olunmaq əvəzinə, atası ilə birlikdə şəhərdə yerləşən bir çox təşkilat və idarələrə yollanıb, oradan maddi yardım diləməklə, özlərini hər kəsin qarşısında alçaldırdılar. Qısa müddət ərzində onlar dilənçilik yolu ilə kifayət qədər varidat toplayır və heç kimdən çəkinmədən ticarətlə məşğul olan bir çox iş adamlarına faizlə pul verməyə başladılar. Bir çox ticarətçilər onlardan asılı vəziyyətə düşürlər.

Ermənilər geniş miqyaslı hücuma keçən kimi Eduard qardaşını və başqa qohumlarını görmək adı altında, əslində isə boşaldılan kəndlərdə qarət əməliyyatlarını aparmaq üçün yenidən Qarabağa yollanır.

Qarabağda gedən qeyri-bərabər döyüşlərdə, erməni quldurları ruslardan aldıqları dəstək nəticəsində böyük üstünlük qazanmışdılar. İşğal ərazisi getdikcə böyüyür, əsir düşənlərin də sayı artırdı. Zəngilanın, Qubadlının, Cəbrayılın, Füzulinin işğalı daha sürətlə həyata keçirilir və mülki əhali bütün varidatını qoyub qaçmağa məcbur olur, lakin onların bir qismi elə yolda olarkən quldurlara əsir düşür. Eduard quldur dəstələrinin birində qardaşı Arturla birlikdə qarətlə məşğul olur, girovlara qarşı isə amansızcasına divan tuturdular. Hələ Əsgəran həbsxanasında nəzarətçi kimi işə düzəlmiş Eduard, oradakı girovlara işgəncələr tətbiq edərkən, adam öldürməyə də alışmışdı. Artıq hansısa bir

azərbaycanlının qanını axıtmaq onun üçün adi həyat idi və o, kiməsə işgəncə vermədən, gedib yerində yata bilmirdi. Eduard bütün bu vəhşilikləri həyata keçirməklə, erməni quldurlarının komandirlərinin, o cümlədən nüfuzlu ziyalıların hörmətini qazanmağa çalışırdı. Kiçik qardaşı Artur onun adi insandan yırtıcıya çevrilməsinə mat-məəttəl qalmış və ona bir qədər rəhmli olmasını tövsiyə etmişdi.

Eduard ələ keçirdiyi qiymətli qənimətləri xüsusi kuryer vasitəsi ilə atasına göndərirdi ki, o, öz növbəsində həmin malları münasib qiymətlərlə alverçilərə satsın. Hətta iş elə gətirirdi ki, digər silahdaşları ələ keçirdikləri qənimətləri satan zaman o, həmin malları ucuz qiymətə alıb, atasına göndərirdi. Hamıya da car çəkirdi ki, bacısı Bakıda girovdadır və onu girovluqdan azad etmək üçün pul toplayır. Məhz bunun müqabilində Eduarda ucuz mallar satılır və həmin malların Rusiyaya göndərilməsində heç bir maneə törətmirdilər.

## VII fəsil. Bəzi quldurlar öldürülür, bəziləri isə cəzadan qorxaraq yaxalarını kənara çəkirlər

Müharibənin özləri üçün qələbə ilə başa çatacağına əmin olan Muradyanlar qardaşları doğulduqları kəndə gəlib, orada ata evini təmir etməyə başladılar. Bir döyüşçü kimi onlara sənətkarlıqdan başı çıxan beş nəfər girov da verildi. Qardaşlar tikinti materiallarını əsasən, azərbaycanlıların yaşadıqları evləri sökərək əldə edirdilər. Nəticədə ikimərtəbəli səkkiz otaqlı böyük bir ev hazır oldu və qısa müddət ərzində qoyunçuluq təsərrüfatı da yaratdılar. Onların tabeliyində olan azərbaycanlı girovlar həmin təsərrüfatı inkişaf etdirirdilər.

Yuxarıda qeyd edildiyi kimi döyüşlər Qaradağlı kəndinə yaxın bir yerdə getməyə başlayanda Muradyanlar ailəsi demək olar ki, hamılıqla doğulduqları ocağı tərk etmişdilər. Yalnız Marqo qonşularını azərbaycanlıların sadəliyinə, mehribançılığına və dostluğuna arxayınlaşaraq, orada qalmalı olmuşdu. Qonşularının xasiyyətinə və onların yanaşma tərzinə yaxşı bələd olan qadın əmin idi ki, Qaradağlıda soyqırım baş verməmiş, yerli əhali daxillərində yaranan kin-küdurəti tam şəkildə qonşuluqdakı ermənilərin üzərinə yönəldə bilməyəcəklər. Ona görə camaata bildirilmişdi ki,

iki millət arasındakı nifaqı Ermənistanda dislokasiya olunan rus hərbçiləri və əsasən Yaxın Şərqdən və digər ölkələrdən gələn muzdlu ermənilər salaraq, onları bir-birilərinə düşmən edibdir.

Qaradağlı işğal olunan zaman Marqo zirzəmidə gizləndiyindən demək olar ki, xəsarət almamışdı. Bir neçə müddət təklikdə qalan arvad artıq öz ailəsi ilə birləşmişdi və azərbaycanlıların arasında təkbaşına qaldığı üçün onu qəhraman ana adlandırmağa başladılar.

Əsl simasını gizlədən erməni qadını azərbaycanlıların kənddə yaşadıqları zaman köklü sakinlərə daim yaltaqlandığını hər kəs bilirdi, lakin quldur dəstələri Qradağlını ələ keçirən kimi onun münasibəti yerli əhaliyə qarşı kəskin şəkildə dəyişdi. Oğlanlarının cinayətkar əməllərinə dəstək verən həmin qadın ən yaxın qonşularının evlərini zəbt eədrək, oradakı bütün avadanlıqlara və təsərrüfata yiyələnmişdi.

Hazırda onların hamısı bir yerdə yaşamaqla, qovulan və öldürülən qonşularının sayəsində özlərinin həyatyani sahəsini beş-altı dəfə artırmağa nail oldular.

Qardaşlar yerli quldur dəstəsinin tərkibində, ətraf əraziləri nəzarət altında saxlamağa başladılar. Eduarddan fərqli olaraq Artur əmisi Aşotla və əmisi oğlu Vazgenlə birlikdə, xüsusi diversant dəstəsinin tərkibində, cəbhə xəttinə yaxın

olan azərbaycanlıların yaşayış məntəqələrində terror aktlarını həyata keçirirdi. Əldə olunan qənimətlər qohumlar arasında bərabər şəkildə bölünürdü.

Çox keçmədən həmin ailə törədilən cinayətlərə görə layiqli cəza ilə üzləşir. 1994-cü ilin yanvar ayında ermənilərin dəstəsi Ağdamın Qərvənd kəndindən qayıdanda, üzümlük deyilən ərazidə, Füzuli Rzaquliyevin başçılıq etdiyi dəstənin qurduğu pusquya düşür və onların arasında qısa müddətli döyüş başlayır. Azərbaycanlı döyüşçülərlə üz-üzə gəlməkdən dovşan kimi qorxan, amma mülki əhaliyə divan tutmaqda xüsusi səriştəsi olan hər üç qohum, digər beş quldurla birlikdə Milli Ordunun əsgərləri tərəfindən öldürülürlər. Həmin döyüşdə komandirlə birlikdə Kamil ilə Vahid də xüsusi qəhrəmanlıq göstərirlər. O biri quldurlar döyüş yerindən qaçdıqlarından, ölənlərin meyidi ortada qalır.

Bu xəbər Edurda çatan kimi o, tabeliyində olan girovları mütəmadi olaraq döyməyə başlayır. Qeyri-insani işgəncələri həyata keçirəndə qisasının bir hissəsinin aldığını bildirir. Meyidlər Qaradağlıya gətiriləndə onları “Artsax”ın “igid döyüşçüləri” kimi yerli qəbristanlıqda dəfn edirlər. Aşot övladları ilə birlikdə bu kənddə anadan olduğundan, onu və oğlu Vazgeni Arturla yanyanaşı torpaqda basdırırlar.

Xəbər Albertə çatan kimi o, Stavropol diyarını tərk edib dərhal özünü dəfn mərasiminə çatdırır. Bu hadisə sanki onun qamətini əyir. Ona görə ki, Rusiyanın əyalətində dilənçiliklə və möhtəkirliklə məşğul olan ailə başçısı üç ən yaxın adamını itirmişdi.

Hirsi soyumayan Eduard hamının yanında özünü qisasçı kimi göstərmək üçün evində saxladığı, heç bir günahları olmayan girovları qəbristanlığa gətirib, onları əzizlərinin qəbri üstündə edam etdi. Birdən-birə üç girovun başını qardaşının, digər ikisinin başını isə o biri əzizlərinin qəbr-ləri üzərində kəsərək, mərasimə toplaşanlara hüznlə dedi:

- Əzizlərimin qisasları tam alınmadığından mən daim hər bir türkün məhvi ilə məşğul olacağam. – o, dərhal əli ilə tankların tırtılı altında məhv edilmiş azərbaycanlıların dəfn olunduqları qəbristanlığın qalıqlarını göstərərək, həmin tərzdə sözünə əlavə etdi. – Hələ bir il bundan əvvəl orada türklərin qəbristanlığı yerləşirdi. Mən rastıma çıxan hər bir türkü həmin qəbristanlıq kimi yox edəcəm.

Oğlunun öldürülməsinə birtəhər tab gətirən Marqo mərasimə toplaşan camaatın yanında ardı-arası kəsilmədən ağlayırdı. Sanki onun oğlu heç bir günahı olmadan, dinc həyat sürən zaman cəhənnəmə vasil edilmişdi. Saçlarını yoluq-yoluq edən və qışqır-bağır salan arvad hamının yanında özünü dəli kimi aparırdı. O, hirsini soyutmaq üçün

yerdə olan beli götürüb, onunla başları kəsilən qurbanların bədəninə zərbələr endirməyə başladı. Marqo sanki həmin cəsədləri parça-parça etmək fikirində idi.

Hüzrdən sonra camaat evlərinə dağılışanda Albert oğlu ilə birlikdə evdə tək qaldı. Ağır stress altında olan Marqoya sakitləşdirici dərmanlar verildiyindən o, çarpayısında qış yuxusuna getmişdi. Ailə başçısı odun peçinin ağzında oturub Eduard ilə səmimi söhbət aparmağa başladı. O, araq dolu stəkanı qabağına qoyub öyüdlə dedi:

- Edik, bu müharibənin sonu görünmür və kim bilir hələ nə qədər insan bu müharibənin qurbanı olacaq? Açığını desəm, mən "Artsax"da baş verən bu xaosdan təngə gəlmişəm.

- Ata, müharibə qurbansız başa gəlmir. Başladığımız müqəddəs işimiz yarımçıq qalsa, biz hamımız məhv olarıq.

- Hansı müqəddəs işdən danışırsan? – deyə yaşlı erməni hirsləndi. – Daim Fransada və digər ölkələrdə heç bir siyasi əhəmiyyət kəsb etməyən yalançı yığıncaqlar təşkil edən, ermənini əbədi olaraq türklə düşmən salan Zori Balayanın, Moskvada və Rusiyanın başqa şəhərlərində kef çəkən akademik Aqambegyanın, axmaq şeirləri ilə özünü və millətimizi gülünc yerinə qoyan, guya ki, bizim ideyamızı ortaya atmaqla, Rus və Avropa ziyalıları arasında bizi gözdən salan Silva Kaputikyanın, əl oyuncağı olan Qorbaçovun

sayəsində külli-miqdarda varidat toplayan, əvəzində isə bizim milləti sərsəm siyasəti ilə bədbəxt edən Şaxnazaryanın, ermənilərin gələcək nəslinin həyatını birdəfəlik şikəst edən ictimai, siyasi, dövlət ideoloqlarının həyata keçirdikləri müqəddəs işindən danışırsan? Onlar cürbəcür görüşlər adı altında restoranlarda çörək yeyir, lüks mehmanxanalarda qalır, mənim övladım, qardaşım, qardaşımın balası isə sərsəm ideya uğrunda səngərlərdə və doğulduğu məhəllələrdə qonşularımız tərəfindən məhv edilirlər.

Hələ də anlaya bilmirəm, bu bərəkətli torpaqda xoş və firavan yaşamaq üçün bizə nə mane olurdu? İndi isə mən öz torpağımdan didərgin düşüb Rusiyanın çöllərində sığınacaq axtarıram.

- Ata, bunun nəyi pisdir ki, evimizin burada olmağı yaxşıdır, yoxsa Rusiyada? – çiyinlərini çəkən Eduard təəccüblə dilləndi. – Görürsən də ruslar bizi necə müdafiə edirlər?

- Edik, görürəm ki, sən hələ də ağıllanmamısan. – deyə Albert məyus halda dilləndi. - Rusiya iki yüz ildən yuxarıdır ki, öz mənafeyini Qafqazda güdür və onun üçün rus maraqları öndə durur. Sən hiss etmirsən ki, onlar bizdən alət kimi istifadə edirlər? Vaxtilə Osmanlı Türkiyə ilə müharibə aparanda, onlar bizim milləti ən qızğın döyüşlərə göndərdi, elə ki, həmin müharibədə cüzi divident qazandı, onda bizləri taleyin ümidinə buraxdılar və bizim millət ən

amansız qırğınlara məruz qaldı. Vaxt gələcək, ruslar bizi öz ölkələrindən qovacaqlar. Onu demək istəyirəm ki, biz Azərbaycanda hamıdan xoşbəxt yaşayırdıq və belə bir yaşayış bir daha bizə qismət olmayacaq.

- Rusiya olmasın, Avropa ölkələri olsun. Qaçqın adı altında biz Avropada da sığınacaq tapa bilərik. Oradakı həyatın nə dərəcədə firavan olması hamıya məlumdur.

- Avropa elə avropalıların özləri üçündür. Bilmirsən ki, yəhudi kimi böyük nüfuza malik olan milləti Avropa ölkələrində neçə dəfə kütləvi şəkildə qırıblar? Əgər, yəhudilərin başına orada müsibətlər açıblarsa, bizimkiləri ümumiyyətlə, kökündən məhv edərlər. Ona görə dediyim odur ki, bu müharibə ilə biz həm azərbaycanlıları, həm də bütövlükdə bütün Türk dünyasini özümüzə düşmən etdik.

- Bizim azadlıq uğrunda mübarizəmizdə xaricdən xeyli sayda soydaşlarımız gəlibdir, amma sən məni bu mübarizədən döndərmək istəyirsən. – Eduard razılaşmadı.

- Xaricdən gələnlər mübarizə aparmağa yox, əliyalın yerli əhalini ən amansız üsullarla məhv etməyə gəliblər. Sanki onlar girovlar üzərində ekzekusiya aparmaqda xüsusi məktəb oxuyublar. Təəssüfləndirici hal odur ki, bütün bunları daim fəxr etdiyimiz "Daşnaksyütun" partiyasının ideoloqları həyata keçirir. Hələ də anlaya bilmirəm ki, bizim başıbilənlərimiz hansı ideologiyanı bizə aşılayırlar?

Çiyin-çiyinə yaşadığımız mehriban qonşuların fiziki cəhətcə məhv edilməsi ideologiyasını?

Oğlum, bu müharibəni başlamaqla kimsə siyasi divident qazanır, kimsə cibini ölənlərin varidatı ilə doldurur, kimsə də övladlarını itirir. Bu müharibədə mən artıq bir oğlumu, qardaşımı və qardaşım oğlunu itrmişəm və istəmirəm ki, bundan sonra növbəti qurban sən olasan. Sən təcili olaraq, vaxt itirmədən mənimlə Rusiyaya getməlisən.

- Mən qardaşıma və o biri qohumlarıma görə türklərdən qisas almasam, onda bizimkilər, məni qorxaq adlandıracaq.

- Sən çoxsaylı türk öldürmüsən. Bu işi Aşotun oğlu Robert davam etməlidir. O, isə Rusiyada alverlə məşğuldur.

Edik, işdir sən, mənim sözümə qulaq asmasan, onda dərddən ürəyim partlayacaq. Anan isə bu dərdə dözməyəcək. Bizim ölümümüzü istəyirsənsə, sən də o biri başkəsənlərlə birlikdə burada qala bilərsən.

Tərəddüd qarşısında qalan Eduard qərar çıxarmaq üçün çox fikirləşməli olmadı və atasının təklifi ilə razılaşdı. Bir növ həmin təklif, özünü yırtıcı kimi aparmağa çalışan, lakin xarakter etibarı ilə qorxaq olan cavan erməninin ürəyindən idi. Çünki o, bir müddət əvvəl Rusiyada başladığı işi başa çatdırmağı qarşısına məqsəd kimi qoymuşdu. Həm də o, birdəfəlik olaraq təhlükəli zonadan uzaqlaşacaqdı.

Qarabağda fəaliyyət göstərən quldurların qanununa görə həmin torpaqda böyüyüb-başa çatan hər bir erməni azərbaycanlıların fiziki cəhətcə məhv edilməsində və onların torpaqlarının, mülklərinin ələ keçirilməsində xüsusi canfəşanlıqla iştirak etməlidir. Əks halda həmin şəxs böyük pul müqabilində həmin "səfərbərlikdən" boyun qaçıra bilər. Günahsız mülki əhalinin qanını axıdan erməni liderləri, bunu, xaricdən gətirilən muzdlu quldurların onların tərəfində döyüşdüyü ilə izah edirdilər.

Pula hərisli olan oğul evində saxladığı, azərbaycanlıların qəbir üstündəki mərmər baş daşlarını göstərib atasına dedi:

- Ata, heç olmasa imkan ver, evdəki baş daşlarını satım. Yoxsa, bütün mallar itib-batacaq.

- Hüzürün doqquzuna kimi vaxtın var. – deyə Albert qətiyyətlə dilləndi.

- Bunun üçün İrəvana getməliyəm müştərilərim oradadır.

Eduarddan başqa kənddə bir neçə ailə vardı ki, onlar da pul əldə etmək üçün həmin qəbristanlıqdan baş daşları çıxartmışdılar. Onlar biləndə ki, qonşuları həmin mərmərləri İrəvana aparacaq, satmaq məqsədi ilə həmin malları ona həvalə edirlər. Eduard əlində olan bir neçə mərmər daşı qardaşının və o biri qohumlarının qəbirlərinin bəzədilməsində istifadə edir. Halbuki hamı həmin baş daşıların dəfn

olunmuş azərbaycanlıların məzarları üstündən götürüldüyünü yaxşı bilirdi.

Doqquz mərasimi başa çatan kimi Eduard atası ilə anasını Rusiyaya yola salır, özü isə iki yük maşını ilə İrəvana gedir. O, mərmərləri istədiyi qiymətə satıb, camaatın pulunu qaytarmadan oradan birbaşa Stavropol diyarına getməyi qərara alır.

Həddindən artıq hiyləgər olan Eduard məxfi orqanların nümayəndələrinə pul verib, nəinki Qarabağın, hətta Ermənistanın da hüdudlarını tərk etməli oldu. Hiyləgər erməni yaxşı bilirdi ki, hal-hazırda vaxt onlara işləyir. Hazırda o, Qarabağ müharibəsində "xəsarət" alan bir adam kimi Rusiyanın hər hansı bir şəhərinə pənah aparsaydı, onun sığınacaq tapmağa böyük şansı vardı. O, bu şansdan istifadə edərək Rusiyanın iri şəhərlərində - Moskva, Sankt-Peterbuq, Nijni-Novqorod, Voronejdə məskunlaşmaq fikirinə düşdü. Sankt-Peterburqda əhali daha qonaqpərvər və mehriban olduğundan Eduard birbaşa həmin şəhərə yollandı. O, hesab edirdi ki, nə qədər ki, erməni qaçqınları kütləvi şəkildə Rusiyanın şimal paytaxtına axışmayıblar, tələsik olaraq özünü həmin meqapolisə çatdırsın.

# VIII fəsi. Özünü qaçqın kimi təqdim edən riyakar erməni

Rusiyanın şimal paytaxtı Sankt-Peterburq şəhəri yay mövsümündə çoxmilyonlu turist axınına məruz qalırdı. Hər il şəhərin ərazisi getdikcə böyüyür və ətraf yerlərdə yeni-yeni qəsəbələr yaranırdı. Şəhər ziyalıları və biznesmenləri SSRİ dağılan kimi şəhərdən 30-40 km. aralıda boş qalmış torpaqlarda bağ evləri salıb, orada daimi yaşamağa başlayırlar.

Asfalt döşəməli yolun hər iki ətrafındakı evlər bir-birinin ardınca çox səliqəli tikilmiş və müasir arxitektura stili ilə tikilmiş mansardalı evlər yaşıllıq içərisinə qərq olmuşdu. Burada yaşayan sakinlərin bir çoxu yerli adamlar olsalar da, az bir qismi Cənubi Qafqazdan gələn mühacirlər idi.

Sankt-Peterburq ali təhsil ocaqlarının birində tarix müəllimi işləyən 35 yaşlı, ağbəniz, seyrək kürən saçlı, ciddi baxışlı Sergey Vladimiroviç Pavlov məskən saldığı qəsəbədə əsasən, öz soydaşları ilə, xüsusilə də elm və pedaqoqika sahəsində çalışan ziyalılarla əlaqə saxlayırdı. Yay tətilindən səmərəli istifadə etməyə çalışan həmin ziyalı həyətindəki bağçada əkdiyi meyvə-tərəvəzin gətirdiyi məhsulları nəzərdən keçirirdi. Onun həyat yoldaşı Nina mansardaya qalxıb iki azyaşlı uşaqlarını yatızdırırdı.

Elə bu vaxt Sergeydən beş yaş kiçik olan dolu bədənli, enli sifətli, qarabuğdayı, qalın dodaqlı, əyri yekə burunlu, qara cod saçlı, yaraşıqsız bir kişi qapını açıb, içəri daxil olmadan ev yiyəsindən su istədi. Sergey həmin kişinin yanında 4-5 yaşında bir qız uşağını görən kimi, tərəddüd etmədən həyətə dəvət etdi. Üst-başı əzik-üzük olan kişi uşağın əlindən tutub, küknar ağaclarının arasında düzəldilmiş böyük olmayan talvarda əyləşdi və ona gətirilən suyu uşağa uzatdı.

Tarix üzrə elmlər namizədi çağırılmamış qonağı süzən zaman elə zənn etdi ki, qarşısındakı adam xarici görünüşünə və geyiminə görə qaraçıdır. Lakin həmin adam uşaq ilə Qafqaz ləhcəsilə danışdığından təxmini başa düşdü ki, o, ermənidir. Ev sahibi həddindən artıq yorğun görünən adamdan kim olduğunu və haradan gəldiyini soruşdu. Eduard Muradyan kimi özünü təqdim edən həmin adam, şəxsi bioqrafiyasını ərz etmək üçün əlverişli məqamın yarandığını görüb tələsik halda dedi:

- Mən, qondarma Azərbaycan adlı bir məmləkətdə yerləşən Martuni rayonunda anadan olmuş və müharibə başlayan kimi türklər bizim kəndi işğal etdilər. Həmin amansız döyüşdə qırılan-qırıldı, qırılmayanlar isə gücbəla ilə qaçıb canlarını qurtardılar. Mən də ailəmin təhlükəsizliyini təmin etmək üçün türklərin əlindən qaçdım.

- Mən, çox təəssüflənirəm. – deyə gənc alim üzrxahlıqla dilləndi və bir qədər ara verəndən sonra ehtiramla soruşdu. - Səhv etmirəmsə, Martuni Şuşaya yaxın olan bir yerdədir?

- Sizin "Artsax" barəsində məlumatınız var? – deyə erməni təəccübləndi.

- "Artsax" haradır? – deyə rus alimi çaşqınlıqla soruşdu.

- Türklərin adlandırdığı Qarabağı deyirəm. Qədimdən ora "Artsax" kimi tanınır.

- Qismən də olsa, mən həmin ərazi barəsində məlumatlıyam! – deyə tarixçi tərəddüd etmədən dilləndi. - Ona görə ki, mən tarixçiyəm. Amma mən oranı Qarabağ kimi tanıyıram.

- Hörmətli tarixçi, bu türklərin uydurmasıdır və onlar bütün bizim məskənlərimizə, özlərinin iyrənc adlarını veriblər. Dünyada yayılan bizim kitablarda Qarabağ adlı bölgə yoxdur.

- 80-ci illərin sonunda mən, öz işimlə əlaqədar Azərbaycanın bir neçə bölgəsində, - deyə ev sahibi dilləndi. - əsasən də Qarabağ və ona bitişik olan rayonlarda, o cümlədən Ağız mağarasında da olmuşam. – sonra o, bir qədər ara verib, maraqlandıran suallara cavab tapmaq üçün təmkinlə soruşdu. – Deyirsən, kəndiniz işğal olundu və dinc əhali arasında ölənlər də var?

- Xocalıda, Şuşada, Laçında öldürülən soydaşlarımızın sayı minlərlədir. – deyə yalan informasiya verdiyinə görə azacıq olsun xəcalət hissi keçirməyən Eduard kövrəlmiş halda dilləndi. – Bir bacım Bakıda ailəsi ilə birlikdə girov saxlanır, ikinci bacım Sumqayıtda baş verən iğtişaşlar zamanı türklər tərəfindən zorlanıb, əri isə vəhşiliklə öldürülübdür. Qonşu kənddə yaşamış qardaşım ağır işgəncələrlə soydaşlarımızın gözü qarşısında edam edilib-dir, əmim isə kiçik oğlu ilə birlikdə yaşadıqları evin içərisində diri-diri yandırılıblar. Başımıza gələn müsibəti kimə danışım ki, türklər öz cəzalarına çatsınlar?

- Tam əmin ola bilərsən heç bir şey cəzasız qalmır. – deyə Sergey ermənyə təsəlli verdi. – Bu cinayətdə əli olan adamın hər biri tutduğu vəzifədən asılı olmayaraq, ədalət məhkəməsində cavab verməli olacaq. Amma bir şey mənə qaranlıq görünür, səhv etmirəmsə, keçən ayın əvvəlində aranızda baş verən münaqişədə atəşkəs əldə olunubdur? Atəşkəs olan təqdirdə adamlar necə öldürülə bilər?

- Hansı atəşkəsdən söhbət gedir? Həmin atəşkəs kağız üzərindədir. Türklər demək olar ki, ardı-arası kəsilmədən bizim yaşayış məntəqələrimizə hücum çəkib, millətimizi məhv edirlər. Bu münaqişə bir il də davam etsə, onda erməni torpaqlarında bir nəfər də olsun, erməni millətinin nümayəndəsi qalmayacaq.

- Edik, sənin dediklərin mənim üçün qəribə görünür. Mən, SSRİ dağılmamışdan əvvəl Qafqazın cənubunda olan hər üç respublikada olmuşam və azərbaycanlıların nə dərəcədə qonaqpərvər olmasının şahidiyəm. İndi dediklərindən belə çıxır ki, onlar yüz illər çiyin-çiyinə yaşayan bir millətə qarşı qəddarlıq və amansızlıq nümayiş etdirirlər.

- Əzizim Sergey Vladimiroviç, bağışlayın məni, siz Qafqaz türklərinin siyasətindən bixəbərsiniz. Nə qədər ki, SSRİ mövcud idi, onlar qorxudan şirin dillərini işə salıb bütün xristianlara yaltaqlanırdılar. Elə ki, həmin respublika ayrıldı, onlar 360 dərəcədə dəyişərək, həmin ərazidə yaşayan bütün xristianlara qarşı zor tətbiq etməyə başladılar. Bakı, Gəncə, Sumqayıt və digər şəhərlərdən nəinki erməni və gürcülər, o cümlədən, rus və ukrainlər də qovuldu.

- Hələ də inana bilmirəm ki, insanlar bu dərəcədə dəyişə bilsinlər? Ola bilsin, bu məsələyə dini siyasət mühüm təsir göstəribdir. Yoxsa, mən azərbaycanlıları ən mehriban, istiqanlı, qonaqpərvər bir millət kimi tanıyırdım.

- Mənim söylədiklərimi yoxlamaq üçün siz bir daha həmin əraziyə baş çəkməlisiniz. Sağ-salamat qayıtmağınıza heç bir möhlət yoxdur. Ən yaxşı halda sizi bir xristian kimi əzişdirib, yarışikəst halda Rusiyaya göndərəcəklər. – sonra dələduz kişi özünü daha da məzlum göstərmək üçün kövrək

halda sözünə davam etdi. – Bayaq dediyim kimi elə bacımın ərini də orada öldürdülər, o biri bacım isə Bakıda girov saxlanılır.

Hər hansı bir insanı aldatmaqda mahir usta olan Eduard söylədiyi sözlərə həqiqət donu geydirmək üçün ağlamağa başladı. Kənarda gül-çiçəklərlə oynayan uşaq atasının ağladığını görən kimi cəld onun qucağına mindi. Bu hərəkət onun ssenarisinə uyğun edilirdi ki, əks tərəfdəki adamların onlara yazığı gəlsin.

Təbiətən ürəyiyumşaq olan Sergey hiyləgər erməninin kövrəlməsinə tab gətirməyib, onun üçün su gətirdi və Eduardın sakitləşdiyini görən kimi sözə başladı. O, qarşısındakı adamın belə bir acınacaqlı vəziyyətə düşdüyündən qəzəblənərək, əsəbi halda dedi:

- Həqiqətən də sənin başın bəlalar çəkibdir, ailəniz isə böyük faciə ilə üzləşibdir. Mənim başsağlığımı qəbul et. İnsan üçün bundan ağır müsibətlər ola bilməz. Etiraf etməliyəm ki, azərbaycanlıların bu dərəcədə azğınlaşmasını mən təsəvvürümə belə gətirə bilmirəm.

Bəs, orada olan rus hərbi bölmələri nə ilə məşğuldurlar? Onlar görmürlər ki, həmin münaqişədə heç bir günahı olmayan dinc əhali qırılır?

- Rus hərbçiləri lazımi şəkildə bizə kömək edə bilmirlər. – deyə özünü yazıq göstərən erməni yenə də kövrək halda

dilləndi. - Ona görə ki, rus hərbi birləşmələri Elçibəyin təkidi ilə həmin ərazidən çıxarılıbdır. Oradakı yerli türklərə Osmanlı Türkiyəsi, xristian dünyasının qatı düşmənlərindən sayılan İranın dini fanatiklərdən ibarət olan islamçı qoşunları arxa durur. Hamı bilir ki, müsəlmanlar dini qardaşlarını qoyub biz xristianlara kömək etməyəcəklər.

Sergey bir tarixçi kimi gördü ki, məzlum vəziyyətində olan erməni primitiv tarixi terminlərindən istifadə edir. Azərbaycanda yaşayan yerli əhalini türk, Türk Cümhuriyyətini isə Osmanlı Türkiyəsi adlandırır. Lakin onda olan məlumata əsasən, nə Türkiyə, nə də ki, İran öz ordusunu münaqişə ocağına göndərməyibdir. Sadəcə olaraq həmin regionda öz maraqlarını güdən Rusiya onların belə bir müdaxiləsinə imkan verməz. Son aylar isə eşitdiyi o idi ki, ermənilər Qarabağda olan bir neçə məntəqəni ələ keçiriblər. Çünki bu münasibətlə Sankt-Peterbuqda olan erməni diasporası və universitetdə işləyən ermənilər hər hansı bir yaşayış məntəqəsi ələ keçirilən kimi ziyafətlər təşkil edirdilər.

Rus ziyalısı onların ac olduğunu duyub həyat yoldaşından yemək hazırlamasını xahiş etdi və dərhal mətləbə keçərək dedi:

- Eduard, sənin ailən necə, sağ-salamatdırlar?

- Sergey Petroviç, inanırsınız...

- Mən, Sergey Vladimiroviçəm. – deyə ziyalı düzəliş verdi.

- Sergey Vladimiroviç, inanırsınız, mən onları gücbəla ilə ölümün pəncəsindən xilas edə bilmişəm. Anam və arvadım bir yaşlı Karmen qızımla, Stavropoldakı həmyerlimizin evindədirlər və imkansızlıqdan, dilənçi yaşayışından beziblər.

- Yaxşı, bəs nəyə görə Stavropolda qalmadın? – deyə Sergey maraqlandı.

- Ona görə ki, "Artsax"dan qaçan bütün ermənilər həmin diyarda məskunlaşıblar. Sağ olsun yerli əhali, onlar əllərindən gələn köməkliyi bizdən əsirgəmirlər. Stavropolun yaşayış məntəqələrində demək olar ki, boş yer qalmayıbdır.

- Yaxşı, bəs nəyə görə Sankt-Peterburqa pənah gətirdin?

- Ona görə ki, bura türk torpaqlarından xeyli uzaqdır və mən ailəmlə birlikdə təhlükəsiz şəraitdə yaşamaq istəyirəm. Tale bizi həddindən artıq ağır sınaqlara çəkdi və bundan sonra mən bir daha həmin zülmlə, dəhşətli qətllərlə, amansız işgəncələrlə üzləşmək istəmirəm. – elə həmin an o, heç bir şeydən ar etmədən ziyalının ayaqları altına yıxılıb yalvarışla sözlərinə davam etdi. – Sergey Vladimiroviç, bir xristian kimi mənə yazığınız gəlsin, bizə kömək edin. Qoymayın bütöv bir ailə faciə nəticəsində məhv olsun.

- Qalx ayağa, aybdır axı. – deyə ziyalı özünü alçaldan ermənini qolundan tutub ayağa qaldırmaq istədi.

- Ömrüm boyu sizin qulunuz olaram, – deyə o, hələ də ziyalının ayaqlarını qucaqlayaraq ayağa qalxmaq istəmədi. – insan kimi yaşamaq üçün bizə heç olmasa it damxası verin. Hamımız qabağınızda qul olarıq.

Elə bu vaxt Sergeyin həyat yoldaşı bayıra çıxıb ermənini sakitləşdirməyə çalışdı. Çünki o, yuxarıdan onların danışıqlarını izləmiş və vəziyyətdən hali idi. Kövrək qadın da kömək edəcəyini söz verərək, ermənini qaldırmağa müvəffəq oldu. Qorxuya düşən uşaq ağlaya-ağlaya atasının boynuna sarıldı.

Ər-arvad çıxılmaz vəziyyətdə qaldıqları üçün yerlərində donub qalmışdılar. Belə məqamda onlar nə edəcəklərini əvvəlcədən müəyyənləşdirə bilmədilər. Qadın əsasən, uşağın ac olduğunu başa düşüb, hazırladığı yeməyi gətirəcəyini bildirdi.

Nina bişirdiyi borşu süfrəyə gətirib, qabları doldurdu. Daim çox yeməyi xoşlayan Eduard bir qab yeyəndən sonra tox olduğunu nümayiş etdirdi. Halbuki o, tam doymamış, özünü acgöz kimi göstərməmək üçün birtəhər nəfsini boğmağa çalışdı. Qaçqın erməni Elizabetə yemək yedizdirməyə kömək etmək istəyəndə, uşaq borşdan imtina edib, masa üzərində olan şirniyyata əl atdı.

Sergey həyat yoldaşı ilə birlikdə xeyli fikirləşəndən sonra ermənilərə sığınacaq verməyi qərara aldı. Ümumi razılaşmaya görə cavan ailəyə mənsub olan 8 sot torpağın iki sotu, müvəqqəti olaraq həmin ailəyə verilirdi. Pedaqoqun, sözün əsl mənasında "qaçqın düşən" həmin ailəyə yazığı gəlmişdi.

Xristian dininə mənsub olan "qaçqın" ailəsinə kömək etmək, cəmiyyətdə müsbət reaksiya ilə qarşılanmalı idi. Necə olsa da o, böyük bir ali təhsil ocağında dərs deyir və xeyirxah hərəkətinə görə həmin tədris ocağının rəhbərliyi onu mükafatlandırmağa məcbur olacaq.

Eduard özü üçün göydən düşmə qərarı eşidən kimi yaltaqcasına dedi:

- Sergey Vladimiroviç, siz əsl xristian kimi qərar verdiniz. Bu xeyirxah əməl ilə siz təkcə bizə yox, ümumilikdə erməni xalqına kömək edirsiniz. Ona görə ki, siz bizi türklərin əlindən qurtardınız və bununla da bizdə nəsil artırmağa böyük bir şans yaranır.

- Sən ailənin yanına qayıdıb, təxminən iki aydan sonra bura gələrsən. – deyə pedaqoq təmkinlə dilləndi və sevinc içərisində olan erməninin söz demək istədiyini görüb, əlinin işarəsi ilə onu sakitliyə dəvət etdi və həmin tərzdə sözünə davam etdi. – Bu müddət ərzində mən sizə ailə qarışıq ikiotaqlı ev tikdirəcəm və dövlət tərəfindən ev ilə təmin

olunana qədər orada qalacaqsınız. Bu gecə mənim qonağımsan. Qal istirahət et, səhər tezdən yola düşərsən. Narahat olma, yol pulu ilə də kömək edəcəm.

Eduardın sevincdən uçmağa qanadı yox idi. Necə olsa da o, Rusiyanın hər hansı bir əyalətindəki qəsəbədə və ya balaca şəhərdə deyil, böyüklüyünə və iriliyinə görə ikinci yerdə olan, ölkənin mədəniyyət mərkəzi sayılan bir şəhərdə məskunlaşacaqdı. Bu xəbər onun ailəsi üçün gözlənilməz idi.

Mayın 10-u 1994-cü ildən etibarən Qarabağda hərbi əməliyyatlar dayandırılandan sonra müvəqqəti də olsa, avtomat və pulemyotların atəş səsləri nəzərə alınmasa, həmin torpaqda sakitlik hökm sürməyə başladı. Adəti üzrə belə olan halda sülh elan olunan məkanda quruculuq işləri görülməkdənsə, qara qarğalar kimi əraziyə doluşan erməni quldurları orada söküb-dağıtma ilə məşğul oldular. İşğal olunmuş Azərbaycan ərazilərində olan bütün sənaye müəssisələri, kənd təsərrüfatı, mədəniyyət ocaqları sökülərək Ermənistana, incəsənət nümunələri, tarixi-memarlıq abidələri oğurlanaraq əntiq əşyalar kimi erməni tarixi-sənət nümunələri adı ilə xarici ölkələrdə satılmağa başlandı.

Daim sağ qalan övladlarının gələcəyi barəsində düşünən Albert eşidir ki, müharibədə "həlak" olanların ailələrinə birdəfəlik pul təzminatı və yüksək statuslu imtiyazlar verilir və o, dərhal Qarabağa yollanır. Onun əsas vəzifəsi mühari-

bə gedən zamanı zəbt etdiyi torpaqları sənədləşdirməkdən və müəyyən müddət orada yaşamaqdan ibarət idi. Albert Qaradağlıya gələndə özünün zənn etdiyi kimi onu qəhrəman ata qismində yox, həmyerlilərini aldadan övladın atası kimi qarşılayırlar. Yuxarıda qeyd edildiyi kimi Eduard müharibənin son aylarına tab gətirməyib, silahdaşlarını atıb qaçmış, hələ üstəlik həmkəndlilərini aldadaraq, onların mallarını mənimsəmişdi. Dələduz erməni ən azı on nəfərə yaxın kənd adamına borclu idi. Çıxılmaz vəziyyətdə qalan Albert günahlarını boynundan atmaq üçün kənd camaatına izah edir ki, o, ailəsini Rusiyada itiribdir və nə qədər səy göstərsə də, onlarla əlaqə yarada bilməyibdir. Lakin buna baxmayaraq aldadılmış sakinlər bəyan edirlər ki, Eduard ələ keçiriləndə ona heç bir aman verilməyəcək, ola bilsin, hətta fiziki cəhətcə məhv ediləcək. Əlbəttə ki, ata bu haqda oğluna xəbər çatdırır və bununla da Eduard üçün Qarabağa gediş birdəfəlik bağlanır.

Camaat arasında yaranan narazılıqlara baxmayaraq Albert zəbt etdiyi qonşularının torpaqlarını sənədləşdirmək üçün qondarma idarələrə müraciət etməyə başladı. Onun əsas məqsədi həmin torpaqları özəlləşdirib, başqalarına satmaq idi. Ona görə də o, müəyyən edilməmiş bir müddətə kənddə qalmağı qərara aldı.

Atasının gecikdiyini görən Eduard vaxt itirmədən, Azərbaycandan gətirdiyi bütün əşyaları, Pyatiqorskidə iki ay müddətinə dəyərindən bir az aşağı qiymətə satıb, ailəsi ilə birlikdə Sankt-Peterburqa yollandı. O, bu köçdə anasını da özü ilə götürdü.

Sergey söz verdiyi kimi ustaları dəvət edib ikiotaqlı, bir mərtəbəli evin tikilməsini sifariş verdi. Görülən işlərin məzənnəsi təyin edilən kimi tikinti işləri başladı. İlk növbədə iki sotluq ərazi ayrıldı və hündürlüyü iki metrəyə yaxın olan daş hasar hörüldü.

Onun bu xeyirxah addımı bütün həmkarları arasında müsbət qarşılandı, hətta iş elə gətirdi ki, işlədiyi təhsil ocağının rəhbərliyi oradakı pedaqoqlara Sergeydən nümunə götürməyə məsləhət bildi. Rektor vurğuladı ki, Qarabağda başlanan müharibə ilə bağlı həm fiziki, həm də mənəvi məhrumiyyətlərə məruz qalan hər bir xristiana kömək etmək, hər bir tərəqqipərvər insan üçün şərəfli iş sayılır.

# IX fəsil. Rus ziyalısının mərhəmətindən sui-istifadə edən erməni qaçqınları

Aylar keçdi, illər ötdü, 2012-ci il gəldi. Qış fəslinin yarıdan çoxu arxada qalmışdı. Qar örtüyündən yaxa qurtara bilməyən Sankt-Peterburq şəhərinin küçələri çox solğun görünürdü. Şəhər ətrafında sıx yaşıllıq – küknar və şam ağacları ağ yorğana bürünmüşdü.

Sergeyin planlarına zidd olaraq Eduard bu müddət ərzində hələ də başqa bir evlə təmin olunmamışdı. Məhz buna görə də qaçqın kimi tanınan erməni ailəsi bir müddət də tarixçinin evində qalmalı idi. Tarixçi alim bu məsələnin həddindən çox uzandığını görüb, son anda üzdülüyünə salıb Eduarda, yaxın iki ildə ya dövlətdən, ya da ki, illər boyu topladığı pulun müqabilində ev alıb, buradan çıxmaq şərtini qoydu.

Həqiqətən də həmin erməni qaldığı illər ərzində pul toplayıb, özünə şəhərdən kənarda bir ev almalı idi. Lakin 18 il keçməsinə baxmayaraq Eduard hələ də min-bir bəhanə gətirərək, ev almağın vaxtını süni şəkildə uzadırdı. Hər dəfə o, ev sahibinə söz verirdi ki, növbəti ildə mütləq bir mənzil alıb ailəsi ilə birlikdə ora köçəcək. Vaxtın bu qədər uzanmasının bir səbəbi vardı. Eduardın evi Qarabağda erməni quldurlarının nəzarəti altında idi və ora elan olunmamış "Dağlıq Qarabağ respublikası"nın tərkibində olduğundan ona qaçqın statusunu təsdiq edən arayış verilmirdi. Lakin hiyləgər erməni Sergeyi

əmin edirdi ki, tezliklə onlara qarşı tətbiq olunan həmin ədalətsizlik aradan qaldırılacaq və o, uzun müddət yaşadığı şəhərdə evlə təmin ediləcək. Göründüyü kimi bütün bunların hamısı yalan kimi yavaş-yavaş üzə çıxmağa başlayırdı. Elə Seygeyi də müəmma altında bir sual saxlayırdı, nəyə görə insanlıq hüququnun kobud surətdə pozulan həmin qaçqın ailəsinə daimi qeydiyyat verilmir və yaxud da müvəqqəti olaraq bir evlə təmin olunmur?

Bütün bunlara baxmayaraq rus ziyalısı vaxtın uzanmasına birtəhər tab gətirərək, hərtərəfli olaraq ölkələrinə pənah gətirmiş, özlərini məzlum aparan həmin əcnəbi ailəyə yardım etmək məcburiyyətində idi. Hətta iş o, yerə çatır ki, ətrafında olan bir çox adamlara nisbətən humanistliyi ilə seçilən universitet müəllimi əcnəbi ailənin bütün üzvlərini dostunun rəhbərlik etdiyi böyük bir şirkətdə işlə təmin edir. Qısa müddət ərzində etimad qazanan Eduard gəmi təmiri ilə məşğul olan həmin şirkətin təchizat şöbəsinin rəis müavini vəzifəsinə təyin olunur. Bu ondan ötrü edilirdi ki, qaçaq düşən həmin ailə ev almaq üçün kifayət qədər pul toplaya bilsin.

Ermənilər keçən əsrin 90-cı illərin əvvəllərində nəinki Qarabağı, hətta həmin məkanın ətrafıda yerləşən 7 Azərbaycan rayonunu da işğal etsələr də, "qaçqın" kimi özlərini təqdim edən dələduz millət ölkələrindən kənarda olanların hamısına bəyan edirdi ki, doğma ocaqları türklər tərəfindən işğal olunubdur.

Beş il bundan əvvəl dul qalan 52 yaşlı Sergey paralel olaraq turizm şirkətlərinin birində idarəetmə meneceri kimi işləyirdi. Onun hər iki övladı universitetdə oxuya-oxuya biznes fəaliyyətilə məşğul idilər. İşlədiyi universitetin jurnalistika fakültəsində təhsil alan oğlu Aleksandr böyük olmayan nəşriyyat evinin direktor müavini kimi, hüquq fakültəsində oxuyan qızı Yelizaveta isə moda salonu açaraq orada sərbəst şəkildə fəaliyyət göstərirdilər.

Övladlar da ataları kimi humanist olduqlarından, hərtərəfli olaraq yuxarıda adı çəkilən erməni ailəsinə yardım edirdilər. Qaçqınlar da belə bir şəraiti görüb birdəfəlik evlərinə qayıtmaqdan imtina etmişdilər. Daim ətrafdakı adamları aldatmağa çalışan Muradyanlar ailəsinin əsl ocağı Xocavəndin Qaradağlı kəndində toxunulmaz vəziyyətdə qalsa da, Albert öləndən sonra onlar həmin evin aqibəti barəsində heç bir şey öyrənmək fikirində deyildilər.

Öz ocağını göz bəbəyi kimi qoruyan Albert atəşkəs elan olunan kimi Qaradağlı kəndinə getmiş və doğulduğu ocağı göz bəbəyi kimi qorumaqdan və ələ keçirdiyi torpaqları sənədləşdirməkdən ötrü orada qalmışdı. Heyvandarlıqla məşğul olan ailə başçısı mal-qaranı otararkən, heyvanların bir neçəsi naxırdan ayrı düşür. Albert heyvanların axtarışına çıxarkən, özü bilmədiyi halda gedib ermənilərin qurduqları minalanmış əraziyə düşür və orada tapdaladığı minanın qurbanı olur. Bu hadisə XXI əsrin astanasında baş versə də, ermənilər həmin faciəli hadisəni azərbaycanlıların boynuna

yıxdılar. Arayışda qeyd olunur ki, guya Albert mal-qarasını otaran zaman gedib cəbhə bölgəsinə çıxmış və orada Azərbaycan əsgərinin gülləsinə tuş gəlmişdi.

Qəribə olmasa da öz həmyerlilərinin qəzəbindən qorxan Eduard atasının dəfninə getmədi və mərasimdə iştirak etmək üçün yaşlı anasını Qarabağa göndərmişdi. Marqo hüzrdən qayıdandan sonra evinə hansı qonaq gəlirdisə, başlayırdı azərbaycanlıları lənətləməyə ki, guya onlar dinc şəraitdə də erməniləri qırmaqla məşğuldurlar.

Sergeyin Muradyanlar ailəsinə sığınacaq verməsi qalsın kənara, həmin erməni qaçqını qohumlarına da evdə qalmalarına imkan yaradırdı. Eduardın bacısı qızı Raisa dosentin işlədiyi universitetinin jurnalistika fakültəsinə daxil olur və onun oğli ilə birlikdə eyni qrupda təhsil almağa başlayır. Qız Rusiyanın nüfuzlu ali təhsil ocaqlarının birində təhsil aldığı gündən dayısının müvəqqəti məskunlaşdığı evdə qalır və paralel olaraq dekanın oğlu Aleksandr ilə sıx dostluq münasibətləri yaratmağa nail olmuşdu.

Bu görüşdən xeyli məmnun olan Eduard bacısı qızına izah edir ki, xoşbəxt olmaq istəyirsə, Aleksandrın başını bişirib ona ərə getməlidir və bununla da oğlana məxsus olan bütün malı-mülkə sahib çıxsın. Ondan sonra isə başqa qohumlarını da öz yanına çəkib, onların hamısına fəaliyyət göstərmək üçün şərait yaratsın.

Ailə başçısının fikirincə, Raisa Aleksandr ilə ailə həyatı qursa, onda qızın qarşısında böyük imkanlar yaranacaq və o,

qısa müddət ərzində şəhər elitasının cərgəsinə daxil ola biləcək. Ona görə ki, iyirmi beş ilə yaxın universitetdə pedaqoq işləyən Sergeyin əlinin altından xeyli sayda imkanlı valideynlərin övladları çıxmış və onların diplom almaqlarında o, müstəsna rol oynamışdır. Məhz bu səbəbdən həmin adamlar zamanla ayaqlaşa bilən pedaqoqun xətrini çox istəyir və hər zaman onun hər hansı bir xahişini yerinə yetirməyə hazır idilər. Bir sözlə, son illər Sergey pedaqoji fəaliyyəti sayəsində hörmət-izzət sahibi olmuşdu və onun belə bir nüfuzuna bütün həmkarları həsəd aparırdı. Lakin bütün bu inkişafın qarşısında o, tanıdığı hər bir kasıb adama imkanı daxilində kömək etməyi unutmurdu. Necə ki, vaxtilə özlərini qaçqın kimi aparan Muradyanlar ailəsinə misilsiz yaxşılıq etdiyi kimi. Eduard da həmin etimaddan sui-istifadə edərək onunla qohum olmaq arzusunda idi və bununla bağlı hər gün bacısı qızına xüsusi təlimatlar verirdi. Elə demək olar ki, həmin təlimatlar öz bəhrəsini vermişdi. Ona görə ki, Aleksandr ikinci kursda oxuyan zaman Raisaya vurulmuş və söz vermişdi ki, o, ehtiras içərisində alışıb-yanan erməni qızı ilə ailə həyatı quracaq. Yüksək ambisiyalar ilə yaşayan qız artıq təmiz qəlbli, sadəlövh oğlanı öz toruna salmışdı.

Bir dəfə iş elə gətirir ki, Sergey Eduardın yaşadığı evin yanından keçəndə orada, uşaqdan tutmuş böyüyə kimi beş nəfərə yaxın adam görür və qaçqın adı altında maskalanan hiyləgər kişini yanına çağırıb, həmin adamların kim olduğunu xəbər alır. Eduard da izah edir ki, həmin adamlar Stavropolda

yaşayan qohumlarıdır və bir neçə gün onların burada qalacaqlarını bildirir. Əslində isə o, Rusiyaya qazanc ardınca gələn öz həmyerlilərini qaldığı evdə kirayəşin kimi saxlamağa başlamışdı. Bu azmış kimi həddindən artıq hiyləgər olan Eduard həmin adamlara bildirmişdi ki, özü də onlar kimi bu evdə kirayəşin qalır. Eduardın səmimiyyətinə inanan Sergey heç bir şeyi ayırd etmədən öz yoluna davam edir.

Sergeyin pedaqoq kimi işlədiyi universitetin girişi həm tələbələrlə, həm də pedaqoqlarla dolu idi. Gələn-gedən kim, söhbət edən və adam gözləyən kim idi. Bu ali təhsil ocağı Rusiya Federasiyasının ən qocaman tədris ocaqlarından biri idi və burada dinindən, irqindən asılı olmayaraq cürbəcür millətlərin nümayəndələri təhsil alırdı. Tarix fakültəsinin sonuncu kursunda oxuyan ortaboylu, qarabuğdayı, enlisifət, balaca gözlü, çatmaqaş, qara qalın saçlı, 22 yaşlı Nizami dövlət imtahanlarına ciddi hazırlaşdığından onun demək olar ki, asudə vaxtı yox idi. O, universitetin binasından çıxsa da, oradan uzaqlaşmağa tələsmədi. Tələbə qolundakı saata baxıb addımlarını zəiflətdi və heç kimə əhəmiyyət vermədən tez-tez qapıya nəzər salmağa başladı. Sanki o, kiminsə gəlişini gözləyirdi.

Binaya daxil olanların sayı çıxanların sayından çox az idi. Bir az keçmişdi ki, qapının ağzında yaşı 21-22 olan, iri gözlü, qara qalın qaşlı, azacıq enli burunlu, uzunsifət, sönük baxışlı, solğun bənizli bir qız göründü. Qızın sifət quruluşundan və rənginin dərisindən onun Qafqaz mənşəli olduğunu Nizami

əvvəldən bilirdi. Naməlum qız həyətə çıxıb o biri tələbələrin arasında qarışsa da o, da kənardan durub, onu diqqətlə süzən oğlanın qəribə baxışlarını öz üzərində hiss edərək, özünü ədalı aparmağa başladı. Onlar qeyri-ixtiyari olaraq bir-birilərini süzsələr də, amma yaxınlaşıb ünsiyyət qurmağa cürət etmir-dilər. Elə bu vaxt həmin qıza arxadan gözlərində eynək olan, təxminən 21 yaşlı, hündürboylu, ağsifətli, sarı seyrək saçlı, arıq bir oğlan yaxınlaşıb, onunla salamlaşdı və söhbət edə-edə həyətin darvazasına tərəf getməyə başladı. Nizami həmin an başa düşdü ki, onlar bir-birilərini əyani surətdə tanıyırlar. Lakin o, da həmin sarışın oğlanı tam da olmasa, kifayət qədər tanıyır və hətta bir neçə dəfə onunla birlikdə fəal tələbə kimi elmi-praktik konfranslarda iştirak etmişdi və bilirdi ki, onun atası bu ali təhsil ocağının tarix fakültəsinin dekanıdır. Qızın yanında olan Aleksandr Sergeyin oğlu idi. Onlar da Nizami kimi universitetin sonuncu kursunda oxuyurdular.

Tanış tələbələr universitetin həyətindən çıxandan sonra Nizami qeyri-ixtiyari şəkildə hər ikisinin dalına düşdü. Artıq bir neçə gün belə bir marşruta öyrəşən Şamil yaxşı bilirdi ki, qız yaxınlıqdakı metrostansiyasına gedib, oradan yaşadığı qəsəbəyə yollanacaq.

Nizami yeni il başlayandan qızla maraqlansa da hələ də onun adını və hansı millətə mənsub olduğunu ayırd etməmiş-di. Onun fikirincə, həmin naməlum qız milliyyətcə gürcü, osetin və ya abxazdır və dəqiq bilirdi ki, o, universitetin jurna-listika fakültəsində təhsil alır. Adəti üzrə öz dərslərinə ciddi

diqqət yetirən Nizami qızın baxışlarından və hərəkətlərindən hiss edirdi ki, gələcəyin jurnalisti onunla tanış olmaq üçün əlverişli zəmin yaradır. Lakin azərbaycanlı tələbə utandığından və başqa oğlanları onun yanında gördüyündən, qıza yaxınlaşmağa cürət etmirdi. İndi isə Aleksandr həmin qızın yanında hərlənir və artıq bir neçə dəfə onu evlərinə ötürməyə müvəffəq olmuşdu.

## X fəsil. Hiyləgərlikdə dayısından geri qalmayan tələbə qız

Günlərin bir günü Nizami fasilə zamanı universitetin dəhlizində Aleksandrla görüşür və bir neçə dəqiqəlik söhbətdən sonra həmin naməlum qız barəsində söhbət açır. Gözlənilməz olsa da, rus tələbə vurğulayır ki, Raisa adlı həmin qız onun sevgilisidir və onlar diplom alandan bir neçə ay sonra evlənəcəklər. Aleksandr bu haqda məlumat verəndə Nizaminin əhval-ruhiyyəsi bir qədər dəyişdi, sanki o, həmin izdivacdan narazı idi. Onlar bir neçə dəqiqə söhbət edəndən sonra Nizami başa düşdü ki, qızın bəzi təkəbbürlü hərəkətləri, ətrafdakı imkansız tələbələrə yuxarıdan aşağı baxması, imkanlılara

yaltaqlanması rus tələbəsinin xoşuna gəlmir və buna görə onların arasında tez-tez mübahisələr olurdu.

- Nizami, bilirsən mən səninlə nəyə görə xoş münasibətdəyəm? – deyə eynəkli tələbə azərbaycanlı tələbəyə sualedici nəzər saldı. – Ona görə ki, sən çox sadə, təmkinli və mədəni bir adamsan. Atamın sənin kimi tələbələrdən xoşu gəlir və universiteti bitirməkdə daim köməklik göstərir.

- Saşa, mənim də təkəbbürlü adamlardan xoşum gəlmir və aldığım tərbiyəyə əsasən kimliyindən asılı olmayaraq hər bir şəxsə hörmətlə yanaşmalıyam. – deyə Nizami bu məsələ ilə bağlı subyektiv fikirini bildirdi.

- Elə mənim özüm də təbiətən humanist adamam və istəmərəm kimsə-kiminsə xətrinə dəysin. Raisanın taleyi çox acınacaqlıdır və o, elə zənn edir ki, daim həyatdan ağır zərbələr alacaq. Ona görə də o, ətrafdakılara bir qədər şübhə ilə yanaşır. Amma onu da deyim ki, Raisa jurnalistika sahəsində mühüm addımlar atır və onun mətbuat orqanlarında dərc etdirdiyi məqalələr həddindən artıq xüsusi əhəmiyyət kəsb etdiyindən kafedrada ona böyük dəstək olunur.

- Dostum, sirr deyilsə, deyə bilərsən o, haradandır və hansı millətin nümayəndəsidir? – azərbaycanlı tələbə maraqlandı.

- Raisa ermənidir və səhv etmirəmsə o, Bakıdan və ya da Sumqayıtdandır. – Aleksandr tərəddüd etmədən dilləndi və həmsöhbətinə qəribə bir nəzər salaraq qətiyyətsiz halda dilləndi. – Mən onun bir çox məqalələrini nəzərdən keçirmiş və hiss

etmişəm ki, o, Qarabağ münaqişəsinin birdəfəlik həll olunması istiqamətində mühüm addımların atılmasını arzulayır.

- Onda denən ki, sənin rəfiqən bizim millətə qarşı düşmənçilik mövqeyi bəsləyir. – deyə Nizaminin əhval-ruhiyyəsi pozuldu. – Elə adamlar heç vaxt iki millət arasında yaranan münaqişə barəsində obyektiv məqalələr yaza bilməz. Raisa kimilər mütləq öz maraqlarını nəzərə alıb cəfəngiyyatla dolu olan fikirlərini ortaya qoymalıdırlar.

- Sənə bir məsləhət verim, yadda saxla, tanımadığın bir adam haqqında heç vaxt abstrakt fikir söyləmə. Raisa çox prinsipial və öz işini yaxşı bilən bir adamdır. Burada kifayət qədər azərbaycanlı tələbələr var ki, o, onların hamısı ilə yaxşı münasibətdədir. Qarabağ münaqişəsi ilə yazılarında isə o, ədaləti tapıb üzə çıxarmaq istəyir. Raisa çox maraqlı bir jurnalistdir, sən onunla tanış olsan, onda bilərsən necə adamdır.

- Nə deyirəm ki, bir gün vaxt tapıb şəhərdə bir yerdə görüşək, ondan sonra bilərəm onun xasiyyəti necədir.

- Mənə elə gəlir, həmin tanışlıq hər ikinizə xeyir verəcək. Necə olsa da sən gələcəyin tarixçisisən və müasir araşdırma işlərində Raisa kimi prinsipial jurnalist, sənin işlərinə mühüm təkan verə bilər.

Belə bir təklifin özü üçün göydən düşmə olduğunu zənn edən Nizami tərəddüd etmədən qız ilə əyani surətdə tanış olmaqdan ötrü həftənin sonu görüş yerini təyin etdi. Alek-

sandr elə etməliydi ki, guya həmin tanışlıq təsadüf nəticəsində baş verəcək.

Bazar günü onların hər üçü Neva prospektində yerləşən Kolizey kinoteatrına bitişik olan kafedə görüşməliydilər. Prospekt ilə hərəkət edən Aleksandrla Raisa kafeyə yaxınlaşıb orada nahar etmək istəyirlər, amma yer olmadığını görüb geri qayıtmağa çalışdılar. Bu vaxt Nizami onları görüb əyləşdiyi masaya dəvət edir. Beləliklə, onlar tanış olurlar.

Nizami orada öyrənir ki, Raisa həqiqətən də əslən Sumqayıtdan olan ermənidir və uzun müddət ailəsi ilə birlikdə Stavropol diyarının Pyatiqorsk şəhərində yaşayıb. Nizaminin azərbaycanlı, Raisanın erməni olması cavanları heç də narahat etmədi. Onlar birinci görüşdən bir-birilərilə elə ünsiyyət qurdular ki, sanki aralarında bir neçə il idi ki, dostluq münasibəti yaranıbdır.

Aleksandr onların arasında yaranan xoş münasibəti görüb həvəslə dedi:

- Əziz dostlar, kənardan baxan olsa sizə yalnız qibtə edər. Ona görə ki, siz əsl qafqazlı həmrəyliyi nümayiş etdirirsiniz. Arada Qarabağla yaranmış düşmənçilik olmasa, siz dünyanın ən mehriban millətləri sayılarsınız.

- Mən siyasətlə məşğul olmasam da dəqiq bilirəm, - deyə Nizami başını təəssüflə tərpədərək məyus halda dilləndi. - bütün bu hoqqanı özlərinə divident qazandırmağa çalışan karyerist siyasətçiləri çıxarıblar ki, Qafqazda uzun illər qeyri-stabillik hökm sürsün və hamımız onların çirkin siyasətindən

asılı olaq. Elə indi də həmin münaqişənin müsbət həll olunmasında həmin siyasətçilər böyük maneəçilik törədirlər.

- Millətlərimiz arasında yaranan iddialar təmin olunsa, onda bu münaqişənin özü gözlənilməz şəkildə aradan qalxa bilər. – əqidəsini gizlədən qız qeyri-müəyyən tərzdə dilləndi.

- Nizami, yaşlı nəsil heç kimin mövqeyi ilə maraqlanmadan qəlblərə qara yara salan münaqişəni yaratdılar. – deyə kofeni başına çəkən Aleksandr həvəslə dilləndi. – Hal-hazırda oxuduğumuz ali təhsil ocağında Raisa "İşıqlı gələcək naminə" adlı ictimai-birlik yaratmaq planlaşdırıbdır, nizamnamə də hazırdır. Yuridik qüvvəyə minmək üçün yalnız Ədliyyə Nazirliyinin təsdiqi lazımdır. Bu məsələdə mənim atam Raisaya köməklik göstərir.

- Bəs, adı çəkilən ictimai-birliyin funksiyası nədən ibarətdir? – Nizami maraqlandı.

- Qafqazda sülh yaramaq naminə gənclərin fəallığı mühüm rol oynamalıdır. – deyə Raisa siyasətçi kimi cavab verdi. - Xüsusən də Azərbaycanla Ermənistan arasında yaranan düşmənçilik münasibətini aradan qaldırıb, əvvəlki kimi sülh və əminamanlıq şəraitində yaşamaqdan ibarətdir.

- Ümumi prinsip ondan ibarətdir ki, - deyə Aleksandr qızın üzündən öpərək, məsələyə aydınlıq gətirmək istədi. - xalqlar və millətlər torpaq üstündə bir-birilərini qırmamalı, bir-birilərinə ifrat düşmənçilik bəsləməməlidirlər. Sülh və əmin-amanlıq bütün meyarlardan üstün olmalıdır. Araya nifaq salan

inzibati bölgü olan sərhədlər aradan götürülməli, kim harada istəyir orada da yaşamalıdır. Dinlər arasında fərq olmamalıdır.

- Bunun üçün hakimiyyətdə yalnız humanistlər olmalı və yalnız tolerant fikirlərlə yaşayıb fəaliyyət göstərməlidirlər. – söylənən sözlərin səmimiyyətinə inanan Nizami filosof kimi dilləndi. – Makedoniyalı İsgəndər İrana yürüşə başlayanda qarşısına məqsəd qoymuşdu ki, nə qədər ölkə var hamısını fəth edəcək və millətləri bir-birindən ayıran sərhədlərin hamısını aradan qaldıracaq. İnana bilmərəm ki, belə bir qüdsi ideyalar haçansa həyata keçsin.

- Hər şey bizim fəaliyyətimizdən asılı olmalıdır. – Raisa sol əlini Aleksandrın boynuna salıb giley-güzarla dilləndi. – Nizami, biz istəyirik ki, yaradılan birliyin üzvləri əsasən, müharibəni öz gözləri ilə görmüş bizim millətin nümayəndələri, azərbaycanlılar, gürcülər, osetinlər, abxazlar, çeçenlər və digərləri olsun. Əminəm ki, dövlət başçıları bizim ideyaya diqqət yetirəcək və hərtərəfli olaraq bizimlə hesablaşacaqlar.

Onlar bir qədər burada vaxt keçirəndən sonra kafeni tərk etmək fikirinə düşdülər. Əvvəlcədən qurduğu plana əsasən, Aleksandr atası ilə vacib iş olduğunu bəhanə gətirib gedəcəyini bildirir və Nizamidən xahiş edir ki, Raisanı qaldığı evə kimi ötürsün. Azərbaycanlı tələbə də qeyri-ixtiyari olaraq həmin təklifi qəbul etdi.

Nizami əslən Qarabağdan, lap dəqiq erməni quldurlarının işğal etdikləri Xocavənd rayonunun Qaradağlı kəndindəndir. O, ailəsi erməni təcavüzünə və içgəncələrinə məruz qalan

həkim Əvəzin oğlu idi. Uzun illər Beyləqanda çadır şəhərciyində yaşamış Nizami universitetə daxil olan ili, atası Bakı şəhərində evlə təmin olunmuşdu. Lakin buna baxmayaraq o, doğulduğu kəndə qayıtmaq ümidi ilə yaşayırdı. Taleyin hökmü ilə bir kənddə yaşayan iki qonşunun nəvələri eyni ali təhsil ocağında oxuyur və qohumlarının bir küçədə yaşamasından hər iki cavan bixəbər idilər.

Azərbaycanlı tələbə xarakter etibarilə humanist adam idi və həmişə siyasətdən uzaq olmağa çalışmışdı. Məhz buna görə də Raisa ilə tanış olmaq, müəyyən mənada onun ürəyindən idi. Aleksandr üçün də bir jurnalist kimi onların tanışlığı xüsusi əhəmiyyət kəsb edirdi. Çünki beynəlxalq aləmdə bir-birilərini günahlandıran iki respublikanın siyasətçiləri geri çəkilmək fikirində deyildilər, ən dəhşətlisi isə yaranan münaqişənin aradan qaldırılması üçün on səkkiz ildə heç bir kompromiss variant əldə edilməmişdi. Nizamiyə nisbətən Raisanın xasiyyətinə bələd olan Aleksandr yaxşı bilirdi ki, onun qrup yoldaşı vaxtaşırı şəhərdə çıxan mətbuat orqanlarında çıxış edərək, azərbaycanlıların tutduqları mövqeyini tənqid edirdi. Dosent oğlu da ermənilərin şəhərdə apardıqları anti-Azərbaycan təbliğatın tələsinə düşərək, özü də ayda bir-iki dəfə real araşdırmalara söykənməyən qərəzli məqalələr yazırdı. Özünü azərbaycanlıların qurbanı kimi təqdim edən Raisa bu işə başqa qrup yoldaşlarını da cəlb edə bilmişdi. Əlbəttə ki, bütün bunlardan Nizaminin xəbəri yox idi.

Məkrli erməni qızının əsas məqsədi o idi ki, bu təbliğat kompaniyasına azərbaycanlı tələbələrini də cəlb edə bilsin.

Bir gün onlar elə universitetin yeməkxanasında görüşüb, barışıq planı üzrə müzakirələr aparmağa başladılar. Əsas məqsəd millətlər arasında olan münaqişənin ölümsaçan qığılcımı birdəfəlik söndürülməli idi. Birinci olaraq Raisa təkliflə çıxış etdi. O, Aleksandra söykənsə də nəzərlərini Nizamiyə yönəldərək, başqa masalarda əyləşən tələbələrin diqqətini cəlb etməmək üçün yavaş səslə dedi:

- 1994-cü ildən atəşkəs olsa da hər an Qarabağda döyüş əməliyyatları başlaya bilər. Biz gənclər və xüsusən də Rusiyanın tərəqqipərvər və sülhpərvər gənclər və ziyalıları qan tökülməsinin qarşısını almalıyıq. Artıq bəllidir ki, azərbaycanlılar da qan tökməyə üstünlük vermirlər, lakin elə radikal meylli qüvvələr var ki, iki xalq arasında müharibənin başlanmasını arzulayırlar. Burada Türkiyə, İran, Pakistan və başqa ölkələr xüsusi fəallıq göstərirlər. Biz hər şeyi sülhlə həll edə bilərik.

- Raya, sadaladığın ölkələr heç vaxt istəməzlər ki, növbəti dəfə Qafqazda destabilizasiya yaransın. – deyə azərbaycanlı tələbə təmkinlə dilləndi. - O ki qaldı İrana, həmin ölkə yalnız sizə öz dəstəyini göstərir. Bundan əlavə hamı bilir ki, düyünə çevrilən Qarabağ məsələsinin açarı yalnız Rusiyanın əlindədir. Rusiya istəsə bizim torpaqlarda əbədilik sülh bərqərar olar.

- Rusiyanın mövqeyi hamıya bəllidir, qan axıdılmadan həmin münaqişə birdəfəlik həll olunsun. – deyə Aleksandr öz fikirini söylədi. – Ekstremist qüvvələr yox olsa, onda sizin xalqlar yenə də əvvəlki kimi əziz və mehriban qonşular kimi yaşaya bilərlər. Bir parça torpağa görə bu qədər qan axıdılması yalnız düşmənçiliyin artmasına gətirib çıxarıbdır.

- Hər kəsən öz torpağında yaşasaydı, belə müsibətlər də baş verməzdi. – Nizami təəssüf hissilə dilləndi. – Məsələnin müsbət həlli yalnız camaatın öz torpaqlarına qayıtmasından sonra mümkün olar.

- Bu da, Qarabağda yaşayan əhalinin öz müqəddəratının həll olmasından sonra baş verə bilər. – deyə Raisa niyyətini açıqlamalı oldu. – Referendumun keçirilməsi mütləqdir. Orada yaşayan əhali harada, hansı ölkənin tərkibində və yaxud müstəqil yaşamaq istəyirsə, qoy elə də olsun.

- Raya, Qarabağ hansı ölkəyə tabedirsə, orada da qalmalıdır. – deyə Nizami erməni qızın dedikləri ilə razılaşmadı. – Həm də orada referendum necə keçirilə bilər? Həmin ərazidə sizin millətdən başqa digər millətlər yaşamır. Müharibə başlayanda orada min illərlə yaşayan bütün azərbaycanlılar ev-eşiklərindən didərgin salındı. Elə bizim nəsil də doğulduğu yurd-yuvasını tərk edib, tamamilə başqa bir ərazidə çadır şəhərciklərində sığınacaq tapıblar. Mən özüm Beyləqan rayonunda yerləşən qaçqın şəhərciyində çadırda anadan olmış və təhsilimi də həmin ağır şəraitdə almışam. Orada referendumun keçirilməsi absurddur. Həm də Qarabağın Azərbay-

candan ayrılması mümkün deyil. Amma həmin yerə yüksək statuslu muxtariyyət vermək olar.

- İndiki zamanda hamı öz evinə qayıdıb referendumda iştirak edə bilər. – erməni qızı qeyri-ciddi fikir söylədi. – Heç kim həmin sakinlərə qarşı düşmənçilik bəsləməyəcək. Amma millətimizə qarşı qətllərdə iştirak edən hər bir kəs, milliyyətindən asılı olmayaraq cinayət məsuliyyətinə cəlb olunacaq.

- Sual verilir ki, haçan, nə vaxt? – deyə Nizaminin dodaqlarında acı təbəssüm sezildi.

- Bütün bunlar bizim əməli fəaliyyəimizdən asılıdır. Biz gənclər passivlik göstərsək, bu məsələ heç vaxt öz həllini tapmayacaq.

Dərs vaxtı başladığından onların söhbəti yarımçıq qaldı və hərə öz fakültəsinə yollandı.

## XI fəsil. Şan-şöhrətə görə şərəf və ləyaqətini tapdaq altına atan ailə

Mayın 9-na iki gün qalmış Alman faşizmi üzərində əldə olunan qələbəni qeyd etmək üçün fəal tələbələr universitetin akt zalına dəvət edilmişdi. Böyük Vətən müharibəsində iştirak etmiş hər bir millətdən Sovet İttifaqı Qəhrəmanı çıxmış və

burada təhsil alan hər bir tələbə onların xatirəsini yad etmək üçün portretlərini başları üzərində tutmuşdu. Eləcə də Nizami, Aleksandr və onun yanında olan Raisa əllərində portret tutaraq, bayram tədbirində iştirak edirdilər. Nizami gördü ki, həmin qız Baqramyanın surətini başı üzərində tutaraq, başqalarının diqqətini özünə cəlb edir.

Çıxışlar əvvəlcədən paylansa da, tədbirin sonuna yaxın Raisa məclis iştirakçılarından söz alır və yüksək tribunadan erməni xalqının həmin müharibədə əvəzsiz rol oynadığını qeyd edərək, öz millətini yüksək zirvələrə qaldırmağa çalışdı. Qızın çıxışında o dərəcədə şişirdilmiş ifadələr vardı ki, həmin müharibədən anlayışı olmayan və həmin dövrün tarixindən başı çıxmayan adam olsaydı, elə faşizm üzərində qələbəni ermənilərin təmin etdiyini zənn edərdi. Məhz həmin çıxışdan sonra Nizami Raisanın nəyə qadir olduğunu anlayır və başa düşür ki, jurnalistikaya yiyələnən bu qızdan heç vaxt obyektiv məqalələr gözləməyə dəyməz. Ambisioz qız öz yaşıdları arasında lider olmağa can atırdı. O, hər an heç bir şeyə əhəmiyyət vermədən, şəxsi ambisiyalarına görə kimi istəsə şərləyə bilərdi.

Raisa ilə olan müzakirələr maraqlı olsa da, Nizami bir qədər ondan uzaqlaşmağı qərara aldı.

Həmin axşam Eduard anası Marqo ilə birlikdə hər iki qızını süfrə arxasına dəvət edib şam yeməyə başladı. 25 yaşlı böyük qızı Elizabet gəmi təmiri şirkətində yeməkxana müdiri işlədiyi üçün, yatmağa üç-dörd saat qalmış evə gəlirdi. O, eyni vaxtı

həm Sergeylə, həm də işlədiyi şirkətin prezidentinin sürücüsü ilə də görüşürdü. Bu dəfə atası ilə vacib söhbəti olduğundan o, iş yerindən iki saat tez gəlmişdi. Karmen adlı 21 yaşlı kiçik qız isə həmin şirkətdə baş mühəndisin katibəsi idi və demək olar ki, o, özündən 30 yaş böyük olan kişinin məşuqəsinə çevirilmişdi. Karmen əlavə olaraq mahnı oxumaqla məşğul idi və onun ən böyük arzusu hansısa bir musiqi yarışmasında iştirak edib qələbə qazanmaq idi.  O, da atasının təkidi ilə müdirindən icazə alıb evə tez gəlmişdi.

Elizabet balacaboy, bir qədər kök, cüzi sallaq qarınlı, enlisifət, azacıq əyriburun, yekə ağız idi. Onun solğun gözləri içəri batmış, çənəsi azacıq qabağa çıxmış, qara qıvrım saçları boynunun ardına kimi kəsilmişdi. Karmen isə bir qədər uzun, arıq, uzunsifət, böyük burunlu, domba göz, yekəağız və özünə görə azacıq yaraşıqlı görünürdü. Hər iki bacı həddi-buluğa çatan kimi işləməyə başlamış və qazandıqları pulların böyük bir hissəsini bankda saxlayırdılar. Kommunal xərclər demək olar ki, onların boynunda idi. Eduard isə qazandığı pullara Leninqrad vilayətinin Qatçina şəhərinin kənarında kreditlə üç otaqlı mənzil almış və onu xarici mühacirlərə kirayəyə vermişdi. Onun bu planından Sergeyin xəbəri yox idi və rus ziyalısı elə başa düşürdü ki, Eduard ev almaq üçün hələ də pul yığır.

Bir sözlə, Qarabağdan qaçaq düşən bu ailənin maddi vəziyyəti çox yaxşı idi və onlar bəzi yerli adamlardan yaxşı dolanırdılar. Lakin belə bir maddi duruma baxmayaraq onlar

özlərini yerli sakinlərin, xüsusən də imkanlı şəxlərin yanında ən yazıq, ən kasıb, ən məzlum adamlar kimi aparırdılar ki, əks tərəfdən ianələr ala bilsinlər. Eduardın isə əsas məqsədi qızlarını hansısa yaşlı imkanlı bir şəxsə sırımaq və qısa müddət ərzində həmin şəxsin varidatına sahib olmaq idi.

Bu günkü söhbət xüsusi önəm daşıdığı üçün ailə sahibi övladlarına ciddi təsir etmək fikirində idi. Məhz buna görə də o, 77 yaşlı anası Marqonu bura dəvət etmədi. Eduard qarşısına qoyulan təamlardan heç bir şey dadmadan ciddi halda dedi:

- Əziz balalar, türklər (azərbaycanlılar nəzərdə tutulur) getdikcə hər yerə burunlarını soxurlar. Onların dövlət başçısı çevik siyasət aparmaqla Avropada daha çox nüfuz qazanmaq üzrədir və həmin siyasətin nəticəsində onlar informasiya blokadasından qurtulublar. Bilirsiniz də bütün bunlar biz ermənilər üçün nə ilə qurtara bilər?

- Bizimkilər passivlik etdiyindən türklər aktivləşdilər. – sir-sifətini əyən Elizabet narazı halda dilləndi. –Acınacaqlı hal isə odur ki, onlar dünyanın nüfuzlu şəxsləri ilə dostluq münasibətləri qururlar.

- Amerikada bizimkilərin böyük üstünlük təşkil etmələrinə baxmayaraq, azərbaycanlılar türklərlə birlikdə Xocalı ilə bağlı bir çox hadisələri işıqlandıra bildilər. – deyə başını təəssüf hissilə tərpədən Eduard məyus halda dilləndi. – Bu bizim Amerikadakı diasporanın zəifliyindən xəbər verir. Demək olar ki, qədim erməni xalqının dünya qarşısındakı missiyası təhlükə altındadır. Onların neftdən gələn gəliri birbaşa bizə

qaşı yönəldilibdir. Hər şeyi ayıq başla analiz etsək, onda görərik ki, onlar hər şeyi planlı şəkildə həyata keçirirlər – elmi-praktik konfranslar təşkil edir, jurnalistlərlə brifinq keçirir, mətbuata, televiziyaya daxil olur və daim hər yerdə bizi biabır etməklə məşğuldurlar. Dünənki barbarlar bizləri Avropadan da didərgin salmaq istəyirlər. Sanki, son illər biz fil qulağında yatmışıq.

- Biz nə etməliyik? – deyə sifətini büzən Karmen belə söhbətlərdən bezdiyini gizlətmədi. - Avropada yaşayan millətləri bizim problemlər maqlandırmır. Demək olar ki, hərə öz işi ilə məşğuldur. Həm də bizə nisbətən Qafqaz türklərinə burada çox hörmət olunur. Rusiya kimi irilikdə olan ölkədə ruslardan sonra ən çox yaşayan millət tatarlar və türklərdir.

- Sual verilir, nəyə görə başqa millətlərə nisbətən Qafqaz türkləri burada çoxluq təşkil edirlər? – deyə başını bulayan Eduard tələsik halda soruşdu. – Ona görə ki, Rusiyada onlara xoş baxırlar. Məhz bu səbəbdən onların Avropaya inteqrasiyası çox asanlıqla baş verir. Məni ən çox bir şey narahat edir, Avropada məskunlaşan türk qızları imkanlı alman kişilərinə ərə gedib, daimi həmin ölkədə kök salmağa çalışırlar. Onlar bunu ona görə edirlər ki, biz erməniləri Avropadan sıxışdırıb çıxarsınlar. Eliza, mənə elə gəlir, sənin ərə getmək vaxtın gəlib çatıbdır. Eşitdiyimə görə, sən Sergeydən əlavə, işlədiyimiz şirkətin prezidendinin sürücüsü ilə də yaxın əlaqələr yaratmısan?

- Bəlkə mən, qanun pozuntuluğuna yol vermişəm? - deyə böyük qız giley-güzarla dilləndi. – Kiminləsə əlaqə qurmaq üçün mən səndən icazə almalıyam?

- Yox, mənim dediyim başqadır, - Eduard üzünə sərt ifadə verdi. – Sürücü ilə yaşayıb ömrünü puç etməkdənsə, imkanlı və tanınmış adamla ailə həyatı qurub xoşbəxt olmaq lazımdır.

- Mən sürücünün yox, o, mənim dalıma düşübdür. Həm də mən imkanlı adamı haradan tapım ki, onunla ailə həyatı qurum? **“Qaz”,** və ya **“Vaz”** avtomobil konsernlərinin prezidentlərini tanısaydım özümü onlara sırıyardım.

- Bunun üçün axtarış etmək lazım deyil, hər şey elə sənin burnunun ucundadır. – deyə ata tələsik halda dilləndi. – Elə götürək Sergeyin özünü. O, avtomobil konsernin prezidenti olmasa da, özünə görə kifayət qədər imkanlıdır. Yadda saxla ki, Sergeyin həm burada, həm də Sankt-Peterburqun özündə çox bahalı evi var. Deməli, o, dul olmaqdan əlavə, həm də kifayət qədər imkanlı bir adam sayılır. Hesabında olan pullardan isə sən təxmini halisən.

- Ondan qocasını tapa bilmədin? – deyə yaraşıqlı görünməyən Elizabet sifətini büzən kimi daha da eybəcərləşdi. – Özün yaşda kişini mənə sırımaq istəyirsən?

- Özüm yaşda adamın yaxşı varidatı var. – Eduard hökmlə dilləndi. – Çətini həmin evə daxil olmaqdır, ondan sonra isə o, gəbərəndə sən onun varidatına sahib olacaqsan.

- Sən elə danışırsan ki, guya o, iki-üç ildən sonra öləcək. – deyə Elizabet narazılığını bildirdi. – Bilmirsən ki, firavan

həyata öyrəşmiş adamlar 80-90 il yaşayırlar? Mən cavan vaxtımda ona ərə getsəm də, ondan tez bu işıqlı dünyadan köçəcəm.

- Eliza, sən nə naz edirsən, guya Sergeydən başqa səni hansısa bir axmaq uzun əyri burnunla alacaq? – deyə əsəblərini saxlaya bilməyən Karmen hiddətləndi. – Heç də yaşlı olmayan həmin adam səni alsa, onda ömürboyu ona və məsləhət verdiyi üçün atana minnətdar olacaqsan.

- Sən yenə də təhqirə keçdin? – deyə böyük bacı gözlərini bərəldərək vəcdə gəldi. – Mən, heç olmasa burnumu plastik cərrahiyyə əməliyyatı elətdirib adama oxşayaram. Bəs sən, siçovula oxşar sifətinlə, kimə ərə gedərsən?

Elə həmin an hər iki bacının arasında güclü mübahisə yarandı. Onların qışqırtısı evdə olanların hamısını təşvişə saldı. Hətta Marqo ayılıb bura gəldi və nə baş verdiyini soruşdu. Araya girən ata birtəhər qızları sakitləşdirib, onları tənbeh etməyə başladı. Otağa sükut çökən kimi Elizabet qəzəblə:

- Gördün, sənin qızın mənim paxıllığımı çəkir. Əslinə qalanda o, düz deyir, məni - əli ilə burnunu göstərərək - belə bir əyri burunla kim alacaq? Başa düşmürəm, sən bu pulları hara yığırsan? Sankt-Peterburqda çox təcrübəli plastik cərrahlar var və biz nəzərdə tutulan məbləği müvafiq klinikaya keçirsək, onda mən dünya gözəli kimi bütün kişilərə meydan oxuya bilərərm.

- Bilmirsən, mən həmin pulları hara yığıram? – deyə üz-gözünü bozardan Eduard qeyri-müəyyən tərzdə dilləndi. –

Hər ikinizin xoşbəxt olması üçün, mən həmin pulları toplayıram. Eliza iki-üç ayda döz, mən səni cərrahiyyə əməliyyatına göndərəcəm.

- Nə deyirəm ki, dediyin iki-üç ayı da gözləyərəm.

Qızının yumşaldığını görən ata dərindən köksünü ötürərək yavaş səslə dedi:

- Bax, hər ikinizə deyirəm, bir çox vacib, nüfuzlu adam sizi məndən soruşur və hiss edirəm ki, mənimlə qohum olmaq istəyirlər. İşlədiyiniz yeri soruşanda mən deyirəm ki, böyük qız Ermənistanda fəaliyyət göstərən və Aropada erməni kulinariyasının təbliği ilə məşğul olan böyük bir ictimai birliyinin idarə heyətinin üzvüdür, kiçik qız isə erməni musiqi alətlərinin təbliği ilə məşğuldur.

Bu sözlərdən sonra Elizabet güldü, Karmen isə çiyinlərini çəkərək çaşqınlıq içərisində dedi:

- Başa düşürəm, sən bizim yaxşılığımıza görə belə bir uydurmalara əl atırsan. Amma mən qorxuram ki, haçansa bu yalanların üstü açılacaq və biz camaat arasında biabır olacayıq.

- Biz elə informasiya üsulundan istifadə etməliyik ki, həmin yalan beynlərə köçürüləndə həqiqətə oxşasın və üstü açılanda da şok effekti yaşatmasın. – deyə Eduard həvəslə dilləndi. - Qarabağ xanəndələrinin mahnılarını bizimkilər öz mahnıları kimi ifa edəndə, məgər türklər nəsə edə bilirlər? Bütün dinləyicilər elə zənn edir ki, həmin mahnılar erməni xalq mahnılarıdır.

- Sən elə danışırsan ki, guya biz onların mahnılarını mənimsəməklə məşğuluq. – deyə Elizabet narazı halda dilləndi. – Marqo nənə deyir ki, bizim nə qədər mahnılarımız varsa, türklərlə, azərbaycanlılar həmin musiqi əsərlərini özününküləşdirərək albom şəkilində buraxdırırlar. Elə tar, kamança, saz, qaboy, balaban, nağara və başqa musiqi alətlərimiz də onlar tərəfindən oğurlanaraq, hamıya özlərinin milli musiqi alətləri kimi camaata sırıyırlar. Belə bir haqsızlığa dünya ictimaiyyəti necə tab gətirir?

- Eliza, sən əsl vətənpərvər erməni kimi fikir yürüdürsən. – deyə qızının sözlərindən məmnunluğunu gizlətməyən Eduard həyasızcasına dilləndi. – İndi erməni xalqının əsas vəzifələrdən biri, xalq mahnılarımızı özümüzə qaytarmaqdan ibarətdir.

- Avropanın mədəniyyət institutları, elmi-mədəni birlikləri yardım etməsələr, biz heç nə edə bilməyəcəyik. – deyə Karmen ürəkyanğısı ilə dilləndi. – Mən özüm fərdi şəkildə olaraq folklor ifaçılıq sənəti ilə məşğul olur və "Sarı gəlin", "Pəncərədən daş gəlir", "Küçələrə su səpmişəm" və digər mahnılarımızı oxuyub, disk buraxdırmaq fikirindəyəm. Bunun üçün əlbəttə ki, güclü sponsor və tanınmış prodüsser lazımdır.

- Qızım, sən bu haqda narahat olma, mən yerli diasporaya müraciət edib sənin məsələni gündəmə salacağam. Amma sən öz üzərində çox çalışmalısan ki, beynəlxalq qastrollara gedəndə onun bəhrəsini görəsən.

- Sonra da Qafqaz türkləri qışqır-bağır salacaqlar ki, Karmenin oxuduğu mahnılar onlarındır. – deyə Elizabet isteh-za ilə dilləndi.

- Onsuz da hər ay bizimkilər mahnı ilə bağlı olan problemləri həll etmək üçün türklərlə kəllə-kəlləyə gəlirlər. – Karmen üz-gözünü turşutdu və atasına çəpəki nəzər salaraq narazı halda sözünə davam etdi. – Ata, sənin satqın bacın isə daim bizim düşmənlərimizin tərəfini saxlayır. Mən həmin mahnıları oxuyanda o, deyəcək ki, musiqi türklərə məxsusdur.

- Sən, bibini günahlandırma, - deyə Eduard qızını sakitləşdirməyə çalışdı. – Sumqayıt hadisələrindən sonra o, hələ də özünə gələ bilməyibdir.

- O, özünü elə aparır ki, guya Sumqayıt hadisələri zamanı türklər yox, biz onun ərini öldürmüşük. – Elizabet çiyinlərini çəkərək giley-güzarla dilləndi. – Mütləq onun başını müalicə etmək lazımdır. Yoxsa o, harada gəldi bizi biabır edir.

- Yaxşıdır ki, qızı Raisa ona oxşamayıbdır, – deyə Eduard məyus halda dilləndi. - yoxsa birdəfəlik mən həmin ailədən üz döndərəcəkdim. Bax, götürək elə Rayanın özünü. O, univer-sitetdə oxumaqla yanaşı Sergeyin yeganə oğlu Saşanı özünə sevdiribdir. Halbuki, Karmenin həmin evə gəlin köçməsi mənim arzum sayılırdı.

- Rayanın yaşının az olmasına baxmayaraq o, küpəgirən arvadlardan da çox bilir. – deyə Karmen narazı halda dilləndi. – Vaxt var idi Saşanın gözü mənə düşmüşdü, lakin bacın

qızının araya girməsi nəticəsində, mama uşağı öz fikirini dəyişməli oldu.

- Sən, elə ancaq qohumların üçün çalışırsan. – deyə Elizabet də narazı halda öz iradını atasına bildirdi. – Sergeyin qızını ələ keçirmək üçün sən, əmin oğlu Robertə şərait yaratdın. Yelizaveta universiteti bitirən kimi Robert onunla toy edəcək.

- Mənim oğlum var ki, onların izdivacına qarşı çıxım? – deyə ailə başçısı qızları ilə razılaşmadı. – İndi əsas məqsədim sizin hər ikinizi xoşbəxt etməkdir və bunun üçün mən bütün səy və bacarığımdan istifadə edəcəm.

Aşot Qarabağda gedən müharibə zamanı quldurluq edəndə Azərbaycan əsgərləri tərəfindən öldürülmüşdü. Atasının dəfnində iştirak etməyən Pobert Şimali Qafqazda kommersiya ilə məşğul idi. Onun əsas funksiyası, Eduardın vəhşiçəsinə qətlə yetirdiyi azərbaycanlılardan qarət etdiyi malları və zinət əşyalarını satmaqdan ibarət olmuşdu. Müvəqqəti də olsa, hər iki qohum həmin iyrənc kommersiyadan yaxşı mənfəət əldə edə bilmişdilər. O vaxtdan Robert orta imkana malik olan bir biznesmenə çevrilir və o, Sankt-Peterburq şəhərində ticarət şəbəkəsi yaratmışdı. Məhz belə bir gəliş-gedişlərdən sonra erməni biznesmeni Sergeyin qızını görüb, onunla ailə həyatı qurmağa planlaşdırır. Əsas, şərtlərdən biri odur ki, həmin izdivac baş tutmamışdan elmlər namizədi Sankt-Peterburqun mərkəzində olan üçotaqlı mənzili qızının adına keçirsin.

Sergey isə bu haqda fikirləşəcəyini bildirərək, qərar verməyə tələsməmişdi. Çünki son sözü Yelizaveta deməli idi.

Eduard öz qızlarını təlimatlandırandan sonra onları rahat buraxdı.

## XII fəsil. Qeyri-adi bir hadisənin baş verməsi

Ermənilərin Xocalıda törətdikləri soyqırım ilə bağlı növbəti ildönüm ərəfəsində Meksika parlamenti, oradakı vəhşiliyin miqyasını faktlar əsasında nəzərdən keçirəndən sonra, həmin soyırımı tanıdı. Latın Amerikasının ən böyük ölkələrindən birinin deputatları ağıllarına belə gətirə bilmirdilər ki, belə bir faciə Avropa məkanına daxil olan bir ölkədə baş verib və maraqlıdır ki, həmin faciəyə görə Ermənistan respublikasına qarşı siyasi və iqtisadi sanksiyalar tətbiq olunmayıbdır. Lakin ədaləti bir çox meyarlardan üstün tutan meksikalı millət vəkilləri soyqırımı tanıyan zaman, həmin qətliamı həyata keçirən erməni millətçiləri səslərini başlarına alıb, Meksika parlamentində qəbul edilən həmin qanuna qarşı lənət yağdırmağa başaladılar.

Bu xəbər gündüz vaxtı televizorda verildiyindən Eduardın bundan xəbəri yox idi. Çünki bu gün onun başı ailəsi ilə birlikdə, Xocalı şəhərinin erməni quldurları tərəfindən işğal edilməsinin qeyd olunmasına qarışmışdı. Qızları vaxtlarından tez işdən qayıtmış və süfrə hazırlanmasında müvafiq işlər görürdülər. Bu münasibətlə, Raisa sevgilisi Aleksandrı da evə dəvət etmişdi.

Evdəkilər süfrə arxasında əyləşən zaman Raisa heç kimdən utanmadan qrup yoldaşı ilə yataq otağında mazaqlaşır, onunla eşq-macəra həyatı yaşayırdı. Raisa ilə Aleksandr özlərini elə aparırdılar ki, sankı ər-arvaddırlar. Onların arasında hökm sürən sıx münasibət qızın dayısı Eduarda pis təsir göstərirdi və o, əsəbləri tarıma çəkilən zaman Raisaya özünü düz aparmaq üçün xəbərdarlıq etməyə məcbur olurdu. Uşaqlıqdan Rusiyada yaşayan, oranın mühitinə öyrəşən şıltaq qız isə onun hərəkətlərində heç bir ayıb işin olmadığını bildirərək, kobud davranışlı dayısını daha da qıcıqlandırırdı.

Aleksandrın fevralın 26-da bu evə çağırılması üçün xüsusi məqsəd güdülmüşdü. Özlərinə lazım olan tarxi hadisəni öz mənafelərinə uyğun şəkildə təhrif etməkdə mahir usta sayılan ermənilər, qondarma tarixi hadisəni digər millətlərin beynlərinə yeritmək üçün böyük fəallıq nümayiş etdirirdilər. Qarabağın azərbaycanlıların məskunlaşdığı ən böyük şəhərlərindən biri olan Xocalını rus hərbi hissənin köməyi ilə darmadağın edib, yerli əhalini isə tarixdə misli görünməmiş xüsusi qəddarlıqla qətlə yetirərək, bunu özlərinin zəfər qələbəsi kimi

qələmə verməyə çalışırdılar. Guya həmin Xocalı ermənilərin yaşayış məskəni olmuş və onlar həmin şəhəri azərbaycanlılardan azad etmişdilər. Universitetin jurnalistika fakültəsində oxuyan tələbələr, o cümlədən Aleksandr həmin qanlı olayı ermənilərin istəklərinə uyğun şəkildə mətbuat səhifələrində işıqlandırmalıydılar.

Başda Eduard olmaqla hamı süfrə arxasına keçdi. Onun 78 yaşlı beli bükülmüş və arıqlıqdan sümükləri üzə çıxmış anası Marqo iki bacının – Elizabet ilə Karmenin arasında, Janna isə sevgilisi ilə birlikdə onlarla üzbəüz masa arxasında əyləşmişdilər. Həmişəki kimi Azərbaycan mətbəxinin təamları süfrəyə düzülmüş və bunu özlərinin milli yeməkləri kimi təqdim etməkdən xəcalət hissi çəkmədilər. İlkin badəni Eduard qaldıraraq qalın səsi ilə hamının diqqətini özünə cəlb etdi:

- Bu badəni, xalqımızın qədim yaşayış məskənlərindən biri olan Xocalı şəhərinin türklərin əsarətindən azad edən və Qafqazda Rusiyanın sədaqətli və etibarlı müttəfiqi olan şanlı erməni döyüşçülərin sağlığına qaldırıram. Həmin tarixi hadisədən sonra Qarabağ bütünlüklə bizim özümüzə qayıtdı.

- Əminəm ki, bizim ordu “Böyük Ermənistan”ın şərqində yerləşən doğma Bakı şəhərini də ələ keçirəcək. – deyə danışmağa halı olmayan qarı xırıltılı səsi ilə oğlunun sözlərinə dəstək verdi.

Aleksandr arağı içən kimi sanki ayıldı və təəccüb dolu baxışlarını Eduarda tərəf yönəldib, maraqla soruşdu:

- Məgər, Bakı erməni şəhəridir? Mən biləni hələ Afanasi Nikitinin dövründə Bakı azərbaycanlıların şəhəri kimi göstərilir.

- Əzizim, peşəkar jurnalist olmaq istəyirsənsə, erməni xalqının tarixini oxumaq lazımdır. – deyə məclisə dəvət etdiyi gənc tələbəni aldatmaqdan çəkinməyən həyasız ailə başçısı giley-güzarla dilləndi. – Yadda saxla ki, indiki adlandırılan qondarma "Azərbaycan" ərazisi bütünlüklə ermənilərin olubdur.

- Əfsuslar olsun ki, mən bu haqda dürüst məlumata malik deyiləm. – deyə Aleksandr çaşqınlıq içərisində dilləndi. – Halbuki tarix fənnini mən universitetdə diqqətlə izləyirəm.

- Onda müəllimləriniz zəifdir. – deyə Marqo oğlana nəzər salmadan atmaca ilə dilləndi.

Məclis davam edə-edə otaqdakı televizor işləyirdi. Bir az keçəndən sonra xəbərlər verilişi yayımlanmağa başladı. Həmişəki kimi Eduardın anası xəbərlərə qulaq asmaq üçün qulaqlarını televiziyaya şəklədi. Yaşının kifayət qədər çox olmasına baxmayaraq o, distansion pultdan lazımi şəkildə istifadə edə bilirdi və qarı heç kimə əhəmiyyət vermədən televizorun səsini artırdı.

Bu vaxt onun hərəkətindən narazı olan Janna sifətini büzərək "Marqo yenə də kar qulağını işə saldı" ifadəsini elə işlətdi ki, Elizabetin hirslənməsinə baxmayaraq, Karmen qəhqəhə çəkib gülməyə başladı. Eduardın böyük qızı nənəsini çox istədiyindən o, ikrah hissi ilə dedi:

- Gedib, ağıldan kəm olan o biri nənəni dolayarsan.

- O, ağıldan kəm olsa da, min dəfə səndən ağıllıdır. – deyə Janna ara vermədən cavab verdi.

- Utanmırsınız, evdə qonaq ola-ola bir-birinizi sancırsınız? – deyə Eduard qızları sakitləşdirməyə çalışdı. – Tez olun, səsinizi kəsin.

Araya sükut çökən kimi birdən Marqo - "Edik, qulaq as, gör nə deyirlər", deyərək səsini ucaltdı. Bu məqamda hamının diqqəti mavi ekrana yönəldi. Hazırda televizorda gedən xəbərlər verilişində Xocalı soyqırımı ilə bağlı məlumat gedirdi. Orada Meksika parlamentinın rəsmi olaraq, ermənilərin cinayətini sübut edən Xocalı soyqırımının tanınması nümayiş olunurdu.

Türk soyna qarşı nifrət bəsləyən Eduardın ailəsi həmin görüntüləri mavi ekranlarda seyr edəndə, ailə başçısı qışqır-bağır salmağa başladı:

- Meksikalılar da özlərini xristian adlandırırlar? Onlar da türklər kimi ölümə layiqdirlər.

- Edik, - deyə Marqo nəzərini oğluna tərəf yönəldərək səbirsizliklə soruşdu. - mən yaxşı başa düşmədim, Meksika Xocalı soyqırımını tanıyıbdır?

- Qulaqların kardır, eşitmirsən? – deyə vəcdə gələn Eduard anasının üstünə elə qışqırdı ki, qoca arvad qorxudan kresloya qısıldı. - Əlbəttə tanıyıbdır.

Əsəbləri tarıma çəkilən Eduard heç kimə əhəmiyyət vermədən cəld televizoru əlinə alıb ikinci mərtəbədən aşağı

tulladı. Həmin evdə onlardan başqa daha iki erməni ailəsi yaşayırdı və onlar da səs-küyü eşidib, nə baş verdiyini öyrənmək üçün həmin otağa doluşdular. Qəzəbdən Eduardın əlləri tir-tir əsirdi və o, xəbəri soydaşlarına çatdıran kimi meksikalıları söyməyə, lənətləməyə başladı. Hətta Eduardın yaşlı anası Marqo Meksika parlamentinin çıxardığı ədalətli qərara tab gətirməyib, ürəyi infarkt oldu. Daim kin-küdurət içərisində yaşamış həmin eybəcərləşmiş qarı "ola bilməz" deyərək, yerə sərildi və heç bir dəqiqə keçməmiş ürək çatışmamazlığından dünyasını dəyişdi.

- Türklər mənim nənəmi öldürdülər. – Elizabet hay-gurufla qışqıraraq, ölən qarını qucaqladı.

Həmin an Karmenin halı pisləşdi və o, başını tutub, öz dilində türklərin ünvanına qarğış yağdıra-yağdıra yerə sərildi. Eduard kin-küdurət içərisində yaşayan qarının ölən cəsədini yerdən götürüb divana uzatdı və dərhal kiçik qızına tərəf getdi.

Bütün bu hadisə Aleksandrın gözləri önündə baş verirdi. O, ətrafındakı adamların hiddətləndiyini görüb qorxusundan otağın bir küncünə sıxıldı. Janna da həmin ağlasığmaz səhnənin iştirakçısına çevirilmişdi. Hazırda gözləri bərələ qalan və dili tutulan Aleksandr ruhi xəstələrin hərəkətlərini xatırladan həmin anormal hərəkətlərin şahidi sayılırdı.

Həmişə özlərini mədəni göstərməyə çalışan həmin sakinlərin, bu dəfə əyani surətdə iç üzü açlmışdı. Onlarda demək olar ki, insanlıqdan heç bir əsər-əlamət qalmamışdı.

Başqasının ədlətli qərarına bu dərəcə sərt reaksiya vermək və özünü dağa-daşa çırpmaq, ümumiyyətlə bu cür anormal hərəkət heç bir məntiqə sığmırdı. Aleksandr onların belə bir təşviş keçirməsini görüb özünə nifrət edərək tələsik halda oradan uzaqlaşdı.

O, evinə gələndə atası ilə qonaq zalında üzləşdi. Tarixçi pedaqoq evdə bərk səslə televizora baxdığı üçün qonşu həyətdəki səs-küyü eşitməmişdi. Sergey oğlunun həyəcanlı olduğunu görüb, israrla soruşdu:

- Saşa, sənə nə olubdur? Kimsə xətrinə dəyibdir?

- Mənim xətrimə kim dəyə bilər? – deyə oğlan özünü ələ almağa çalışsa da, daxilindəki gərginliyi dəf edə bilmədi. – Sadəcə olaraq, bu gün mən elə bir səhnənin şahidi oldum ki, az qala özümü dəlixanada olduğumu zənn edəm. Ağlıma gəlməzdi ki, insanlar hər hansı bir vizual görüntüdən kəskin şəkildə dəyişə bilər.

- Oğlum, sənə nə olub axı? – deyə ata həyəcanla soruşdu.

Bundan sonra o, Eduardgildə baş verən hadisəni atasına ərz etdi. Əvvəlcə Sergey oğlunun sözlərinə inanmaq istəmədi, lakin son anda bunun həqiqət olduğunu anladı. Bu bir növ onun üçün həyəcan təbili sayılırdı. Axı, hərtərəfli Eduarda etibar edən Sergey Elizabeti almaqla, onunla qohum olmağı planlaşdırmışdı. Bundan əlavə Eduard dəfələrlə vurğulamışdı ki, Aleksandr Janna ilə ailə həyatı qursa, onlar daim xoşbəxt olacaqlar. Qaçqın ermənilərin evində baş verən qəribə olay rus pedaqoqunu çaş-baş saldı.

Əgər, Aleksandrın dedikləri düzdürsə, onda həmin o iki millətin arasındakı düşmənçilik həddindən artıq ifrat dərəcədədir. – deyə elmlər namizədi öz-özünə düşündü. – Hansısa bir parlamentin nümayəndələrinin kiminsə xeyrinə qərar çıxardığına görə, fatal sonluqla nəticələnən belə bir emosional reaksiya bildirmək, normal şəxsə xas olan bir hərəkət sayılmır. Belə çıxır ki, onların hamısı ruhi xəstədirlər. Qarabağda başa çatan müharibənin üstündən təxminən 18 il keçir, Eduard isə ailəsi ilə birlikdə həmin münaqişənin ağrı-acısını indiyənə kimi hələ də yaddan çıxarmayıbdır.

Belə bir ifrat düşmənçilik yalnız qanı nifrətlə yoğrulmuş sivilizasiyadan kənar insanlarda olur. Beləsinə qalanda, onda İkinci Dünya müharibəsində törədilən vəhşiliklərə, qətllərə, soyqırımlara görə Avropada yaşayan millətlərin əksəriyyəti, o cümlədən, ən ağır itkilərə məruz qalmış biz ruslar almanlarla illərlə düşmənçilik aparmalıyıq? Almanlar isə başqa dağıntıları demirəm, yalnız Drezdenin bombardıman edilib, darmadağın edilməsinə görə ingilislərə və amerikanlara qarşı qisasçılıq hissi ilə yaşamalıdırlar. Fransızlar 1812-ci ildə Moskvanı talan edib külünü göyə sovuran zaman, biz ruslar da Parisə daxil olanda, həmin gözəl şəhəri darmadağın edib yandırmalıydıq?

Mənə elə gəlir, Qarabağ müharibəsi zamanı həmin ailə həddindən artıq fiziki məhrumiyyətlərə məruz qaldığından onlar uzun müddət keçsə belə, hələ də həmin iztirabları yaddan çıxarda bilmirlər. İnsan bu dərəcədə kinli ola bilməz.

Elə mən özüm də onlarla nə vaxt ünsiyyətdə olmuşam, yalnız türkləri və azərbaycanlıları lənətləməklə məşğuldurlar. Elizabetin beyni də düşmənçilik təfəkkürü ilə yoğrulubdur. Daim vətəndən söz düşəndə o, həmin millətləri qarğış etməklə, lənət yağdırmaqla onlara qarşı qisasçılıq hissi ilə yaşadığını gizlətmir.

Yaxşıdır, bizim aramızda nigah qurulmayıbdır. Yoxsa, mən həmin insanlarla qohum olmaqla problemlə üzləşərdim. Axı, Abram (Sergeyin yəhudi dostu) məni bir neçə dəfə xəbərdarlıq etmişdi ki, nəinki bu ailədən, ümumiyyətlə ermənilərin hamısından uzaq olum. Müəyyən mənada onun sözləri təsdiqini tapır.

Elə bir az keçmişdi ki, Elizabet zəng edib ağlaya-ağlaya nənəsinin öldüyünü xəbər verdi və qoca qarının dəfn edilməsi ilə bağlı tədbir görməsində onlara kömək etməsini xahiş etdi. Sergey isə kömək edəcəyinə söz versə də, dəfndə iştirak edə bilməyəcəyini bildirdi. O, bunu şəhərdə beynəlxalq konfrasda iştirak etməsi ilə əsaslandırdı.

Dəfn mərasimi olanda Aleksandr da onların qaldıqları evə getmədi və Jannanın bütün zənglərini cavabsız qoydu. Janna belə bir hərəkətlərdən sonra isə ondan incidiyini bildirərək, bir daha zəng etməyəcəyini bəyan etdi.

Marqonun dəfnindən bir gün sonra Sergey onlara getdi və gördü ki, Eduard qanı qaralmış vəziyyətdə qonaq otağında oturub, anası ilə bağlı olan şəkilləri nəzərdən keçirir.

Masanın üstündə şoraba və araq vardı. Evə gələn hər bir adam mərhuməni yad etmək üçün burada çox gözləməməli idi. Sergey başsağlığı verən kimi Eduard yenə də tülkü cildinə girib süni göz yaşlarını axıdaraq, məzlum şəkildə dedi:

- Türklərin ucbatından anamı itirəndən sonra qorxuram ki, övladlarım da eyni faciə ilə üzləşsinlər. Bakıda tək qalan bacım düşmənlərimizin girovudur və hər an o, türklər tərəfindən qətlə yetirilə bilər. Bundan əlavə mən Qarabağda qalan böyük bacıma görə narahatam. O, da demək olar ki, barıt çəlləyinin üstündədir və hər an türklər tərəfindən öldürülə bilər.

- Edik, Marqonun ölümünə türklərin nə aidiyyatı var? – deyə elmlər namizədi təəccübdən yerindəcə donub qaldı.

- Onlar, meksikalıları yoldan çıxarıb Xocalı ilə bağlı zidd qərar qəbul etməsəydilər, onda zavallı anamın ürəyi dayanmazdı.

- Türklər, meksikalı deputatları yoldan necə çıxara bilərdilər? – deyə hələ də təəccüb içərisində olan ziyalı tərəddüdlə dilləndi. – Mən biləni, həmin qərarı Meksika parlamenti çıxarıbdır və dəqiq deyə bilərəm ki, türklər heç cürə onlara təsir edə bilməz. Başqa ölkələrdən fərqli olaraq Meksika höküməti, hətta Amerika Birləşmiş Ştatlarının siyasi və hərbi təsirinə əhəmiyyət vermədən müstəqil siyasət yürüdür.

- Əziz dostum, sən türkləri yaxşı tanımırsan. – deyə bir anın içərisində gözlərinin yaşı quruyan Eduard duza qoyulmuş sarmsağın qabığını soya-soya hüznlə dilləndi. - Onlar kimi

istəsə yoldan çıxara bilərlər. Türklərin qızışdırıcı mövqeyi olmasaydı, indi anam burada oturub bizimlə söhbət edərdi.

- Edik, başa düşürəm yas içindəsən, amma ədalət naminə deməliyəm ki, həmin ölümdə türklərin heç bir təqsiri yoxdur. – öz fikirindən dönməyən ziyalı həmin ifadə ilə həmsöhbətini ayıltmaq istədi. – O ki qaldı böyük bacına görə narahatsansa, sən onu Sankt-Peterburqa gətizdirib, burada saxlaya bilərsən.

- Sergey Vladimiroviç, mənim bacım çox vətənpərvər bir insandır və o, heç vaxt Qarabağı qoyub bura gəlməz. – deyə ailəsi üçün vətənpərvər don geyindirməyə çalışan erməni qarşısındakı ziyalıya kələk gəlməyə başladı. - O, söz verib ki, bütün erməni torpaqları türklərdən azad olunmayınca, heç vaxt qaldığı torpaqdan ayrılmayacaq. Siz yaxşı bilirsiniz ki, bizim doğma ocağımız Azərbaycandakı türklər tərəfindən işğal olunubdur və bacım qonşu rayonda sığınacaq tapıbdır.

- Bu məsələdə mən, heç bir əlavə fikir söyləyə bilmərəm. – deyə şəhərə getməyi planlaşdıran ziyalı ifadəsini bitirəndən sonra öz evinə qayıtdı.

Sergey xasiyyətcə mülayim olsa da o, özü üçün şübhəli görünən bir çox şeyləri ayırd etməkdən çəkinməzdi. Yəni, onu axıra qədər aldatmaq mümkün deyildi. Son günlərdə Eduardın ailəsi ilə birlikdə nümayiş etdirdikləri hərəkətlər, tarixçidə ikrah hissi doğurmuş və o, indi-indi həmin ermənilərin qara-yaxmalarla, fitnə-fəsadlarla məşğul olduqlarını hiss etməyə başlamışdı.

Muradyanlar ailəsinin qara-gurufçu olmaları üzə çıxdığından Sergey Elizabetlə görüşməkdən birdəfəlik imtina etdi. Daha doğrusu işdən sonra ev sahibini görmək üçün min-bir bəhanə gətirən erməni qızı, həmin evin içərisinə daxil ola bilmirdi. Beş-altı gedişdən sonra Elizabet başa düşdü ki, Sergey ondan üz döndəribdir. O, bunun səbəbini aydınlaşdırmaq üçün bütün mümkün olan varianlardan istifadə etməyə başladı, lakin onların heç birisi səmərə vermədi.

Rus ziyalısı bəzi şübhələrə aydınlıq gətirmək üçün prinsipial olaraq, işlədiyi kafedrada təhsil alan azərbaycanlı tələbəsi ilə görüşməyə qərara alır. Ona görə ki, Eduard o cümlədən, ailəsi və digər ermənilər azərbaycanlıları, qaniçən, barbar, vandal, vəhşı kimi qələmə verirdilər. Lakin bütün bu naqisliklər özünü Nizaminin xarakterində büruzə vermirdi. Nizami kifayət qədər mədəni, tərbiyəli, etik normalarına riayət edən bir oğlan idi və o heç vaxt ermənilərə qarşı nifrət bəsləmirdi. Halbuki Sergeydə olan məlumata əsasən, Nizami Qarabağdan idi və orada müharibə gedən zaman onun qohum itkiləri olmuş, özləri isə doğma ocaqlarından didərgin düşmüşdülər.

Tarixçi pedaqoqların təşəbbüsü ilə vaxtilə Rusiyanın imperatriçası olmuş II Yekaterinanın anadan olduğu günü qeyd etmək üçün, tarix fakültəsinin və başqa fakültələrdə təhsil alan əlaçı tələbələrin iştirakı ilə, elə universitetin akt zalında tədbir keçirildi. 1703-cü ildə əsası İ Pyotr tərəfindən qoyulmuş Neva çayının üzərindəki şəhərdəki bir çox arxiektura-memarlıq binaları, heykəllər, dünya şöhrətli

məbədlər II Yekaterinanın da dövründə düzəldildiyindən onun adı xarici turistlərin qarşısında daim hallanırdı. Tədbir iştirakçıları imperatriçanın Sankt-Peterburqda həyata keçirdiyi mühüm işləri sadalayaraq, onun haqında həddindən artıq məlumatlı olduqlarını nümayiş etdirdilər.

Tədbir başa çatanda Sergey Nizamiyə dedi:

- İstərdim ki, sən məni şəhərdəki mənzilə qədər ötürəsən.

- Məmnuniyyətlə, Sergey Vladimiroviç! – deyə tələbə tərəddüd etmədən dilləndi və müəlliminin çantasını alıb, onunla birlikdə yola düzəldi.

Sergey vaxt itirmədən tələbəsi ilə birlikdə şəhərin məşhur “Yay bağı”na (“Letniy sad”) gedib, orada münasib skamyada bir yer tapdı. Onlar əyləşən kimi pedaqoq dedi:

- Nizami, mən biləni sənin ailən Qarabağdandılar?

- Onlar Qarabağın cənubunda yerləşən Xocavənd rayonunda yaşayıblar.

- Sənə Qarabağda olan hər hansı bir ünvanı desəm, deyə bilərsən həmin yaşayış yeri hansı tərəfdə yerləşir?

- Uşaqlığım Qarabağda keçsə də, mən illər boyu oranın xəritəsini əzbərləmiş və məhz xəritənin köməyi ilə bir çox mühüm yaşayış məskənlərini harada yerləşməsini demək olar ki, beş barmağım kimi bilirəm.

Sergey əlini qoltuq cibinə salıb oradan bir kağız parçası çıxartdı və Eduardın doğulduğu rayon ilə kəndin adını sadaladı. Nizami ünvanı eşidən kimi təəccübdən gözləri bərələ qaldı. O, bir neçə saniyə ara verəndən sonra tələsik halda dedi:

- Sergey Vladimiroviç, uşaqlığımın beş ili həmin kənddə keçibdir. Atam və digər nəslimiz Qaradağlı kəndindəndirlər.

- Mənə elə bu lazımdır. – tarixçi alim həvəslə dilləndi və baxışlarını həmsöhbətinin gözlərinin içərisinə yönəldərək həmin tərzdə dilləndi. – Şəxsən belə bir təsadüfün baş verəcəyini təsəvvür edə bilməzdim.

Nizami, bildiyin kimi mən Qarabağda olmuş və orada ermənilərlə sizin millətin bir kənddə yaşamasını öz gözlərimlə görmüşəm. Mənim üçün maraqlıdır, Qaradağlı kəndində ermənilər çox idi, yoxsa azərbaycanlılar?

- Atamın və başqa həmkəndlilərin dediyinə görə Qaradağlı azərbaycanlıların yaşadığı kənd kimi tanınırdı. İşğala qədər oradakı əhalinin çoxunu yalnız bizim millət təşkil edirdi.

- Edik isə mənə deyirdi ki, ora sırf erməni yaşayış məntəqəsi idi və müharibə zamanı həmin kənd sizin ordu tərəfindən işğal edilmiş, onların bir neçə qohumu isə qətlə yetirilibdir.

- Üzr istəyirəm sizdən, bu yanlış məlumatdır. Həmin müharibə zamanı bizim kənd ermənilər tərəfindən işğal olunmuş, ailəmizin bir neçə üzvü isə erməni quldurları tərəfindən camaatın gözü qarşısında edam edilmişdi. Babam Böyük Vətən müharibəsinin iştirakçısı olmasına baxmayaraq o, da qətlə yetirilmişdi. Bir çox qohumlar isə girov saxlanılan zaman ən amansız işgəncələrə məruz qalmışdılar. Amma onu da xüsusilə qeyd etmək istəyirəm ki, ermənilər bizim milləti doğma yurd-yuvalarından qovandan sonra özləri də həmin

kəndləri tərk edib, xarici ölkələrə, xüsusən də Rusiyaya üz tutublar.

Sergey təcrübəli pedaqoq idi və bir alim kimi istəyirdi ki, maraqlandığı mövzu ilə əlaqədar çoxlu məlumatlar əldə etsin. Eduard Qarabağ məsələsilə bağlı öz fikirini elə yürüdürdü ki, sanki onun dediklərində heç bir yalan yoxdur, lakin Nizaminin fikirləri isə bunun əksindən xəbər verirdi. Rus pedaqoqu elə başa düşdü ki, Nizami bir azərbaycanlı kimi öz mövqeyini müdafiə etmək və erməniləri gözdən salmaq üçün belə bir fikirlər söyləyir. Odur ki, o, belə bir qənaətə gəlir ki, yalnız Ermənistana və Qarabağa gedəndən sonra kimin düzgün, kimin isə yalan olduğunu dəqiqləşdirə biləcək.

## XIII fəsil. Uydurma hadisələrlə bağlı qondarma yığıncaqların təşkil olunması

Ermənilərin uydurduqları "1915-ci il soyqırımı" və həmin uydurmanı min-bir vasitələrlə dünya ictimaiyyətinə sırımaq üçün hər ilin aprelin 24-nü matəm günü kimi qeyd edirdilər. Xarici ölkələrdə fəaliyyət göstərən erməni quldur lobbisi, dilənçiliklə məşğul olan həyasız diasporası bir çox nüfuzlu və

hegemon sayılan dövlətlərin parlamentlərinin ağzında quyruq bulasalar da ki, həmin soyqırım dövlət səviyyəsində tanınsın, lakin onların həmin istəyi elə öz ürəklərində qalırdı. Ona görə ki, həmin məkanlarda yaxşı bilirdilər, şər və böhtandan məharətlə istifadə edən ermənilərin irəli sürdükləri iddianın heç bir əsası yoxdur və tarixi faktlar bunun tamam əksindən xəbər verir. Lakin buna baxmayaraq pul ilə satın alınan beynəlxalq aləmdəki ermənipərəst deputatlar və "siyasi xadimlər" qondarma "soyqırımı" gündəmə gətirməklə, elə həmin millətin özünü pis vəziyyətdə qoyurlar.

Ermənilər həm İrəvanda, Qarabağda, həm də Stavropolda silsilə tədbirlər keçirməyi planlaşdırmışdılar. Belə bir günlərdə tədbir keçirən ermənilərin əsas məqsədi, başqa millətlərdən olan ziyalı kontingentini cəlb etmək və bu məsələyə dair fikir bildirmələrindən ibarət idi. Buna görə də Sergeyi başqa rus ziyalıları ilə birlikdə hörmətli qonaq kimi İrəvana, Xankəndinə və Pyatiqorskiyə dəvət etmişdilər. Eduard ağır qrip xəstəliyinə tutulduğundan, bir neçə şəhərədə nəzərdə tutulan bütün bu tədbirlərdə Sergeyi Robert müşayiət etməli idi. Elmlər namizədi də erməni xalqına olan rəğbətini nümayiş etdirmək və belə bir yas mərasimlərində onlarla həmrəy olduğunu nümayiş etdirmək üçün həmin tədbirlərdə iştirak etməyə öz razılığını bildirmişdi. Həm də Qarabağda yenidən olmaq, oradakı flora və faunanı qısa müddət də olsa müşahidə etmək onun çoxdankı arzusu idi.

Robert Sergeyi İrəvanda qarşılayıb onu mədəniyyət saraylarının birində keçirilən tədbirə apardı.

Başqa millətin tarixini oğurlamqda, öz mədəniyyətini qədimiləşdirmək üçün qonşuların mədəniyyətini özününküləşdirməkdə, kulinariyanı, musiqi alətlərini, folklor sənətini mənimsəməkdə mahir usta olan yalançı alimlərin dünya türklərinə qarşı ağızdolu çıxışları gurultulu alqışlarla qarşılanırdı. Bir sözlə, özləri deyib özləri də eşidirdilər. Çıxış etmək üçün Sergeyə söz verilmədi, ona görə ki, o, həmin tədbirə gecikmişdi. Lakin elmlər namizədi belə bir laqeyd münasibətdən incimədi.

Hava qaralan zaman tədbir başa çatdı və Robert onu şəhər kənarındakı, özünə məxsus olan, lakin heç kimin yaşamadığı evə apardı. Şəhərin mərkəzinə yaxın bir neçə küçəni çıxmaqla, qalan küçə və prospektlərdə zülmət qaranlıq hökm sürürdü. Sanki burada heç kim yaşamırdı.

Əvvəlcədən planlaşdırıldığı kimi səhər tezdən onlar Xankəndidə keçiriləcək yığıncaqda iştirak etmək üçün Qarabağa yola düşdülər.

İrəvanda insanı qeyri-adiliyi ilə təəccübləndirən, heyrəndirən gəzməli yerlər demək olar ki, yox idi. Məhz bu səbəbdən Robert qonaqla birlikdə şəhər gəzintisinə çıxmaq istəmədi. Lakin Sergey ona bildirdi ki, avtovağzala gedəndə onun tanıdığı küçə və prospektlərindən keçsin. Xarici qonaqların gəzdikləri küçə və meydanlar, inzibati binalar müəyyən qədər abadlaşmışdı. Restoran və kafelər zallarında boş yerlər çoxluq

təşkil edirdi. Bu ondan xəbər verirdi ki, orada təşkil olunan servisdən əlavə şəhərə gələn qonaqların sayı həddindən artıq azdır. Hər şeyə diqqət yetirən Sergey fikir verir ki, şəhərdə olan ermənilərin əksəriyyəti qanı qaralmış, sifəti büzülmüş, həyatdan narazı haldadır və əcnəbi adam görəndə, xüsusən də rus və iranlılarla üz-üzə gələndə nifrət dolu baxışlarını həmin adama yönəldirdilər. Halbuki blokada şəraitində olan ermənilərə indiki məqamda İran ilə Rusiya mümkün olan bütün köməklikləri göstərirdi.

Bələdçi funksiyasını yerinə yetirən Robert bunu onunla izah edirdi ki, guya camaat illər boyu blokada şəraitində yaşadığından, günü-güzaranı yaxşı olan gəlmə əcnəbilərə həsəd aparırdı. Həqiqətdə isə ermənilər həsəd yox, paxıllıq edir, bəlkə də nifrət hissi bəsləyirdilər. Bir sözlə, rus ziyalısı yerli əhalinin mimikasını nəzərdən keçirəndən sonra belə qənaətə gəldi ki, ermənilər heç də Qafqazın başqa millətləri kimi qonaqpərvər deyil, kənardan gələnləri isə arzuolunmaz şəxslər kimi süzürdülər.

Robert özü Stavropolun Pyatiqorsk şəhərində yaşayırdı və ildə iki dəfə anasını görmək üçün o, Qarabağa gedərdi. Ona görə də İrəvanın avtovağzalında bir neçə taksi sürücüləri onu yaxından tanıyırdılar. Bərbad vəziyyətdə olan "Jiquli" markalı maşın Qarabağa getmək üçün öz razılığını bildirdi.

Sergey vaxtilə Qarabağda olmuş və dəqiq bilirdi ki, həmin diyar Ermənistan sərhədindən xeyli kənarda yerləşir və ora getmək üçün dağ yollarını qət etməliydilər. Lakin o, həmin

diyara məhz Azərbaycandan, Bakı-Ağdam marşrutu ilə getmişdi.

Tutduqları maşın onları Qarabağın istənilən nöqtəsinə aparıb çıxarsaydı, onda bu sensassiya sayılardı. Qarabağa daxil olmaq üçün Gorus-Laçın yolundan istifadə etmək lazım idi.

Hər şeyi diqqətlə nəzərdən keçirən Sergey görür ki, bu ölkə hərtərəfli olaraq yəni, bütün sahələrdə geridə qalıbdır. Küçə və yollar, yaşayış qəsəbələri bərbad vəziyyətdədir. Əhali səfalət içərisində yaşayırdı. SSRİ dövründən qalma bütün zavod və fabriklər xammal olmadığından iflic vəziyyətinə düşmüş, bütün avadanlıqlar tikinti materialları ilə birlikdə İrana və ya Gürcüstana satılmışdı. Sovet istehsalı olan sərnişin və minik avtomobillərini yollarda görən rus ziyalısı təəccübünü gizlətmir və bu ölkənin nə dərəcədə geridə qaldığını ifadə etməyə də çəkinmir, hətta Ermənistanı iqtisadi geriliyinə görə Qırğızıstan və Tacikistanla müqayisə edirdi. Ən dəhşətlisi isə yaxın gələcəkdə inkişafın baş verməyəcəyini görən əhali nicat tapmaq üçün ölkəni tərk etmək məcburiyyətində qalırdı.

Sergeyin fikirincə, son 25 ildə İrəvanda cüzi dəyişikliklər baş vermişdi. Həmin dəyişikliklər əsasən, rus sözlərinin fars və fransız sözlərilə əvəz olunmasından, bəzi yerlərdə iri super marketlərin açılmasından, hündür olmayan mehmanxanaların və inzibati binaların tikilməsindən ibarət idi. Şəhərin mərkəzindən əlavə demək olar ki, heç bir yerdə abadlıq işləri aparılmır, asfalt döşənmir, işıq sistemi yenilənmir, ümumiy-

yətlə infrastruktur təkmilləşdirilmirdi. Paytaxt üçün parklarda istirahət edənlərin, uşaqlarla gəzintiyə çıxanların sayı çox az idi. Qəribə olsa da iranlı kommersantların sayı rusların sayından azacıq üstünlük təşkil edirdi. Burada olan ruslar isə rus hərbi bazalarında xidmət edən hərbçilər idi.

İqtisadiyyatın tənəzzülə uğradığı bir məkanda qazanc yeri olmadığından, xaricdə əlaqələri olan yerli əhali ölməmək üçün öz ocaqlarından didərgin düşürdülər. Məhz bu səbəbdən son 18 ildə ölkə əhalisinin müəyyən bir hissəsi birdəfəlik Ermənistanı tərk etmək məcburiyyətində qalmışdı. Təəccüblü o idi ki, bu məmləkətdə ermənilərdən başqa digər millətlər yaşamırdı. Halbuki hamı, Rusiyanın Ermənistana böyük dəstək verməsindən agah idi və ən azı rusların sayı burada yetərincə çox olmalıydı. Turizm isə qəti olaraq inkişaf etməmişdi və buradakı insanlar barbar şəkildə, özlərini məzlum görkəmdə, heç nədən ayıb etmədən gələn qonaqları qarşılayırdılar.

Rus alimi anladı ki, Göyçə gölündən başqa hansısa bir yerdə, turistlər lazımi qədər istirahət edə bilmirlər. Halbuki Raisa ağız dolusu buraların həddindən artıq mənzərəli və cəlbedici olmasından danışardı. İndi o, sakitcə maşında əyləşib, kol-koslarla, tikanlıqlarla, çılpaq qayalarla, çınqıl daşlarla bol olan əraziləri seyr edirdi.

Qarabağın müvafiq məskəninə və yaxud da işğal olunmuş ərazisinə getmək üçün xüsusi buraxılış vərəqəsi lazım idi. Rusiyadan gələn qonaqların kimliyi ciddi-cəhdlə yoxlanılan-

dan sonra onlar Laçın dəhlizi ilə Azərbaycan ərazisinin hüdudlarına daxil oldular.

Azərbaycanın sərhədinə yaxınlaşdıqca, buradakı mənzərə kəskin şəkildə dəyişirdi. Keçəl dağlar, seyrək ağaclarla örtülmüş yüksəkliklərlə əvəz olunurdu, ortasında hissə-hissə boşluqlar əmələ gələn sıx meşələr, təravətli yamaclar, laləzərli düzənliklər, şəffaf sulu bulaqlar, dağların qoynundan daşan çaylar və onlardan yaranan şəlalələr, havanın həddindən artıq təmiz olması qonaqların heyrətinə səbəb oldu.

Maşın Ermənistanın Gorus şəhərindən Laçın rayonuna daxil olanda Zabux və Cağazur kəndlərindən keçməli olur. Xankəndi ilə Gorus rayonunu birləşdirən maqistral avtomobil yolu bu kəndlərin içərisindən keçir. Zabux kəndini süzən rus ziyalısı görür ki, həmin yaşayış məntəqəsində bir ev belə qalmayıb. Ermənilər hamısını dağıdıb aparıblar.

Sürücünün yanında əyləşən ziyalı müşahidə bucağına düşən hər bir yeri diqqətlə nəzərdən keçirirdi. Lakin onun diqqətini əsasən, bir şey cəlb etdi: birincisi yolda mülki adamların minik maşınları az idi, ikincisi isə əks tərəfdən Ermənistan istiqamətində uzun və hündür kuzalı yük maşınları hərəkət edirdi. Yük bölməsində isə şax qamətli enli çinar ağacların gövdələri yüklənmişdi. Bu ondan xəbər verirdi ki, ermənilər işğal altında olan meşələrin məhv edilməsilə məşğuldurlar. Çünki Sergey vaxtilə Qarabağdakı azərbaycanlıların yaşadıqları ərazilərdə olmuş və dəqiq bilirdi ki, şax qamətli çinarlar Laçın, Zəngilan, Qubadlı, Cəbrayıl rayonlarında bitirdi. Onun

fikirincə maşınlardakı ağaclar məhz həmin meşəliklərdən kəsilmişdi. Bəzi yük maşınlarında isə mərmər plitələr və daşlar, uzun borular və s. tikinti materialları aparılırdı.

Laçın rayonunda olan Picənis və Hacışamlı meşəliklərində dünya şöhrətli qırmızı palıd 4000 hektardan artıq sahəni əhatə edirdi. Hələ əsrin əvvəllərində fransızlar Frəng yolunu (Picənis–Xankəndi yolu) çəkərək qırmızı palıdı daşıyıb, konyak istehsalında çəllək hazırlanmasında istifadə edirmişlər.

Ermənilər həmin meşədən qırmızı palıdı qıraraq yenə də bu məqsəd üçün Fransaya satırdılar. Həmin rayonun ərazisində külli miqdarda təbii halda bitən iri gövdəli qoz ağacları vardı ki, bu ağaclar da qırılaraq mebel hazırlanması üçün İrana satılırdı.

Hazırda Ağdərə və Xankəndi meşə təsərrüfatlarının böyük ərazini əhatə edən məhsuldar fıstıq meşələri, Laçın rayonunun Şəlvə dərəsindəki qırmızı, dekorativ oduncaqlı mebel, parket üçün əvəzi olmayan iri gövdəli qırmızı palıd meşələri, Bəsitçay qoruğundakı möhtəşəm çinar və qoz ağacları, Kəlbəcər meşə təsərrüfatındakı mebel sənayesi üçün tayı-bərabəri olmayan ayı fındığı ağacları ermənilər tərəfindən kütləvi qırılaraq xarici ölkələrə satılmasından Sergey xəbərsiz idi.

Yolçular Laçın şəhərindən xeyli aralanandan sonra yoldan həm sağ, həm də sol tərəfə xeyli kənarda tamamilə darma-dağın olunmuş kəndlərin qalıqları görünürdü. Bura birinci dəfə ayaq basan adamda belə təəssürat yaranırdı ki, sanki bu ərazilərdə müharibənin ən şiddətli döyüşləri getmiş və yaşayış

məntəqələri ölü bir məkana çevirilmişdi. Evlərin nə qapısı, pəncərəsi, nə də damı, tavanı vardı, divarlar isə yarıya qədər uçulmuşdu.

Hava qaralana yaxın onlar Xankəndinə çatdılar və heç kiminlə əlaqə yaratmadan bir başa "Qarabağ" mehmanxanasına yollandılar. Rusiyadan gələn konfrans iştirakçısı üçün əvvəlcədən həmin mehmanxananın ikinci mərtəbəsində iki nəfərlik yer ayrılmışdı.

Ertəsi günü şəhərəin mərkəzi mədəniyyət mərkəzində qondarma "1915-ci il soyqırımı" ilə bağlı ictimai-siyasi tədbir keçirilməyə başladı. Həm Ermənistandan, Qarabağdan, Rusiyadan, Fransadan, həm də Yaxın Şərqdən və digər ölkələrdən ermənipərəst alimlər, tarixçilər, ictimai və siyasi xadimlər həmin tədbirdə iştirak edirdi. Məruzə ilə çıxış edən, əsasən erməni milliyyətindən olan iştirakçılar, nəinki Osmanlı Türkiyənin, hətta indiki Türk hakimiyyətini, Türk və digər türkdilli millətlərin ünvanına sivil insanlara yaraşmayan tərzdə kəskin ifadələr söyləyir və hətta təhqirdən, hədə-qorxu gəlməkdən belə çəkinmədilər. Dünya ictimaiyyətinin yekdilliklə, həmin hadisələrə dair siyasi qiymət vermədiyinə görə bunu, ermənilərin hüquqlarının tapdalanması kimi qələmə verdilər. Sergey fikir verdi ki, burada özlərini ziyalı kimi təqdim edən adamlar radikal səpkidə çıxışlar edir və elmi dəlilləri həvəssiz şıkildə ortaya qoyurlar. Həmin tədbir anım mərasimindən çox, şouya bənzəyirdi. İş elə gətirdi ki, onun çıxış etməsinə vaxt qalmadı.

Qondarma "Dağlıq Qarabağ hakimiyyəti" həmin mərkəzin yeməkxanasında, tədbir iştirakçılarına Azərbaycan mətbəxindən ibarət ziyafət təşkil etdi və orada da türk dünyası haqsız olaraq təhqir edilməyə başladı.

Hər şey başa çatandan sonra Sergey bikef və narazı halda oradan uzaqlaşdı. Onun fiikirincə, belə bir tədbirlər sivil adamların arasında, humanist xarakterli, kamil düşüncəli ziyalıların yanında, demokratik quruluşlu dövlətlərin qarşısında heç zaman ermənilərə başucalığı gətirməyəcək.

Robertin etiraz etməsinə baxmayaraq, əvvəlcədən planlaşdırıldığı kimi Sergey Eduardın böyüyüb-başa çatdığı Xocavəndin Qaradağlı kəndinə yollanmağı qərara almışdı. Artıq ermənilərin səmimiliyinə şübhə ilə yanaşan rus ziyalısı başa düşmək istəyirdi ki, həqiqətdə burada nələr baş verir və Eduardın doğulduğu ocaq barəsində söylədiyi faktlar nə dərəcədə düzdür? Ən əsas o, qaçqın düşən həmin ailənin vaxtilə yaşadıqları evin hansı vəziyyətdə olduğunu öz gözləri ilə görmək istəyirdi.

Yuxarıda qeyd edildiyi kimi Eduardın bacısı guya doğma ocağından qovulmuş və başqa bir kənddə sığınacaq tapmışdı. Həqiqətdə isə həmin kənddə Eduardın bacısı yox, Robertin anası qalıb yaşayırdı. Çünki müharibə gedən zaman Qaradağlı erməni quldurları tərəfindən işğal olunanda, həmin yaşayış məskəni döyüş əməliyyatlarından xeyli kənarda qalmışdı.

# XIV fəsil. Qaradağlı kəndində müəyyən sirlərin açılması

Çıxılmaz vəziyyətdə qalan Robert qonaqla birlikdə əmisinin doğma kəndinə yollandı. Bunun üçün o, ən qısa marşrut olan, meşəlik və dağlıq-meşəlikdən keçən Xankəndi-Xocavənd yolundan istifadə etməli oldu.

Buranın təbiəti Sankt-Peterburqdan gələn pedaqoqu heyran qoydu. Yaşıl meşəli dağlar, gül-çiçəklə örtülmüş düzənliklər, meyvə bağları, üzüm tağları, şəffaf sulu soyuq bulaqlar, dağlardan enən irili-xırdalı çaylar Sergeyi məftun etmişdi. Ona tanış gələn xoş təravətli mənzərə işğalçıların gəlişindən sonra viran edilsə də, həmin panoram hələ də öz gözəlliyini itirməmişdi.

Qaradağlıya çatanda Sergey təəccübünü gizlətmədi. Ziyalını təəccübləndirən hal o idi ki, bu kənd cəbhə xəttindən xeyli aralıda, erməni kəndlərinin əhatəsində idi. Deməli, Eduardın azərbaycanlılar tərəfindən olan təhlükəni bəhanə gətirərək, bu kəndi tərk etməsi tamamilə əsassız sayılırdı. Nizaminin dediklərinin bir çoxu öz təsdiqini tapırdı.

Onlar ilk olaraq qohumlarını yad etmək üçün qəbristanlığa getdilər. Albert oğlu Arturun, Vazgen isə atası Aşotun yanında dəfn olunmuşdular. Robert dəqiq bilirdi ki, Albertdən başqa o biri üç qohum dəfn olunan zaman onların məzarı mərmər plitələrlə bəzədilmişdi. İndi isə həmin plitələrdən heç

bir əsər-əlamət qalmamışdı. Böhtan yağdırmağa aludəli olan erməni bunun əsl səbəbini yaxşı bilsə də o, bu vandalizm aktını azərbaycanlıların ayağına yazdı. O, Sergeyə izah etdi ki, Milli Ordu kəndə hücum edən zaman onların məzarları bərbad hala salınmışdı. Halbuki o biri erməni məzarları abad şəkildə idi.

Kənddə on beşə yaxın ailə yaşayırdı ki, iki ailədən başqa onların hamısı hərbçilər idi. Yaxınlıqdakı yüksəkliklərdə yaraqlılar mövqe tutmuşdu. Buralarda insanlar kompakt halda yaşamadığından bu və ətrafdakı kəndlər xarabazarlığa çevrilmişdir. Evlərin divarlarından başqa heç bir tikinti materialları qalmamışdı. Bütün yollar və kommunikasiya xətləri dağıdılmış, bir dənə də olsun mədəniyyət ocağı salamat qalmamışdı. Bir sözlə, mülki vətəndaşın yaşaması üçün burada ən elementar şərait yox idi.

Vaxtilə qarət nəticəsində salınan ikimərtəbəli ev, Albertin ölümündən sonra baxımsızlıqdan demək olar ki, yararsız hala düşmüşdü. Evin damı, qapı və pəncərələri sökülüb aparılmışdı. Sergey elə zənn edir ki, Eduard Rusiyada olarkən, onun evi döyüşlər nəticəsində bərbad hala salınmışdı.

Evin divarında erməni dilində boya ilə yazı vardı və Robert həmin yazını oxuyan kimi qanı qaraldı. Sergey ondan sonruşanda bu nə yazıdır, hiyləgər kommersant heç bir söz demədi və qəzəbli halda içəri daxil oldu. Otaqların döşəmələri də sökülmüşdü. Vəziyyəti dərk edən Robert əmisi oğlu Eduarda dividend qazandırmaq üçün məyus halda dedi:

- Çox güman ki, bütün bu vəhşiliyi yaxınlıqda yaşayan türklər edibdir. Onlar bütün kəndlərimizi belə bir yararsız hala salırlar.

- Sən buna əminsən? – Sergey həmsöhbətinin səmimiyyətinə şübhə ilə yanaşdı.

- Əlbəttə! Onların əsas məqsədi bizim hamımızı bu doğma torpaqdan didərgin salmaqdır. Başa düşə bilmirəm, nə vaxta qədər belə qəddarlıq davam edəcək?

Elə bir az keçmişdi ki, qonşu həyətdən saqqal basmış sir-sifəti əyri olan, kül rəngli qıvrım saçlı 60 yaşlı bir kişi və dişləri tökülmüş, arıqlayıb sümükləri çıxmış, qırışlardan sifəti balacalaşmış, yaşı 80-i ötmüş qoca bir arvad tələsik halda dağıdılmış evin qapısına tərəf gəlib, qonaq gələnlərin kimliyini soruşdular. Kişi biləndə ki, Robert Eduardın qohumudur, o sifətinə sərt cizgi ifadələri verib, erməni dilində söyə-söyə gələnləri buradan uzaqlaşdırmağa çalışdı. Qocalar özlərini elə aparırdılar ki, sanki Rusiyadan gələn qonaqlar tanıdıqları adamın deyil, məhz onların evinə icazəsiz halda daxil olublar.

Bu vaxt yoldan ortayaşlı hərbçi zabit keçirdi və istər-istəməz səs-küyə reaksiya verərək, onlara yaxınlaşmağa məcbur oldu. O, qəzəblənmiş kişinin üzərinə yeriyib onu sakitləşdirməyə çalışdı, lakin həmin adam başını inkaredici tərzdə tərpədərək zabitə qulaq asmaq istəmədi. Danışıqlar erməni dilində getsə də, Sergey başa düşdü ki, indiki ev sakini onların gəlişindən tamamilə narazıdır. Vəziyyəti belə görən pedaqoq özü ev yiyəsini sakitləşdirmək üçün rus dilində qonaq gəldiyi-

ni bildirir və evin əsl sahibi ilə bir yerdə işlədiyini xəbər verir. Elə bu vaxt əsəbləri tarıma çəkilən yaşlı erməni rus dilində “von iz moyeqo doma” (rədd ol mənim evimdən) ifadəsini qışqırandan sonra erməni dilində onların hamısını söyməyə başladı. Hətta az qala əlinə taxta alıb onların hamısını evdən qovmaq da istədi. Onun emosional hərəkətlərini görən tarixçi alim, Eduardın həmişə ağızdolusu təriflədiyi erməni qonaqpərvərliyindən heç bir əsər-əlamətin qalmadığını görür.

Belə bir qeyri-adi hadisə ilə üzləşən Sergey Robertdən nə baş verdiyini xəbər aldı. O, cavabdan yayınmaq istəsə də, hərbçi zabit cavab verməyi özünə vətəndaşlıq borcu hesab etdi. Ona görə ki, yaşlı erməninin münasibəti və davranışı onun hissiyyatına toxunmuşdu. Zabit yaşlı ermənini birtəhər sakitləşdirərək, təəssüf hissilə dedi:

- Qocanın sözlərində böyük bir həqiqət var. Biz türklərə qarşı müharibə aparanda Edik atəşkəsə bir-iki ay qalmış ailəsi ilə birlikdə öz evini, öz vətənini atıb siçovul kimi xarici ölkəyə qaçmışdı.

- Məgər, onun başqa bir çıxış yolu vardı? – deyə Sergey söz almaq üçün maraqlanan bir insan kimi soruşdu.

- Qeyrəti olan bir erməni kimi o, öz ocağını atıb qorxaq kimi xaricə qaçmamalıydı. – deyə zabit ciddi halda dilləndi. – Biz türkləri öz torpaqlarımıza yaxın olan ərazilərdən vurub çıxarmışıq, o, isə nəinki əldə etdiyimiz həmin torpaqları mənimsəməkdə kömək etdi, hətta öz torpağında qalıb orada

yaşamadı. Öz torpaqlarını atıb xaric ölkələrə qaçanları erməni adlandırmağa adamın dili gəlmir.

- Bəlkə, Edik humanist olduğundan o, heç kimin qanını tökmək istəməyibdir. – deyə rus ziyalısı illər boyu öz həyatində saxladığı ermənini müdafiə etməyə çalışdı. – Necə olsa da o, ailəsi ilə birlikdə uzun müddət azərbaycanlılarla qonşu olubdur.

- Biz hamımız türklərlə yanyanaşı yaşamışıq, lakin buna baxmayaraq azadlıq müharibəsində iştirak etmək üçün hamılıqla silaha sarıldıq. – deyə zabit iradə ilə dilləndi.

Erməni zabiti rus ziyalısı ilə söhbət etdiyindən, yaşlı ermənilər Roberti əhatəyə alıb erməni dilində iradlarını bildirirdilər. Robert bir qədər aralıda olsa da o, qocaların iradlarını dinləməsinə baxmayaraq, eyni vaxtda tarixçi ilə zabitin danışıqlarına qulaq asırdı. Vəziyyəti sabitləşdirməyə çalışan Sergey aludəliklə dedi:

- Yoldaş zabit, insan xarakteri cürbəvür olur. Kim cəsarətli, fədakar, mərd, qormaz və qətiyyətli, kim isə ehtiyatlı, təhlükədən çəkinən, qan axıtmaq istəməyən, humanist fikirli olur.

- Humanizm fikirləri, bizdən uzaq olan bir prinsipdir. Ona görə ki, biz əsrlər boyu bizə pislik edən bir millətə qarşı müharibə aparırdıq və damarlarında erməni qanı axan hər bir kəs həmin müharibədə iştirak etməyə məcbur idi. Lakin Edik qorxaqlıq göstərərək, həmyerlilərini pis vəziyyətdə qoyub xaricə qaçdı.

- Mənə elə gəlir o, təbiətən qorxaq deyil, sadəcə, humanist prinsiplərini üstün tutaraq, qan axıtmaqdan boyun qaçırmışdı.

Bundan sonra zabitin dodaqlarında acı təbəssüm sezildi və o, qaşlarını qaldıraraq ciddi halda dedi:

- Mən Ediki hələ uşaqlıqdan tanıdığım üçün qətiyyətlə deyə bilərəm ki, o, anadan gəlmə başkəsən olubdur. O, tülkü kimi hiyləgər olduğundan daim özündən güclü adamlara yaltaqlanmış, lakin zəif, kimsəsiz insanları zəlil günə salmaqdan həzz alardı. Humanizm prinsipləri onun xarakterinə uyğun gəlmir. Edik, ölən qohumlarını dəfn edən zaman, onların qəbri üzərində birdən-birə beş türkün başını kəsir, halbuki biz həmin əsirləri türklərdə olan əsirlikdə olan öz soydaşlarımız ilə dəyişə bilərdik. Humanist olan kəs belə bir hərəkətə əl atardı?

Edik silahlı türklərin yox, əliyalın insanların qanını axıtmaqda mahir usta saılırdı. O, bunu ona görə edirdi ki, öldürdürdüyü insanların malı-mülkünə sahib çıxsın. Lakin buna baxmayaraq dələduz kimi özünü tanıtdıran Edik, öz həmyerlilərindən də oğurluq edərək, aradan çıxıbdır.

Hörmətli pedaqoq, - o, əli ilə qocaları göstərərək – bilmək istəyirsən, bu yaşlı insanlar nəyə görə belə bir şəkildə hiddətləniblər? Kəndin ərazisində türk qəbristanlığı vardı. Başda Edik olmaqla, bir neçə sakin, o cümlədən, şikayətə gələn bu qocalar qəbir üstü mərmər daşları söküb evlərinə gətirmişdilər. O birilərinə nisbətən həmin dələduzun rayondan kənarda kommersiya ilə məşğul olan çoxlu dost-tanışları vardı

və o, gəlib camaata deyir ki, mərmərləri satmaq üçün sərfəli müştəri tapıbdır. Camaat da çörək pulu əldə etmək üçün öz mallarını Edikə tapşırırlar. O, da dələduzluğunu nümayiş etdirmək üçün mərmərləri İrəvanda və Gürcüstanda sataraq, naməlum istiqamətdə yoxa çıxır. Hətta atası minaya düşüb öləndən sonra da o, qorxaq kimi gəlib dəfndə iştirak etməmişdi.

Öz aramızda qalsın, deyilənə görə Alberti elə yerli camaat, oğlundan qisas almaq üçün bilərəkdən öldürərək, mina ərazisində partlatmışdılar.

Eşitdiyi sözlərdən dəhşətə gələn rus ziyalısıın dili-ağzı qurumuşdu. O, inana bilmirdi ki, tanışı barəsində belə bir tük ürpədici ifadələr söyləyirlər. Həmin an Sergey öz-özünə düşünməyə başladı: Bu həqiqətdir, yoxsa Rusiyaya pənah aparmış bir insanın ünvanına söylənilən iftira? Buradakı insanlar hansı prinsiplərlə yaşayırlar? İnsan da bu dərəcədə əzazil olarmış? Ölənlərin də qəbri üstündə günahsız insanların başları kəsilərmiş? Ölənlərin də qəbri sökülərək, sonra isə həmin materiallar kommersantlara satılarmış? Deyəsən, burada yaşayanların hamısı ağıllarını itiriblər? onlar başa düşmürlər ki, ölən adamın torpağa tapşırılandan sonra nəinki məzarına, heç qəbrinə də toxunmaq olmaz. Bunlar isə qəbirlərdən oğuladıqları baş daşıları üstündə, xəcalət hissi çəkmədən bir-birilərilə düşmənçilik aparırlar. Ölən adamların qəbrini sökənlər özlərini necə sivil insan, necə xristian adlandıra bilərlər.

İndi XXI əsrdir, lakin buradakı insanlar erkən orta əsrlərdə Avropa və yaxın Şərq ölkələrində hökm sürən vəhşı qanunlarla yaşayırlar? Halbuki Eduard erməni katolikoslarının xristian dəyərlərinə necə söykəndiyini və Qafqazda xristianlığı necə təbliğ etdiyini dəfələrlə vurğulamışdır. Başa düşə bilmirəm, kilsə insanlığa sığmayan belə bir vəhşiliyi, belə bir vandalizm aktlarını necə dəstəkləyə bilər?

Bütün bunları öz daxilində götür-qoy edən rus ziyalısı əsas məsələyə aydınlıq gətirmək üçün diplomatcasına dedi:

- Bəzən elə hallar olur ki, insan bir dəfə faciə ilə üzləşəndən sonra uzun müddət özünə gələ bilmir və məcburi halda hər şeyi yenidən başlamaq üçün o, yaşadığı məkanı dəyişməli olur.

- Nəyi nəzərdə tutursan?

- Dediyim odur ki, bu kənd azərbaycanlıların işğalına məruz qalanda, Edikin evi dağıdılmış və onlar canlarını qurtarmaq üçün buradan qaçmışdılar. Yoxsa, onlar da başqa öldürülən qohumları kimi məhv edilərdilər.

- Bu məlumat səndə haradan?

- Edik söyləyibdir.

- Bu adam nə qədər yalan danışarmış? – deyə vəcdə gələn zabit təəccübünü gizlətmədi və aydınlıq gətirmək üçün səbirsizliklə sözünə davam etdi. – Əziz müəllim, yadda saxla ki, başqa kəndlərə nisbətən Qaradağlıda türklər böyük üstünlük təşkil edirdi. Bir dəfə hücum təşkil edən kimi bizimkilər buranı türklərdən təmizlədi və o vaxtdan bu kənd

bizim əlimizdədir. Onu da bildirim ki, türklər buradan qaçan kimi Edik ailəsi ilə birlikdə beş-altı qonşusunun torpağını zəbt edərək, həmin ərazini sənədləşdirməyə çalışmışdır.

Məhz bu sözlərdən sonra Sergey heç bir söz demədən yerindəcə donub qaldı. Robert zabitin sözlərini eşitdikcə, utandığından xəcalət çəkirdi. Necə olsa da onun əmisi oğlunun bütün iftiralarının üstü açılırdı. Eduardın haqqında danışan həmin millətçi zabit, hərdənbir onu söyüb təhqir də edirdi.

Artıq Sergey yavaş-yavaş başa düşdü ki, söhbət nədən gedir və Eduardın nə dərəcədə yalançı olduğu üzə çıxdı. Axı, Rusiyaya pənah aparan fırıldaq erməni ona demişdi ki, azərbaycanlılar onun kəndinə hücum edərək, viran qoymuş və bütün erməniləri didərgin salmışdılar. Burada isə hər şeyin əksi baş veribdir. Azərbaycanlılar erməniləri yox, ermənilər azərbaycanlıların kəndlərini darmadağın etmiş, torpaqlarını isə ələ keçiriblər. Eduardın yaşadığı ərazi cəbhə xəttindən xeyli aralı və Qarabağın içərisində, hətta ermənilərin işğal etdikləri Azərbaycan torpaqlarından da uzaqda yerləşirdi.

Deməli, Sankt-Peterburqda məskunlaşan həmin ailə vətənindən didərgin düşmüş yox, öz doğma yurdunu qoyub qaçan ailə sayılırdı. Nahaqdan isə onlar azərbaycanlıların boynuna olmazın şər və böhtanlar atırdılar. Onda belə çıxır ki, azərbaycanlılar barəsində yürüdülən fikirlər tamamilə yanlışdır və onlar barəsində həqiqəti əks elətdirmir.

Vəziyyətin daha da gərginləşməsini istəməyən elmlər namizədi vaxt itirmədən buradan uzaqlaşmağı qərara alır. O, hiss etdi ki, beş-on dəqiqə də burada qalsalar yerli sakinlər evə doluşub onları döyəcəklər. Təzyiqlər və iradlar qarşısında tab gətirməyən Robert də kənddən uzaqlaşmaq arzusunda idi. Onlar həyətdən çıxan zaman arxaları ilə nifrət dolu baxışlarını yönəldən zabit hiddətlə Robertə dedi:

- Edikə deyərsən ki, onun kimi alçaqlara bu torpaqda yer yoxdur. İşdir, qayıtmağa fikri olsa, onda o, heç vaxt geri qayıtmayacaq.

Utandığından geri baxmayan Robert tələm-tələsik yola çıxdı və Sergey ilə birlikdə birinci gələn minik maşınına minib, doğulduğu Qarakənd kəndi istiqamətində yola düşdü.

Qaradağlı kəndindəki yerli sakinlərlə və xüsusən də zabitlə olan xoşagəlməz dialoq rus ziyalısından çox Robertə təsir etmişdi və o, bir daha bura gəlməyəcəyinə söz verdi. Hadisələrin onlar üçün bu cür neqativ şəkildə davam edəcəyini əvvəlcədən təsəvvür edən Robert məhz buna görə Qaradağlıya getmək istəmirdi.

## XV fəsil. Erməni millətçilərinin qonaqpərvərliyi

Rus ziyalısı buraların səfalı olmasını əvvəlcədən bilirdi, lakin meşələrin qırılması onu məyus etdi. Yoldakı yaşayış məskənlərində isə canlanma hiss olunmurdu. Oralarda mülki vətəndaşlardan çox yaraqlıların olması, polislərlə, hərbi geyimdə olanlara həddindən artıq səlahiyyət verilməsi, əksər yerlərdə mədəniyyət oçaqlarının fəaliyyət göstərməməsi, ümumiyyətlə infrastrukturun yaradılmaması elmlər namizədində pis təəssüratlar yaratdı. Artıq Sergey başa düşdü ki, oralar istirahət ocağı kimi əvvəlki əhəmiyyətini itirmiş və burada sərbəst şəkildə gəzmək heç də təhlükəsiz sayılmır. Onu təəccübləndirən o idi ki, dağlar arası ilə yol qət edərkən, bir neçə yerdə açıq şəkildə nəşə, marixuana kollarının əkildiyi və oralarda hərbi geyimdə olan saqqallı adamların var-gəl etməsidir. Bu haqda əhlikef sürücü qeyri-ixtiyari olaraq məlumat verir. Belə çıxır ki, Qarabağda heç kimdən çəkinməyən yaraqlılar narkotik maddələrin istehsalı ilə məşğul idilər. Sergey narkotiklərin əkilməsi ilə bağlı Robertin fikrini öyrənəndə dəhşətə gəlir.

Erməni kommersant özünəməxsus tərzdə belə cavab verdi:

- Azərbaycanlıların blokadada saxladığı ermənilər burada nə ilə məşğul olmalıdırlar? Əlbəttə ki, acından ölməmək üçün alternativ çıxış yolu olmadığından, onlar narkotikin əkilməsi ilə məşğuldurlar. Sonra isə həmin narkotik maddələr erməni

xalqının düşmənlərinə satılır, əvəzinə isə bura ərzaq məhsulları gətizdirilir.

- Robert, mən biləni Əfqanistanda becərilən narkotika Orta Asiya respublikaları və İranın vasitəsilə Rusiyaya, oradan isə Avropa ölkələrinə keçirilərək, məzlum insanları, düşüncəsi olmayanları, ağıllarını itirənləri məhv edir. Onda belə çıxır ki, buradakı narkotikanın böyük bir hissəsi Avropa ölkələrinə yol tapır və günahı olmayan insanların məhv edərək, milyonlarla ailələri bədbəxt edir? Mənə elə gəlir, Avropada yaşayanlar ermənilərin düşməni deyil və hər bir ölkə blokadada olan Ermənistana mümkün olan dəstəyini verir.

- Əzizim Sergey Vladimiroviç, dünya ölkələri bizə kömək əlini uzatsaydı, onda erməni xalqı pis gündə yaşamazdı. Biz xristianlığın Qafqazdakı qarantı kimi bütün əzab-əziyyətlərə dözürük, amma digər xristian ölkələri bu müqəddəs işdə bizlərə dəstək olmurlar.

- Deyəsən, qonağımız bilmir ki, biz burada barıt çəlləyinin üstündə oturmuşuq. – deyə sürücü narazı halda dilləndi. - Hər an türklər bizə qarşı müharibəyə başlaya bilərlər.

Sergey həddindən artıq yorğun olduğundan maşında olan ermənilərlə artıq söz güləşdirməməyi özünə lazım bilərək, bir müddət susmalı oldu. Lakin yolda əkilən narkotik plantasiyalar onu rahat buraxmırdı.

Belə bir acınacaqlı mənzərədən dəhşətə gələn Sergey istirahət etmək üçün Robertdən hansısa münasib bir yerdə dayanmasını xahiş etdi. Sürüçü buralarda birinci dəfə olsa da

o, bir neçə km. yol gedəndən sonra ağaclıqların arasında kafeyə bənzər bir tikili gördü və maşınını birbaşa ora sürdü. Onlar yoldan bir neçə metr kənara çıxanda həqiqətən də bir yeməkxana ilə üzləşdilər. Yolçular seyrək hala salınmış ağacların arasında yerləşən yeməkxanada qəlyanaltı qəbul etməyi qərara aldılar.

Təbiətin qoynunda salınan yeməkxanada ən elementar gigiyenik və sanitar qaydalar nəzərə alınmamışdır. Ayaqyolu bərbad vəziyyətdə, sınıq-salxaq masalar çirkli, qab-qacaqlar isə lazımi qaydada təmiz yuyulmamışdı. Təəccübünü gizlətməyən Sergey iradını bildirmək istəyəndə, ona izah edirlər ki, bura gələn qonaqlar ekzotik təəssürat yaransın deyə, özlərini vəhşi təbiətin qoynunda sivilizasiyadan kənar bir yerdəki kimi hiss etməlidirlər.

Havalar isti olsaydı müəyyən mənada həmin obyekt işçisinin sözlərinə haqq qazandırmaq olardı, lakin yazın əvvəli olduğundan hava kifayət qədər soyuq idi və belə bir havada pəncərələrində şüşə olmayan yeməkxananın ümumi zalında oturmaq çətin idi. Hərçənd ki, həmin yerlər klyonkalarla tutulmuşdu.

Burada yeməkxananın xidmətçiləri nəzərə alınmasa, bir nəfər də olsun mülki vətəndaş yox idi. Ərazidə on beş nəfərə yaxın hərbçi vardısa, onlardan altısı saqqallılar idi ki, həmin adamların hamısı gələn qonaqları şübhəli şəxs qismində diqqətlə süzməyə başladılar.

Robert erməni olsa da o, özünü bu diyarda, həm də ermənilərin arasında, sanki yad bir adam kimi hiss edirdi. Çünki ətrafdakı adamlar, hətta həmyerliləri ona ögey münasibət bəsləyirdilər.

Sergey süfrə arxasına keçməmiş Robertlə birlikdə hündür və sıx ağacların arasında gəzişməyə başladı.

Narazılığını gizlətməyən dekan enli, qocaman bir palıdın yanında dayanıb bikef halda dedi:

- Robert bildiyin kimi mən 1984-cü ildə İrəvanda, Bakıda və Tiflisdə olmuşam. Həmin paytaxt şəhərlərin SSRİ-dən ayrılandan sonra nə dərəcədə dəyişdiyini öyrənmək üçün, bir daha onları nəzərdən keçirməyi qarşıma məqsəd kimi qoymuşdum. Hətta mənə elə gəlirdi ki, həmin şəhərlər bu müddət ərzində o qədər dəyişəcəkdir ki, mən həmin yaşayış məntəqələrini tanımayacağam. Lakin İrəvan demək olar ki, dəyişməyibdir, əksinə, şəhər bütünlüklə tənəzzülə uğrayıbdır. Başa düşmürəm, sizin dövlət başçınız, nazirlər kabineti hara baxır? Kəndlərdə isə demək olar ki, əhali iki dəfədən də çox azalıbdır.

- Hərə hakimiyyətə gələndə yalnız öz cibi və öz nəsli barəsində düşünür. – deyə qanı qaralan Robert hüznlə dilləndi. – Lakin bunun kökündə başqa şey durur. Türklərlə azərbaycanlılar birləşərək bizi blokadaya aldılar və bununla da öz tələblərini bizə diqtə etmək istədilər. Lakin son məqamda Rusiya bizə arxa durmaqla onların istədiklərini puç etdi.

- Bunun əsas amil olduğunu mən də başa düşürəm. Lakin etiraf etməliyəm ki, azərbaycanlılar Ermənistanda yaşayan zaman kənd təsərrüfatında irəliləyişlər vardı. Ona görə ki, onlar torpağa bağlı adamlardılar. Sizin millət isə sənətkar kimi yetişmişdilər.

- Sergey Vladimiroviç, türklər bizim torpağı əkib-becərməklə pul qazanır və həmin pulu Ermənistandan kənarda xərcləyirdilər. Onların bizim ölkədə, bizim torpaqlardan istifadə edərək pul qazanmaqlarının heç bir xeyiri yox idi.

- Mənə elə gəlir, bu qeyri-ciddi bir fikirdir. Həmin dövrdə ən azı sizin bazarlarda bolluq hiss olunurdu. – sonra ziyalı bir qədər ara verib ciddi halda sözünə əlavə etdi. – Robert, ermənilərin özləri kənd təsərrüfatında işləmək istəmir və başqalarını da orada işləməyə imkan vermirlər. Əhalinin kəskin dərəcədə azaldığını görəndə mən, başa düşdüm ki, sizin millət qazanc əldə etməkdən ötrü əsasən, Rusiyaya üz tutur və oradan qayıtmaq barəsində belə düşünmürlər.

Xətrinə dəysə də deməliyəm ki, sən, əmin oğlu Eduard və başqa qohumların buralarda evləriniz ola-ola Rusiyada sığınacaq tapmısınız. Fikir verdin, Eduardın qonşuları onun doğma kəndini tərk etməsinə qarşı necə reaksiya veriblər? Sadəcə olaraq onu vətən xaini, türklərdən qorxan adam kimi qələmə verdilər.

- Camaat mütəmadi olaraq gərginlik altında yaşadıqları üçün belə bir emosional reaksiya göstərdilər. – deyə soydaşlarını müdafiə etməyə çalışan Robert xəcalət hissi çəkmədən

dilləndi. – Ermənilər hamılıqla vətəni tərk etmirlər. Onların nəslinin hər hansı bir nümayəndəsi doğulduğu yerdə qalıb, doğma ocağın keşikçisinə çevrilirlər.

- Camaatın danışığından mən elə başa düşdüm ki, o, Rusiyaya gedəndə hamıya geri qayıdacağına söz vermişdi. – deyə ziyalı gəldiyi qənaətlə bölüşməyi qərara aldı. - Bunun üçün atasını sanki orada girov saxlamışdılar.

- Qətiyyən bu belə deyil. – deyə erməni öz etirazını bildirdi. – Albert əminin özü evdə qalacağını və oradan heç yana getməyəcəyini əvvəlcədən bəyan etmişdi.

- Sən oradakı camaatın sifətlərinə baxmasan da, mən onların mimikasından nifrət hisslərini oxudum. Eduardın camaatı aldatması onların hamısını qəzəbləndiribdir.

Həmsöhbətinin pərt olduğunu görən rus ziyalısı söhbəti bu yerdə dayandırmaq üçün acıdığını bildirdi və heç bir söz əlavə etmədən yeməkxanaya qayıtdı. Heç bir dəqiqə keçməmiş süfrəyə yemək gətirildi. Onlara qədər sürücü yeyib ayağa qalxmışdı.

Əvvəlki kimi orada əyləşən yaraqlılar Robertgili tərs nəzərlə süzürdülər. Bir az keçəndən sonra qonaqlar içi arağla dolu olan ikinci badəni qaldırmaq istəyirdilər ki, birdən onlara çiyindən avtomat asılmış komuflyajlı, orta yaşlı iki yaraqlı yaxınlaşdı. Saqqal basmış sir-sifətindən zəhrimar yağan yaraqlının biri elə erməni dilində Robertdən kim olduğunu və bura nəyə görə gəldiklərini soraq etdi. O, da tərəddüd etmədən Qarabağa gəlişinin missiyasını açıqladı. Həmin yaraqlı

biləndə ki, 34 yaşlı Robert əslən Qarakənddəndir, onun müharibə zamanı kimin batalyonunda döyüşdüyünü soruşdu.

- Birincisi, müharibə başa çatan zaman mənim 17 yaşım vardı. – deyə bu sorğu-sualdan təngə gələn Robert təşəxxüslə dilləndi. - İkincisi, mənim atam, qardaşım və bir neçə qohumum Qarabağ uğrunda gedən döyüşlərdə türklər tərəfindən öldürülüblər. Növbəti dəfə müharibə başlayan kimi mən, mütləq türklərdən öz əzizlərimin qisasını alacağam. Rusiyada...

- Mən xoşlamıram ki, kimsə yanımda pafosla danışsın. – deyə o biri alçaqboy, eybəcər sifətli erməni arxasını rus ziyalısına çevirib kobudcasına dilləndi. – Bircə şeyi yadda saxla, burada müharibə hələ də davam edir. Qeyrəti olan hər bir erməni bu müharibədə iştirak etməli və ən az on türkü məhv etməlidir.

- Sənin kimiləri mən uzaqdan tanıyıram. – deyə hündürboy yaraqlı özündən müştəbeh halda dilləndi. - “Artsaxa” yalnız kef çəkmək üçün gəlirsiniz.

- Bilmək istəsəniz, mən kef çəkən adamlardan deyiləm. – deyə qonağın yanında biabır olan Robert qarşısındakı yaraqlıları sakitləşdirməyə çalışdı. – Sizə izah etdim  ki, yanınmdakı qonaq elmi xadimdir və biz bura elmi-praktik konfransa gəlmişik. Rusiyanın tanınmış alimi belə bir münasibəti görəndən sonra o, bizim millət barəsində nə düşünə bilər?

- Qonşu kənddən xəbər verildi ki, bir fərarinin qohumu yanında yaşlı slavyan görünüşlü kişi ilə orada olmuşdur. –

deyə alçaqboy yaraqlı nifrət hissilə dilləndi. -  Əlamətlərə görə elə başa düşürəm ki, həmin fərarinin qohumu sənsən.

Masaya yaxınlaşan yaraqlıların işi Sergeylə olmasa da o, həmin adamların kobud danışıq tərzinə, sakit qalmaq fikirində deyildi. Halbuki onların hamısı erməni dilində danışırdılar. Rus ziyalısı ayağa qalxıb, arxası ona tərəf olan alçaqboy yaraqlının çiyninə əlini qoyub nə lazım olduğunu soruşdu. Sergeyin müdaxiləsi həmin yaraqlının xoşuna gəlmədi və o, əlləri ilə ziyalının çiyinlərindən aşağı basıb qonağı yerində otuzdurdu, sonra isə erməni dilində Robertə hədə-qorxu gələ-gələ erməni dilində dedi:

- Yanındakı akademikə denən ki, bura "Böyük Ermənistan" torpağıdır və hamı millətimizə hörmətlə yanaşıb, qədim torpağımızın üzərində erməni dilində danışmalıdır. Bir daha bu salonda rus dilində danışmayın.

- Əks təqdirdə, dostuna erməni dilini öyrətmədiyin üçün, səni tənbeh etməli olacayıq. – deyə o biri yaraqlı xəbərdarlıq edərək, dostu ilə birlikdə öz yerinə qayıtdı.

Çıxılmaz vəziyyətdə qalan Robert yerində əyləşən kimi əlini dodağının üstünə qoyub, işarə ilə Sergeyə sakit olmağa dəvət etdi. Onlar ac olsalar da, burada istənilən şəkildə çörək yeyə bilmədilər. Ona görə ki, hələ də buradakı adamlar nifrət dolu baxışlarını onlara tərəf yönəltmişdilər. Vəziyyəti dərk edən Sergey münaqişə baş verməsin deyə, qarşısındakı nemətlərdən doymadan tələsik buradan uzaqlaşmağı məsləhət bildi.

Hündür olmayan dağların arası ilə burulan yol əsasən, meşəlik ərazidən keçirdi və burada da görmək olurdu ki, bu ərazilərdə də ağaclar kütləvi şəkildə kəsilərək, bərbad hala salınmışdı. Robert doğma kəndinə daxil olan kimi heç bir yerdə dayanmadan bir başa doğulduğu evə getdi.

Birmərtəbəli evin həyətini baxımsızlıqdan kol-kos basmışdı. həyətin hasarı demək olar ki, yox idi. Evin qapısının qıfılı sındırılmışdı. Pəncərələrin şüşəsi o qədər toz basmışdı ki, Günəşin şəfəqi tutqun halda içərini işıqlandırırdı. Arakəsmələr və pəncərələrin ağzını hörümçək toru örtmüşdü. İçəri demək olar ki, alt-üst olmuşdu. Otaqlarda quru torpaq döşəmədən, sınıq-salxaq tavandan başqa heç nə qalmamışdı, elektrik naqilləri isə tamamilə çıxarılaraq aparılmışdı. Hirsini daxilində birtəhər boğan Robert, istər-istəməz hər şeyi burada çalışan əcnəbilərin boynuna yıxdı ki, qonaq yanında biabır olmasın.

Özünü rus qonağının yanında qeyrətli oğlan kimi aparmağa çalışan Robert anasının burada olmadığını görəndə pərt oldu. Evdəki vəziyyətdən hiss etdi ki, anası ən azı altı aydır burada yoxdur. Qonşulardan anasının harada olduğunu soruşanda ona izah edirlər ki, arvad həddindən artıq qocalmış və sərbəst hərəkət edə bilmədiyindən onu İrəvanda yerləşən “qocalar evinə” aparıblar. Təəccübləndirilən hal o idi ki, bu haqda Robert məlumatlandırılmamışdı.

Sergey Qarakənd kəndində olarkən buranın təbiətinə heyran qalmışdı. Ona görə ki, həm kəndin özü, həm də kəndin ətrafı sıx yaşıllıqla örtülmüşdü. Dağlı-təpəli yüksəkliklər qalın meşə

altında qalmış, kənddə isə meyvə bağları və üzümlüklər salınmışdı. Buranın yerli camaatı həddindən artıq az olsa da, onlar əsasən burada qalan qonaqların hesabına qazanc əldə edirdilər. Hərbçilərdən başqa həmin yaşayış məskənində bir çox taxta alverçilərinin və ətraf ərazilərdə arxeologiya qazıntıları ilə məşğul olan mütəxəssislər qalırdı. Onların arasında postsovet məkanından kənarda yerləşən ölkələrdən gələnlər də vardı. Əlbəttə ki, buradakı camaat həmin adamlarla ünsiyyət yaradıb, onları azərbaycanlılarla bağlı yanlış məlumatlarla təchiz edirdilər.

Qaradağlıya nisbətən buradakı qonşular Robertin qarşısına yaxşı çıxdılar. İş ondadır ki, burada onu qəhrəman atanın oğlu kimi qəbul edirdilər. Bu ailənin iki üzvü müharibə zamanı döyüşlərdə öldürüldüyünə görə onlar xüsusi imtiyazlara malik idilər.

Başqa kəndlərdə olduğu kimi burada da yaşlı adamlar qalmışdılar. Onlar ev-eşiklərinə bağlı olduqlarından buradan uzaqlaşmırdılar. Rusiyanın bir çox bölgələrində məskunlaşan övladlar, qazandıqları pulların cüzi bir hissəsini vaxtaşırı valideynlərinə göndərirdilər ki, onlar acından ölməsinlər.

Robert fikirini dağıtmaq və təbiətin qoynunda kabab yemək üçün qonağı ilə birlikdə kəndin məşhur Çinarlıq deyilən yerə getdi. Orada böyük olmayan bir kafe tikilmişdi. Hava bir qədər soyuq olduğundan gələn müştərilər içəriyə doluşurdu, lakin açıq havada qoyulan masanın birində də müştərilər vardı.

Sergey içəri girəndə bayırda əyləşənlərlə görüşdü və gördü ki, üç nəfərdən biri slavyan quruluşlu adamdır. İçəridə olan 10 nəfərdən yeddisi hərbi geyimdə olan saqqallı yaraqlılar idi və onlar Roberti görən kimi kin-küdurətlə ona tərəf nəzər salmağa başladılar. Onlara bəlli idi ki, Robert yerli adamdır və burada ev-eşiyi olduğu halda o, buranın sakinləri ilə həmrəy olub, kəndin abadlıq işlərində və təsərrüfatın inkişaf etdirilməsində əməli fəaliyyət göstərmirdi. Həmin hərbçilər Rusiyadan gələn erməniyə qorxaq kimi baxırdılar və əmin idilər ki, o, gələcəkdə başlanacaq döyüş əməliyyatlarından ehtiyat etdiyindən doğma ocağını tərk etmişdi. Necə olsa da cəbhə xətti Qarakənd kəndindən o qədər də uzaqda yerləşmirdi.

## XV fəsil. Qarabağdakı faktlar ermənilərin dediklərinin tam əksindən xəbər verir

Sergey Rusiyadan olan Vladimir adlı soydaşı ilə burada rastlaşdığından çox məmnun oldu, lakin həmin görüş Robertin ürəyindən olmadı. Vladimirə üz verməyən və onunla bir kəlmə də kəsmək istəməyən, kinli baxışlarını ona tərəf yönəldən erməni həmin an gətirdiyi qonağı götürüb buradan bir qədər

aralıda olan masada əyləşmək istədi. Amma Sergey məhz onlara yaxın masada əyləşərək Roberti də öz yanında əyləşdirdi. Onlar kabab hazırlanana qədər hərəyə bir bokal pivə içdilər. Sergey burada olan slavyan görünüşlü şəxsin buralarda nə etdiyini öyrənmək üçün ona yaxınlaşdı. Məlum olur ki, Vladimir Rusiyadakı Arxeologiya universitetlərin birində elmi əməkdaş kimi çalışır. Onlar səmimi söhbət etmək üçün kafedən uzaqlaşıb meşə istiqamətində gəzişməyə başladılar. Öndəki ağacların sırası arxada qalan kimi Sergey üzrxahlıqla dedi:

- Yerli, sən mənim dostumdan incimə və onun hərəkətləri xətrinə dəyməsin. İş ondadır ki, Robertin anasını "qocalar evinə" göndərib evini isə talan ediblər və onun fikirincə, bu işi burada müvəqqəti işləyən sizin kimi adamlar ediblər.

- Sergey Vladimiroviç, görünür sən burada hökm sürən vəhşi qaydalardan hali deyilsən. – deyə istehza ilə dillənən arxeoloqun dodaqlarında acı təbəssüm sezildi. – Buradakı camaat əvvəlcədən sözləşiblər ki, yerli sakinlərdən kimsə, uzun müddət evində qalmırsa, mütləq həmin adamın evi qarət edilərək yararsız hala salınmalıdır. Sənin dostunun evini bizlər yox, elə buranın sakinləri qarət ediblər. Ümumiyyətlə, demək istəyirəm ki, ermənilərin qəribə bir xasiyyəti var: özlərinin törətdikləri ən çirkin işləri başqalarının boynuna yıxmaq.

- Əgər elədirsə, onda Robert nəyə görə bunu gizlətməyə çalışır? – deyə Sergey həmyerlisinə sualedici nəzər saldı. – Həm də qonşular nəyə görə qonşunun evini talan etməlidir? O, burada qalmayanda evi dağıdılmalıdır?

- Hörmətli alim, mən dedim axı, ermənilərdə vəhşi qaydalar və barbarlara məxsus adətlər hökm sürür. Onlar özünkülərinə qarşı belə bir sərt ictimai sanksiyalar tətbiq edirlərsə, gör düşmənlərə qarşı necə reaksiya göstərirlər? Onlar sağlam rəqabət aparmaq fikirində deyillər.

- Səni yaxşı başa düşə bilmədim?

- Sergey Vladimiroviç, mən ixtisasca arxeoloqam və bizim işimiz bəşəriyyətə xidmət etməkdən ibarətdir. Hər hansı bir ölkənin ərazisində yerin altında olan tarixi-memarlıq abidələr, keçmişin tarixindən xəbər verən əşyalar, sənət əsərləri həmin ərazidə yaşayan millətə yox, bütün bəşəriyyətə məxsusdur. Lakin ermənilər başqa millətlərə məxsus olan bir çox şeyləri özününküləşdirməyə çalışır, bəzilərini isə məhv edərək yer üzündən silirlər.

Taliban Əfqanistanda hakimiyyəti ələ keçirəndə, orada olan İslama qədərki dövrdə düzəldilmiş, qayalar üzərində Buddanın yonulmuş nəhəng heykəlini partladir və bütün dünya başda YUNESKO təşkilatı olmaqla, vandalizm aktına görə onları qınadı və talibana qarşı siyasi və iqtisadi sanksiyalar tətbiq etdilər. Bəs, indi nəyə görə həmin təşkilat və dünya birliyi susur?

- Əlbəttə ki, ermənilər qədim tarixi-memarlıq abidələrinə ziyan vurmadıqları üçün YUNESKO heç bir reaksiya verməməlidir. – deyə Sergey damağına siqaret qoyaraq biganəliklə dilləndi.

- Görürəm, sən bu məsələdə tamamilə məlumatsızsan. – Vladimir bir qədər də səsini yavaşıdaraq tələsik halda dilləndi. – Mən Azərbaycanda dəfələrlə olmuş və Qarabağ ərazisindəki bir çox tarixi abidələrin, o cümlədən, insanın ən qədim yaşayış məskənlərindən biri olan "Azıx" mağarasının tədqiqi ilə məşğul olmuşam. Hazırda ermənilər həmin mağaranı silah ambarına çeviriblər. Cənubi Qafqazda Azərbaycan toponimlərinin dəyişdirilməsində xüsusi sənətkarlıq və ustalıq nümayiş etdirən ermənilər, Azərbaycanın tarix və mədəniyyət abidələrini və milli mədəniyyət nümunələrinin də məhv edilməsi eləcə də erməniləşdirilməsi istiqamətində hər il xeyli vəsait xərcləməli olurlar.

Bu ərazilərdə tarixən mövcud olan İslam dövrü abidələri, kurqanlar, dekorativ tətbiqi sənət nümunələri, at, qoç fiqurları, qəbirüstü abidələr, türbələr, məscidlər, pirlər, qədim yaşayış məskənləri, saraylar, xatirə abidələri, yaşayış evləri və muzeylərin isə ermənilər tərəfindən bir qayda olaraq kütləvi şəkildə məhv edilməsinə qərar verilmişdir. Bu qərarın icrası ilə ermənilər, bu ərazilərdə bir zamanlar yalnız ermənilərin yaşadıqlarını sübuta yetirmək, Cənubi Qafqazın guya erməni əraziləri olduğuna haqq qazandırmaq istəyirlər. Erməni mənbələrində göstərilir ki, təkcə 1992-ci ildə erməni işğalından sonra Azərbaycan ərazilərində 1700 tarixi və mədəniyyət abidəsinin adları dəyişdirilərək erməni adları ilə əvəz olunmuş və ermənilərin tarix və mədəniyyət abidələri kimi təbliğ olunmağa başlamışdır.

Bütün bunların hamısı bir çox alimlərin gözü qarşısında baş verir və heç kim onların vandalizm aktlarına qarşı etiraz səsini ucaltmır. Halbuki hamı anlamalıdır ki, İslam mədəniyyəti və sonradan İslamı qəbul etmiş millətlərin mədəniyyəti dünya mədəniyyətinin tərkib hissəsidir.

- Vladimir Palıç, sən erməniləri lap talibanlar kimi qələmə verirsən. – Sergey onunla razılaşmaq istəmədi. – Ermənilərin də öz mədəniyyətləri var və onlar həmin mədəniyyətin bərpası ilə məşğuldurlar.

- Bir çox alimləri düşündürən odur ki, həmin mədəniyyət haradadır? Onlar minillik tarixdən dəm vururlarsa, həmin tarixin nə Qarabağa, nə də ki, indiki Ermənistanla Azərbaycana aidiyyatı yoxdur.

Dağlıq Qarabağda hal-hazırda 50-60 min erməni əhalisi yaşadığı halda, erməni əhalisinin ibadət etməsi və dini etiqadını yerinə yetirməsi üçün 600 alban dövrü monastr, bazilika və digər xarakterli məbəd tipli abidəyə erməni monastırı adı verilmiş, 500 adda sovmə, müşahidə məntəqəsi eləcə də qala bürclərindəki hücrələr, erməni kilsəsi adlandırılaraq təbliğ edilməkdədir. Ermənilərin işğalından sonra, nəzarətsiz qalan Azərbaycan ərazilərindən 100-dən çox daş divar yazıları, oymalar, abidələrin üzərindən sökülərək, Ermənistana aparılmışdır. 100 mindən çox muzey eksponatı və o qədər sayda da mülki vətəndaşların şəxsi kolleksiyalarına və xüsusi mülkiyyətinə aid olan Azərbaycanın müxtəlif dövrlərini əhatə edən

bədii sənət nümunələri və digər qızıl zinət əşyaları qarət ediləərək Ermənistana aparılmışdır.

- Tarixdən məlumdur ki, XIX əsrin əvvəllərinə qədər Qarabağ ərazisinin heç bir yerində bir dənə də olsun erməni kilsəsi mövcud olmamışdır. Kilsə yaranandan sonra isə yalnız terrora dəstək veribdir. Fransız alimi de-Ban Eçmiədzin kilsəsinə səfər edəndə, gör bu haqda nə yazıbdır: "Ermənlərin xalq qəhrəmanlığı barəsində bir şey eşidən olubmu? Onların azadlıq uğrundakı mübarizələrinin adları harada həkk edilib? Heç yerdə! Çünki ermənilərin "qəhrəmanları" həmişə öz xalqlarının xilaskarlarından daha çox cəlladı olublar".

- Əziz arxeoloq, sən nəsə, birtərəfli danışaraq məni azdırmağa çalışırsan? Bəs, Şuşadakı erməni kilsəsinə nə deyə bilərsən?

- Həmin kilsə XIX əsrin əvvəllərində rus hərbi komendantlığının həbçilər üçün Şuşada tikdirdiyi pravoslav kilsəsidir. Sonradan ermənilər həmin kilsəni mənimsəyərək, onu ictimaiyyətə erməni kilsəsi kimi təqdim etməyə başladılar.

Özgə torpaqda özlərinə dövlət qurmağa nail olan ermənilər məskunlaşdıqları ərazilərdə Azərbaycan xalqına məxsus daş, qaya, divarlar üzərindəki ornamental oymaları, cızma, qabartma üsulu ilə işlənmiş sujetli daşları və eyni zamanda milli, dini simvolikaların daş, qaya üzərindəki nümunələrini də çox sürətlə və kütləvi şəkildə mənimsəməyə başladılar. Ermənilər Alban dövrü memarlıq abidələrinin üzərindəki bəzəklərin, müxtəlif növ sujetlərin ornamental quruluşlarında

forma və məzmun dəyişiklikləri edərək bu abidələri erməni mədəniyyətinin memarlıq nümunələri kimi dünyaya təqdim edirlər. Bu yolla da onlar bütün Qafqaz bölgəsində, xüsusi ilə də işğal etdikləri bütün Azərbaycan ərazilərindəki qədim Alban memarlığının nümunələrini erməniləşdirməklə dünya mədəniyyətinə böyük ziyan vururlar.

- Bu çox ciddi iddialardır. – eşitdiyi faktlardan vəcdə gələn tarixçi alim fikirli halda dilləndi. – Əgər, hər şey sənin dediyin kimidirsə, onda onlar burada oğurluğa bərabər olan bir cinayət törədiblər. Belə bir qeyri-sivil aksiyalara görə ermənilər ciddi sanksiyalar ilə üzləşə bilərlər.

- Hələ bu harasıdır? Ermənilər bütünlüklə azərbaycanlıların izini bu diyarda yoxa çıxarmaq istəyirlər. Onlar işğal etdikləri ərazilərdə 200 qəbirstanlığı qismən, 450 qəbirstanlığı isə dağıdaraq tamamilə yararsız hala salıblar, bu qəbirstanlıqlarda 5000-ə yaxın mərmər daşdan olan qəbir sökülərək dağıdılmış, götürülən mərmər daşlardan başqa məqsədlər üçün istifadə edilir və ya Ermənistana daşınır.

- Gorus və Laçın yolunda olanda mən, mərmər daşları daşıyan yük maşınları gördüm. – deyə hələ də şok effekti yaşayan Sergey çaşqınlıqla dilləndi. – Deməli, həmin mərmərlər qəbirüstü daşlardır? Axı, Sankt-Peterburqda mənə deyilirdi ki, azərbaycanlılar Qarabağda yerləşən bütün erməni qəbristanlıqlarını darmadağın edərək, yer üzündən siliblər.

- Artıq məlumdur ki, ermənilər xristian amilindən istifadə edib, bu ərazilərdəki abidələri erməniləşdirməklə bu tipli

abidələrə sahib çıxmaq istəyirlər. Lakin tədqiqatlar göstərir ki, hətta xristianlıq dövrü abidələri belə nə erməni dininə, nə də erməni əxlaqına uyğun gəlmir. Belə ki, Azərbaycan ərazilərindəki Alban xristian abidələrinin tarixi–arxeoloji və memarlıq baxımından tədqiqi xristianlığın bir çox xüsusiyyətlərini aydınlaşdırmağa imkan verir. Alban dövrünün xristianlıqla əlaqədar maddi mədəniyyət nümunələrini, memarlıq abidələrini, nişan daşlarını, qəbirüstü abidələri, kilsə avadanlığını, epiqrafik abidələri və s. bu kimi müxtəlif qruplara bölünərək yaşayır və bunun tədqiqatçılar tərəfindən erməni qriqoryan dininə heç bir aidiyyatı olmadığı bildirilir. Bu barədə gürcü tarixçisi A. Çavçavadze **«Ermənilər və qan ağlayan daşlar»** kitabında yazırdı ki, «ermənilər yerli albanları qriqoryanlaşdıraraq bu əraziləri isə «hayk ölkəsinin bir hissəsi» adlandırıblar. Bunun hamısı yalandır. Öz işğalçı siyasətlərindən əl çəkməyən ermənilər vaxtı ilə gəlib sığındıqları Azərbaycan torpaqlarını «Şərqi Ermənistan» adlandıraraq, həmin əraziləri tarixi vətənləri, doğma mədəniyyət mərkəzləri kimi uydurmalarla mənimsəmək fikirinə düşüblər».

- Həqiqəti dərk etmək üçün mən mütləq Qafqaz tarixi ilə bağlı elmi ədəbiyyatları nəzərdən keçirməliyəm. – tarixçi alim hələ də deyilən sözlərin həqiqət olduğuna şübhə etdi. – Ermənilər barəsində mən başqa fikirdə idim. Çünki onları ən tanınmış ictimai və elm xadimləri müdafiə edirdilər – deputat Qalina Staravoytova, Raisa Qorbaçova, akademik Andrey Saxarov və başqaları.

Baxmayaraq ki, Vladimir dostu ilə birlikdə o biri adamlardan 20-25 metr aralanmışdı, hər ehtimala qarşı o, ətrafını diqqətlə nəzərdən keçirib, yavaş səslə dedi:

- Sergey Vladimiroviç, mən bura gələnə qədər elə bilirdim ki, ermənilər ağıllı adamlardı. Lakin bir müddət burada qalandan sonra başa düşdüm ki, onlar özlərini ağıllı aparmaq istəsələr də, ağılları lazımi səviyyədə işləmir. İş ondadır ki, hələ 2000-ci ildən Ermənistan Ekspedisiya, Arxeologiya və Etnoqrafiya İnstitutunun bir qrup əməkdaşı, Azərbaycan abidələrinin özününküləşdirməkdə mahir saxtakar olan arxeoloq Hamlet Petrosyanın rəhbərliyi altında işğal altındakı Ağdam ərazisində, vaxtilə Qarabağ xanlarının yay iqamətgahlarının yerləşdiyi Şahbulaq yaylağına ezam ediliblər. Onların qarşısında mifik "Böyük Ermənistan" dövlətinin paytaxtı "tiqranakert"in izlərini tapmaq vəzifəsi qoyulmuşdu. Burada onlar Şahbulaq yaylağının şimal hissəsində qazıntılara başlamış və 2006-cı ildə uydurma şəhərin qalıqlarını aşkar etdikləri barədə xəbər yaymışdılar. Lakin çox keçmədən erməni arxeoloqlarının bu "kəşfi" biabırçı faktla üzləşir, məlum olub ki, ekspedisiya üzvləri qazdıqları çalalara müasir texnikanın köməyi ilə yonulmuş mişar daşları düzüblər və onları "tarixi dəlillər" kimi təqdim ediblər. Qazıntılarda iştirak edən xarici ölkə arxeoloqları bu biabırçı faktdan sonra ekspedisiyanı tərk etmişdilər.

Mənim dediyim odur ki, özlərinin bəyan etdikləri kimi guya həmin şəhərin 1000 ildən yuxarı yaşı var və tarixdə

mövcud olmayan Ermənistan dövlətinin paytaxtı olubdur. Alimlər isə bilir ki, onlar indiki Türkiyənin Anadolu ərazisində məskunlaşsalar da, həmin məkana Avropa və ya Yaxın Şərq tərəfindən gəliblər. Bundan belə nəticə çıxarmaq olar ki, erməni arxeoloqlarının Qarabağ ərazisində "Tiqranakert"i axtarmaq, absurd bir iş sayılır. Vaxtilə Ermənistan ədəbiyyatı tarixini oxuyanda orada Manuk Abedyanın belə ifadəsi ilə rastlaşmışam: «Erməni xalqının əsli nədir, necə və nə vaxt, haradan və hansı yollarla buraya gəlib, erməni olmazdan əvvəl və sonra hansı tayfalarla əlaqədə olub, onun dilinə, etnik tərkibinə kim necə təsir göstərib? Bizim əlimizdə bunları sübuta yetirən aydın və dəqiq dəlillər yoxdur».

## XVII fəsil. Ermənilərin həm insanlıq, həm də təbiət qarşısında törətdikləri cinayət

Alınan məlumat Sergey üçün maraqlı olduğundan o, ağır düşüncələrə qərq oldu. Elmlər namizədi hələ universitetdə olan zaman orada bir qrup rus arxeoloqları ilə görüşmüş və onlardan öyrənmişdi ki, ermənilər həqiqətən də Qarabağda mənşəyi məlum olmayan "tiqranakert" şəhərinin qalıqlarını

axtarırlar. Onun fikirincə, bunların hamısı mənası olmayan bir uşaq nağılına bənzəyir.

- Sanki bu əraziyə dünyanın ən qatı cinayətkarı yığılışıbdır. – deyə arxeoloq həmsöhbətini düşüncələrdən ayırdı. - Mənşəyi bilinməyən narkobaronların gəlişi mütəmadi xarakter alıbdır. İşğal edilmiş Qarabağ ərazisində məskunlaşmış əfqanlar ermənilərlə birlikdə orada narkotik xassəli bitkiləri əkib becərərək, onlardan narkotik vasitələr istehsal edir və bu maddələr yaxın region ölkələrinə, xüsusən də Rusiyaya göndərilir.

- Yolda gələrkən, sürücü mənə həmin plantasiyaları göstərdi. – deyə Sergey təəssüf hissilə dilləndi. – Narkotik bitkilərin aşkar şəkildə əkilməsi məni xeyli dərəcədə təəccübləndirdi. Onlar bunu onunla əsaslandırırlar ki, guya həmin narkotikanı düşmənlərini məhv etmək üçün əkirlər.

- Qarabağdakı qanunsuzluqlar o həddə çatır ki, hətta 2001-ci ildə ABŞ Dövlət Departamenti hesabat da verməli olmuş və həmin hesabat nəinki burada olanları, o cümlədən dünyanın hər bir yerində yaşayan ermənilərin hamısını hiddətləndirmişdi. Lakin buna baxmayaraq onlar arsızlıqlarına vurub, cinayət əməllərini davam etdirirlər.

Bu məsələ ilə bağlı hər iki ziyalının fikri üst-üstə düşürdü. Separatçı-terrorçu rejim işğal altında olan ərazilərdə narkotik maddələrin qanunsuz becərilməsi, istehsalı və satışının inkişaf etməsi üçün bütün zəruri şərait yaratmışdır. Bu faktlar ABŞ Dövlət Departamentinin 2001-ci ilin martında açıqlanmış hesabatında öz əksini tapmışdır.

Ətrafını diqqətlə süzən arxeoloq ehtiyat üçün səsini daha da yavaşıdaraq ürəkyanğısı ilə dedi:

- Sergey Vladimiroviç, adam belə faktları görəndə və eşidəndə dəhşətə gəlir. Qarabağa gələnə qədər mənim ermənilərə böyük hörmətim vardı, lakin bütün bu neqativ hallardan sonra mənim onlara nifrət bəsləməkdən başqa çarəm qalmayıbdır. Səbirsizliklə buradan uzaqlaşacağım günü gözləyirəm. Millətinin haqsız əməllərinə tab gətirməyən akademik Keqor Patkanyan soydaşları barəsində yazırdı: «Ermənilər həmişə yaşadıqları yerlərin yaramaz sahibləri olublar, öz yaxınlarını sataraq, həmişə güclü qonşularına məharətlə qulluq ediblər».

- Artıq mən belə başa düşürəm ki, buraya gəlməkdən peşmançılıq hissi keçirirsiniz. – sonra tarixçi bir qədər ara verib həmsöhbətinin baxışlarını süzə-süzə ciddi halda soruşdu. – Vladimir Palıç, əgər burada görülən işlər sizi qane etmirsə, bəs nəyə görə hələ də arxeoloji qazıntılarla məşğul olursunuz?

- İş ondadır ki, hər dəfə məvacib alanda mənim üç aylıq maaşımı sonraya saxlayırlar. Bu minvanla onlar mənim ekspedisiyadan getməyimə bir maneə yaradırlar.

- Bu söhbətlərdən mənə aydın oldu ki, siz hansısa bir elmi ekspedisiyada yox, tamamilə başqa bir qrupda – fırıldaqçılardan ibarət olan bir seksiyada çalışırsınız. Məsləhətim odur ki, həmin maaşı almadan buradan uzaqlaşın. Yoxsa, onlar həmin pula görə uzun müddət sizin özlərindən asılı edəcəklər.

- Bu haqda mən çox fikirləşmişəm, lakin qəti qərara gələ bilmirəm. – deyə arxeoloq ümidsiz halda dilləndi. – Pullarımın hamısını alan kimi bəlkə, payızda Rusiyaya qayıtdım.

Onlar söhbət edən zaman Robert kabab yemək üçün Sergeyi səslədi. O, da məcburi olaraq səsləyən adamın yanına qayıtdı və yenicə tanış olduğu soydaşını süfrə arxasına dəvət etdi.

Gecələmək üçün Robertin evi çox yararsız idi. Məhz buna görə də o, çəpər qonşusundan xahiş edərək, həmin gecəni onun evində qalmalı oldular. Səhər açılanda nahar yeməyindən sonra Sergey artıq vaxt itirmədən yollarını davam etdirməyi məsləhət bildi. Elə Robertin də burada çox qalmağa hövsələsi yox idi.

Kənddə maşın az olsa da onlar Ermənistana gedən maşın tapmaqda çətinlik çəkmədilər. Sergey vaxtilə Cəbrayıl rayonunda olduğu üçün sürücüdən, Qarakənddən birbaşa həmin rayona getməyi xahiş etdi. Adı çəkilən kənddən ayrılan sürücü qonaqları dağ yolları ilə Cəbrayıl rayonunun ən səfalı yerlərinə, o cümlədən Xudafərin körpüsünün salındığı əraziyə gətirir və izah edir ki, burada turizm obyektləri tikilən kimi həm Ermənistandan, həm də İrandan turist axını olacaq. Ona görə ki, lazım olanda həmin tarixi körpü fəaliyyət göstərir və İrandan Azərbaycanın işğal olunmuş rayonlarına müxtəlif sahələrdə çalışan iş adamları gəlirlər. Həm də bu körpünün vasitəsilə Qarabağda qalmaq istəməyən yerli sakinlər İrana qaçır, oradan isə qaçqın kimi dünyanın müxtəlif ölkələrinə üz tuturlar.

Yolboyu onlar çoxsaylı yoxlamalara məruz qalırdılar. Polis əməkdaşlarından çox postlarda hərbi polislər böyük üstünlük təşkil edirdi. Düzdür, qonaqların xüsusi buraxılış vərəqəsi olduğundan onları postlarda çox saxlamırdılar. Ən əsas, Roberti çoxsaylı sorğu-suallara tuturdular. O, isə birmənalı olaraq hamıya bildirirdi ki, Rusiyadan gələn qonağı Xankəndinə çatdırmaq üçün bələdçilik funksiyasını yerinə yetirir.

Bir neçə saatlıq yoldan sonra onlar Cəbrayıl rayonunun ərazisinə daxil oldular. Ətrafı sıx meşə ilə əhatə olunmuş Karxulu kəndi tamamilə dağıdılmış və demək olar ki, oradakı yaşıllıqlardan əsər-əlamət qalmamışdır. Hətta, vaxtı ilə yaşıllığa bürünmüş Karxulu qəbirstanlığı dağıdılmış və qəbirüstü qiymətli daşlar isə sökülüb aparılmışdı. Ermənilərin bu cür vandalizm aktı rus ziyalısının diqqətindən yayınmadı.

Sergey müşahidə zamanı Maralyan, Mərcanlı, Mehdili, Çaxırlı, Mahmudlu stansiyalarının yerlə yeksan edildiyini gördü. Bütün evlər dağıdılmış və həyətlərdə, yol kənarlarında olan qiymətli qoz ağaclarının hamısını kəsib məhv etmişdilər.

Uzunömürlü ağaclar, xüsusilə ən yaşlı çinar ağaclarının ermənilər tərəfindən tamamilə məhv edilməsi faktı göz qabağında idi. Yalnız Xudafərin körpüsü bu gün onlar üçün əhəmiyyətli strateji obyekt olduğuna görə uçurulmamışdır.

Cəbrayıl rayonunda respublika və rayon əhəmiyyətli 120-dək qədim Azərbaycan tarixini özündə əks etdirən tarixi-memarlıq abidələri, geniş sahələri əhatə edən qiymətli ağac növlərindən ibarət meşələr, böyük ehtiyata malik yeraltı sər-

vətlər, əhalinin uzun illər faydalandığı yerli tikinti materialları, özünün qeyri-adi flora və faunası ilə seçilən Diridağın özünəməxsus ekosisteminin, işğaladək qoruyub saxladığı əsrarəngiz təbiət guşələri, mineral maddələrlə zəngin olan əvəzedilməz içməli su mənbələri erməni işğalçıları tərəfindən dağıdılmış və məhv edilmişdir.

Gördüyü mənzərədən məyus olan rus ziyalısı hələ də inana bilmirdi ki, insan bəndəsi bu dərəcədə təbiətə təcavüz edərək onu bərbad hala salıbdır. Tarixi abidələrin məhv edilməsi isə heç bir məntiqə sığmırdı. Nə vaxtsa inkişaf edib çiçəklənən bir diyarın xarabazarlığa çevirilməsi, daşnakların yaratdığı fitnə-fəsadların nəticəsi idi. Sanki, qan iyinin qoxusundan böyük ləzzət alan erməni quldurları belə bir görüntüdən həzz alırdılar.

Yol boyu onları yalnız sönük mənzərə müşahidə edirdi. Bütün bu görüntülərdən vəcdə gələn Sergey avtomobildə ermənilərin əhatəsində olmasına baxmayaraq, ürəyindəki sözləri boşaltmaq üçün cəsarətlə dedi:

- Robert, sən bilirsən ki, mən açıq danışmağı xoşlayıram. Etiraf etmək lazımdır ki, azərbaycanlılar bu ərazilərdə yaşayanda buralar belə kökdə deyildi. Kim ki, bura ilk dəfə qədəm qoyurdu, həmin adam ətrafda tüğyan edən təbii gözəllikdən öz heyranlığını gizlədə bilmirdi. Lakin hazırda həmin gözəllikdən demək olar ki, heç nə qalmayıbdır. Nəyə görə buradakılar meşələrin qəniminə çevriliblər? Axı, buradakı iri gövdəli ağacların yaşı bir neçə yüzilliklərlə ölçülürdü və istər-istəməz

adamı özünə cəlb edirdi. Şəxsən mən, belə bir mənzərəni görəndən sonra, inana bilmirdim ki, bura həmin Cəbrayıl rayonudur.

Robert cavab verməkdə tərəddüd etsə də, taksi sürücüsü bu məsələ ilə fikir bildirməli oldu. O, dedi:

- Əziz qonaq, unutmayın ki, biz blokada şəraitində yaşayırıq. Qışda buralar həddindən artıq soyuq olur. Camaat qızınmaq üçün qaz olmadığından, odun yandırmalı olur. Ona görə də meşələrdəki ağaclar belə bir kəskin şəkildə azalıbdır.

- Mənə elə gəlir, bu cavab reallığı əks elətdirmir. – deyə tarixçi sürücünün fikri ilə razılaşmadı. – Səfər zamanı mən bir neçə rayonda oldum və gördüm ki, əvvəlki illərə nisbətən burada əhalinin sayı bir neçə dəfə azalıbdır. Ərazidə yaşayan əhalinin iki yüz illik odun ehtiyatını nəzərə alsaq, yəni, burada yaşayan camaat iki yüz il evlərində odun yandırsalar belə, meşələr bu cür çılpaq vəziyyətə düşməməli idi. Bunun səbəbi başqadır. Yolboyu mən görürəm ki, Ermənistan istiqamətində ardı-arası kəsilmədən qiymətli ağac növünün gövdələri ilə dolu olan yük maşınları hərəkət edir. Bəs, bunu necə başa düşmək olar?

- Sən çox maraqlı insansan. – deyə sürücü yenə söhbətə müdaxilə etdi. – Axı, mən izah etdim ki, biz hamımız türk-lərin ucbatından blokadaya düşmüşük. Gəlirimiz heç bir yerdən yoxdur. Qazanc əldə etmək üçün məcbur olub meşələri qırır və taxtanı satmaq üçün Ermənistana aparırıq. Bizim dolanışığımız elə bu meşələrdən çıxır.

- Bu rayondan keçərkən mən fikir verdim ki, Alpaşa dağında yerləşən VIII-IX əsrə aid olan “Cəbrayıl Ata” türbəsi, Araz çayı sahilində Diridağın üzərində XII-XIII əsrlərdə tikilmiş “Qız qalası” və V-VI əsrə aid edilən “Sirik qalası” yerlə yeksan edilibdir. Yaxşı bəs, buna nə ad vermək olar?

- Əziz Sergey Vladimiroviç, - deyə sürücünü qabaqlayan Robert bütün fikrini cəmləşdirərək ciddi halda dilləndi. – yadınıza salmaq istəyirəm ki, 90-cı illərin əvvəllərində burada müharibə gedibdir. Əlbəttə ki, qızğın döyüşlərin getdiyi bir müharibədə böyük bir dağıntılar baş verməli idi. Elə gördüyünüz dağıntılar da həmin müharibənin nəticəsidir.

- Onların əksəriyyətini də türklərin özləri geri çəkilərkən partladıblar. – deyə sürücü tələsik halda soydaşına dəstək verdi. – Həm də yadda saxlayın ki, bizim əsas məqsədimiz türklərin bütün izlərini bu torpaqdan silib-süpürməkdən ibarətdir. Elə meşələri də ona görə qırırıq ki, türklərin həmin meşələrdə qalan iyi-qoxusu birdəfəlik yox olsun və orada ermənilərin öz əlləri ilə əkəcəyi yeni meşəyə sahib olaq.

Rus ziyalısı bilirdi ki, Robertin və sürücünün danışıqları yalan topludan və ruhi xəstələrin söylədikləri xüliyalardan ibarətdir. Ona görə ki, burada bir neçə kilsə vardı ki, onların divarında bir dənə də olsun güllə izi yox idi. Deməli, azərbaycanlıların yadigarı olan həmin tarixi-mümarlıq abidələri ermənilərin Qarabağda həyata keçirdikləri vandalizm aktlarının nəticəsidir.

Maşındakı ermənilərin həyasızlığını görən Sergey bundan sonra susmağa üstünlük verdi.

## XVIII fəsil. Ermənistandan Pyatiqorskiyə gələn rus ziyalısı, orada köhnə tanışları ilə rastlaşır

Hazırda Stavropolda yaşayan ermənilər həmin qondarma işlə bağlı ictimai-siyasi konfrans təşkil etmişdilər. Ora öz millətindən başqa, ermənilərə rəğbəti olan elmi, pedaqoji və ictimai vəzifələrdə çalışan başqa millətin nümayəndələri də dəvət olunmuşdu. Yuxarıda qeyd olunduğu kimi belə bir dəvət Eduard tərəfindən Sergeyə də verilimişdi. O, da Robertlə birlikdə Ermənistandan birbaşa Stavropolun Pyatiqorsk şəhərinə gəldi.

Rusiyada yaşayan ermənilərin əsas təbliğatı elə köklənmişdi ki, hər il yox, hər gün onlara rəğbət bəsləyən ziyalılar, ictimai birliklərin sədrləri, qəzet orqanlarında və televiziya şirkətlərində çalışan jurnalistləri öz tərəflərinə çəkməli idilər.

Şimali Qafqazdakı Pyatiqorsk, Jeleznovodsk və Kislovodsk müalicəvi kurortlar və Soçi, Arxız, Dombay, Teberda kimi turizm mərkəzləri Avropada lazımi qədər tanındığından, SSRİ dağılandan sonra həmin yerlərə çoxsaylı xarici turistlər təşrif buyururdu. Bu regionda kök salmağa çalışan ermənilər adı çəkilən yerlərdə cürbəcür işlərlə təmin olunaraq özlərini bu ərazilərin sahibi kimi aparırdılar. İlk növbədə, kurortların və turizm mərkəzlərindəki münasib qiymətlər, turistlərin axışmasına yaxşı zəmin yaradırdı. Belə bir axından istifadə edən ermənilər hərtərəfli olaraq özlərini məzlum göstərə-göstərə azərbaycanlılara və türklərə qarşı əks təbliğat kompaniyası aparırdılar. Bir sözlə, onlar çirkin siyasətlərini davam etdirərək, bütün Qafqazda qonaqpərvər və sülhpərvər millət kimi tanınan azərbaycanlıları gözdən salırdılar.

Pyatiqorskidə Sergeygil avtovağzala gələn kimi oradan birbaşa şəhər mədəniyyət mərkəzinin binasına yollandılar. Əvvəlcədən nəzərdə tutulduğu kimi orada ermənilərin uydurduqlar "1915-ci il soyqırımı" ilə bağlı tədbir keçirilməli və Sergey həmin tədbirdə məruzə ilə çıxış etməli idi.

Mədəniyyət mərkəzi çoxsaylı müsəlmanların yaşadığı şəhərdə yerləşsə də, həmin idarədə bir nəfər də olsun, xristian dininə aid olmayan adam işləmirdi. Maraqlı o idi ki, Eduardın vəhşi adlandırdığı müsəlmanların arasında

kifayət qədər erməni ailələri yaşayırdı və onlar özlərini burada əsl köklü vətəndaşlar kimi aparırdılar.

Erməni diasporasının təşkil etdiyi tədbirdə çıxış edən erməni ziyalıları həm türklərin, həm də azərbaycanlıların ünvanına ziyalıya yaraşmayan tərzdə təhqiramiz ifadələr işlədərək, birmənalı şəkildə vurğuladılar ki, 1915-ci il ”soyqırımına” görə yaxın zamanlarda ermənilər öz qisaslarını alacaqlar. Ermənilərin nəyə qadir və siyasətlərinin nədən ibarət olduqlarını bilən Sergey belə bir çikin aksiyada çıxış etməmək üçün həddindən artıq yorğun və halsız olduğunu bəhanə gətirdi. Qarabağa getməklə demək olar ki, onun gözləri açılmış və o, ermənilərin nə dərəcədə həyasız, şər atan, böhtan yağdıran, törətdikləri cinayətləri başqalarının boynuna yıxmağın şahidi olmuşdu.

Ermənistana səfər zamanı Robertin də iç üzü açılmış və o, rus pedaqoqunun gözündən düşmüşdü. Sergey bilirdi ki, həmin hiyləgər erməni onun qızına göz dikmiş və qohum olmaq barəsində Elizabetin vasitəsilə bir neçə dəfə söz eşitmişdi. Hazırda pedaqoq başa düşmüşdü ki, Robert kimi bir rəzil adamla qohum olmaq hansı fəsadlara səbəb olacaqdı. Bu məsələdə ilk növbədə Sergeyin qızını bədbəxtlik gözləyirdi.

Hava qaralana yaxın teatr tamaşasını xatırladan həmin toplantı başa çatdı və Robert Sergeylə birlikdə Maşuk

dağına gedən yolun üstündə yerləşən, ermənilərin işlətdiyi restorana getdi. Adəti üzrə Robert hər dəfə Pyatiqoskiyə gələndə, yemək qəbul etmək üçün bu restorana gəlirdi, ona görə ki, iaşə obyektin administratoru onun həmyerlisi Qriqori idi.

Bu gün havanın soyuq keçməsinə baxmayaraq restoranın bir küncündə, daha doğrusu sarmaşıqla örtülmüş talvarın altında düzəldilmiş açıq zalda banket təşkil olunmuşdu. Oradakı banketdə təxminən on beş adam vardı və hamısı da ürək dolusu danışıb gülürdülər. Gələn müştərilərin vaxtı xoş keçsin deyə, zalda milli geyimlərdə olan erməni musiqiçiləri balabanda, zurnada, klarnetdə, tarda, nağarada, qarmonda, lirik və şən mahnılar ifa edirdilər.

Pyatiqorskidə bir-birilərini tanıyan bir neçə erməni ailəsi vardı və onlar mütəmadi olaraq bir-biriləri ilə əlaqə saxlayırdılar. Rus pedaqoqu öyrənir ki, burada yaşayan ermənilər təkcə Bakıdan və ya Qarabağdan yox, həm də Ermənistanın özündən də gəliblər. Sergey öz-özünə belə bir sual verməli olur: işdir, ermənilər azərbaycanlılar tərəfindən sıxışdırılıb Azərbaycandan qovulublarsa, onda kimlər erməniləri Ermənistandan didərgin salıbdır? Bu sual onu həddindən artıq maraqlandırdığından o, məhz Pyatiqorskidə yaşayan ermənilərin özlərindən həmin suala cavab tapmaq istəyirdi.

Rus pedaqoqu Robertlə birlikdə fəvvarə ətrafında qoyulmuş masa arxasında əyləşdi. Buradan demək olar ki, bütün zalı seyr etmək mümkün idi.

Süfrəyə soyuq salatla yanaşı yarpaq dolması, lülə və tikə kababları qoyulmuşdu. İçkilərdən isə məşhur müalicəvi Qafqaz mineral sularından əlavə, yalnız rus arağı gətizdirilmişdi. Sergey ilk dəfə bu restorana ayaq basanda ona hörmətli qonaq kimi erməni konyakı verilmişdi. Lakin o, həmin içkidən bir neçə qurtum içən kimi ağızdolusu təriflənən konyakdan qətiyyətlə imtina etmişdi və hətta bildirmişdi ki, əsl konyakın dadı bu cür açı olmur. Bir növ belə bir subyektiv fikir söyləməklə o, qulluğunda duran erməniləri pis vəziyyətdə qoymuşdu.

Onlar ilkin badəni içən kimi hərdənbir zalda çalınan oğurluq azərbaycan musiqilərinə qulaq asmağa başladılar. Musiqiyə qulaq asmaq üçün hər kəsin öz zövqü olduğu halda, Robert elə hey çalışırdı ki, rus ziyalısının diqqətini məhz çalğı alətlərində ifa edən incəsənət nümayəndələrinə cəlb etsin. Ona görə ki, hər dəfə fasilədən sonra hər hansı mahnı oxunurdusa və ya musiqi səsləndirilirdisə, tamada bunu ermənilərə xas olan tərzdə səsləndirirdi; ermənilərin milli aləti tarda, kamançada və ya balabanda çalır filankəsov filankəs. Yəni, o, heç kimdən çəkinmədən, heç nədən utanmadan, heç nəyə görə vicdan əzabı çəkmədən – sadəcə

olaraq həmin hisslər onda olmadığı üçün – restorana gələn həm yerli, həm də əcnəbi qonaqlara, çalınan musiqi alətlərlə yanaşı, ifa olunan mahnıları özününkü kimi təqdim edirdi.

Bir neçə dəqiqə keçəndən sonra alçaqboylu, sallaq qarınlı, yekə sifətli, yekə ağızlı, qalın əyri burunlu, kobud bənizli, 57 yaşlı Abram adlı bir yəhudi gəlib onlara yaxınlaşdı və Sergeylə görüşərək qucaqlaşdı. Abram biznes işi ilə məşğul idi və hər ay Stavropolun kurort şəhərlərinə qoz, fındıq, şabalıd, badam, fıstıq, kişmiş gətirirdi. Son illər onun biznesi yaxşı inkişaf etmişdi və o, həmin malları artıq sifarişlə gətirirdi.

Sergey Abramla dörd il bundan əvvəl elə burada, Eduardın dul qalmış bacısı Jannanın sayəsində tanış olmuşdu. O vaxt həmin yəhudi erməni qadını ilə vətəndaş nigahında yaşayırdı. Elə indi də onlar görüşən kimi Sergey ondan Jannanı soruşdu. Abram əlini pəncərə ağzında qoyulmuş masanın arxasında əyləşən iki qadına və iki kişiyə tərəf uzatdı. Robert əmisi qızının burada olduğunu bilən kimi qanı qaraldı və həmin tərəfə nəzər də salmadı. Sergey isə öz məmnunluğunu gizlətmədi və bildirdi ki, bir azdan sonra gedib tələbəsinin anası ilə görüşəcək. Bundan sonra biznesmen artıq sorğu-sual etmədən onu rahat buraxdı və gəldiyi yerə qayıtdı.

Hər şeyə diqqət yetirən rus pedaqoqu fikir verdi ki, Robert gedib əmisi qızı ilə görüşmədi və istər-istəməz bunun səbəbini soruşdu. Robert də bunu Jannanın danışdığı ifadələrə fikir verməməsi ilə izah etdi.

Burada olan adamların bir çoxu Roberti yaxından tanıyırdılar və imkan tapan kimi bəziləri gəlib onunla görüşürdülər. Onlardan biri hündürboylu, iriqamətli, kobud sifətli bir erməni acıqlı vəziyyətdə Robertə yaxınlaşıb, sanki Sergey eşitsin deyə, rus dilində ciddi halda dedi:

- Edik, sənə olan hörmətin həddi-hüdudu var. Bizim xalqımızın belə bir ağır gündə, hansısa bir türkün burada olması, bizim qəzəbimizə səbəb olur. Məsləhət bilərdim ki, həmin adamı buradan uzaqlaşdırasan. Yoxsa, arada böyük narazılıq baş verər.

- Kimi nəzərdə tutursan? – deyə təəccübünü gizlətməyən Robert erməni dilində soruşdu.

- Əlbəttə ki, türk qohumunu! – deyə həmin adam tərəddüd etmədən dilləndi və gəldiyi yerə qayıtdı.

Bu ifadələrdən sonra pərt olan erməni nəzərləri ilə ətrafdakı masaları seyr etdi və axtardığı adamı Abramla əmisi qızının yanında gördü. O, əvvəlcə bir neçə dəqiqə bundan qabaq masasına yaxınlaşan həmin naməlum adamın yanına yollanıb, nəyisə müzakirə etməyə başladı. Onların hərəkətini izləyən rus qonaq elə başa düşüdü ki, indi aralarında

dava baş verəcək. Lakin son anda Robert həmin adamı razı salandan sonra dərhal Abramgilə tərəf yollandı.

Sergey arada yaranan narazılığı analiz etməmiş, həmin an düşündü ki, onlara yaxınlaşan naməlum adam belə bir şərt qoymaqla başqasının hüququnu tapdalayır. Pedaqoqun fikirincə, milliyyətindən dinindən asılı olmadan hər bir kəs harada istəsə dincələr və təamlardan qəbul edə bilər. Deməli, burada böyük bir ayrıseçkilik hökm sürürdü. Qarabağda baş vermiş müharibənin üstündən 20 ilə yaxın vaxt keçməsinə baxmayaraq, ermənilər hələ də türk soyuna aid olan hər bir kəsə qarşı ifrat düşmənçilik münasibəti bəsləyirdilər. Belə çıxırdı ki, həmin türk adlandırılan qonaq Robertin qohumu olmasaydı, buradakı ermənilər ona qarşı fiziki zor tətbiq edəcəkdilər.

Bir neçə dəqiqə keçəndən sonra Robert həmin tanıdıqları şəxslərlə birlikdə restoranın daxilində yerləşən ayrıca kabinetlərin birinə tərəf getdi. Sonra isə o, qanı qaralmış halda Sergeyin özünü həmin kabinetə apardı və onu oradakılarla tanış etdi. Elmi işçi Abramla Jannadan başqa o biri cütlüklə tanış olanda bir qədər sevindi. Müəyyən mənada Sergeyin beynəlmiləl ailə sayılan Nazim (Robert Nazimi Norik kimi təqdim etmiş və xüsusilə bildirmişdi ki, o, kürd millətinin nümayəndəsidir) və Klara ilə bir yerdə söhbət etmək onun çoxdankı arzusu idi. Necə olsa da

azərbaycanlıları həddindən artıq vəhşi kimi qələmə verən ermənilər, həmin “vəhşilərin” arasında necə yaşayır? Eduard hər dəfə Klara bacısından söz düşəndə Sergeyin beyninə yeridirdi ki, azərbaycanlılar onun bacısını girov götürüblər.

Klara ortaboylu, qara qıvrım saçlı, kök, enlisifət, 56 yaşlı qaraqabaq bir qadın, Nazim isə elə həmin yaşda, arvadından azacıq hündür, sallaq qarınlı, qarabuğdayı, daz başlı bir kişi idi.

Onlar elə hərəkət edirlər ki, yanlarında olan rus ziyalısı burada darıxmasın. Sergey gördü ki. kifayət qədər spirtli içki qəbul edən həmin adamlar öz hərəkətlərini nəzarət altında saxlamırlar. Onlar bərkdən deyib-gülür, bir-birilərilə qucaqlaşır, öpüşür və zarafat edirdilər. Onların bir-birilərilə özlərini belə şən aparması Sergeyin ürəyindən idi. Axı, necə olsa da, burada uzunmüddətli ədavətdə iştirak edən millətlərin nümayəndələri vardı və onların qarşılıqlı atmaca sözləri heç kimin xətrinə dəymirdi. Rus ziyalısı fikir verdi ki, Abram da onlarla həddindən artıq sıx mehriban və dostluq münasibətdədir.

Laikn bir qədər keçəndən sonra həmin yekəpər erməni yenə də Robertə yaxınlaşıb, içəridəkilərin həddindən bərk gülmələri matəm içərisində olan digər erməniləri qıcıqlandırdığını bildirdi. Sergey kənardan gələn ermənin

yersiz müdaxiləsinə görə öz iradını bildirmək istəyən zaman Nazim buna imkan vermədi və o, Klara ilə birlikdə acıqlı tərzdə restoranı tərk etdi. Robert rus qonağını o biri cütlüyün yanında qoyub, inciyənləri ötürmək adı altında buradan uzaqlaşdı. O, ehtiyat edirdi ki, buradakı ermənilər Nazimi yolda izləyib ona ağır xəsarət yetirə bilər, hətta qohumunu öldürəcəklərini də istisna etmirdi.

Abramla Janna vaxtlarını xoş keçirməyi xoşlasalar da, başqa bir adamın yersiz müdaxiləsi onların da qanını qaraltmışdı.

- Başa düşmürəm, nə vaxta qədər bu adamlar özlərini vəhşı kimi aparacaqlar? – deyə Abram məyus halda öz-özünə dilləndi. – bu dərəcədə ifrat düşmənçilik olar?

- Elə buna görə də acından ölərək, ölkəni tərk etməli olublar. – deyə Janna da dərdini bölüşmək fikirinə düşdü. – Ruslar, fransızlar və amerikanlar olmasa, onlara kim arxa duracaq? Başqalarını qoymurlar öz ev-eşiklərində yaşasınlar, özləri isə başqa ölkələrdə rifah axtarırlar.

Janna ortaboylu, o qədər də kök olmayan, uzun sifətli, gözəl bənizli, iri ağızlı, qalın dodaqlı, qalın qaşlı, nəlbəki gözlü, 42 yaşında yaraşıqlı bir qadın idi. Yaşının qırxı ötməsinə baxmayaraq o, 7-8 il cavan görünür və yaraşığına görə hər bir kişini özünə cəlb edə bilirdi. Sergeydə olan məlumata görə vaxtilə həmin qadın Sumqayıtda yaşamış və

1988-ci ildə həmin şəhərdə azərbaycanlıların təcavüzünə məruz qalaraq, həyat yoldaşını faciəvi şəkildə itirmiş, özü isə cinsi zorakılığa məruz qalmışdı. Bu Jannaya əsas verirdi ki, onu bədbəxt edən millətə nifrət hissi bəsləsin. Lakin rus ziyalısı onun danışığından hiss etdi ki, qadın azərbaycanlılardan çox öz millətindən narazıdır.

Sergey bir-iki tikə çörək yeyib hər iki həmsöhbətinə ötəri nəzər saldı və sakit tərzdə dedi:

- İrəvanda və Qarabağda olana qədər elə zənn edirdim ki, mən dünyanın əksər hissəsini gəzmiş və xristianlar, müsəlmanlar, yəhudilər və bütpərəstlər barəsində kifayət qədər məlumatlıyam. Lakin anladım ki, bu belə deyil. Ona görə ki, ermənilər barəsində məndə olan təsəvvür başqa cür idi, indi isə həmin təsəvvürlər yavaş-yavaş alt-üst olmağa başlayır.

- Dostum, deyəsən gördüklərinlə eşitdiklərin arasında böyük bir fərqin olduğunu başa düşmüsən? – deyə Abram qeyri-müəyyən tərzdə dilləndi.

- Sən çox yaxşı bilirsən ki, mən postsovet məkanından çıxan millətlərdən ukrainlər, belaruslar və ermənilərlə çoxlu ünsiyyətdə olmuş və həmin respublikaların indiki durumu barəsində mən onlardan məlumat toplayırdım. – rus ziyalısı təəssüf hissi ilə dilləndi. - Eduardla bütün münasibətlər yüksək səviyyəyə qalxanda, mən onun dediklərinə heç bir

şübhə etmədən inanırdım. Lakin görünür yanılmışam. Janna məndən inciməsin, iş ondadır ki, ermənilərin də mədəniyyətləri müsəlman qonşularının mədəniyyətindən heç də üstün deyil.

- Üzr istəyirəm sizdən, müsəlman qonşuları dedikdə siz kimləri nəzərdə tutursunuz? – erməni qadını maraqlandı.

- Əlbəttə ki, ermənilərin torpaqlarını mənimsəmək istəyən azərbaycanlıları! – Sergey tərəddüd etmədən cavab verdi.

Bu sözlərdən sonra qadının üzündə acı təbəssüm sezildi. Artıq həqiqətin açılmağının əsl vaxtının yetişdiyini görən Sergey, həqiqətin öz yerini tutacağına əmin oldu. Onlar bu səpgidə bir neçə söz mübadiləsi aparandan sonra Janna sərinləşmək üçün havaya çıxmalı oldu.

Açılan söhbət Abramın ürəyindən olmasa da, biznesmen iyirmi il bundan əvvəl baş verən qanlı münaqişənin bəzi məqamlarını açıqlamaq fikirində idi. O, vaxtı əbəs yerə itirmək istəmədiyi üçün dərhal mətləbə keçdi. Biznesmen başını dik tutaraq aludəliklə dedi:

- Hörmətli alim, etiraf etməliyəm ki, azərbaycanlılar qədim tarixi kökə və zəngin mədəniyyətə malik olan bir xalqdır. Bunu ermənilər haqda söyləmək qeyri-obyektiv olar. Ermənilər dünyada yeganə millətdir ki, həyasızlıqları sayəsində, özlərini yazıq görkəmdə qələmə verdikləri üçün

hər bir rusda, avropalıda və ya amerikanlıda yanlış təsəvvür yarada bilirlər. Yaltaqlıqlarına görə isə onlar mədəniyyəti olmayan xalqalrı belə arxada qoyublar.

- Abram, sənin azərbaycanlılar ilə qohumluğun yoxdur ki? – deyə Sergey həmsöhbətinin sözlərinə rişxənd etdi.

- Xeyr! Amma sənin həyətyani sahəndə məskunlaşan Eduardın azərbaycanlılarla qohumluğu var.

- Sən zarafat edirsən? – deyə təəccübdən ziyalının sifətindəki mimika dəyişdi.

- Bayaq burada olan qadın Eduardın böyük bacısı, yanındakı kişi isə onun həyat yoldaşıdır.

- Bunun mətləbə nə dəxli var?

- İş ondadır ki, Klaranın Norik adı ilə çağrılan əri Nazim, azərbaycanlıdır.

- Ola bilməz? – deyə ziyalı mat-məəttəl qaldı.

- Bəli, bəli, bu belədir! Onlar keçən əsrin 80-ci illərin əvvəllərində ailə həyatı qurublar. Arada yaranan qanlı müharibəyə baxmayaraq Nazim Klaranı boşamadı və gördüyün kimi indiyənə kimi bir-birilərinə can deyib, can eşidirlər.

- Yaxşı, bəs onlar harada yaşayırlar? – deyə hələ də eşitdiyi sözlərin ona yuxu kimi göründüyünü zənn edən ziyalı tərəddüdlə soruşdu. - Övladları var, ya yox? Robert mənə deyirdi ki, Norik kürd millətinin nümayəndəsidir və

azərbaycanlılar onu kürd olduğuna və erməni ilə ailə həyatı qurduğuna görə öldürüblər.

- Nazim xalis azərbaycanlıdır və gördüyün kimi sağdır. Onların iki övladı - bir oğlu ilə bir qızı var və onlar Bakı şəhərində yaşayırlar. Səhv etmirəmsə, Nazimin oğlu Azərbaycan Dövlət Neft Şirkətində işləyir. Sadəlövh dostum, onlar hər altı aydan bir bura gəlib sanatoriyaların birində istirahət edirlər. – sonra Abram əli ilə pəncərədən görünən zalı göstərib təşəxxüslə sözünə əlavə etdi. - Hal-hazırda zalda əyləşənlərin əksəriyyəti onların kimliyindən və ailə həyatından halidirlər.

Arada qanlı müharibə baş versə də, onlar beynəlmiləl ailə kimi bir-birilərilə xoşbəxtdirlər. Xüsusilə də qeyd etmək istəyirəm ki, Nazim ayda iki dəfə Bakıdan bura böyük yük maşınlarında meyvə-tərəvəz göndərir. Həmin mallar Robertin vasitəsilə erməni alverçilərinə ötürülür.

- Başa düşmədim, onda belə çıxır ki, bu neçə ili Eduard məni aldadıbdır? – deyə vəcdə gələn rus ziyalısının gözləri bərələ qaldı. – O, həmişə mənə deyirdi ki, Jannanın ərini Sumqayıtda yerli adamlar öldürüb, Klaranı isə guya Qarabağda müharibə başlayan zaman azərbaycanlılar girov götürüblər və uzun müddət olmazın işgəncələr veriblər.

Bu dərəcədə də iyrənc yalan olar? Mən isə heç bir sorğu-sual etmədən onun hər bir kəlməsinə inanıb, mütəmadi

olaraq ona və ailəsinə maddi yardım göstərmişəm. Eduard isə məni riyakarcasına barmağına dolayıbdır. O, deyirdi ki, nəinki Bakıda, hətta Azərbaycanda da bir nəfər olsun erməni qalmayıbdır.

- Qondarma statistikanı dünyaya sırımaq ermənilərin qanındadır. – deyə üzünü qabağa verən yəhudi ətrafına ötəri nəzər salaraq, asta səslə dilləndi. - İnanırsan, təkcə Bakıda 32 minə yaxın erməni yaşayır. Amma Ermənistanda bir nəfər də olsun azərbaycanlı yaşamır. Üzr istəyirəm ifadəmə görə, Eduard kimi murdar insanlar yalan məlumatlar yaymaqla bütün insanları çaşqınlıq içərisində saxlayırlar.

- Sənin dediyin kimi, eyni şəkildə elə Robertin yanında Eduardı Qarabağda da söyüb təhqir etdilər. Şəxsən mən, Robertin yerinə xəcalət hissi keçirdim. Necə olsa da, Qarabağdakı ermənilər müharibə gedən zaman ev-eşiyini atıb qaçdığına və soydaşlarını aldatdıqlarına görə, onun əmisi oğlunu söyürdülər.

- Sergey, elə mənə də təsir edən budur. Özləri vətən torpağını qoyub xaricə qaçırlar, sonra isə bütün dünyaya bəyan edirlər ki, azərbaycanlılar onları oradan qovub çıxardıblar. Dostum, elə başa düşərsən ki, ermənilərə qarşı şəxsi qərəzliyim olduğu üçün, mən sənin üçün qaranlıq görünən bu cür fikirlər söyləyirəm. Amma onu da deyim ki, Ermənistanda və Qarabağda yaşayan ermənilərlə, Bakıda

yaşamış ermənilərdə böyük fərq var. Onlar bir-birilərilə heç də yaxşı davranmırlar. Bundan əlavə Qarabağ quldur klanı hakimiyyətdə olduğu üçün Ermənistan erməniləri Qarabağ ermənilərinə düşmən münasibəti bəsləyirlər.

- O ki qaldı Bakıda 32 min erməninin yaşamasına bu nəsə inandırıcı görünmür. – deyə Sergey həmsöhbətinə şübhə dolu nəzər saldı.

- Bunu təkcə mən yox, hətta Bakıdan çıxıb gəlmiş ermənilər də təsdiqləyə bilər. İstəsən, mən onlardan biri ilə səni tanış edərəm. Səndən qabaq mən onunla burada görüşmüşəm.

Elmlər namizədi heç bir cavab verməsə də, lakin baxışları onun bu məsələyə maraqlı olmasından xəbər verirdi və Abram o dəqiqə anladı ki, rus pedaqoqu o cür adamlarla söhbət etmək arzusundadır. Yəhudi biznesmen ondan icazə alıb Jannaya zəng etdi ki, geri qayıdanda Arturu da içəri dəvət etsin. Hal-hazırda həmin erməni dost-tanışları ilə zalda oturub, pivə içirdi.

## XIX fəsil. Səmimi söhbətdən sonra tarixçi alimin ermənilərə olan münasibəti yavaş-yavaş dəyişir

Heç beş dəqiqə keçməmiş Janna həmin adamla içəri daxil oldu və həmin an onu ziyalıya təqdim etdi.

Artur boyda yəhudi biznesmenindən bir qədər alçaq, möhkəm bədənli, oynaq hərəkətli, yaraşıqlı bənizli, 48 yaşında çox danışmağı xoşlamayan bir adam idi. O, da Abram kimi yerli bazarda iki böyük topdan satış, lakin yəhudi biznesmenindən fərqli olaraq, meyvə-tərəvəz konteynerləri işlədirdi. Artur gördü ki, masa arxasında olanlar bir qədər içkilidirlər, odur ki, o, tərəddüd etmədən özünə bir badə araq süzüb tanışlığa görə sağlıq dedi.

Sergey daddığı təamlardan, eşitdiyi musiqidən ovqatı xoş olmaqdansa o, uzun müddət hiyləgər adamın alətinə çevrildiyi üçün, hələ də özünə gəlməmişdi. Lakin buna baxmayaraq masa arxasında olanlar onun könlünü almaq üçün şərəfinə badə qaldırırdılar.

Erməni biznesmenin rus ziyalısının hansı sahədə çalışdığını bilən kimi öz xislətinə uyğun olaraq yaltaqcasına dedi:

- Əziz qonaq, Qafqazda gəzməli yerlər həddindən artıq çoxdur, amma istirahət etmək üçün lazımi servis

yaradılmayıbdır. Sizin yerinizə olsam, imkanlı dostları bura cəlb edib buralarda istirahət mərkəzləri tikdirərəm. Ruslar öz zövqlərinə uyğun kurort mərkəzlərində komfort yarada bilərlər. Ali təhsil ocaqlarında tədris keçən tələbələr isə buradakı şəraiti görəndən sonra, başqa yerlərə getməkdən imtina edərlər.

- İltifatınıza görə sizə öz minnətdarlığımı bildirirəm. Hal-hazırda turizm sahəsində gedən rəqabəti nəzərə alsaq, imkanlı, xüsusən də əcnəbi turistləri bura cəlb etmək, bir qədər çətin prosesdir. Stavropol diyarında fəaliyyət göstərən müvafiq strukturlar turizm kompaniyalarına dəstək verməlidir.

Elə bu vaxt arxadan Artura mobil telefonu zəng çaldı və o, zəngə cavab verəndə məlum oldu ki, əlaqə yaradan Nazimdir. Çünki o, həmin adama "Norik" deyə müraciət edirdi. O, bir qədər danışandan sonra söhbətini yekunlaşdırmaq üçün bu ifadələri söylədi: "Burada nə baş verdiyini Janna mənə danışdı. Heç qoyaram ki, kimsə sənin xətrinə dəysin? Qardaş, qəti narahat olma, uzağı bir saata sənin yanında olacam".

Onların arasında olan mehribançılığı görən Sergey təəccübdən yerindəcə donub qaldı.

Bu nədir, ilğımdır, yoxsa yuxu? – deyə rus ziyalısı öz-özünə düşündü. - Bir-birilərinə qənim kəsilən iki millətin

nümayəndələri elə münasibətdədirlər ki, hətta qardaşlar onların arasında olan mehribançılığa həsəd apara bilər. Bəlkə, telefonda danışan Nazim yox, başqa millətin nümayəndəsidir? İndiki zamanda hər deyilənə inanmaq olmaz, lakin bütün bu qəribəliklər mənim gözümün qarşısında baş verir. Belə çıxır ki, Eduardın və onun ailəsinin dediyi kimi, heç də ermənilərin hamısı azərbaycanlılara qarşı ifrat düşmənçilik münasibəti bəsləmir.

Fürsətdən istifadə edən Abram izah etdi ki, Nazimlə Artur təxminən 35 il əvvəl Bakıda bir məhəllədə yaşayıblar və onlar indiyənə kimi bir-birilərilə əlaqə saxlayırlar. Bir neçə gün qəmgin görünən elmlər namizədinin rəngi-rufu açıldı və o, xoş əhval-ruhiyyə ilə ətrafındakı adamlarla diskussiya aparmağa başladı. Sergey birinci olaraq Artura intriqalı sual verdi:

- Artur, Abram deyir ki, sən Bakıda doğulmusan. Bu həqiqidir?

- Əlbəttə! Buna şübhə etməyə bilərsiniz.

- Uzun müddət ayrılıqdan sonra vətən üçün darıxmırsan ki?

Artur ətrafına, xüsusən də pəncərədən o tərəfə, zal istiqamətinə diqqətlə nəzər salıb, sifətini qabağa verib asta səslə dedi:

- Akademik Aqambekyanın, yazıçı Zori Balayanın qurduqları siyasət nəticəsində mənim kimilərin vətəni yoxa çıxıbdır və mənim kimilər siqanlar kimi nabələd yollarda çörək pulu axtarmaqla məşğuluq.

- Nəyə görə belə bir abstrakt fikir yürüdürsən? – deyə Sergey onun fikiri ilə razılaşmadı. – Mən bir çox ölkələrdə olmuş və oralarda kifayət qədər erməni milliyyətinin nümayəndələrini görmüşəm. Məgər, onların heç birisinin vətəni yoxdur? Bəs, Ermənistan necə, ora sənin vətənin sayılmır?

- Birincisi, əvvəlki Ermənistandan heç bir əsər-əlamət qalmayıbdır, ikincisi ora indi Köçəryan, Sarkisyan, Balayan kimi quldurların vətənidir, üçüncüsü isə mən doğulduğum yeri heç bir ölkəyə dəyişmərəm. Ona görə ki, ən xoş günlərim doğulduğum şəhərdə, böyüyüb-başa çatdığım məhəllədə keçibdir.

- SSRİ dağılandan sonra təkcə ermənilər yox, bir çox millətlər oradan çıxıb gediblər. – həmsöhbətindən söz almağa çalışan ziyalı istehza ilə dilləndi. – Kim nə bilir, bəlkə də həmin məhəllədən heç bir əsər-əlamət qalmayıbdır.

- İnanırsınız, həmin dövrdə biz ayrıseçkiliyin nə olduğunu bilmirdik. – deyə Artur yenə də ətrafına nəzər salaraq asta səslə dilləndi. – Bizim məhəllədə rus, erməni, yəhudi, kürd, ləzgi, gürcü, ukraynalı, yunan və digər millətlər

qardaş kimi yaşayırdı. Biz hamımız xeyir və şərdə bir yerdə olmuşuq. Lakin iş elə gətirdi ki, araya nifaq salındı və biz öz ocaqlarımızdan didərgin düşdük. Nazim deyir ki, digər millətlər hələ də oradadırlar və əvvəlki kimi bir-birilərilə qardaş kimi mehribandırlar.

- Yaxşı bəs, azərbaycanlılar mono millət kimi yaşamırlar? – deyə Sergey maraqlandı.

- Sizə dedim axı, onlar hələ də bir yerdə yaşayırlar. – deyə Artur bezikmiş halda cavab verdi.

Elə bu vaxt Sergey yerindəcə donub qaldı və həmin an Eduardın dediklərini yada saldı: o, deyirdi ki, Azərbaycanda öz millətindən başqa heç kim yaşamır və ora dünyadan izolə edilmiş bir ölkədir. Kim ki, orada kök salıb yaşamaq istəyir, həmin adam müəyyən müddətdən sonra fiziki cəhətcən məhv edilir.

- Bakı haqqında məndə məlumatlar tamamilə başqa cür idi. – deyə rus ziyalısı məyus halda dilləndi.

- Mən çox şadam ki, gec də olsa siz həqiqəti eşitməyə başladınız. – deyə Abram ehtiramla dilləndi. – Elə erməni millətçiləri və ekstremistlərinin ucbatından Artur kimi evindən qovulan ermənilərin sayı həddindən çoxdur.

- Hörmətli qonaq, şəxsən mən, bir gün də olsa belə doğulduğum şəhərə, yaşadığım məhəlləyə getmək, oradakı qonşularla ünsiyyət qurmaqdan ötrü topladığım varidatı

qurban verməyə hazıram. – kədərlə dillənən Arturun gözləri doldu və o, baxışlarını rus ziyalısından ayırmadan tələsik halda sözünə əlavə etdi. – Bilirsiniz nəyə görə? Ona görə ki, mən başqa yerdə Bakıdakı kimi xoşbəxt ola bilmirəm. Mən deyərdim, Bakı dünyada yeganə şəhərdir ki, milliyyətindən, dinindən, irqindən asılı olmayaraq hər bir kəs orada özünü doğma kimi hiss edir və bir-birilərinə can deyib, can eşidirlər.

- Şəxsən sənin zəkana, daxildəki ülvi hisslərinə qibtə edirəm. – aranın qızışmasını istəməyən Sergey səmimiyyətlə dilləndi. - Qafqaz qonaqpərvərliyi bütün Avropaya yayılmaqdadır. Kaş hamı sizin kimi mehriban olaydı.

- Təəssüflər olsun ki, müharibədən əvvəl siz bizim məhəllədə olmamısınız. – gözləri dərddən yaşaran Bakı ermənisi başını yellədərək məyus halda dilləndi. – Orada yaşayan zaman biz bilməmişik kim ermənidir, kim isə azərbaycanlı. Yalnız Qorbaçovun çirkin siyasəti bizim millətlərin arasına nifaq saldı. Ekstremistlər isə onun "yenidənqurması"ndan məharətlə istifadə etdilər. Qardaşcasına yaşayan iki millət bir-birilərinə düşmən kəsildilər.

- Əziz dostum, sən yaxşı bilirsən ki, daimi yaşamaq üçün Sankt-Peterburqda mənim evim var. – balıq qızartması yeyən Abram əlini salfetka ilə silib səmimiyyətlə dilləndi. – Ürəyimə danıb ki, haçansa həmin ev mənim əlimdən

çıxacaq. Ona görə ki, millətçilik çağırışları və çıxışları Rusiyada günü-gündən artır. Bu ölkədə mən təhlükəsiz yaşamağıma əmin deyiləm.

- Abram, bu sənin üçün problem törədirsə, sən İsrailə köçə bilərsən. – deyə Artur məsləhət verməli oldu. – İsrail regionda çox qüdrətli dövlətdir və vətəndaşlıq alan hər bir soydaşına yaşamaq üçün çox əlverişli şərait yaradır.

- Bizim ölkə qüdrətli dövlət olsa da, orada yaşamaq heç də təhlükəsiz sayılmır. – deyə Abram məyus halda dilləndi. – Hər bir dövlət sərhəd qonşuları ilə sülh və əminamanlıq şəraitində yaşamalıdır. Amma belə getsə, yaxın bir neçə ildə Ərəb ölkələri ilə növbəti böyük müharibə başlanacaq və həmin müharibədə qələbə çalmağımız sual altında qalır.

Əziz dostum, həm bunu nəzərə alaraq, həm də tarixin səhifələrini vərəqləyərkən belə qərara aldım ki, ahıl yaşımı yəhudilər üçün ən təhlükəsiz olan bir məkanda keçirim. Hamı bilir ki, qədimdən başlayaraq bizim millət qədim misirlilər, romalılar, yunanlar, ərəblər, bizanslılar, ispanlar, portuqallar, fransızlar, almanlar, rusların və digər millətlərin yaşadıqları ölkələrdə fiziki cəhətcən məhv edilibdir. Lakin Azərbaycanda yəhudilər belə bir diskriminasiya hələ də ilə üzləşməyiblər. Mən, azərbaycanlıların həm qonaqpərvərliyini, sülhpərvərliyini, həm də tolerantlığını nəzərə alıb yəhudilərin kompakt yaşadığı Quba rayonunda özümə

ikimərtəbəli mülklə yanaşı, iki hektara yaxın torpaq ərazisi də aldım. Bundan əlavə Bakıda da mənim özəlləşdirilmiş şəxsi evim var.

- Sən bunu ciddi söyləyirsən? – deyə Sergey təəccübünü gizlətmədi.

- Bunu Janna da təsdiqləyə bilər. Hər il mən öz evimi yoxlamaq və istirahət etmək üçün Qubaya gedir və əsla özümü oranın camaatı arasında yad hesab etmirəm.

- Hər şey də bir parça torpaq üstündə baş verdi. – deyə Janna söhbətə müdaxilə etdi. - Qorbaçov fərman imzalasaydı ki, bu torpaq filan millətin, o biri torpaq isə digər millətindir, onda bizim aramızda qan tökülməzdi. Lakin bütün bu ədavətə və düşmənçiliyə baxmayaraq, ildə ən azı iki-üç dəfə biz Nazim və Klara ilə burada görüşürük.

- Qorbaçov nəinki sizi bədbəxt etdi, hətta nəhəng SSRİ-ni siyasi xəritədən sildi. – ziyalı başını təəssüflə yellətdi və həmin an üzünü Artura tutub maraqla soruşdu. – Artur, məni bir şey maraqlandırır, Bakıda iğtişaşlar baş verən zaman siz evinizi qoyub qaçdınız, bəs əvəzinə kompensassiya almadınız?

- Gərək erməni hökuməti Ermənistandan qovulan azərbaycanlılar üçün kompensassiya verəydi ki, Azərbaycan hököməti də adekvat addımlar ataydı. – deyə Artur qəzəblə dilləndi və ara vermədən sözünə əlavə etdi. -

Amma elələri də vardı ki, evini dəyişməklə, özü-özünə kompensassiya əldə edə bilmişdi. Məsələn, Janna Azərbaycanı tərk edəndə evini dəyişməyə nail olmuşdu.

- Artur, mənə sataşırsan? – deyə Janna sir-sifətini turşutdu və aydınlıq gətirmək üçün üzünü rus ziyalısına tutub səbirsizliklə sözünə davam etdi. – Sergey Vladimiroviç, mənim Sumqayıt şəhərinin mərkəzində üçotaqlı yenicə təmirdən çıxmış mənzilim vardı. Həmin mənzili Spitakın kənarında yerləşən ikiotaqlı mənzilə dəyişdilər və iki ay keçməmiş həmin mənzil zəlzələ nəticəsində yerlə yeksan oldu. Düzdür, ondan sonra Ermənistanın Quqark rayonunun bir kəndində mənə ev təklif olundu. Lakin həmin kənd bizimkilər tərəfindən qarət edildiyindən, orada demək olar ki, adam yaşamırdı. Mən orada bayquş kimi tək qalmalıydım?

- Mən orada olanda, gözlərimə inanmadım ki, həmin yaşayış məskəni Ermənistanda yerləşir. – deyə Abram Jannaya təsəlli vermək üçün aramla dilləndi. – Ermənilər həmin kəndi elə qarət etmişdilər ki, sanki ora, intensiv şəkildə təyyarələrlə bombardıma məruz qalmışdı.

- Mənə isə təzminat əvəzi Qarabağda işğal olunmuş Azərbaycan kəndində ev təklif etmişdilər. – deyə Artur istehza ilə dilləndi. – Ora getsəydim, bir növ mən orada girov qalmalı idim.

- Necə yəni girov qalmalıydın? – deyə ziyalı başa düşmədi.

- Hazırda Qarabağ elə biz ermənilər üçün böyük koloniya sayılır. – deyə dərindən köksünü ötürən Bakı ermənisi aludəliklə dilləndi. – Məndə olan məlumata əsa-sən, 2003-cü ilin yanvar ayından oranı tərk edənlərin qarşısının alınması məqsədilə müəyyən olunmuş qaydalara görə, daimi yaşamaq üçün xaricə gedən ailələr təxminən 15, hərbi çağırışçılar 10 min ABŞ dolları məbləğində rüsum ödəməlidirlər. Koçəryanla, Sarkisyan, sanki orada açıq səma altında koloniya yaradıblar.

- Eşitdiklərimin hamısı mənə qəribə görünür, - deyə Sergey fikirli halda dilləndi. – elə bil bu vaxta qədər mən yuxuda olmuşam. Sizin danışıqlardan mən belə başa düşdüm ki, Ermənistanda yaşayan ermənilər nəinki azərbaycanlılara qarşı düşmənçilik mövqeyi nümayiş etdirmiş, hətta Azərbaycanda yaşayan ermənilərə qarşı saymamazlıq, biganə münasibət bəsləyiblər. Deməli, başqa yerdə yaşayan ermənilərin taleyi onları qəti olaraq narahat etmir.

- Bizim siyasətçilər bizim xoş xatirələrlə dolu olan keçmişimizi, uşaqlıq illərini əlimizdən aldılar. – deyə Janna içi araqla dolu olan stəkanı başına çıkib həqarətlə dilləndi. – Onlar olmasaydı, biz indiyənə kimi azərbaycanlılarla birlikdə xoş və firavan yaşayırdıq.

- Janna Albertovna, belə bir fikirdən sonra mənim sizə böyük qibtəm artdı. – deyə qadının dediklərinə heyran qalan rus ziyalısı təəccüblə dilləndi və hörmət əlaməti olaraq onun əlindən öpərək, hərarətlə sözünə əlavə etdi. – Siz Sumqayıtda yaşayarkən azərbaycanlılar tərəfindən ağır fiziki məhrumiyyətlərə məruz qalsanız da, onlara qarşı nifrət hissi bəsləmirsiniz.

- Hörmətli Sergey Vladimiroviç, mən qadın olsam da, heç vaxt mənə və ailəmə qarşı edilən pislikləri unutmaram. – deyə Janna bir stəkan da arağı başına çəkən kimi acıqlı halda dilləndi. – Artıq iyirmi beş ilə yaxındır ki, mən daxilimdə mühüm bir sirri gəzdirirəm. Həmin sirri saxlamağa mənim taqətim qalmayıbdır.

- Sirri uzun müddət gizlətməyin də mənası yoxdur. – deyə rus ziyalısı qadına təsəlli verdi. – Bunun üçün kilsə mövcuddur. Daxildə yüngüllük hiss etmək üçün kilsəyə gedib, həmin sirri rahibə söyləmək kifayətdir.

Elə bu vaxt Jannanın üzündə istehza sezildi və o, ara vermədən giley-güzarla gülməyə başladı. Sanki o, ziyalının sözünü qulaqardına vururdu. Sergey elə başa düşdü ki, Janna normasından artıq spirtli içki qəbul etdiyindən belə bir ərköyün hərəkətə yol verir. Lakin buna baxmayaraq qadın son məqamda özünü ələ alıb ciddi halda dedi:

- Sergey Vladimiroviç, bizim keşişlərin fəaliyyətini görəndən sonra mənim onlara olan inamım tam ölübdür. Əgər, mən ağlımı itirib daxilimdəki sirri kilsələrdə Yaradanın xidmətində duran keşişlərə və ya rahiblərə açıqlasam, onlar məni şişə çəkmək üçün kilsədən çıxmağa belə imkan verməzlər.

- Təəssüflər olsun ki, mən sizin dediklərinizi anlaya bilmədim. – deyə çaşqınlıq içərisində olan tarixçi pedaqoq çiyinlərini çəkərək, Artura qəribə nəzər yetirdi.

- Əziz alim, mənim daxilimdəki sirr həqiqətin açılmasından ibarətdirsə, bu onların xoşuna gəlməyəcək. Ona görə ki, onlar həqiqətlərin üzə çıxmasından, türklərdən qorxduqları kimi qorxurlar. Amma şəxsən sizə, səmimi insan olduğunuza görə, mənim quldur niyyətli soydaşlarımın əsl iç üzünü açmaqdan ötrü, həmin həqiqəti söyləməyə hazıram. Çünki neçə illərin yalanı məni rahat yatmağa qoymur və istəmirəm, daim mənə yaxşılıq edən insanların adları ən çirkin əməllərdə hallansın.

- Janna Albertovna, siz bununla nə demək istəyirsiniz? – deyə Sergey təəccüblə soruşdu.

## XX fəsil. Erməni qadını uzun illərdən sonra həqiqəti söyləməyi qərara alır

Janna özünü narahat hiss etdiyindən əsl həqiqəti söyləə bilmirdi. Sergey də fikir verdi ki, qadın sözlü adama oxşayır. Qadın bir badə də spirtli içki qəbul edib dərindən ah çəkdi və bir qədər ara verəndən sonra dedi:

- Sergey Vladimiroviç, bu neçə illər yalan danışdığım üçün mən vicdan əzabı çəkmişəm, lakin bu gün özümdə cəsarət tapıb əsl həqiqəti söyləyəcəm. Mənə dar gündə Sumqayıtda arxa duran qonşularımın ünvanına şər və böhtan atmaqla onları sizin sizin kimi rus ziyalılarının gözündən salmağa çalışmışam. Mənim üçün doğma olan həmin şəhərdə başıma gətirilən bütün müsibətlərin baiskarı erməni ekstremistləri olubdur. İş ondadır ki, Sumqayıt hadisələri başlayanda mənim evimə ilk növbədə Eduard Qriqoryanın başçılığı ilə bir neçə erməni gəlib əvvəlcə ərimi öldürdülər, ondan sonra isə özümü zorladılar. Həmin hadisələr zamanı Janna körpə idi və gözümün qabağında onu da mənimlə birlikdə öldürmək istədilər. Lakin azərbaycanlı qonşularımın müdaxiləsindən sonra biz qurtulduq və iki gün həmin qonşuların evində gizləndik. Elə həmin həftə SSRİ DTK-nın əməkdaşları, onların yarısından çoxu ermənilər idi, bizə bildirdilər ki, izahatda məhz azərbay-

canlıların bizə hücum edib zor tətbiq etdiyini izahatda göstərim. Əks təqdirdə bizi fiziki cəhətcə məhv edəcəkləri ilə hədələdilər. Məhz həmin hadisələrdən sonra mən erməni olduğum üçün özümə nifrət etdim. Belə bir siyasətlə biz nə əldə etmək istəyirik? Bu suala mən hələ də cavab tapa bilmirəm.

Jannanın bu etirafından sonra dəhşətə gələn Sergey inana bilmirdi ki, qadının ağzından çıxan sözlər əsl həqiqətdir. O, aydınlıq gətirmək üçün sual vermək istəyəndə Abram onu qabaqlayaraq həvəslə dedi:

- Mən çox şadam ki, Janna özündə cəsarət tapıb həqiqəti söylədi. Hörmətli tarixçi, bu ifadələr məndən çox sənə lazımdır. Ona görə ki, sən tarixçisən və tarixçilər öz əsərlərində əsl həqiqəti yazmalıdırlar.

- Həmin hadisələrlə bağlı olan detallar maraq kəsb edirsə, mən dinləməyə hazıram. – deyə Sergey dostuna sualedici nəzər saldı.

- Məlimat üçün deməliyəm ki, 1988-ci il fevralın 19-dan etibarən İrəvanda kütləvi mitinqlər başlanır. – deyə Abram aludəliklə dilləndi. - Mitinq iştirakçıları "Ermənistanı türklərdən təmizləməli!", "Ermənistan yalnız ermənilər üçündür!" kimi şüarlar irəli sürürdülər. Mitinqlərin üçüncü günü İrəvanda salamat qalmış yeganə məscid binası (XX əsrin əvvələrində şəhərdə 8 məscid olmuşdur) yandırıldı.

- Sumqayıtda bu hadisəni təşkil etmək üçün seçilmiş şəxs də erməni – iki dəfə məhkum olunmuş Eduard Qriqoryan idi. – deyə Janna səbirsizliyini nümayiş etdirərək əsəbi halda əlavə etdi. - Yəni, bunu təkcə mən demirəm. İllər ötsə də mən onun yırtıcı sifətini, qatil hərəkətlərini heç vaxt unutmayacağam. Bundan əlavə bildirmək istəyirəm ki, Sumqayıt faciəsi zamanı yüzlərlə azərbaycanlı ailəsinin öz həyatlarını təhlükə qarşısında qoyaraq, məni və digər erməni qonşularını qəzəblənmiş kütlənin təhlükəsindən xilas etmələri haqqında mətbuatda çox yazılıbdır.

- Ermənistanın tanınmış siyasi xadimlərindən Paruyr Hayrikyan etiraf edirdi ki, "Sumqayıt hadisələri Moskva tərəfindən təşkil olunmuşdu". – deyə Abram rəsmi qaydada izah verməyə başladı. - Bu hadisələrin Moskva tərəfindən törədilməsini SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin o vaxtkı sədri N. Kryuçkov da etiraf etmişdir.

Bir gün davam edən ixtişaşlar nəticəsində erməni evləri dağıdıldı, onlarla adam yaralandı, 32 nəfər, o cümlədən, 26 erməni, 5 azərbaycanlı, 1 ləzgi öldürüldü. O da məlumdur ki, öldürülən ermənilərin, demək olar ki, hamısı erməni terror fondlarına pul keçirməkdən imtina edənlər idi. Qriqoryan Sumqayıt hadisələri zamanı 5 ermənini şəxsən özü öldürmüş, 8 erməni qadınını zorlamışdır.

Xüsusilə qeyd etmək istəyirəm ki, Jannanın ailəsi Eduard tərəfindən fiziki məhrumiyyətlərə məruz qalsa da qadın bu haqda heç bir yerə müraciət etməmişdi. Belə ailələrin isə sayı az deyildi. Bu cür faktlar çoxdur.

- Yaxşı, bəs həmin Qriqoryanın aqibəti necə oldu? – deyə tükürpədici faktları eşidən rus ziyalısı maraqlandı.

- Erməni təşkilatları bu cür cinayətlər törətmiş Qriqoryanı ağır cəzadan da qurtara bildilər. – deyə Abram təəssüf hissi ilə dilləndi. - Ona yalnız 12 il iş verildi və bir neçə ildən sonra Ermənistana deportasiya edilən kimi dərhal azadlığa buraxıldı.

Ermənilər ölmüş və yaxud öldürülmüş həmtayfalarından həmişə məharətlə istifadə edirdilər. Onlar Sumqayıt hadisələrindən öz məkrli niyyətləri üçün yararlanmaq məqsədi güdürdülər. Ona görə də bu hadisələr haqda dərhal dünya ictimaiyyətində yanlış rəy formalaşdırmağa, antiazərbaycan əhval-ruhiyəsi yaratmağa başladılar.

- Sumqayıt hadisələrində zərərçəkənlər - Lyudmila və Karina Melkumyan bacıları Yerevanda keçirilən məhkəmə prosesində Eduard Qriqoryanın iğtişaşçıların önündə getdiyini deyiblər. – deyə arada yaranan fasilədən istifadə edən Janna tələsik halda dilləndi. - Vaxt gələcək mən də mətbuata çıxıb əsl həqiqəti söyləyəcəm. Bəlkə ondan sonra

yırtıcı Qriqoryan tərəfindən öldürülən ərimin qisasının aldığını hesab edərəm.

- Janna Albertovna, şəxsən sizin söylədikləriniz mənim üçün yuxu kimi görünür. İnsanlar da bir-birilərinə qarşı bu dərəcədə qəddar münasibət bəsləyərlərmiş? Hansısa məqsədlərə nail olmaq üçün nəyisə qurban vermək, əqidəsi, vicdanı, qeyrəti olmayan adamlara xas olan hisslərdir. Amma hər şey sizin dediklərininiz kimidirsə, onda bu cinayətin ictimailəşdirilməsi üçün nəyə görə sonrakı günləri gözləyirsiniz?

- Sergey Vladimiroviç, hazırda mənim yeganə balam universitetdə oxuduğundan mən, bu məsələni ictimailəşdirə bilmərəm. Ona görə radikal mövqedə duran, adam öldürməkdə göz qırpmayan soydaşlarım var ki, ilk növbədə onlar bizi yer üzündən yox edərlər. Gec də olsa, mən həqiqəti sizə söləməliydim və bildirmək istəyirəm ki, bundan sonra erməni millətçiləri ilə heç bir əməkdaşlıq və onların tədbirlərində iştirak etməyəsiniz. Bu sizə şərəf gətirməz. İndiki zamanda mən yalnız ərimin qisas gününü səbirsizliklə gözləyirəm.

Bundan sonra kövrələn qadın göz yaşlarını saxlaya bilməyib ağlamağa başladı. Abram onu sakitləşdirməyə çalışsa da, heç bir şey alınmadı. Əvəzində isə Janna havaya çıxmaq üçün üzrxahlıq bildirdi. Abram arvadını həyətdə

müşayiət etmək üçün Arturdan xahiş etdi. Onlar otaqdan çıxan kimi Sergey hüznlə dedi:

- Eşitdiklərim məni, həqiqətən də dəhşətə gətirir. Maraqlıdır, bəs necə olur ki, onlar belə bir çirkin siyasətlə Avropa tribunalarına yol tapırlar?

- Sual verilir, nəyə görə ermənilər bir çox ölkələrə yayıldığı halda, dünyanın ən inkişaf etmiş ölkələrindən biri sayılan Böyük Britaniya krallığında kütləvi şəkildə məskunlaşmayıblar? – Abram istehza ilə dilləndi. - Ona görə ki, ingilislərin öz siyasəti var və onlar əksər hallarda həqiqətin aşkarlanması, ədalətin bərpa edilməsi üçün bütün səy və bacarıqlarından istifadə edirlər. Yalan ayaq tutub yeriyər, amma çox davam etməz. Uzun sözün qısası, özlərini dilənçi kimi aparan bir çox ermənilərin yalanı, uydurması, şəri və böhtanı bu ölkədə təşəkkül tapa bilməyəcəyindən onlar, bu ölkədə lazımi şəkildə kök salmağa cəhd göstərmədilər.

Qulaq as gör A. Qriboyedov Rus imperatoruna ermənilər haqda məktubda nə yazır: “Ermənistan bir dövlət kimi bəşəriyyət tarixində heç bir mühüm rol oynamamış, onun adı ermənilərin səpələndiyi coğrafi termin olub güclü dövlətlərin - assuriyalı, midiyalı, iranlı, yunanların, monqolların, rusların ərazisində öz mübahisələrini həll etdikləri yer olmuşdur. Mən onlarla, (ermənilərlə) heç zaman dil ta-

pa bilmədim. Onların hiyləgərliyi olduqca iyrənc, alçaqlığı olduqca dözülməz, əclaflığı olduqca təəssüfləndiricidir".

- Deyəsən, Qriboyedovun ermənilərdən xoşu gəlmirdi. – deyə rus ziyalısı rişxəndlə dilləndi. - Elə harada gəldi onları təhqir edirdi.

- Yaxşı, bəs fransız səyyahı qraf De-Şolyenin söylədiklərinə nə deyə bilərsən? – deyə yəhudi biznesmen bir qədər coşsa da səsini qaldırmadı. – O, deyir: "Ermənilər yerli əhalinin şirəsini sormağa başladılar. Bununla kifayətlənməyərək gəlmə ermənilər yerli müsəlman əhalisinin şan-şöhrətini korlamaq siyasəti yeridirdilər ki, gələcəkdə onları qovub torpaqlarına sahib ola bilsinlər... Eçmiadzin kilsəsi bir müddət saxta pul düzəldənlərin yuvası olmuşdur. Bu monastr məndə dini mərkəzdən çox siyasi mərkəz təəssüratı yaratdı".

- Abram, hər millətdə murdar insanlar tapmaq olar. Lakin sənin dediklərindən belə çıxır ki, ermənilər ümumilikdə də olmasa, tam əksəriyyəti mənfur millət kimi sayıla bilər. Bilmirəm nəyə görə, amma mən yenə də tərəddüd qarşısındayam. Axı, təbiətin qanununa görə ana doğan bəndə bu dərəcədə mənliyini alçaltmaz və özünə hörmət edən hər bir millət, kimlərisə gözdən salmaq üçün araqızışdıranlıqla məşğul olmaz. Erməni kilsəsinin fəaliyyəti isə hər bir kəsdə ikrah hissi doğurar.

Jannanın qardaşı Edik elə hər dəfə azərbaycanlıları pisləyir, lənətləyir və heç vaxt onlarla barışmayacağını iddia edir.

Ağlıma da gələ bilməzdi ki, onların demək olar ki, tam əksəriyyəti Qafqazın cənubuna başqa ərazilərdən köçürül-mədir. Maraqlıdır, bəs onlar nəyə görə orada torpaq iddiası aparırlar?

Axırıncı dəfə Ermənistana gedənə qədər mən elə bilirdim ki, Qarabağ camaatı onun ailəsinə həddindən artıq ziyan yetirmiş və özlərini də yaşadıqları yerdən qovublar. Sən demə bunların hamısı yalan imiş. Amma düşmənçiliyi-nin ifrat dərəcəyə çatmasında əsas səbəbi, onun yaxın qohumlarının, o cümlədən, atasının Qarabağ müharibəsində öldürülməsidir.

- Alim dostum, Azərbaycan elə bir məkandır ki, sakit otursan və hamı ilə xoş münasibətdə olsan, heç kimin səninlə işi olmaz, əksinə sən onlar üçün ən əziz adam sayılarsan. Ermənilər isə millətçilərin fitvasına uyuyaraq, dinc oturmaq istəmədilər və başqasının ərazisini mənimsə-mək üçün açıq müharibəyə başladılar. Həmin müharibədə azərbaycanlıların pulu ilə zəngin varidat toplayan ermənilərin əsl iç üzü açıldı.

- Sonunçu görüntülərdən sonra mən görüdüm ki, onlar qisasçılıq prinsipi ilə yaşayırlar. Meksika parlamenti Xocalı

hadisəsi ilə bağlı qətnamə çıxaranda Eduardın anasının ürəyi tab gətirməyib partladı. Ona görə ki, o, ərinin qisasını ala bilməmişdi.

- Xocalı hadisəsi yox, Xocalı soyqırımı adlandırsaq daha dəqiq olar. Onların vəhşiliyini görəndə Üçüncü Reyxin ideoloqları Gitler, Göbbels, Gimler və başqaları ermənilərə həsəd aparardılar. Hamı bilir ki, alman faşistləri konslagerlərdə 6 milyon soydaşarımızı fiziki cəhətdən məhv ediblər, lakin buna baxmayaraq həmin ölüm düşərgələrindən sağ çıxan yəhudilər oldu. Qarabağdakı hadisələri izləyən zaman Uca Tanrıya şükür etdim ki, nasistlər erməni millətçiləri kimi olmayıblar. Yoxsa, Avropa ölkələrində bir nəfər də olsun yəhudi sağ qalmazdı.

Xocalıda ermənilər olmazın qətliama imza atıblar və bunu bir çox Avropa jurnalistləri qəzet səhifələrində işıqlandırmağa məcbur olublar. Samuel A. Uilms. **"Ermənistan terrorçu "xristian" ölkənin gizlinləri"**, adlı kitabında - ermənlərin böyük fırıldaq seriyalarından olan I –ci cildində yazır: "...Biz Xocalı müdafiəçilərinin, yüzlərlə dinc sakinlərinin - qadınların, uşaqların, qocaların eybəcər hala salınmış cəsədlərini gözlərimizlə gördük… Bu, tükürpədici mənzərə idi. 5-6-yaşlı uşaqları, qundaqdakı körpələri, hamilə qadınları vəhşiliklə öldürən ermənilər cəlladlıqda heç kəslə müqayisəyə gəlməzlər".

Ermənilərə xüsusi simpatiyası olan fransızlar da həmin qətliama göz yuma bilmədilər və onlar həmin faciə ilə bağlı mətbu orqanlarında məqalələr dərc etdirməyə başladılar. Həmin qırğının şahidi olmuş fransız jurnalisti Jan İv Yunet yazır: "Əsirlər var. Qışda onları səhərlər ayaqyalın qarın-buzun üzərinə çıxarırlar. Təpələrindən soyuq su tökür, başlarında şüşə sındırır, sonra təzədən kameraya salırlar. Əsl işgəncələr isə bundan sonra başlanır. Barmaqlarını qapının arasına qoyub qırır, cığırdıqca rezin dəyənəklə döyürlər. Çoxu əzablara tab gətirməyərək dəli olub ölür. Biz növbəti kəndi zəbt edəndə bir erməninin diri uşağı götürüb iki böldüyünü görmüşəm. Sonra bədənin bir hissəsi ilə anasının sifətinə, başına o qədər döydü ki, övladının al qanına bulaşmış qadın dəli olub gülməyə başladı".

- Abram, eşitdiklərim məni dəhşətə gətirir. – deyə vəcdə gələn tarixçi alim sarsılmış vəziyyətdə dilləndi. – Mən mütləq şəkildə Qarabağ hadisələri ilə bağlı məlumatları və ədəbiyyatları nəzərdən keçirəcəm və bir tarixçi kimi bu haqda kitab yazacam. Ermənilər insanlığa qarşı belə bir vəhşiliklər törədiblərsə, bu haqda mütləq kitablar yazılıb dünya ictimaiyyətinin diqqətinə çatdırılmalıdır. Həm də həqiqəti araşdırmaq ona görə lazımdır ki, daxilimdə olan şübhələri birdəfəlik aradan qaldırım.

- Mən çox şadam ki, sən düzgün yola çıxmaq üçün belə bir ədalətli qərar verdin. Qarabağda axıdılan nahaq qana görə göz yumanlar, bu məsələdə ermənilərə dəstək verən-lər, haqqı qoyub nahaqdan yazanlar, cəmiyyət arasında mənliyi, vicdanı, şərəfi və ləyaqəti olmayan bir ünsür kimi qələmə verilməlidir. Kimliyindən asılı olmayaraq onları cəhənnəm gözləyir. Mən istərdim ki...

Elə Abram sözünü yekunlaşdırmaq istəyirdi ki, birdən Janna ilə Artur otağa qayıtdılar. Göz yaşlarını silən qadın yerində əyləşmədən üzünü rus ziyalısına tutub iradə ilə dedi:

- Bir sözlə Sergey Vladimiroviç, əgər millətçi soydaşlarımın, erməni adı altında gəzən ekstremistlərin insanlığa sığmayan qatil fəaliyyəti ictimai qınaq vasitəsilə ifşa olunsa, onda sıravi ermənilərin hamısı rahat nəfəs alacaq və gələcək həyatda yalnız öz rifahı barəsində düşünəcək. İndi isə xahiş edirəm, qalxın ayağa, gedək Arturgilə. O, bizim hamımızı evinə qonaq dəvət edir.

# II Hissə:

## Miskin ermənilərin tam şəkildə ifşa olunması

## I fəsil. Hiyləgər fəndə əl atmaq istəyən biznesmen

Günlər, aylar keçdikcə Yelizaveta yavaş-yavaş anlamağa başlayırdı ki, kobud xasiyyətə malik olan Robert onunla əşya kimi davranır və o, ən çox şəxsi mənafeyinə görə qızdan istifadə edir. Ən əsas erməni kommersantı başqa regionlardan əldə etdiyi malları satıcılara paylamamışdan əvvəl, qızın evində saxlayırdı. Məhz sərf etdiyi satış qiymətini əldə edən kimi, o, həmin malları realizə etməyə müvəffəq olurdu. Bir sözlə, Robert Yelizavetanın evindən anbar kimi istifadə edir, əvəzində isə satılmayan malları qıza hədiyyə verərək, onu özündən asılı vəziyyətə salırdı.

Yelizaveta hansısa bir tədbirə getmək istəyəndə mütləq şəkildə Robertdən icazə almalı və hava qaralana qədər evində olmalı idi. Bundan əlavə qız hansısa bir yaxın rəfiqəsinin ad gününə getmək üçün erməni oğlandan hədiyyə istədikdə o, min-bir bəhanə gətirərək, istədiyi qızın xahişini yerə salırdı. Əsas bəhanə o idi ki, guya o, bankdan böyük məbləğdə pul götürdüyü üçün, əlavə bədxərclik edə bilməzdi.

Bir sözlə, Robert qızla elə davranırdı ki, sanki Yelizaveta onun nişanlısı və yaxud da arvadı idi. Halbuku qız dəfələrlə izah edirdi ki, o, subay olduğundan sərbəstdir və

nə vaxt, hara istəsə gedə bilər və bunun üçün Robertdən icazə almalı deyil. Bütün bunların fonunda tez-tez onların arasında mübahisələr baş verir, nəticədə isə həftələrlə, hətta ayla küsülü qalırdılar. Yalnız oğlan özünü məzlum şəklinə salandan sonra qız onun yurd-yuvasından "didərgin" düşmüş bir bəndə kimi yazığı gəlib, onunla barışırdı. Onların arasındakı mübarizə kəskin xarakter alanda, Yelizaveta hamıya söz verirdi ki, bir daha özünü kobud aparan həmin "qaçqınla" barışmayacaq. Həm özünə, həm də Eduarda, Eduardın ailəsinə mənəvi və maddi zərbə dəyəcəyindən ehtiyat edən hiyləgər erməni fırıldaqçısı, qızın qarşısında ləyaqətsizcəsinə ağlayaraq ondan əfv olunmasına nail olurdu.

Özünə görə dünyagörüşünə malik olan Yelizaveta son vaxtlar anlamağa başlamışdı ki, onunla ailə həyatı qurmaq istəyən həmin ədəb-ərkandan uzaq olan oğlanın nə mənliyi, nə qeyrəti, vicdanı var.

Tədris ili başa çatmaq üzrə olduğundan Yelizaveta universitetin kitabxanasından götürdüyü ədəbiyyatları qaytarmağı qərara aldı. O, Robertdən kitabların daşınması üçün yardım istəsə də erməni biznesmen həmin gün vaxtının olmadığını bəhahə gətirdi. Hiyləgər oğlanın bu hərəkəti qızın xoşuna gəlməsə də o, hələlik oğlanın xətrinə dəyməməyi qərara aldı. Yelizaveta görür ki, son vaxtlar

Robert onun bir çox xahişlərini yerə salır və qayğı-nəvazişlərinin sayını kəskin surətdə azaltmışdı.

Kitabların sayı çox olduğu üçün o, Nizaminin köməyindən istifadə etməli oldu. Qızın sözündən çıxmaq istəməyən oğlan, əvvəlcədən razılaşdırılmış kimi, səhər tezdən təhsil ocağına yollanmamış birbaşa onlara getdi ki, kitabları oradan götürsün.

Yelizaveta üç bağlama – iki böyük və bir balaca – hazırlamışdı.

Nizami öz pedaqoqu ilə salamlaşmaq üçün onun kabinetinə yollandı. Sergey bu vaxt nahar edirdi və tərəddüd etmədən Nizamini süfrə arxasına dəvət etdi. Qız tələbə yoldaşının gəlişinin səbəbini atasına ərz etmişdi. Oğlan utancaq olduğundan nə qədər həmin dəvətə etiraz etsə də, son nəticədə pedaqoqun təkid etməsi onun müqavimətini qırdı.

Yelizaveta əynini dəyişmədən (o, çin xalatında idi) tələm-tələsik, əlavə yağ-pendir gətirdi və vaxt itirmədən blinçik qızardaraq masanın üzərinə düzdü. Qızın bu hərəkəti oğlanın ürəyindən oldu və o, kompliment bildirməyi özünə lazım bildi. Hərəkətdə olan Yelizaveta kakao hazırlayıb masa arxasında əyləşən kimi Nizami səmimiyyətlə:

- Liza, sənin əl qabiliyyətinə söz ola bilməz. Fakültədə söz gəzirdi ki, sən qaldığın ocaqda heç bir ev işləri ilə məşğul olmursan. Guya evinizdə qulluqçu işlədirsiniz.

- Atam universitetin pedaqoqu olduğu üçün hamı belə düşünür. – deyə qız tərəddüd etmədən dilləndi.

- Hələ bu harasıdır? – deyə Sergey istehza ilə dilləndi. – Həmkarlarım mənə deyir ki, tələbələrin ağzından çıxan söz-söhbətə görə guya mənim Skandinaviya ölkələrin birində böyük bir villam və bir neçə mağazalarım var. Camaatın ağzını yığışdırmaq mümkün deyil.

- Sergey Vladimiroviç, hamı bilir ki, siz elmli bir adamsınız və tələbələr arasında böyük hörmətə maliksiniz.

Elə bu vaxt qapının zəngi vuruldu və Yelizaveta otaqdan çıxdı. Gözlənilməz olmasa da gələn Robert idi və onun gəlişi qızı xeyli dərəcədə təəccübləndirdi. Sergey eşitməsin deyə, o, elə dəhlizdə gəlişinin məqsədini izah etməyə başladı.

- Əzizim, yaxşı gəlir əldə etmək üçün sərfəli imkan yaranıbdır. Amma bunun üçün özümdə olan pul çatmaya-caq.

- Nə baş veribdir axı? – deyə oğlanın fikrini qismən başa düşən Yülizaveta fəhmsizliklə soruşdu.

- Bir kommersant dostum, Qarabağda yığdığı əntiq malları satışa çıxarmaq üçün İrəvanda auksion təşkil etmək istəyir. Mən isə ona bildirdim ki, istədiyi məbləği ona verə-cəm, amma malları auksiona çıxarmasın.

- Sən pulu atamdan almaq istəyirsən?

- İstəməzdim ki, bu məsələ ilə bağlı Sergey Vladimiroviçi narahat edim. Ümumi işimizin xətrinə sən mənə köməklik edə bilərsən.

Əzizim, sənin şəhərə qeydiyyatın olduğu üçün, bankdan pul götürməyə çətinlik çəkməyəcəksən.

- Mən, bankdan pul götürmyəliyəm? – qız təəccübləndi.

- Əlbəttə!

- Nə qədər pul lazımdır? Bəlkə, mən həmin pulu atamdan ala bildim.

- İnanmaram ki, həmin məbləğ sənin atanda olsun.

- Axı, nə qədər lazımdır?

- 80 min dollar. Təxminən 40 min dollara yaxın pul mənim özümdə var, əməliyyatın keçirilməsi üçün elə bir o qədər də pul lazımdır.

- 40 min dollar? – deyə qızın gözləri bərələ qaldı və bir qədər ara verəndən sonra sözünə davam etdi. – Həmin məbləği mən bankdan necə ala bilərəm? Bunun üçün banka böyük məbləğli girov qoymalıyam.

- Sənin ixtiyarında özəl salon var. salonu girov qoysan, onda işimiz irəli gedər.

- Robik, sən yaxşı bilirsən ki, həmin salonu mənə atam hədiyyə edibdir. Məhz buna görə də bu, məsələ ilə bağlı mən, mütləq atamla məsləhətləşməliyəm.

- Sergey Vladimiroviç bu haqda bilsə, inanmıram ki, o, mənə kömək əlini uzadacaq. Ona görə ki, o, Eduardgilə lazımi yardım göstəribdir və bundan sonra ondan əlavə yardım istəmək, mənim tərəfimdən sırtıqlıq sayılacaq.

- Lakin buna baxmayaraq cəhd etmək lazımdır. Atam xoşlamır ki, kimsə onun başı üzərindən risqli hərəkətlər etsin. Açığını desəm, mənim özümdə 6 min dollara qədər pul var. Əgər həmin pul sənə müəyyən qədər köməklik göstərəcəksə, mən həmin məbləği sənə verməyə hazıram.

- Həmin məbləğ nəzərə çarpacaq dərəcədə azdır.

Söbətin uzandığını görən qız qarşısındakı adamı mətbəxə dəvət etdi. Robert məmnuniyyətlə içəri daxil oldu və masa arxasına keçən kimi tələsik halda dedi:

- Bu əməliyyat zamanı mən bir evin pulunu qazana bilərəm. Onda, toyumuz olmamışdan əvvəl, biz özümüzə şəhərin kənarında bir ev ala bilərik.

- Robik, məgər biz evlənirik ki, sən bizim toy etmək fikrini ortaya atırsan? – deyə qız çiyinlərini çəkərək daha da təəccübləndi.

- Məgər, mən fırıldaqçıya oxşayıram? – oğlanın üzündəki ifadə ciddiləşdi. – Səninlə mütəmadi olaraq görüşürəmsə, deməli biz evlənəcəyik.

- Mən razılıq bildirməsəm də, belə? – soyuqqanlığını itirməyən Yelizaveta kofe hazırlaya-hazırlaya istehza ilə

dilləndi və kofeni qonağın qarşısına qoyan kimi kürəyini pəncərəyə tərəf çevirib, oğlanı dinləməyə başladı.

- Anlamadım? – deyə Robert vəcdə gəldi. – Mənimlə ailə qurmaq istəmirsən?

- Mən bu haqda heç düşünməmişəm də. – Yelizaveta tərəddüdlə dilləndi və bir qədər fikirləşəndən sonra həmin tərzdə sözünə davam etdi. – Bilirsən Robik, mən əvvəl elə zənn edirdim ki, vaxt ötdükcə biz bir-birimizə bağlı olacayıq. Lakin həmin hal baş vermədi, ona görə ki, bizim xasiyyətlərimiz xeyli dərəcədə bir-birindən fərqlənir. Sən bizneslə məşğul olmaqla, bütün diqqətni ticarət əlaqələrinə yönəldir və mənimlə məşğul olmağa demək olar ki, vaxtın qalmayacaq. Bu ondan xəbər verir ki, xoşbəxtliyin işığı görünməyən izdivac nəticəsində, ailəmiz tez və ya gec dağılacaq.

Qızın obyektiv fikri oğlanın kefinə soğan doğradı. Bir anlığa Robert yerindəcə donub qaldı. Qız sanki qarşısındakı oğlanın məkrli niyyətini başa düşüb, belə bir gözlənilməz cavab vermişdi.

## II fəsil. Arada yaranan gözlənilən münaqişə

Erməni oğlanın fikrincə o, Yelizavetanın adına bankdan böyük məbləğdə pul götüzdürməklə, qızı özündən asılı vəziyyətə salnalı və nəticədə qızla evlənib onun adına olan mülkə yiyələnmək istəyirdi. Lakin Yelizavetanın inadkarlığı və müəyyən mənada şıltaqlığı Robertin bütün planlarının üstündən xətt çəkirdi. Həm də bu işdə oğlanın özü təqsirkar idi. Ona görə ki, hiyləgərliklə yığdığı pullardan azacıq da olsun o, qızın yolunda xərcləməmiş və demək olar ki, tanışlıq müddəti ərzində əməlli-başlı hədiyyə də almamışdı.

Robertin bütün bu mənfi xüsusiyyətləri qızı ondan uzaqlaşdırmağa məcbur etmişdi. O, bütün fikrini cəmləşdirib qızın əllərindən tutdu və ciddi halda dedi:

- Liza, bütün aləm bilir ki, mən səni necə sevirəm. Bizim sıx əlaqələrimiz sənin qohumlarına, rəfiqələrinə və tələbə yoldaşlarına bəllidir.

- Hansı sıx əlaqələrimiz? – deyə qız dəhşətdən vəcdə gəldi və əllərini geri çəkib narazı halda sözünə əlavə etdi. – Yadına salmaq istəyirəm ki, bizim heç bir sıx əlaqələrimiz olmayıbdır. Hətta sən bir neçə dəfə məni öpməyə cəhd etmisən, mən isə sənə bu imkanı verməmişəm.

- Mən başqa mənada demək istədim. – deyə oğlan əvvəlki sözlərinə düzəliş vermək istədi. – Lakin buna baxmayaraq hamı elə başa düşür ki, bizim aramızdakı münasibət sıx əlaqələrdən ibarətdir. Hətta onlar bir-birilərinin arasında belə şayiə yayıblar ki, guya yaxın günlərdə bizim toyumuz olacaq.

- Başqalarının iyrənc fikirləri məni qəti maraqlandırmır. Onlar ağızlarına nə gəldi danışacaqlar, mən isə bunun müqabilində sənə ərə getməliyəm.

Qızın son ifadələri oğlanın hessiyyatına toxundu və Robert tərs nəzərlə onu süzərək hüznlə dedi:

- Liza, sən mənimlə elə danışırsan ki, guya biz düşmənik. Sənin bu cür dəyişəcəyini mən, ağlıma belə gətirə bilməzdim. Sanki aramıza kimsə giribdir.

- Robik, mən necə varamsa, elə də qalmışam. Amma sənin ifrat dərəcədə xəsis olmağın məndə şok effekti yaratdı.

- Xəsisliyimi nədə görmüsən? Bayramlarda burada olanda daim sənə gül dəstəsi almışan, ad gününə isə firma malı olan paltar da alıb vermişəm.

- Tələsmə, indi hər şey sənə izah edərəm. – deyə bu söhbətdən təngə gələn qız dərindən nəfəs alaraq, tələsik halda dilləndi. - Uzun müddətdir biz görüşürük, amma heç vaxt səndən qayğı və nəvaziş görməmişəm. Şəhərdə ola-ola nadir hallarda qabağıma çıxmısan, bilirsən ki, biz görüşən-

də ən azı kofe içmək üçün kafeyə gedəcəyik. Kiminsə tədbirinə gedəndə hədiyyə almaq lazımdır, sən isə bəhanə tapıb, həmin gün mənimlə birlikdə tədbirə getməkdən boyun qaçırmısan. Dünən sənə dedim ki, evdə olan kitabları universitetə aparmaq üçün mənə kömək et. Sən isə dedin ki, səhər tezdən həmkarlarınla vacib işin olduğun üçün, bizə gələ bilməyəcəksən. Amma pul lazım olan kimi özünü tez bura çatdırmısan.

- Liza, həqiqətən də səhər tezdən mən bir-iki adamla görüş keçirmiş və əlverişli ticarət əməliyyatı yarandığından, borc pul almaq üçün bura gəldim.

- Yaxşı, indi kitabları daşımaq üçün sən mənə kömək edə bilərsən?

- Elə bil sən məni barmağına dolamaq istəyirsən? – deyə əsəblərini birtəhər qoruyan erməni oğlan bir qədər hiddətləndi. – Hər dəqiqə mənim üçün qızıla bərabərdir. İndiki zamanda mənə hava-su kimi pul lazımdır, sən isə mənə deyirsən ki, kitab daşı. İstəyirsən, gedim bazardan bir hambal tapım gətirim, o da sənin kitablarını hara istəsən daşısın.

- Robik, sən çox təkəbbürlü adamsan. – həsöhbətinə qəribə nəzər salan qız bir addım geri çəkilərək, heyifslənmiş tərzdə dilləndi. – Deməli, kimsə gəlib mənə kömək etməli olsa, sən həmin kəsi hambal adlandıracaqsan?

Həqiqətən də səninlə bağlı olan şübhələrim bu gün özünü doğrultdu.

Robik, bilirsən, mən səninlə tanış olanda, elə zənn etdim ki, bizim dostluğumuz gələcəkdə sıx münasibətlərlə nəticələnəcək və biz ailə quracayıq. Lakin mən yanıldım və aydın oldu ki, səninlə ailə qursam, mən heç vaxt xoşbəxt ola bilməyəcəm. Bilirsən, nəyə görə? Ona görə ki, sən eqoistsən və özündən başqa heç kimi lazımi qədər sevməyəcəksən.

- Əzizim, sənin sözlərin mənim mənliyimə toxunur. Gələcəkdə xoşbəxt olmaq və xoş-firavan yaşamaq üçün mən ticarətlə məşğul oluram. Məhz bu səbəbdən mən sənə kifayət qədər diqqət ayıra bilmədim. O ki, qaldı eqoist fikrinə, qətiyyətlə deyə bilərəm ki, sən bu məsələdə yanılırsan. Sən mənim arvadım olsan, şübhə yox ki, səni yağ-bal içərisində saxlayacağam və heç vaxt imkan vermərəm ki, kimsə mənim arvadımın xətrinə dəysin. Mən tərəddüd etmədən həmin adamı fiziki cəhətcə məhv edərəm.

- Gəl biz qanımızı qaraltmayaq. – deyə qız söhbəti yekunlaşdırmaq üçün qətiyyətlə dilləndi. - Dost kimi qalmaq istəyirsənsə, mən razı, amma başqa bir fikirlə mənə yaxınlaşma.

Robert gördü ki, Yelizavetanın fikri ciddidir və qız hərtərəfli olaraq onu inkar edir. Qızın inadkarlığı oğlanın

bütün planlarını alt-üst edirdi. İşi belə görən Robert, öz niyyətini hasil etməkdən ötrü gələcəkdə qurbanlıq verməyə hazır olan qızı ələ almaq üçün hiyləgər fəndə əl atmağa qərara aldı. O, bir daha Yelizavetanın əllərindən tutub, sinəsinə tərəf çəkdi və məzlum halda dedi:

- Bəs, mənim sənə olan məhəbbətim necə olsun? Etiraf edim ki, mən sənsiz yaşaya bilmərəm. Əzizim, sənə olan məhəbbətimi sübut etmək üçün mənə bir daha şans ver. İmkanım daxilində, mən dünyanın bir çox nemətlərini sənin ayaqların altına atacağam.

- Robik, sən məhəbbət hisslərini insan ürəyinə yox, pul əskinaslarına doğru yönəltmisən. Pulu çox istəyən bir kəs isə, heç vaxt insan qəlbini fəth edə bilməz.

- Əzizim, tikanlı sözlərinlə mənim ürəyimi parçalama. Sənə dedim axı, mən sənsiz yaşaya bilmərəm.

Ondan sonra Robert evdə qızın atasının olmasına heç bir əhəmiyyət vermədən Yelizavetanı qucaqlayıb öpmək istədi. Lakin belə bir gərgin vəziyyətdə kifayət qədər soyuqqanlı olan qız, özünü itirməyib, kobud oğlanın üzünə çırmaq atdı və - şərəfsiz deyərək, ondan aralandı.

- Sən mənə cırmaq atırsan? – deyə əli ilə üzünü tutan oğlan vəcdə gəldi və öz dilində onun ünvanına bir-iki söyüş işlədərək, əsəbi halda sözünə əlavə etdi. – Bilirsən, belə

hərəkətə görə mən başqa adamın başına hansı oyunu açaram?

- Tez ol, bizim evi tərk et. – deyə qəzəblənən qız hiddətlə dilləndi. – Bir daha mənim gözümə görünmə.

- Olamaya, sən özünə başqa oğlan tapmısan? - əsəblərini cilovlaya bilməyən eqoist oğlan coşmuş halda qızın üzərinə yerimək istədi.

Lakin bu vaxt Yelizavetanın qışqırıq səsini eşidən Sergey Nizami ilə birlikdə mətbəxə gəlib, qızından nə baş verdiyini soruşdu. Qız cavabdan yayınmağa çalışsa da, Robert Nizamini ev yiyəsinin yanında görəndə daha da hiddətləndi və gözlərini bərəldərək, üzünü Yelizavetaya tutub hirsli halda dedi:

- Artıq mənə aydın oldu, sən nəyə görə məni özündən uzaqlaşdırırsan? Məni hansısa quldur müsəlmana dəyişmisən, indi isə deyirsən ki, mən eqoistəm.

Hirsini daxilində boğmağa çalışan Yelizaveta cavab vermək istəyirdi ki, Robertin danışığından və hərəkətindən doğan təəccübünü gizlətməyən Sergey ciddi halda soruşdu:

- Robert, bu nə danışıqdır? Olmaya, içib bura gəlmisən?

- Sergey Vladimiroviç, mən nadir hallarda səhər tezdən içirəm. Amma arxayın ola bilərsiniz, mən tamamilə ayıqam və nə dediyimi yaxşı bilirəm. Sadəcə olaraq, erməni millətinin qanını axıdan türklərin nümayəndəsini sizin evdə

görəndə mən hiddətimi gizlədə bilmədim. Məsləhətim odur ki, yanınızdakı türkü buradan rədd edəsiniz. Əks təqdirdə mən onu şil edib yola salacağam.

- Kitablarımı daşımaq üçün mənə kömək etmək istəyən adama hədə-qorxu gəlirsən? – Robertin hərəkətlərindən dəhşətə gələn Yelizaveta onun üstünə qışqırdı. – Özün kömək etmək istəmirsən, başqalarına da mane olmağa çalışırsan?

- Robert, danışıqlarına sərhəd qoy. - deyə ev sahibi azacıq səsini qaldıraraq hökmlə dilləndi. - Unutma ki, bura mənim evimdir, qonağım isə türk yox, azərbaycanlıdır. Nizami mənim tələbəmdir və imkan verməri ki, kimsə bu evdə onun xətrinə dəysin.

- Onların hamısı türkdülər və Qarabağda bütün xristianların qanını su yerinə axıdıblar. Sergey Vladimiroviç, bu yırtıcıları evinizə dəvət etməklə, siz öldürülən xristianların ruhunu tapdaq altına atmış olursunuz. Onun imkanı olsa, sizin hər ikinizi doğrayar və evinizi qarət edər.

Ünvanına söylənilən ifadələrdən özünü birtəhər saxlamağa çalışan Nizami, başını dik tutub əsəbi halda dedi:

- Sən hamını öz arşınınla ölçmə. Qaniçən mən yox, sənin kimilərdir. Mənim ailəm...

Elə bu anda Robert heç kimə əhəmiyyət vermədən qolunun gücünə arxalanaraq, azərbaycanlı tələbənin üzərinə

şığıdı və onun yaxasından tutub özünə tərəf çəkdi. O, Nizamini yumruqla vurmaq istəyirdi ki, azərbaycanlı tələbə onun sinəsinə möhkəm yumruq zərbəsi endirərək, onu özündən kənar itələdi.

Nizami Robertdən bir qədər alçaqboy və cansız olsa da onun zərbəsi sarsıdıcı alındı. Erməni biznesmen öz dilində söyüş verərək, cibindən polad kastet (beşbarmaq) çıxartdı və tələbənin üstünə yerimək istədi. Lakin bu vaxt pedaqoq onun qarşısında dayanıb üstünə qışqırdı:

- Tez ol, mənim evimi tərk et, əks təqdirdə, polis çağıracağam.

- Bu nədir, hansısa bir türkə görə məni evinizdən qovursunuz? – deyə vəcdə gələn erməni yerindəcə donub qaldı. – Sergey Vladimiroviç, sizin damarlarınızda xristian qanı axır, yoxsa...

- Robert, sənin başın xarab olubdur, get özünü psixiatra göstər. – deyə pedaqoq onun sol qolundan tutub özü ilə bayıra apardı.

Yelizavetanın Robertə qarşı nifrəti artdı və özündən qeyri-ixtiyari olaraq Nizamini müdafiə etmək üçün sinəsini qabağa verdi. Robert evdən çıxarılan kimi qız üzünü tələbə yoldaşına tutub nəvazişlə dedi:

- Bizim evdə səni heç bir təhlükə gözləmir. Robert emosional olsa belə, qışqırığdan başqa əlindən heç nə gəlmir.

- Liza, sən elə danişirsan ki, guya mən ondan qorxuram. Biz bayırda olsaydıq onda mən ona göstərərdim, şər atmanın aqbəti necə olur. Sadəcə olaraq mən səndən ötrü qorxuya düşmüşəm. Nə olursa-olsun, tə ki, o, sənə bir xəsarət yetirməsin.

- Sən nə danışırsan, o, mənə barmağını belə toxundura bilməz. – deyə qız istehza ilə gülümsəyərək, ciddi halda dilləndi. – Nəinki Robert, kim olursa-olsun səbəb olmadan mənim xətrimə dəyməyə cürət etməz.

- Bütün bunlara baxmayaraq mən istəməzdim ki, sizin aranızda soyuq münasibət yaransın. Mənim əvəzimə, sən gərək başqa uşaqlardan kömək istəyəydin.

- Mənim ürəyimə başqa uşaqlar girsəydi, onda mən onalrın köməyindən istifadə edərdim. – deyə qız oğlanın üzünə nəzər salmadan qətiyyətsiz halda dilləndi. – İndiki zamanda mən yalnız sənin kimi səmimi qəlbli, ürəyiaçıq, gözütox, sədaqətli bir adama etibar edə bilərəm. Sən çox yaxşı bilirsən ki, bizin universitetdə olan hər tələbə bizim evə gəlmir, hətta o, əlaçı olsa belə.

Bu sözlər sanki Nizamini yuxudan ayıltdı və o, utandığından bilmədi hansı cavabı versin. Axı, birinci dəfə idi ki, Yelizaveta kimi dərrakəli, ağıllı, iradəli bir qız, ona belə bir komplimentə bənzər səmimi ifadələr söyləyirdi. O, son anda özünü toplayıb fikir bildirmək istəyirdi ki, birdən

qızın atası içəri daxil oldu və Nizamiyə heç nədən çəkinməməyi tövsiyə etdi.

- Təəssüflər olsun ki, mən Robert kimi yaramaz adamları sonradan tanıyıram. – deyə pedaqoq gileyləndi. – Onlar qaçqın deyə-deyə, gəlib adamın lap boynunda oturmaq istəyirlər.

## III fəsil. Azərbaycanlı tələbənin pedaqoqları ilə apardığı maraqlı diskussiya

Hər şeyə məsuliyyətlə yanaşmağa çalışan Aleksandr istəmirdi ki, öz işində qüsurlar baş versin. Ona görə ki, əks təqdirdə o, obyektiv jurnalist kimi heç bir nüfuzlu qəzet orqanında işləyə bilməzdi və ətrafındakı adamlar onu prinsipial, düzgün, qərəzsiz müxbir kimi qəbul etməyəcəkdilər. Halbuki dekan oğlu Cənubi Qafqaz ölkələri ilə bağlı silsilə məqalələr yazanda Raisa ilə müzakirələr aparmış və özü üçün qaranlıq görünən bəzi məsələləri qrup yoldaşının məsləhətlərilə həll edirdi. Ürəkdən Raisaya vurulan Aleksandr qızın səmimiyyətinə inanaraq əldə etdiyi məlumatla-

rın doğruluğuna şübhə etmirdi. Məhz bu səbəbdən o, erməni qızının köməyi ilə Qarabağla bağlı olan hadisələri qəzet səhifələrində işıqlandıraraq, müzakirə üçün ictimaiyyətin ixtiyarına verirdi. Bütün bu yaxınlığa və Raisa ilə olan iş birliyinə baxmayaraq, Xocalı anım günü Eduardın evində baş verən məlum hadisədən sonra onda qıza və qızın ailəsinə qarşı soyuqluq yaranmağa başladı.

Sergey Qafqaz turnesindən qayıdandan sonra ümumiyyətlə, Eduardla görüşməkdən boyun qaçırdı və oğluna da Raisa ilə yaxınlıq etməkdən imtina etməyi məsləhət bildi. Həmin səfərdən qayıdan pedaqoqun əsəbləri tarıma çəkilmiş və o, Aleksandra qətiyyətlə bildirmişdi ki, dünyada Eduard kimi ikinci yalançı adam tanımır və belə adamla ünsiyyət qurduğuna görə də təəssüfləndiyini gizlətmədi. Rus ziaylısı hər vəchlə ona yaxınlıq etmək istəyən Elizabet ilə görüşməkdən imtina edərək, yavaş-yavaş qızı xatirəsindən silməyə başladı. Bundan sonra həmin qızla heç bir izdivacdan söhbət gedə bilməzdi.

Qarabasma, həyasızlıq, sırtıqlıq, şərləmək, üzə durmaq kimi naqis hisslər Aleksandr üçün yad olduğuna görə o, müəyyən müddət Raisadan kənarda qalmağa qərar vermişdi. Yəni, mütəmadi görüşlərə son qoyulmuşdu.

Nizami hiss edirdi ki, Aleksandr Raisa ilə yaxınlıq edəndən sonra yavaş-yavaş ondan uzaqlaşır və Qarabağla bağlı

olan bəzi məsələləri həll etmək üçün həftədə yalnız bir dəfə görüşməyə imkan tapırdı. Azərbaycanlı tələbə dəqiq bilirdi ki, qərəzli yazılan həmin məqalələrdə erməni qızı böyük canfəşanlıq göstərir. Çünki Raisa məkrli bir insan kimi Nizamini də yoldan çıxarmaq istəmiş və bunun müqabilində onu öz tərəfinə çəkərək, qərəzli məqalələrin yazılmasında iştirakçıya çevirməyə çalışmışdı. Qızın hiyləsini başa düşən azərbaycanlı tələbə birdəfəlik ondan uzaqlaşmaq qərarını vermişdi.

Səfərdən qayıdan Sergey ermənilərin kimliyini dərindən öyrənmək fikirinə gəlmişdi. Ermənilər özlərini hər yerdə yazıq, məzlum, əzabkeş göstərməyə çalışsalar da, onlar mədəniyyətlərinin zəif olmaları önə çəkilirdilər. Müəyyən mənada belə milləti sivilizasiyadan kənar qalan bir millət də adlandırırdılar.

Hava qaralan zaman Sergey evində oturub oğlunun Qarabağla bağlı yazdığı sonuncu məqaləni oxuyurdu. Alim yazıdan hiss etdi ki, bu məsələdə Raisanın böyük təsiri var. Ona görə ki, heç bir fakt araşdırılmadan Azərbaycanda və ya Ermənistanda məskunlaşan millətlərin neçənci əsrdə həmin ərazilərdə kök salması, milli-memarlıq abidələrinin yalnız ermənilərə məxsus olması absurd sayılırdı. İdealist ziyalıların toplaşdığı məclislərdə elə yazılar müzakirə ediləndə, həmin məqalələri qərəzli yazılar adlandırırdılar.

Evində oturan Sergey bir ata kimi oğlunun sonuncu məqaləsindən narazı idi və narazılığını bildirmək üçün səbirsizliklə onun gəlişini gözləməyə başladı.

Nizami perspektivli tələbə kimi dekanın sevimlisi sayılırdı. Ayda iki dəfə onlar görüşüb tarixin müəyyən dövrü ilə bağlı maraqlı müzakirələr aparırdılar. Sergey istəyirdi ki, onun tələbəsi əsl tərixçi mütəxəssisi kimi yetişsin. Buna görə o, Nizamiyə universiteti bitirəndən sonra aspiranturaya daxil olmaq təklifini vermişdi.

Bundan əlavə dekanın azərbaycanlıların əksəriyyətinə böyük rəğbəti artmışdı. Artıq o, başa düşmüşdü ki, Qafqazın cənubunda yaşayan ən qonaqpərvər millət heç nədən ermənilərin qurduqları çirkin siyasətinin qurbanına çevrilibdir, halbuki ictimai qınağa, kəskin tənqidlərə məruz qalası millət elə ermənilərin özləri idi. Sergey təəssüf hissi keçirirdi ki, belə bir haqsızlıqda bir çox rus siyasətçiləri, o cümlədən mədəniyyət, ədəbiyyat, incəsənət, elm və təhsil sahəsində çalışan rus ziyalıları da mühüm rol oynamışdılar.

Hal-hazırda azərbaycanlı tələbə ali təhsil ocağını bitirmək üçün diplom işi üzərində işləyirdi. O, çar Rusiyasının Qafqaz siyasəti, həmin ərazilərin Rusiyaya birləşdirilməsi ilə bağlı araşdırma işi aparır və bu məsələdə öz müəllimindən və həmin təhsil ocağında tarixdən dərs verən digər

müəllimindən, gürcü milliyyətinin nümayındəsi olan David Çoxadzedən məsləhətlər alırdı.

David ilə Sergey həmkar olsalar da onlar tarixin müəyyən dövrlərinin mütəxəssisləri sayılırdılar. Bu vaxta kimi rus pedaqoqu heç vaxt Qafqazla bağlı olan bəzi hadisələrin incəlikləri ilə maraqlanmamış və onun bu biganəliyi başına bəla olmuşdu. Əgər, o, Qafqaz siyasəti ilə dərindən maraqlansaydı, onda erməni millətinin kimliyindən, onların tarixindən hali ola bilərdi və belə olan halda, 18 il bundan əvvəl əsl simasını gizlətmiş Eduardın məkrli niyyətindən xəbər tuta bilərdi. Lakin indiki məqamda Sergey hələ də dilemma qarşısında qalmışdı; Rusiyada, Avropada və Amerikada yaşayan bir çox tanınmış insanlar, o cümlədən, siyasətçilərin ermənilərin indiki vəziyyətini nəzərə alıb onların dedikləri haqdır, yoxsa ermənilər həqiqətən də türklər və azərbaycanlıların təzyiqinə məruz qalaraq, yaşadıqları torpaqdan didərgin düşməyə məcbur olublar.

Ermənistanda və Qarabağda olarkən o, ermənilərin yaşadıqları ərazidə bir nəfər də olsun azərbaycanlı görmədi və bu o demək idi ki, həmin millət heç də təzyiq altında yaşamırdı. Bəzi məsələlərə aydınlıq gətirmək üçün Sergey həmkarını Nizami ilə birlikdə şəhərdəki evinə çay süfrəsinə dəvət etdi. Onlar da həftənin sonu dekanın evində toplaşdılar.

David həmkarından hündür, iri qamətli, azacıq kök, lakin çevik hərəkətli idi. Bir həftə bundan əvvəl onun 53 yaşı tamam olmuşdu. Nizami yaşda kiçik olduğuna görə cəld mətbəxə gedib çay hazırladı və bir neçə şirniyyatla yanaşı süfrəni bəzədi. Hər ehtimala qarşı ev sahibi masanın üstünə iki şüşə moldovan çaxırı da qoydu. Nizami çayları süzən kimi hər iki pedaqoqdan icazə alaraq onların arasında əyləşdi.

Sergey bir-iki dilim rulet yeyib, həmkarı ilə birlikdə bir badə çaxır içəndən sonra özünü maraqlandıran suallara cavab tapmaq üçün mətləbə keçdi.

- David, mən Ermənistanda olanda başa düşdüm ki, ermənilər torpaq uğrunda canlarından keçməyə hazırdırlar, lakin onların öz torpaqlarında yaşamağa heç bir maraqları yoxdur.

- Ona görə ki, həmin torpaqlar onlara məxsus deyil. – deyə fikirini cəmləşdirən gürcü tarixçisi qətiyyətlə dilləndi. – İllər ötdükcə, ermənilərin əsas məqsədi başqa millətlərin torpağında sığınacaq tapmaq, ondan sonra isə həmin torpağı həyasızcasına ələ keçirməkdən ibarətdir.

- Necə yəni torpaqları həyasızcasına ələ keçirməkdən ibarətdir? - deyə Sergey həmsöhbətinə sualedici nəzər saldı. - Məgər, indiki Ermənistan ərazisi onlara məxsus deyil?

- Dostum, hər şey Rusiyanın XIX əsrin birinci rübündə Osmanlı Türkiyəsi və İranla olan müharibələrdən sonra baş verir.

İmperator I Nikolayın 21 mart 1828-ci ildə verdiyi fərmanına görə Azərbaycanın Naxçıvan və İrəvan xanlığı ləğv olunmuş, onların yerində rus hakimləri tərəfindən idarə olunan "Erməni mahalı" adlanan yeni inzibati qurum yaradılmışdır. 1849-cu ildə həmin mahalın adı dəyişdirilərək Yerevan quberniyası qoyulmuşdur.

- Bilirəm ki, həmin dövrdə Rusiyanın İrandakı səfiri Aleksandr Qriboyedov ermənilərin Qafqazda olan maraqlarını müdafiə etmişdir.

- Əziz dostum, sən ermənilərin Qafqaza köçürülməsi barəsində sənədləri nəzərdən keçirsən, onda tüklərin biz-biz durar. Həmin siyasətdən sonra onlar sanki gəlib bizim boynumuzda oturdular.

- David, həmin dövrdə böyük bir milləti bir məkandan başqa bir məkana köçürmək reallığa uyğun deyil. – deyə Sergey eşitdiyi sözlərə şübhə ilə yanaşdı. – Çünki ermənilər bir əsrdən yuxarıdır hamıya bildirirlər ki, onlar hələ qədimdən həmin ərazidə məskunlaşıblar.

- Əziz dostum, ermənilər hansı tarixi hadisəni saxtalaşdıra və hansı millətin tarixini istəsən, müvəqqəti də olsa özününküləşdirə bilərlər. Amma faktlar tamamilə başqa bir

şeydən xəbər verir. Amerikalı akademik Castin Makkarti yazılarında Azərbaycanda erməni kaloniyalarının yaradılması haqqında bunları demişdir: “1828-1920-ci illər arasında yerlərdə əhalinin demoqrafik tərkibini ermənilərin xeyirinə dəyişmək siyasəti nəticəsində iki milyondan çox müsəlman məcburi olaraq yaşadıqları ərazilərdən sürgün edilmiş və dəqiq məlum olmayan sayda insan isə qətlə yetirişmişdi...”

Castin Makkartinin göstərdiyi rəqəmlərə görə, 1828-1920-ci illər arasında Azərbaycana 560000 erməni köçürülmüşdür.

Akademik A. İonisian yazır ki, “Yerevan şəhərinin əhalisinin yalnız dörddə biri ermənilərdir, azərbaycanlılar burada mütləq üstünlüq təşkil edir”.

## IV fəsil. Tükürpədici faktların sadalanması

Eşitdiyi faktlardan və rəqəmlərdən vəcdə gələn Sergey əlləri ilə başını tutdu və bir anlığa qapanmış vəziyyətdə qaldı. Sonra süfrədə olan mineral sudan bir neçə qurtum içərək Davidə nəzər salmadan heyifslənmiş halda dedi:

- Aman Allah, ermənilər nə dərəcədə həyasız olarmışlar? İş ondadır ki, onlar hələ Sankt-Peterburqda olan zaman mənbəyi məlum olmayan sənədlər təqdim edərək, qətiyyətlə bildirirdilər ki, hələ eramızdan əvvəl Qafqazın cənubu erməni tayfalarının qədim məskəni olubdur. Sadəcə olaraq müsəlmanlar tərəfindən sıxışdırılaraq, onların müstəqilliyi əlindən alınmışdır.

- Əziz dostum, onlar bu minvanla hər kəsi aldatmağa çalışırlar. Qısa müddət ərzində onların həyasızlığına, sivil insanlara yaraşmayan xasiyyətinə bələd olandan sonra Qriboyedov rus çarı I Nikolaya yazırdı**:** “Əlahəzrət, ermənilərin mərkəzi rus torpaqlarında yerləşməsinə icazə verməyin. Onlar elə tayfadandırlar ki, bir neçə il yaşayandan sonra bütün dünyaya bu torpaqların ata və babalarına aid olduğunu qışqıracaqlar”. Mənə elə gəlir, əlavə şərhə ehtiyac yoxdur. Çünki həmin köçürülmədən sonra onlar bizə də məxsus olan torpaqlarda məskunlaşdılar. Bundan belə nəticə çıxarmaq olar ki, özünü yaradıcı insan adlandıran həmin səfir öz millətinə rəva bilmədiyi bir şeyi başqa millətə rəva bildi. Öz amansızlığı, qəddarlığı, vəhşiliyi, zalımlığı ilə pis imic qazanan bir barbar tayfanı çiçəklənən bir diyarda sivil bir millətlərin arasında məskunlaşdırdılar.

- Məndə olan məlumata əsasən, Rus imperatorları erməni kilsəsini, dini qardaşlarımızı qırğından xilas etmək

üçün onları Qafqazın cənubuna köçürülməsinə qərar vermişdi. Bundan əlavə məlumdur ki, erməni katolikosları müraciət edəndən sonra rus monarxları onları Türk və İran müsəlmanların işgəncələrindən müdafiə etməli olmuşdular.

Sergey bilmirdi ki, ermənilər Qafqaza köçürüləndən sonra ərazilərinin genişləndirilməsi məqsədini güdərək, 1836-ildə rusların köməyi ilə Azərbaycanda, o zaman fəaliyyət göstərən Alban Patriarxat kilsəsinin ləğv olunmasına və onun mülklərinin erməni kilsəsinə verilməsinə nail oldular.

Bu açıq həqiqət hələ XIX əsrdrə bəlli idi. Bunu erməni müəllifi V. İşxanyan təsdiq edərək yazırdı: "Dağlıq Qarabağda məskunlaşmış ermənilərin bir qismi yerli olub qədim Alban xalqının nəsilləri, bir qismi isə Türkiyə və İrandan qaçmış və Azərbaycan torpaqlarında təqib və təzyiqlərdən sığınacaq tapmış erməni əhalisidir".

Albaniyanın vilayəti olan Arsakın əhalisi erməni kilsəsinin təsirinə çox məruz qalmışdı. Rus tarixçisi İ. P. Petruşevskiyə görə, "Qarabağ heç bir zaman erməni mədəni mərkəzlərinə mənsub olmamışdır. Erməni kilsəsi Albaniyada "Ölkəni erməniləşdirmək aləti olmuşdur".

- David, axı məlumdur ki, ermənilər hələ XIX əsrdən əvvəl də Qarabağ ərazisində yaşayıblar. – rus alimi ortaya

qoyulan faktlarla tam şəkildə razılaşmaq istəməyərək inadkarcasına dilləndi.

- Onlarla ailənin yaxşı həyat axtarması ilə orada sığınacaq tapması, bu o demək deyil ki, həmin ərazi onların qədim vətənidir. 1823-cü il məlumatına görə keçmiş Qarabağ xanlığının ərazisindəki 20 minə yaxın ailəsindən cəmi 1,5 minini erməni ailəsi təşkil edirdi. Köçürmədən sonra əhalinin etnik tərkibi kəskin şəkildə dəyişir. Bu siyasət məqsədyönlü şəkildə davam etdirilməyə başladı.

- Erməni alimləri isə iddia edirlər ki, - deyə rus ziyalısı alnını ovuşdura-ovuşdura xəyala dalmış şəkildə dilləndi. - hələ İslam bərqərar olmamışdan əvvəl onlar Qarabağda məskunlaşıblar.

- Bir faktdır ki, Dağlıq Qarabağ erməniləri 1978-ci ildə köçürülmələrinin 150 illiyini qeyd etmiş, - deyə David istehza ilə dilləndi. - bu münasibətlə Mardakert – Ağdarə rayonunun Marağaşen – Leninavan kəndində xüsusi abidə qoymuşdular. Əziz dost, onlar həmin abidəni qoymaqla öz paslarını açmış və bununla da özlərini pis vəziyyətdə qoydular. Yəni, təkzibedilməz faktı ermənilərin özləri dünya ictimaiyyətinə təqdim etdilər.

- Bir çox ermənilər bildirirlər ki, hələ XIX əsrin sonunda ermənilər yaranmış partiyalar ətrafında birləşməsəydilər, -

deyə Sergey xatırlatma etdi. - onda bir çox ölkələrin diqqətini öz problemlərinə cəlb edə bilməzdilər.

- Siyasi cəhətcən formalaşan ermənilər, dünyada qoçaman "Hnçaq" və "Daşnaksütyun" partiyalarına malik olmaları ilə öyünürlər. – David ikrah hissi ilə dilləndi. – Soydaşlarını qətlə sövq edən, terrora üstünlük verən partiyalarla öyünən milləti xəstə adlandırmaq olar.

"Hnçaq" partiyasının proqramı xüsusilə qətllərə üstünlük verirdi: "Bütün şəraitlərdə turkləri və kürdəlri məhv etmək, və öz xalqının rifahına xəyanət etmiş ermənilərə aman verməyərək onlardan qisas almaq".

"Daşnaksütyun" patiyasının fəaliyyətini ardıcıllıqla izləyən gürcü yazıçısı Karibi 1919-cu ildə ağrı hissilə yazırdı: "Daşnaklar gələrkən özləri ilə milli nifrət toxumu gətirdilər. Və deməliyəm ki, belə bir toxumlar səpilmiş torpaq üzərində erməni – müsəlman qan davası, erməni və gürcü müharibəsindən başqa bir şey bitə bilməzdi".

Davidin ortaya qoyduğu faktlar həddindən artıq inandırıcı göründüyündən Sergey müqavimətini dayandırmalı oldu. Gələcəyin tarixçisi kimi həmin faktlar Nizami üçün də maraqlı idi və o, söylənilən faktların bir çoxunu elmi əsərlərdən oxumuşdu. Ən əsas o, idi ki, vahid Azərbaycan tarixi ilə bağlı diskussiyanı əcnəbi alimlər aparırdılar. Deməli, bunun üçün hansısa bir səbəb vardı. Azərbaycanlı

tələbə fikir verdi ki, Sergey Ermənistana gedib gələndən sonra bu məsələ ilə dərindən maraqlanmağa başlayıbdır. Çözülən məslə o qədər aktual idi ki, Nizami hətta özünə süzdüyü çayı içməyə imkan tapmırdı. Rus pedaqoqu həmkarı ilə birlikdə daha bir badə çaxır içib, təmkinlə dedi:

- Mənim üçün maraqlıdır, bəs nəyə görə türklər 1915-ci ildə ermənilərə qarşı soyqırım törətdilər? Sağ qalanları isə ölkədən deportasiya etdilər. Verilən cavab isə sadə olur: ermənilər xristian olduqları üçün türklər onları kütləvi surətdə məhv ediblər.

- Bu tamamilə absurd bir fikirdir. – deyə gürcü alimin dodaqlarında istehzalı gülüş əmələ gəldi və o, başını inkaredici tərzdə tərpədərək təmkinlə sözünə əlavə etdi. – Birinci Dünya müharibəsi başlananda Osmanlı Türkiyəsi Almaniyanın müttəfiqi kimi Rusiyaya qarşı döyüşlər aparmağa başlayır. 1915-ci ildə türklərin vəziyyəti pisləşir və ruslar hücuma keçirlər. Türklər arxa cəbhədə ermənilərin fəallaşdığını, hətta müsəlmanların yaşadığı kəndləri əhali qarşı məhv etdiyini görüb, onları sərhəd zonasından başqa bir əraziyə köçürməyə başlayırlar. Məhz deportasiya zamanı ermənilərin xeyli hissəsi məhv olur.

Osmanlı Türkiyəsi Rusiya və digər dövlətlərlə müharibə aparan zaman ermənilər arxa cəbhədə elə çörəklərini yedikləri mülki türklərin başına olmazın müsibətlər açdılar.

Rus əsgərləri hansısa bir rayonu ələ keçirəndə oradakı yaşayış məskənlərində bir nəfər də olsun salamat mülki vətəndaş qalmamışdı. Rus komandanlığına sədaqətini nümayiş etdirən ermənilər insanlığa sığmayan ən dəhşətli üsullarla, hətta mən deyərdim ki, nasist Almaniyasında konslagerdə saxlanılanlara verilən işgəncələrin ağırlığını qat-qat üstələyən qəddarlıqlar tətbiq etmişdilər və bu haqda onların vəhşiliyinə tab gətirməyən Rus diplomatı general Mayevski xatirələr yazmış və həmin yazı **"Ermənilərin törətdiyi kütləvi qırğınlar"** kitabında dərc olunur: "Kəndlərə aparılan yollara müsəlman kəndlilərinin süngüyə keçirilmiş meyitləri, kəsilmiş bədən hissələri və dağılıb tökülmüş daxili orqanları səpələnmişdi… Əsasən qadınlar və uşaqlar! Hakimlər və sahibkarlar qətlləri təşkil etmiş, erməni ordusu onu yerinə yetirmişdir. Dərin quyular qazılmış və köməksiz insanlar heyvan kimi kəsilərək bir-birinin ardınca quyulara atılmışdır. Qətllər üçün məsuliyyət daşıyan ermənilər bir evə səksən nəfər müsəlman doldurur, sonra isə onların başlarını kəsirdi".

- Birinici Dünya müharibəsində Osmanlı Türkiyəsində ermənilərin fəaliyyətlərini nəzərdən keçirəndə mən də tük-ürpədici yazılarla rastlaşmışam. – deyə Nizami üzrxahlıqla dilləndi. – Şərqi Anadoluda ön cəbhədə döyüşən polkov-nik-leytenant Qryaznovun 1915-ci ildə Ərzincandakı

qırğınlar haqqında verdiyi raportda yazılıbdır: “11-12-mart gecələrində erməni cəlladları Ərzincan ətrafındakı ərazilərdə müsəlmanları süngülər və baltalarla qətlə yetirdilər. Bu vəhşilər öz qurbanlarını əksərən öz məlum planları məqsədi ilə qazılmış xəndəklərə atırdılar. Mənim yavərim iki yüz (200) belə xəndək saymış və cinayətlərin üstünü açmışdı”. Ermənilər müharibə zamanı yaşından asılı olmayaraq bütün əhalini məhv etməklə ölü torpaq siyasətini həyata keçirmişdilər. Belə bir üsul elə Qarabağ müharibəsində də tətbiq olunmuşdu.

- Rus tədqiqatçısı V. Veliçko **“Qafqaz”** əsərində yazır ki: “Ermənilər silməyə və gürcülərə məxsus olan xram və monastrlarda gürcülərin izini məhv edir, daş üzərində gürcü yazılarını qaşıyır, yaxud silir, daşın özünü tikintidən çıxarır və onların yerini erməni yazıları ilə əvəz edirlər”. – deyə David əlavə etdi. – Sonradan Qafqaza köçən ermənilər həyasızcasına hamıya car çəkirlər ki, onlar həmin ərazinin köklü sakinləri, digər millətlər isə gəlmədirlər.

- Başa düşə bilmirəm belə yırtıcıları necə yetişdirmək və onlara, hətta xristian olsunlar belə necə arxa durmaq olar? – deyə vahiməyə düşən ev sahibi narahat halda dilləndi. – Gələcək nəsili belə bir hisslərlə yetişdirən ermənilər, açıq-aşkar şəkildə öz millətini uçuruma sürükləyirlər. Axı, onlar

sağlam nəsil əvəzinə, humanizm prinsiplərinə zidd olan yırtıcılar yetişdirirlər.

- Hörmətli həmkar, görürəm ki, sənin çox şeylərdən xəbərin yoxdur. – David ehtiramla dilləndi. – Əminəm ki, sən ermənilərə tam etibar etmiş, azərbaycanlılara isə şübhə ilə yanaşmısan.

Göründüyü kimi həqiqətən də onlar xəstə bir nəsil yetişdirərək hər yerə ölüm toxumunu səpirlər. Maraqlıdır ki, onlar dünyanın hər bir yerinə səpələnsələr də, özlərindən başqa heç kimi bəyənmirlər. Guya hər tərəfdə onların düşmən-ləri mövcuddur və qeyri-millətlər yalnız ermənilərin məhv edilməsi məqsədini güdür.

Dostum, ermənilər Qafqaza köçürüləndən və onların xarakterinə bələd olandan sonra bir çox xalqlarda ümumi atalar sözü yarandı, rahat yaşamaq istəyirsənsə, ermənilərdən kənarda dur. Amma sən isə başını cəncələ salmısan. Elə bil dünyanın ən zəhərli ilanlarını və yaxud da mən deyərdim ki, yırtıcılarını öz qoltuğunda bəsləyirsən.

- Sən elə danışırsan ki, guya ermənilərin hamısı əfi ilanlardı. – ev sahibi şok vəziyyətində olsa, həmkarının dediklәi ilə razılaşmadı. – onların arasında yaxşıları yoxdur?

- Niyə yoxdur, təəssüflər olsun, bəlkə də onlar əhalinin 5 faizini təşkil edir. Həmin ermənilər də Ermənistanın hüdudlarından kənarda yaşayırlar.

- Düzdür, Edik yalançı olsa da indiyənə kimi onun heç bir pisliyi mənə dəyməyibdir. Elə övladları da mənə və ailəmə hörmətlə yanaşırlar.

- Onun kimi ekstremistləri barmaqla saymaq olar. Bir adam ki, Sankt-Peterbuqa gələnə qədər azərbaycanlılarla çiyin-çiyinə yaşamış və həmişə də onlardan hörmət-izzət, ehtiram görmüşdü, lakin silahlı münaqişə başlayan kimi onun həmin millətə olan münasibəti 360 dərəcə dəyişir və hər yerdə də qonşularının ünvanına olmazın iftiralar yağdırırlar. Bu millətdən nə gözləmək olar? Mən Xocalı soyqırımı ilə kadrları seyr edəndə inana bilmirdim ki, insan-insanın başına həmin şəkildə ağılagəlməz müsibətlər açsın. Sanki onlar körpələri süngüyə keçirməkdən, qadınları amansızcasına zorlayaraq doğramaqdan, hamilələrin qarnını yırtıb anadan olmayan körpəni yerə çırparaq öldürməkdən, uşaqların qanını içməkdən, öldürülmüş azərbaycanlıların cəsədlərini parça-parça etməkdən həzz alırlar. Mən deyərdim ki, onlar xeyli qabaq insanlıq qiyafəsindən çıxmış və özlərinin cəzasızqlıları ilə öyünürlər.

- Xahiş edirəm, bir qədər fasilə ver, yoxsa mən özümü cəhənnəmdəki kimi hiss edirəm. – deyə Sergey əlləri ilə başını tutub həqarətlə dilləndi. – İllər boyu mənə deyirdilər ki, azərbaycanlılar ən qəddar və vəhşi millətdir. Əgər, sənin

dediklərin həqiqətdirsə, deməli həmin adamların ifadələri yalandır.

Mən ilk növbədə XIX əsrin birinci yarısından başlayaraq Cənubi Qafqaz xalqların tarixini araşdıracaq və onda öz fikrimi bütün ətrafımdakılara çatdıracağam. Əlbəttə ki, mətbuatda çıxışlarım olacaq. Yay tətili başlayan kimi təhlükəli də olsa, mən, Azərbaycana gedib orada, Ermənistanda olduğum kimi camaatla ünsiyyətdə olmalı və onların hansı mənsəbə qulluq etdiklərini öz gözlərimlə görməliyəm.

- Elə sənin yerinə olsam, Nizamigilə gedərəm. Onun çox mehriban və qonaqpərvər ailəsi var, atası da ki, ziyalı adamdır. Azərbaycana gedib oradakı millət görəndən sonra başa düşərsən ki, düşmənçiliyi, pisliyi tez unudan azərbaycanlılar bütün millətlərə dostluq əlini uzadır. Onlar kimi tolerant olan ikinci millət tanımıram.

Sergey fikir bildirməyə tələsməsə də, Davidin bu təklifi Nizaminin ürəyindən oldu.

Azərbaycanlı tələbə tədrisin başa çatmasına az vaxt qaldığını vurğulayıb, Sergeyi ailəsi ilə birlikdə, dövlət imtahanları başlamamış Bakıya dəvət etdi. Bu dəvətlə o, öz müəllliminə hörmət etmək istəyirdi. Bir növ Nizaminin təklifi, Qafqaz ölkələrinə olan nostalji duyğularını aradan qaldırmaq istəyən və uzun illərdən bəri olan ayrılıqdan sonra azərbaycanlılarla ünsiyyət qurmağını gizlətməyən,

xüsusən də həmin milləti yaxından tanımaq üçün, həmin dəvət dekanın ürəyindən oldu. Hələ SSRİ dağılmamışdan əvvəl keçən əsrin 80-ci illərin ortalarında o, Qafqazın cənubundakı hər üç respublikada olmuş və oradan, xüsusilə də Azərbaycandan xoş təəssüratlarla ayrılmışdı.

Birdən Sergeyin yadına düşdü ki, mayın üçüncü dekadasında Bakıda **"Eurovision"** keçiriləcək. Həmin yarışmaya canlı tamaşa etmək və tədbirin hansı səviyyədə keçirilməsi dekanın marağında oldu.

## V fəsil. İyirmi beş illik ayrılıqdan sonra tarixçi pedaqoq yenidən Bakıya gəlir

2012-ci ildə Azərbaycan **"Eurovision"**a ev sahibliyi etdiyinə görə həmin tədbirin yüksək səviyyədə keçirilməsi üçün, Xəzər dənizinin qoynunda Aropada ən böyük konsert salonu sayılan **"Kristall holl"** tikdirilib başa çatdırılmışdı. Artıq aprelin axırından Bakı qonaqların gəlişinə tam hazır idi.

Yelizaveta biləndə ki, atası **"Eurovision"** keçirilən zaman Bakıda olacaq, o, da Xəzərin qoynunda yerləşən ən böyük şəhərə getməyini təkid edir. Ata da heç bir müqavimət göstərmədən öz razılığını bildirir. Yelizavetanın Bakıya getməsi ən çox Nizaminin ürəyindən oldu. Necə olsa, azərbaycanlı tələbənin, mərdliyinə və qətiyyətinə görə qıza böyük rəğbəti vardı. Həm də qızın özünün də azərbaycanlı tələbəyə müəyyən bağlılığı yaranmışdı. Robert ilə olan son münaqişədən sonra Yelizaveta demək olar ki, hər gün dərs başa çatan kimi Nizami ilə universitetin yaxınlığındakı kafeyə gedib, orada bir saat vaxtını keçirirdi.

Sergey qızı ilə birlikdə Buranovski nənələrinə dəstək olmaq üçün həmin möhtəşəm musiqi yarışmasının finalına bilet əldə etmək istədiyini gizlətmədi. Nizami də söz verir ki, qohumlarının vasitəsilə o, qiymətindən asılı olmayaraq finala bilet təşkil edəcək.

Azərbaycanlılara qarşı rəğbəti olmayan Aleksandr qəti olaraq Bakıya getməkdən imtina etdi. Bu məsələdə Janna xüsusi rol oynamışdır. Bundan əlavə ermənilərin yaydığı təbliğata əsasən, gənc müxbirdə belə bir stereotip fikir yaranmışdı ki, Bakıya gedən adamların sağ-salamat vətənlərinə qayıtmağa heç kim zəmanət verə bilməz. Yəni, yayılan şayiələrə əsasən həmin şəhər əcnəbilər üçün həddindən artıq təhlükəli yer sayılırdı.

Sergeygil Bakı hava limanında enən təyyarədən düşən kimi onları Nizaminin atası Əvəz qarşıladı və o, vaxt itirmədən qonaqları, dostu Füzulidən müvəqqəti aldığı "Mersedes" markalı maşınına mindirib, oradan evinə yola düşdü. Nizami ilə Yelizaveta arxa oturacaqda əyləşdilər. Öz qonaqpərvərliyini nümayiş etdirən azərbaycanlı həkim rus alimini qızı ilə birlikdə elə qarşılamışdı ki, sanki onlar bir-birilərini uzun müddət tanıyırdılar. Onlar tanış olanda Sergey rəsmiyyətdən uzaq olsun deyə, Əvəzdən xahiş etdi ki, ona "sən" deyə müraciət etsin.

Aeroportdan şəhər istiqamətində hərəkət edən maşın kifayət qədər sürət yığdığından nə Sergey, nə də ki, onun qızı ətrafdakı mənzərəni tikililərlə birlikdə yaxşıca seyr edə bilmirdilər. Marağını gizlətməyən rus ziyalısı dözə bilməyib səbirsizliklə dedi:

- Əvəz, hava limanından bilinir ki, şəhəriniz yaxşılığa doğru xeyli dəyişibdir. İmkan ver qoy ətrafa tamaşa edim.

- Hamınız yol gəlmisiniz, istəyirəm sizi evə tez çatdırım ki, bizim yeməkləri dadasınız. – rus dilində azacıq ləhcə ilə də olsa, sərbəst danışan həkim maşının sürətini bir qədər azaltdı. - Günorta yeməyindən sonra isə şəhərə çıxarıq və sizi Bakının ən gəzməli yerlərinə aparacam.

- Sən fikirləşdiyin kimi biz ac deyilik. Evə bir qədər gec də getsək olar.

Əvəz maşının sürətini bir qədər də azaltmalı oldu. Bundan sonra əcnəbi qonaqlar nəzarət bucağına düşən bütün görüntüləri diqqətlə seyr etməyə başladılar. Maşın ***"Koroğlu"*** metrostansiyasını arxada qoyub Heydər Əliyev prospekti ilə şəhər istiqamətində gedən zaman, təbiətən səmimi insan olan rus ziyalısı ətrafa tamaşa edə-edə bir ay bundan əvvəl Ermənistanda olduğunu söyləyərək, bildirdi ki, Bakı ilə İrəvan şəhərləri arasında yerlə göy kimi fərq var – biri həddindən artıq inkişaf edir, o biri isə tənəzzüldən çıxa bilmir. Bir az keçəndən sonra isə o, Ermənistanı inkişafdan geri qalan ölkə, Qarabağı isə bütün dünyadan təcrid olunmuş hərbi düşərgə adlandırdı. Xüsusilə vurğuladı ki, orada mülkü əhalidən çox hərbi qulluqçular var.

- Dolanışıq olmayanda millət nə etsin ki? – deyə öz həkim təəssüf hissilə dilləndi. – Xalqın qayğısına qalmayan erməni siyasətçiləri, xaricdə kef çəkən erməni lobbisi və onların havadarları həm Ermənistanı, həm də Qarabağı belə bir şəkildə görmək istəyirdilər. İndi isə həmin düyündən çıxa bilmirlər.

Qarabağ işğal olunandan bəri Əvəz ailəsi ilə istifadədə olan bir uşaq bağçasının təsərrüfat üçün ayrilmış binasında qalırdı. Həmin bağçada onun ailəvi dostu olan ədəbiyyat müəllimi İsgəndər də ailəsi ilə birlikdə məskunlaşmış və bu

neçə ildə bir-birilərinə kömək əllərini uzadıraq, mehribançılıq şəraitində ömür sürürdülər.

Bundan əlavə Əvəz hələ Qarabağda tanış olduğu Füzuli, Kamil və Vahidlə də dostluq edir və mütəmadi olaraq onlarla görüşlər keçirirdi. Elə rus qonağını qarşılamaq üçün maşını ona Füzuli vermişdi ki, tarixiçi pedaqoq heç bir əziyyətlə üzləşməsin.

Əvəz qonaqları Keşlə qəsəbəsində yerləşən keçmiş "Ət kombinatı"nın yaxınlığındakı, böyük olmayan həmin bağçanın ərazisinə gətirdi.

Şəhər xəstəxanalarının birində həkim işləyən Əvəz bir azərbaycanlı kimi qonaq qarşısına necə çıxmağı yaxşı bilirdi. O, elə etməliydi ki, oğlunun müəllimi nəinki onun evindən, hətta Azərbaycandan belə narazı getməsin. Məhz buna görə də Əvəz əvvəlcədən planlaşdırmışdı ki, ziyafətdən sonra Sergeyi qızı ilə birlikdə dostu Füzulinin evinə aparsın ki, onlar lazımi şəkildə istirahət edə bilsinlər.

Qapını 48-51 yaşlı, başını yaylıqla örtmüş o qədər də kök olmayan, uzunsifət, xoş baxışlı, alçaqboy, yaraşıqlı bir qadın açdı və sevincək halda hamını salamladı. Gələnlər həmin an içəri dəvət edildilər.

Nizamidən başqa Əvəzin 16 və 19 yaşında iki qızı və 25 ilini başa vuran bir oğlu da vardı. Füzuli adlı oğlu mühafizə polisinin əməkdaşı kimi özəl bankların birini qoruyurdu.

Böyük qızı Sevil Bakıdakı Müəllimlər İnstitutunun ikinci kursunda oxuyurdu, kiçik qızı Sevinc isə orta məktəbin 10-cu sinif şagirdi idi. Hazırda onların hamısı bərbad vəziyyətdə olan bağçanın iki otağında qalırdılar.

Hər şeyi əvvəlcədən nəzərə alan həkim Rusiyadan gələn qonağın kimliyini bildiyindən o, həmin adamı qaçqın düşərgələrinə aparmağı palanlaşdırmışdı. Bu minvanla Əvəz tarixçi pedaqoqa sübut etməyə çalışırdı ki, işğalçı azərbaycanlılar yox, məhz ermənilərdir və bunun üçün bariz nümunə çadır şəhərciyində məskunlaşan çoxsaylı qaçqınlardır. Məhz bu səfərdə Füzuli keçmiş silahdaşları ilə birlikdə onları yolda müşayiət etməliydi.

Özünə görə imkanlı olan Sergey darısqal və təmirsiz otaqda olmasına baxmayaraq, təvazökar olduğu üçün narahatlığını büruzə vermədi. Çünki o, əvvəlcədən bilirdi ki, Nizaminin ailəsi qaçqındır və onların belə bir şəraitdə yaşamaları, həqiqətən aldıqları statusu təsdiq edirdi.

Elə bir az keçmişdi ki, Füzuli, Kamil, Heydər və Vahid həmin evə təşrif buyurdular. Əvəz tələsik halda içəridəkiləri bir-biriləri ilə tanış edərək, onların hamısını süfrə arxasına dəvət etdi. Darısqal olan otaqda diskomfort yarandığından Füzuli günorta yemək üçün hamını öz evinə və yaxud da münasib olan restoranların birinə getməyi məsləhət bildi. Onun məqsədini başa düşən rus pedaqoqu

hələlik burada qalmağı üstünlük verdi ki, Əvəzin gördüyü tədarük bada getməsin. Sergeyin fikrincə, onların buradan getməsi ev sahibinin xətrinə dəyə bilərdi.

Xəbər əvvəlcədən verildiyindən evdəkilər qonaqların gəlişinə hazır idilər. Bütün tədarük elə burada görülmüşdü.

Süfrəyə milli yeməklər – küftə bozbaş, plovaltı ördək, yarpaq və kələm dolmaları düzülmüşdü. Əvəz özü spirtli içki qəbul etməsə də qonaqların gəlişi münasibətilə salatların arasına bir araq və yerli istehsal olan "Jalə" şirələri qoyulmuşdu.

Adəti üzrə ailə başçısı yeməyi ya tək, ya da ki, həyat yoldaşı ilə yeyərdi. Uşaqlar ayrıca süfrəyə əyləşirdilər. Xaricidən qonaqlar gəlsə də bu dəfə də adət pozulmadı.

Müharibə veteranları masanın bir tərəfində, Rusiyadan gələn qonaqlar ilə Nizami əks tərəfdə, Əvəz isə onların arasında, masanın başında oturmuşdular. Kim hansı nemətdən istəsə dada bilərdi.

- Əsl qonaqpərvərlik belə olar. – deyə yarpaq dolması yeyən Sergey səmimiyyətlə dilləndi. – Əvəz Qasımıç, etiraf edim ki, mən Ermənistanda olanda belə bir qəbuldan kənar olmuşam. Açığı deyim, onlarda mən xoş sifət görmədim.

- Qonaqpərvərlik bizim qanımızdadır. – deyə minnətdarlığını bildirən həkim ehtiramla dilləndi. – Qonaq evimizin yuxarı başında əyləşməlidir ki, o, özünü evindəki kimi

hiss edə bilsin. – Bundan sonra Əvəz azərbaycanlıların adət-ənənələrini təbliğ etməyə başladı.

Süfrə arxasında gedən söhbət Sergeyin marağında olsa da o, yarpaq dolmasını yeyərkən, yeməyin dadına heyran qalmışdı. Tarixçi pedaqoq çəngəl ilə dolmanın birini göstərib, məst olmuş halda dedi:

- Ermənilər daim bu yeməklə öyünsələr də, etiraf edim ki, siz bunu onlardan daha ləzzətli hazırlayırsınız.

- Milli yeməklərimiz hamının xoşuna gəlsə də, heç bir millət həmin yeməkləri bizim millətdən yaxşı bişirə bilməz. – deyə Vahid üzünə şirin təbəssüm verib iftixarla dilləndi.

- Üzr istəyirəm sizdən, bəs ermənilər deyirlər ki, dolma onların milli mətbəxinin məhsuludur. – təəccübdən çiyinlərini çəkən elmlər namizədi tərəddüdlə dilləndi.

Bu söz hamıya təsir etsə də Kamil cavab vermək üçün üçün araya girdi. O, istehza ilə gülümsəyərək, qalın polad səsini işə salıb təmkinlə dedi:

- Bədbəxt erməniləri mən qınamıram, bir millətin ki, keçmişdə heç bir mədəniyyəti, ədəbiyyatı, elmi, adət-ənənəsi olmayıbdırsa, özlərini sivil xalqların arasında görmək üçün mütləq qonşularından oğurluq etməliydilər.

Əziz qonaq, onlar bütün regionda məşhur olan bizim xalçalarımızı, kulinariyamızı, musiqi alətlərimizi, memarlıq abidələrimizi, mahnılarımızı, mədəniyyət ocaqlarımızı öz

adlarına salmaqla bütün Qafqazda və region ölkələri arasında oğru millət kimi tanınırlar. Antik, Yaxın Şərq, Avropa alimlərinin əsərlərində azərbaycanlı yaşayış məskələri kimi hallanan, yüz illər, hətta min illər yaşı olan həmin şəhər və kəndlərin adlarını dəyişib özlərinki kimi qələmə verməklə, sivil dünyanın qınağından çəkinmirlər.

- Sergey Vladimiroviç, mən sizə kulinariya, musiqi alətləri və xalçaçılıqla bağlı kataloq-kitablar hədiyyə edəcəm, onda görəcəksiniz ki, yaşı yüz illər, min illər olan həmin əsərləri ermənilər bizim ərazidə məskunlaşandan sonra, öz adlarına çıxarmağa başlayıblar. – deyə Vahid ehtiramla dilləndi.

- Bu məsələ ilə bağlı həqiqəti aşkarlamaq üçün mən, məmnuniyyətlə həmin kataloqları nəzərdən keçirəcəyəm. – deyə rus ziyalısı sevincək halda dilləndi. - Həqiqətən də siz azərbaycanlılar qonaq qarşısına çıxmaqda bütün millətlərə örnək olmalısınız. Mən vaxtilə Qarabağda olanda orada qonaqpərvərliyinin necə olmasının şahidi olmuşdum. Bu dəfə isə orada olanda belə bir münasibəti həmin diyarda görmədim. Məhz onda başa düşdüm ki, həmin qonaqlıqlar, xoş münasibət, mehribançılıq yalnız azərbaycanlıların sayəsində baş verirdi. Çünki həmin əlamətlərin heç birisi orada qalmayıbdır.

- Təəssüflər olsun ki, əminamanlıq olan dövrdə bizim rayonda olmamısınız. – deyə həkim nostalji əhval ilə dilləndi. - Sizə meşəlikdə elə kabab çəkərdim ki, dadı indi də damağınızdan getməzdi. Hayıf ki, həmin ərazilər qara qarğaların əlinə keçibdir. Ermənilər iyirmi ilə yaxındır oranı viran qoyurlar.

- Mən, 80-ci illərdə Cəbrayıl rayonunda olanda oranın təbiətinə heyran qalmışdım, lakin bu dəfə gördüklərimə inanmadım. – deyə rus ziyalısı məyus halda dilləndi. - Arazın sol sahilində olan Cəbrayılın nə vaxtsa çiçəklənən kəndlərindən əsər-əlamət belə qalmayıbdır. Yaşıllıqlara qərq olan kəndlər xarabalığa bənzəyir. Rayon mərkəzində tikilmiş görkəmli inzibati binalar, salınmış park və meydanlar, yaşıllıq sahələri büsbütün dağıdılıbdır. Sanki həmin yerdə böyük bir rayon mərkəzi yerləşməmişdir.

- Tarixi abidələrin demək olar ki, hamısı yerlə yeksan edilibdir. – deyə Füzuli hiddətlə dilləndi. - Onlar bütünlüklə bizimkilərin orada yaşamasının izini itirməyə çalışırlar.

- Abidələrin məhv edilməsi artıq vandalizm aktıdır. – Sergey təəssüflə dilləndi. – Gördüklərimdən və eşitdiklərimdən sonra onlara insan deməyə adamın dili gəlmir. Maddi-mədəni irsi də yer üzündən silmək olar?

- Hörmətli qonaq, Cəbrayıl-Zəngilan ərazisində ötən əsrlərdən bu günümüzədək salamat qalıb yaşaya bilən nəhəng

çinar ağaclarını bir necə gündə məhv etmək, onu adi mebel parçasına çevirmək ən böyük ekoloji cinayətdir. – deyə Heydər ürəkyanğısı ilə dilləndi. - Erməni işğalı altında olan bu çinarlar fəlakətlə üz-üzə dayanıb, erməni vəhşiliyi bütün sərhədləri aşıb keçibdir. Hətta faşistlər Belorusu işğal edən zaman, meşələrdə gizlənən partizanların müqavimətilə üzləşəndə belə, onlar oradakı ağacları yandırmamışdılar.

- Mən, Qarabağda səhiyyə sahəsində işləyəndə həmin diyarın demək olar ki, hər bir yerinə, o cümlədən, Cəbrayıl və Zəngilana ezam olunurdum. – deyə peşəkar həkim həqarətlə dilləndi. - Cəbrayılda olarkən, mən yaşı 800 il olan çinar ağacının möhtəşəm duruşuna vurulmuşdum. Həmin rayona da əsasən, təbiət abidəsi olan qocaman ağaca tamaşa etmək üçün getmişdim. İşğalçılar "uf" etmədən həmin təbiət abidəsini kökündən kəsiblər.

- Əvəz qardaş, inana bilməzdim ki, sən belə detallara fikir verirsən? – deyə Heydər təəccüblə dilləndi. - Ermənilər ağacı kəsəndən sonra həmin sahədə yerləşən sərin sulu kəhriz də məhv oldu. Cəbrayıl rayonunda çoxyaşlı qoz bağları, həmçinin ayrı-ayrı kəndlərdə meyvəsinə görə becərilmiş iri diametrli qoz ağacları material kimi doğranaraq Ermənistana daşınır. Rayonun meşə örtüyü amansızcasına məhv edilibdir.

- İşğal olunmuş torpaqlar mütəmadi yandırılır, - deyə Kamil bu məsələ ilə öz fikrini bildirməyə başladı. – uzunömürlü ağaclar qırılaraq Ermənistana daşınır, dünya əhəmiyyətli təbii və yeraltı sərvətlərə ziyan vurulur. Bununla da təbiətin fauna və florası məhv edilir.

- Hələ bu harasıdır? – deyə Vahid başladığı fikri başa çatdırmağa çalışdı. - Diridağın özünəməxsus ekosisteminin işğaladək qoruyub saxladığı əsrarəngiz təbiət güşələri, mineral maddələrlə zəngin əvəzedilməz içməli su mənbələri erməni işğalçıları tərəfindən tamamilə məhv edilib. Araz çayının sol sahilində, Diridağın üzərində tikilmiş "Qız qalası" və 500 kvadratmetri əhatə edən Sirik qalası da mənfur erməni siyasətinin qurbanı olmuş, darmadağın edilmişdir. Bu barədə rəsmi Bakı dəfələrlə BMT-yə və digər aidiyyəti beynəlxalq qurumlara müraciət etsə də, onlar isə susur.

- Vəziyyət bu şəkildə davam etdikcə də işğal olunmuş torpaqlarımızda biomüxtəlifliklər sürətlə tükənir. – deyə söhbətdən həvəslənən Heydər heç kimə imkan vermədən ciddi halda əlavə etdi. - Ümumdünya Mədəni və Təbii İrsin mühaifzəsi haqqında Konvesiyaya üzv olan Ermənistan Azərbaycanın işğal etdiyi ərazilərdə olmazın vəhşiliklər törədir, bəşəri əhəmiyyət daşıyan nadir təbiət və mədəniyyət incilərini dağıdır.

Daşaltı Dövlət Yasaqlığının və “Topxana” meşəsinin əsrarəngiz təbiəti var. – deyə Əvəz rus ziyalısının badəsinə araq süzüb aludəliklə dilləndi. - Tərifi sözə gəlməyən yasaqlıq elə Topxanadakı dövlət meşə fondunu qorumaq məqsədilə yaradılmışdı. Burada ağacların, bitkilərin, heyvanların, quşların sayı-hesabı olmazdı. İşğal olunmuş ərazilərdə endemik və nəsli kəsilməkdə olan fauna növlərinin çoxu hələ keçmiş ittifaq dövründə Beynəlxalq Təbiəti Mühafizə İttifaqının siyahısına və Azərbaycanın “Qırmızı kitab”ına düşmüşdü.

- Zəngilan rayonunda yerləşən Bəsitçay Dövlət Təbiət Qoruğu torpaq və iqlim xüsusiyyətinə görə zəngin təbiətə malik idi. - Rus ziyalısının diqqətini özünə cəlb edən Heydər əlindəki boş armudu stəkanını nəlbəkiyə qoyub səbirsizliklə dilləndi. - 117 hektar sahəni əhatə edən bu qoruğun ərazisində 1500 il yaşı, 4 metr diametri olan nəhəng çinar ağacları qorunurdu. Bu ağaclar əsrlərdən yadigar olaraq ata-babalarımız tərəfindən qorunub saxlanmışdı, dünyanın hər tərəfindən bu qoruğu görməyə turistlər gələrdi. 1993-cü ildən işğalçılar bu tarixi qoruğu məhv edir.

Qarabağda gedən müharibənin ağrı-acısını dadan Əvəz dədə ocağından didərgin düşən bir adam kimi istəyirdi ki, illər boyu qulağı yalan məlumatlarla doldurulan rus alimi, burada söylənilənlərə xüsusi diqqət yetirsin və alim kimi

özü üçün bir nəticə çıxarsın. O, özündən sağ tərəfdə əyləşən Sergeyin qabına tikə, lülə və balıq kababları qoyub ürəkyanğısı ilə dedi:

- Bizim Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində diametri 6 m, hündürlüyü 25 m olan, 1 ədəd 1000 il, 1 ədəd 2000 il yaşı olan Şərq çinarları isə tarixi abidə kimi qorunurdu. Bu iki çinar xarici turistlərin ən çox seyr etdiyi məkan idi. Bu gün onların bir dənəsi belə qalmayıb. Hələ bu harasıdır? – deyə tarixçi pedaqoqun eşitdikləri sözlərdən hiddətləndiyini görən həkim, başladığı söhbəti başa çatdırmaq üçün həmin tərzdə sözünə əlavə etdi. - Azərbaycanın ən qədim yaşayış məskəni kimi qədim insan qalıqları tapılmış və YUNESKO-nun siyahısına düşmüş "Azıx" və "Tağlar" mağaraları tarixi təbiət abidəsi kimi xüsusi əhəmiyyətə malikdir. Bunlar Ümumdünya Mədəni İrs Siyahısına salınıb. Həmin tarixi mağaralar bu gün ermənilərin silah anbarına çevrilib.

Sergey anlayırdı ki, burada səsləndirilən məlumatlar, ermənilərin Rusiyada, Ermənistanda və Qarabağda qarayaxma kompaniyası üçün səsləndirdikləri fikirlərdən qat-qat dürüstdür, ona görə ki, burada yalnız faktlara istinadən məlumatlar verilirdi, həm də özü bir neçə həftə bundan əvvəl həmin vandalizm və qarət əməllərinin şahidi olmuşdu. Lakin indiki məqamda onu başqa bir şey maraqlan-

dırırdı: ermənilər deyirdilər ki, onlar təzavüzə məruz qalan bir millət kimi qaçqın düşüblər, halbuki nə Ermənistan, nə də ki, Qarabağ ərazisində bir dənə də olsun qaçqın düşərgəsi yox idi. Bunun əksi olaraq, rus ziyalısı orada çoxsaylı yaşayış məskənlərini görmüşdü kü, hansındakı ümumiyyətlə, insan yaşamırdı.

Ermənilər qətiyyətlə iddia edirlər ki, azərbaycanlılar arasında qaçqın ola bilməzdi. Ona görə ki, nə Ermənistanda, nə də ki, Qarabağda azərbaycanlılar, bir neçə ailə nəzərə alınmasa, kompakt şəkildə yaşamayıblar. Məhz bu məsələ ilə bağlı Sergey ətrafındakıları sorğu-suala tutdu. Onlar da bir ağızdan dedilər ki, bu məsələni nəinki sözlə, hətta vizual görüntülərlə də təsdiqləyə bilərlər. Sadəcə olaraq bunun üçün bir neçə qaçqın düşərgəsinə getmək lazımdır. Yol gəldiyinə əhəmiyyət verməyən rus ziyalısı, elə günorta yeməyindən sonra birbaşa həmin məntəqələrə yollanmaq təklifi ilə çıxış etdi. Lakin Füzuli ərk edib bildirdi ki, bu gün qonaq şəhəri gəzməlidir, ertəsi günü isə onlar rayonlara yola düşsünlər. Çünki Bakının özündə də kifayət qədər qaçqın vardı və onlar bərbad vəziyyətdə olan yataqxanalarda, uşaq bağçalarında, pansionatlarda, qocalar evlərində, fəaliyyəti dayandırılmış zavod və fabriklərin sexlərində məskunlaşıblar.

Günorta yeməyinin üstündən iki-üç saat keçəndən sonra Füzuli ilk olaraq, Əvəzi qonaqlarla birlikdə şəhidlərin xatirəsini yad etmək üçün "Şəhidlər Xiyabanı"na aparmalı idi. Bu təklifi məmnuniyyətlə qəbul edən Sergey yola düşməzdən əvvəl öz planlarını açıqlamalı oldu. O, Bakıya olan səfər qabağı dostu Abramla zəngləşmiş və səfər haqqında yəhudi biznesmenini məlumatlandırmışdı. Bir sözlə, hər iki dost məhz bu gün şəhərdə görüşməliydilər. Qonaq kimi onun xahişi yerə salınmadı.

Şəhidlər Xiyabanına yola düşəndə Sergey yəhudi dostu ilə əlaqə yaratdı. Abram da bildirdi ki, əvvəlcə onu evinə qonaq aparacaq ondan sonra isə hamı ilə birlikdə Şəhidlər Xiyabanına gedəcək. Onlar qapıdan çıxan zaman Yelizaveta atasına xəbər verdi ki, şəhəri gəzmək istəyir. Qızının istəyinə qarşı çıxmaq istəməyən ata Nizamidən Yelizavetanı şəhərdə gəzdirməyi xahiş etdi.

## VI fəsil. Azərbaycanlı tələbə rus qonağını Bakı ilə tanış edir

Qonaq qarşısına necə çıxmasını yaxşı bilən Əziz dəqiq bilirdi ki, oğlunda kifayət qədər pul olmadığından o, rus qonağını lazımi şəkildə şəhər ilə tanış edə bilməyəcək. Şəhəri gəzərkən təkcə ictimai nəqliyyatdan yox, eyni zamanda taksidən də istifadə olunacaqdı və istər-istəməz yolda acanda restoran və ya kafeyə getməliydilər. Məhz bütün bu amilləri nəzərə alan ata dostlarını qabaqlayaraq, Nizamiyə 200 manat pul verib, cavanları şəhərə yola saldı.

Nizami universitetə daxil olandan Yelizavetanı tanısa da, yalnız son bir neçə ayda qız ilə dərindən maraqlanmağa başlamışdı. Robertin rus qızı ilə olan müəyyən əlaqələri Nizamidə qısqanclıq hissi yaradırdı. İş ondadır ki, buna əsas səbəb son vaxtlar Yelizavetanın erməni oğlandan üz döndərməsi və Nizami ilə mülayim münasibətlər qurması idi. Lakin qızın inadkarlığına baxmayaraq Robert ondan əl çəkməmiş və daim azərbaycanlı tələbə qarşı intriqalar yaradırdı. Bunun üçün o, həmin universitetdə təhsil alan yerli tələbələrdən istifadə edirdi.

Bütün mənfi-müsbətləri öz daxilində saf-çürük edən Yelizaveta anlamışdı ki, Robert ilə Nizami arasında xeyli fərq var və mədəniyyətinə görə azərbaycanlı tələbə erməni

kommersantını çox-çox geridə qoyurdu. Məhz buna görə qıza yalnız dost münasibəti bəsləyən oğlan ədəb-ərkanına arxalanaraq, müəyyən məsafə saxlamaqla, qonağı şəhərlə tanış etməyə başladı. İlk növbədə onlar "İçərişəhər" Dövlət Memarlıq Qoruğunun tərkibində yerləşən Şirvanşahlar sarayına, oradan isə Karvansaraya və Qız qalasına getdilər. Burada vaxtın dayandığını hiss edən Yelizaveta öz heyranlığını gizlətmirdi. Yolboyu o, yalnız gördükləri ilə bağlı xoş təəssüratlarını bölüşdürürdü.

Daha sonra onlar sərnişin gəmisi vasitəsilə Xəzər dənizinə gəzintiyə çıxaraq, oradan Bakının sahil zolağında və ona yaxın olan ərazilərdə salınmış, cürbəcür üslublu həm qədim, həm də müasir binalara tamaşa etməyə başladılar. Nizami qızın qarşısında ekskursovod kimi çıxış etsə də, onun özü üçün də bəzi binalar naməlum görünürdü. Son illər şəhərdəki modern tipli binalar, xüsusən də dünya standartlarına uyğun olan komfortlu mehmanxanalar elə sürətlə tikilmişdi ki, Rusiyada təhsil alan yerli tələbə ilk dəfə idi ki, həmin tikililəri görürdü.

Bir çox tikililərlə yanaşı yenicə tikilib istismara verilən **"Kristal-Haal"** öz əzəməti, möhtəşəmliyi və yaraşığı ilə Xəzərin dalğalarına meydan oxuyurdu. Elə yerli əhali ilə birlikdə əcnəbi qonaqları heyran edən o idi ki, heç bir il tamam olmamış peşəkar inşaat ustaların sayəsində belə bir

möhtəşəm və bahalı konsert zalı tikilib ictimaiyyətin istifadəsinə verilsin.

Beləliklə onlar xeyli gəzəndən sonra bulvarda yerləşən **“Mirvari”** kafesinə yollandılar. Burada yerlər tutulsa da, Nizami birtəhər yer tapıb, qızın sifarişlərini ofisianta çatdırdı. Əsasən disertdən ibarət olan həmin sifariş, mədəni istirahət etmək və yorğunluğu almaq üçün nəzərə alınmışdı.

Yelizaveta açıq səma altında muzey sayılan məftunedici gözəlliyə malik olan Sankt-Peterburq şəhərində anadan olsa da, o, Bakının Xəzəryanı ərazisinə elə vurulmuşdu ki, hətta bunu Nizamiyə poetik ifadələrlə izah edirdi.

Kafedə canlı musiqi səslənsə də, həmin səs onların söhbətinə o qədər də mane olmurdu. Qız dalğavari kürən saçlarını kürəyinə aşırıb sevinc hissi ilə dedi:

- Nizami, açığını desəm, mən Bakıya yola düşməmişdən əvvəl xeyli tərəddüd içərisindəydim. Deyirdim, görəsən bizi, yəni, atamla məni bu şəhərdə nə gözləyir və buranın camaatının reaksiyası necə olacaq? Sən demə, buranın camaatı mən təsəvvür etdiyimdən qat-qat qonaqpərvər və mehribandır. Elə zənn edirdim ki, onlar xristian olduğumuza görə bizi yalnız acılayıb, kefimizə soğan doğrayacaqlar. Millətiniz çox istiqanlı və humanistdir.

- Liza, sən hələ əsl azərbaycanlı qonaqpərvərliyi ilə üzləşməmisən. – deyə Nizami aludəliklə dilləndi. – Biz

hamımız milliyyətindən və dinindən asılı olmayaraq, xarici ölkələrdən gələn hər bir kəsi ağuşumuza alıb, günlərlə, həftələrlə, hətta aylarla saxlamağa hazırıq.

- Halbuki Robik sizin millət barəsində tamamilə başqa fikirlər söyləyirdi. – deyə qız başını bulayaraq təəssüf hissi ilə dilləndi. – Onun dediklərinə qulaq asan olsa, onda heç kim sizin ölkəyə ayaq basmamalıdır. Guya Azərbaycan mono millətli dövlətdir və xirstianlar burada təhqirə məruz qalır, təqib olunur, qarət edilir, hətta fiziki cəhətcə məhv edilmələri də labüddür.

- Gördüyün kimi bizdə ayrıseçkilik mövcud deyil, kobud hərəkətlər isə bizim üçün yad olan bir xüsusiyyətdir. – Nizami başını dik tutaraq arxayınlıqla dilləndi. – Adətimiz tələb edir ki, evimizə qonaq gələn hər bir kəs hər şeydən razı qalmalı və yüksək əhval-ruhiyyə ilə, xoş təəssüratlarla ocağına qayıtmalıdır.

- Başqası desəydi, inanmazdım. İş ondadır ki, buradakı əcnəbilər o qədər sərbəstdirlər ki, sanki onlar yad torpaqda deyil, doğma evlərindədirlər. Ümumiyyətlə, mən burada tərs nəzərlə rastlaşmadım. Buradakı camaatın baxışı o qədər səmimidir ki, belə insanlardan yalnız nəvaziş gözləmək olar.

- Liza, yadda saxla ki, Bakı yalnız azərbaycanlıların yox, həm də bütün dünyada yaşayan insanların doğma şəhəridir.

– deyə Nizami qürurla dilləndi. – Bir neçə dəqiqə bundan əvvəl qeyd etdim, bizim millət o qədər qonaqpərvər və istiqanlıdır ki, heç kim özünü burada yad insan kimi hiss edə bilməz.

- Mən bəzi insanlardan eşitmişəm ki, sizin millət ailəcanlıdır və övladlarının xoşbəxt olması üçün bütün ömürlərini qurbban verməyə hazırdırlar. Lakin indi başa düşdüm ki, sizlər ilk növbədə gələn qonağı əzizləyir, bağrına basır, ondan sonra isə yüksək əhval-ruhiyyədə evinə yola salırsınız. Hər kəs belə ola bilməz.

- Mütəmadi şəkildə Qafqazda olsalar, onda bu mümkündür. – deyə Nizami qeyri-müəyyən tərzdə dilləndi.

- Yox, bu mümkün deyil. – deyə baxışlarını ətrafdakı insanlardan çəkməyən qız qətiyyətlə etiraz bildirdi. – Ona görə ki, əvvəlcədən xasiyyətinə bələd olmadan, kimliyini dəqiqləşdirmədən, keçmişini öyrənmədən bir kimsəni necə evə dəvət etmək olar? Hələ bu azmış həmin insana ən yüksək səviyyədə ehtiram göstərib, hörmət edəsən. Axı, həmin insan oğru və ya qatil ola bilər və göstərilən iltifat faciə ilə əvəzlənər?

- Düz deyirsən, bundan heç kim sığortalanmayıbdır, lakin buna baxmayaraq biz öz ənənəmizi qoruyub saxlayırıq.

Liza, biz tarixin ağır sınaqlarından keçsək də, ümumi amalımızı yaddan çıxarmırıq. Amalımız budur ki, dünyada yaşayan bütün millətlər bir-birilərinə can deyib, can eşitsinlər. Hamı bir-birinə doğma bir adam kimi nəzər salmalı, ən ağır günlərdə bir-birilərinə arxa durmalı, şər ilə mübarizədə birgə fəaliyyət göstərilməlidir.

- Mən sizin milləti anlaya bilmirəm. – deyə qız həmsöhbətinə qəribə nəzər salaraq tərəddüdlə dilləndi. – Axı, sizləri xoşlamayanlar da var, lakin buna baxmayaraq, siz onlara da ağuşunuzu açırsınız. Elə biri ermənilər və onları dəstəkləyən bəzi millətlər. Onlar birmənalı şəkildə bəyan edirlər ki, azərbaycanlılar ölkələrində yaşayan qeyri millətlərə, xüsusən də xristian nümayəndələrinə qarşı qeyri-insani rəftar edir və onları buradan qovub çıxarırsınız.

Ətrafdakı insanların mehribanlığını və bir-birinə olan mehriban münasibətini gördükdə, mənə aydın oldu ki, həmin bəyanatlar uydurma və yalandan başqa bir şey deyil. Robert və onun qohumları atamın verdiyi evdə oturub azərbaycanlılara qarşı iftiralar söyləməklə, araqızışdırmaqla məşğul olurlar. Onlar anlamırlar ki, bu alçaq hərəkətdir?

- Həyasız, riyakar və yaltaq üçün alçaq hərəkət adi hal sayılır. Təəssüflər olsun ki, bizim millət ac-yalavac günündə olan ermənilərə ev-eşik, torpaq verdi, onları səfalətdən

qurtardı. Əvəzində isə Qarabağda və ona yaxın olan ərazilərdə bizim millətə divan tutaraq, soyqırım törətdilər.

- Bəs, onlar deyirlər ki, əsrlər boyu Qafqazın cənubunda sizinlə qonşuluqda yaşayıblar.

- Hazırda ermənilər Krasnodarda, Stavropolda, Rostovda yaşadıqları üçün, ertəsi günü bütün dünyaya car çəkəcəklər ki, Şimali Qafqaz bütövlükdə onlara məxsusdur.

Liza, sənin atan tarixçi-alimdir. Primitiv Qafqaz tarixi ilə maraqlanmaq istəsən, onun kitabxanasında kifayət qədər ədəbiyyatlar var. Veliçko, Qriboyedov, Şavrovun və Qafqazla tanışlığı olan başqa şəxsiyyətlərin kitablarını oxusan, onda ermənilərə nifrət hissi bəsləyəcəksən.

Ola bilsin, mənim bu sözlərim sənin xətrinə dəysin, ona görə ki, sən Robertlə və Eduardın qızları ilə dostluq edirsən. Məhz buna görə də sən obyektiv məlumatlardan uzaqsan.

- Oxun yayını dartanda bir qədər ehtiyatlı ol, - deyə qızın üzündəki mimika bir anlığa dəyişdi. - ox gedib başqa hədəfə dəyə bilər. Bizdə baş verən məlum hadisədən sonra, Robik barışmaq üçün yalvarıb ayaqlarıma düşsə də, xeyiri yoxdur. Ona görə ki, mən onun kimi eqoist, həyasız, riyakar adamla birdəfəlik əlaqəni kəsmişəm.

- Mənim atam deyir ki, qız xeylağı heç vaxt heç kimə etibar etməməlidir. Əks təqdirdə o, qısa müddət ərzində bədbəxt olacaq.

- Bilməlisən ki, heç kimə etibar etmədən rahat yaşamağın heç bir mənası olmur. – deyə Yelizaveta həmsöhbəti ilə razılaşmadı. – Hazırda mən sənə etibar etməsəm, burada əyləşib səninlə birlikdə çay içməzdim.

- Demək istəyirsən ki, sən məni yaxşı tanıyırsan?

- İnsanı tanımaq üçün gərək onunla heç olmasa üç dəfə görüşməlisən. Elə ki, həmin insanın xarakterinə bələd oldun, onda nəinki etibar, hətta daxildə olan bütün sirrləri ona həvalə etmək olar.

- Liza, maraqlıdır, görəsən indiki məqamda sən mənə etibar edirsən, ya yox? – deyə Nizami təsiredici baxışlarını qızın gözlərinə yönəltdi.

- Nizami, mən sənin xasiyyətinə indi yox, hələ bir neçə ay bundan əvvəl bələdəm.

- Məndə olan məlumata görə Eduardın qızları mənim və millətimin vandal olması barəsində xeyli cəfəngiyyatlar döşüyüblər və sizdə bizə qarşı xeyli neqativ fikirlər yaranıbdır.

- Sən bilirsən ki, mən atam kimi prinsipial bir adamam. – deyə qız başını narazı halda yellədərək təşəxxüslə dilləndi. – Mən gec də olsa, ətrafımda olan adamları tanımağı

bacarıram. Sizin millәti vandal vә ya vәhşi göstәrmәyә çalışan ermәnilәr, özlәrini bir tәrәfdәn mәdәni, bir tәrәfdәn isә mәzlum bir xalq kimi göstәrmәyә cәhd etsәlәr dә, onlar xarakterlәrindә olan yırtıcı instinktini, vәhşiliyini, qәddarlığını, hәyasızlığını axıra qәdәr gizlәdә bilmirlәr.

- Liza, mәnim uşaqlığım Qarabağda keçibdir vә işğal vaxtı ermәnilәrin başımıza hansı müsibәti açmağının şahidi olmuşam. Әsirlikdә heç kimә aman verilmәdi. Uşaqdan tutmuş böyüyә kimi hamı әn ağır işgәncәlәrә mәruz qaldı, әksәriyyәti isә hamının gözü qarşısında edam edildi. Tәsәvvür edirsәn, bütün bu dәhşәti mәnim әn yaxın qohumlarım öz gözlәri ilә görüblәr, lakin buna baxmayaraq mәn tәhsil aldığım şәhәrdә ermәnilәrlә heç bir әdavәt aparmamışam.

- Bu sәnin humanistliyindәn vә ürәyiaçıqlığından xәbәr verir.

Etiraf etmәliyәm ki, mәn ömrümün axrına qәdәr sәninlә dostluq edәcәk vә hәtta daxilimdә olan sirrlәri dә bölüşdürәcәm.

Bu sözlәrdәn sonra Nizami istәr-istәmәz qızın gözlәrinә nәzәr saldı vә gördü ki, onun baxışları adi baxışlar deyil. Sanki hәmin baxışlarda mәhәbbәt hisslәrinin qığılcımları sıçrayaraq, onun daxilindәki sirrlәri büruzә vermәyә çalışırdı. Belә bir mәqamda Nizami bilmәdi nә etsin vә başını aşağı salıb daxilindә nәsә götür-qoy etmәyә başladı.

O, Yelizavetanı bir neçə il tanısa da, heç vaxt belə bir isti münasibəti qızdan görməmiş və buna görə də heç vaxt onunla səmimi söhbət etməyə cəhd göstərməmişdi.

## VII fəsil. Ürəklərdəki sirrlərin üzə çıxması

Onlar bir neçə dəqiqə də burada əyləşib ondan sonra yenə də gəzintiyə çıxdılar. Nizami yol gedən zaman hiss etdi ki, qızın ona olan münasibəti tamamilə başqa cürdür. Çünki bir az getdikdən sonra Yelizaveta icazə almadan oğlanın qoluna girdi və ara-sıra yol yoldaşına yayxaırdı da. Həmin məqamlardan sonra Nizamini qəribə hisslər bürüməyə başladı. Sankt-Peterburqda olanda onun üçün əlçatmaz sayılan Yelizaveta indi onunla yaxın dost olmağa səy göstərirdi.

Bir anlığa onun beynində belə fikir səsləndi. Bəlkə, qız ona vurulubdur? Çünki ürəkdən gələn sözləri yalnız məhəbəat aşiqi söyləyə bilərdi. Oğlan qızın hərəkətlərini təbii qəbul edirdi, ona görə ki, rus millətindən olan qız üçün oğlanın qoluna girmək adi hal sayılırdı. Lakin Yelizavetanın qeyri-adekvat hərəkətləri və sərbəstliyinə müəyyən

məhdudiyyət qoyulması, onun aşiq olmasından xəbər verirdi.

Qızda yaranan bütün qəribə hisslərə baxmayaraq, Nizami bilmirdi hansı tədbirlərə əl atsın; ürəyində olan sirri açıb ona söyləsin, yoxsa müvəqqəti olaraq gözləmə mövqeyi tutsun? Necə olsa da, onun da qıza olan münasibəti birmənalı idi. Yelizaveta xarakter etibarilə, bəzi qüsurları çıxmaq şərtilə onun xoşuna gəlirdi. Lakin indiyənə kimi ürəyində yuva salmış sirri açıb qıza söyləməyə cəsarəti çatmamışdı.

Nizami xeyli tərəddüd içərisində addımlasa da, sirri açmaq üçün daha əlverişli məqam axtarmağa başladı. Hər tərəf camaatla dolu olduğundan o, müvəqqəti olaraq öz sirrini daxilində saxlamalı oldu.

Onlar xarici qonaqların xoşladığı "Fəvvarələr" bağına yollandılar. Bakının gəzməli yerləri çox olsa da Yelizaveta, insanların gur olan Nizami küçəsinin bu ərazisində yerləşən mağazalar şəbəkəsinə və burada yaranan şəraitə mat-məəttəl qaldı. O, daxilində yaranan sevinc hissini Nizami ilə bölüşdürmək üçün ətrafa heyraedici nəzər sala-sala dedi:

- Ağlıma gələ bilməzdi ki, dünyanın bir çox sivil şəhərlərində mədəniyyət və incəsənət nümunələrinin satışı təşkil olunan və sərgisi nümayiş etdirilən, mədəni küçələrin oxşarı Bakıda da mövcuddur. Aman Tanrı, burada gəzişən insanların mehribançılığı, sadəliyi, səmimiyyəti o dərəcədə

aşkardır ki, sankı həmin insanlar burada doğulub uzun illərdir bir yerdə yaşayırlar. Halbuki geyimlərindən, rəngindən, hərəkətlərindən bilinir ki, onlar başqa ölkələrdən gələn qonaqlardır. Qonaqların bu dərəcədə özlərini sərbəst aparmasını adi sözlərlə ifadə etmək mümkün deyil. Hətta adam birdəfəlik öz doğma şəhərini tərk edib burada məskunlaşmaq istəyir. Bu şəhərdə darıxmaq hissi hər bir insanda zidd xüsusiyyət sayıla bilər.

- Bu sözləri dünyanın ən gözəl şəhərlərindən birində anadan olmuş bir sakinin ağzından eşitmək mənim üşün fərəhlidir. – Nizami cuşa gələrək iftixarla dilləndi. – Eyni sözü mən sənin yaşadığın şəhər barəsində də deyə bilərəm.

- Bizim şəhərdə sakinlər ürəyiaçıq olsalar da, cavan oğlanlar Qafqazdan və orta Asiyadan çıxanlara qarşı aqressiya yaradırlar. – deyə qız həmsöhbəti ilə razılaşmadı. – Məhz belə narazılıqlar zamanı şəhərin bəzi hissələrində iğtişaşlar baş verir. Amma burada insanların bir-birilərinə azacıq olsa da kin-küdurəti yoxdur, yuxarıda qeyd etdiyim kimi, sanki elə bil hamı bir-birinə doğmadır, əzizdir.

Şəxsən mən belə bir şəhərdə yaşasaydım, özümü dünyanın ən xoşbəxt adamı hesab edərdim.

- Belə olan halda sən gələcək həyatını qurmaq üçün, elə burada da ərə getməlisən. – deyə oğlan qızdan sirr almaq üçün müəmmalı tərzdə dilləndi.

- Azərbaycanlıların hamısı sənin kimi səmimi, ürəyiaçıq, mehribandırsa onda mən burada ərə gedib məskunlaşmağa etiraz etmərəm. – Yelizaveta bir qədər tərəddüd edəndən sonra aludəliklə dilləndi və nəzərlərini oğlana tərəf yönəldərək ciddi halda sözünə əlavə etdi. – Nizami, sənin çox gözəl xasiyyətin var və belə bir xasiyyətin ilə sən istədiyin qızı özünə cəlb edə bilərsən. Yəni, hərtərəfli olaraq sənə etibar etmək olar. İnanıram ki, səninlə kim ailə həyatı qursa o, xoşbəxt olacaq.

Bu sözlərdən sonra Nizaminin ürəyi eşq toxumları ilə çırpınmağa başladı və bir anlığa onun gözləri dumanlandı. Belə bir məqamda o, özündə cəsarət tapıb, daxilində olan sirri dolayısı yolla da olsa açıqlamağı qərara gəldi. Nizami qızın əlndən möhkəm tutub səbirsizliklə dedi:

- Liza, ola bilsin mənim fikrim sənin xoşuna gəlməsin, lakin buna baxmayaraq mən ürək sözlərini sənə deməliyəm. Sənin ədalətli və qərarlarında qətiyyətli olmağın, haqqı-nahaqdan ayırmaq bacarığın, hər şeyi öz adı ilə vurğulamağın, geniş dünya görüşünə malik olmağın hər bir oğlanda qibtə oyadar və əbədiyyata qovuşana qədər səninlə bir yerdə olmağı arzulayar. Xarakterində hökm sürən prinsipiallığın isə ondan xəbər verir ki, sən hər bir oğlana razılıq verməməsən.

- Əlbəttə, verMərəm! – deyə qız baxışlarını oğlandan çəkmədən qətiyyətlə dilləndi. – Xasiyyətinə bələd olmadığım və ən əsası isə ürəyimə yatmayan bir oğlana mən necə razılıq verə bilərəm?

- Dostum Liza, mən də sənin kimi bu məsələdə səhv buraxmaq istəmirəm. Ailə həyatı qurmaq üçün hər bir kəs gərək, min dəfə ölçüb bir dəfə biçməlidir. Bunun üçün mən ilk olaraq sənin xasiyyətdə qız tapıb, öz təklifimi ona verməliyəm.

- İşdir, birdən elə bir qız tapmadın, onda necə olacaq? – deyə qız həmsöhbətinin fikrini tam öyrənmək üçün istehza ilə soruşdu.

Bu sual Nizamiyə göydən düşmə kimi olsa da o, cavab verməyə tələsmədi. Ona görə ki, həmin cavabdan sonra onun həyatının sonrakı taleyi müəyyinləşə bilərdi. Oğlan bunu süfrə arxasında etmək qərarına gəldi.

Nizami əyləşmək üçün ətrafındakı obyektləri nəzərdən keçirə-keçirə, “Fəvvarələr” bağında yerləşən kafenin birinə daxil olub, orada olan bəzi nemətləri sifariş etdi. Yelizaveta şəhərin qonağı olduğundan o, burada əsasən, milli mətbəx nümunələri dadmaq istəyirdi. Nizami də əmin idi ki, dadına və hazırlanmasına görə dünyada yaşayan bütün xalqların mətbəxindən fərqlənən Azərbaycan yeməkləri Rusiyadan

gələn qonağın xoşuna gələcək və qız həmin təamlara görə yalnız minnətdarlığını bildirəcək.

Yarpaq dolması ilə ət qutabı həqiqətən də qızın xoşuna gəldi və heyrətə gələn qonaq heç cürə öz məmnunluğunu gizlədə bilmədi. Lakin indiki məqamda Yelizavetanı bircə şey maraqlandırırdı, bir neçə dəqiqə bundan əvvəl verilən suala oğlanın verəcəyi cavab yarımçıq qalmışdı. Qız hiss edirdi ki, Nizami cavab vermək istəsə də, amma bu məsələdə çətinlik çəkir.

Zalda həzin musiqi səslənsə də həmin səs söhbət etmək üçün heç bir maneəçilik törətmirdi. Burada olanların əksəriyyəti xarici qonaqlar idi və onlar da heç kimə əhəmiyyət vermədən bir-biriləri ilə gülüb-danışırdılar.

Yelizaveta qutabın ləzzətini dadandan sonra dərhal qarşısındakı "Jalə" şirəsini içdi və bəh-bəhlə dedi:

- Yeməklərə söz ola bilməz, dadları onların rayihələri kimi xoşdur. Lakin maraqlıdır, içdiyim şirə hansı ölkənin istehsalıdır, İtaliyanın, İspaniyanın, yoxsa Fransanın?

Bu sözlərdən sonra Nizaminin dodaqlarında təbəssüm sezildi. O, əlindəki şaftalı şirəsi olan badəni bir qədər yuxarı qaldırıb həvəslə dedi:

- Liza, bu badədəki şirənin qatılığına və təmizliyinə diqqət yetir. Bunu ekoloji cəhətcə çox təmiz yerdə, özü də 100 faiz meyvələrdən hazırlayırlar. Mən bu şirəni dadandan

sonra, demək olar ki, bütün şirələrdən imtina etdim. Məhsul isə yerli maldır, dağlıq meşə massivi ilə məşhur olan Qəbələdə hazırlanır.

- Bu mənim üçün yenilik sayılır. Sankt-Peterburqa qayıdanda mütləq özümə həmin şirələrdən aparacağam.

- Arxayın ola bilərsən, nə vaxt Bakıya gəlsəm, həmişə sənin üçün həmin içkilərdən hədiyyə edəcəm.

- Sənin səxavətinə inanıram.

Nizami, adətinizə görə sizin kişilər evlənəndə gəlini mütləq valideynlərinin yanına aparırlar. Mənim üçün maraqlıdır, sən də belə edəcəksən?

- Adətə görə mən elə etməliyəm, lakin bizim evimiz, torpağımız ermənilər tərəfindən işğal edilibdir və biz iyirmi ilə yaxındır ki, başqa-başqa sığınacaqlarda məskunlaşırıq. Hələ bilinmir bu anarxiya, haqsızlıq nə vaxtacan davam edəcək, ona görə ki, ermənilərin torpaqlarımızı qaytarmaq fikri yoxdur. Mən universitetə daxil olanda atam ev almaq istədi, lakin pulu çatmamışdı. Gördüyün ev isə darısqal olduğundan, həmin yerə gəlin aparmaq ayıb olar.

- Məgər, ixtisasın üzrə işləyib ev ala bilməyəcəksən?

- Mən pedaqoq kimi fəaliyyət göstərsəm, inan ki, ömrümün axırına kimi ev ala bilmərəm.

- Bəs, elmi işçi kimi işləsən, onda necə? Necə olsa da sizin ölkə neft və qazla zəngin olan bir dövlətdir.

- Elmi işçi kimi də ev almaq mümkün deyil. Ölkəmiz neft və qazla zəngin olsa da, əmək haqqı ilə ev almaq çətindir. Yalnız dövlət tərəfindən ev verilsə, onda pedaqoq və ya elmi işçinin yaşamaq üçün isti, şəxsi ocağı ola bilər.

- Onda sən evi olan bir qıza evlilik təklifini verməlisən.

- Kişi üçün bunu həyata keçirmək çox müşkül bir işdir. Ona görə ki, kişi daim arvaddan asılı kimi olacaq və vaxt-aşırı qadının sərkisi ilə üzləşəcək.

Bu məqamda Yelizaveta özünə dair oğlanın fikrini öyrənmək üçün intriqalı sual verdi:

- İşdir, sən bizim şəhərdə rus qızı aldın, sən onunla həmin şəhərdə qalmağa razı olarsan?

- Qərib ölkədə yaşamaq hər adamın işi deyil. Belə olan halda adam bütün qohum-əqrabalardan uzaq düşür. İstər-istəməz həmin kəsdə vətən həsrəti yaşanır, doğma ocaq üçün qəribsilik yaranır.

- Buna baxmayaraq, sən mənim sualıma dürüst cavab vermədin. Sən istədiyin qızla qərib şəhərdə yaşaya bilərsən, ya yox?

Nizami həmin sualın arxasında nə durduğunu dəqiq bilməsə də o, səmimi cavab vermək üçün bütün iradəsini topladı:

- Liza, açığını desəm, həmin qız sənin kimi xoş niyyətli, gözəl xasiyyətli olsa, onda mən onunla lap dünyanın axır

nöqtəsində yaşamağa razı olaram. Lakin nə etmək olar, sənin kimi ikinci qız tapmaq qeyri-mümkündür.

- Sən elə danışırsan ki, sanki mənə vurulmusan.

- İfadələrimlə səni aldatmağa çalışsam da, baxışlarımla bunu gizlədə bilmərəm. – deyə Nizami baxışlarını qızdan çəkməyərək ciddi halda dilləndi.

- Baxışların mənə vurulduğundan xəbər verir. – deyə qız ehtirasla dilləndi və mənalı baxışlarını oğlanın gözlərinin içərisinə yönəldərək, həmin tərzdə sözünə davam etdi. – Belə olan halda sən bacardıq qədər mənim ürəyimi oxumalısan. Hazırda ürəyimin kimə məxsus olduğunu bilməlisən.

- Medium olsaydım, onda ürəyini oxuya bilərdim. – deyə oğlan bir qədər tərəddüd edəndən sonra həvəslə dilləndi. – Lakin səmimi danışıqlarından hiss edirəm ki, sən mənim cismani varlığıma biganə yanaşmırsan. – Nizami daha aydın fikir bildirmək üçün özünü cəmləşdirərək qətiyyətlə sözünə davam etdi. - Liza, səndən nə gizlədim. Sən mənim üçün əlçatmaz qız olsan da, etiraf etməliyəm ki, Bakıya qədəm qoyduğun vaxtdan sənə tam şəkildə vuruldum. Üzr istəirəm səndən, bax, sən mənim həyat yoldaşım olsan, onda mən həqiqətən də özümü dünyanın ən xoşbəxt adamı kimi hiss edərəm.

Bu sözlərdən sonra qızın sifəti alışıb yandı, amma zal azacıq yarıqaranlıq olduğundan oğlan bunu sezə bilmədi.

Lakin Yelizavetanın birdən-birə çaşqınlıq vəziyyətinə düşməsi, onun həqiqətən də qarşısındakı oğlanın fikirlərinə və hisslərinə biganə qalmadığından xəbər verirdi. Nizaminin sözlərindən heyrətə gələn qız sevinc hissi ilə dedi:

- Mən yanında olan zaman sənin üçün necə əlçat-maz ola bilərəm. Etiraf edim ki, sən də mənim xoşuma gəldiyin üçün mən səninlə ən xoş mənalı dəqiqələrimi keçirirəm.

Başqa bir oğlan olsaydı, mən ona indi eşitdiyim sözlərə görə çox kəsərli cavab verərdim. Lakin sənin yanında, sanki mənim sərbəstliyim əlimdən alınıbdır və belə bir vəziyyətdə mən etirazımı bildirməkdən məhrumam.

- Görünür, Allahın mənə yazığı gəlibdir və sən mənim qəlbimə dəymirsən. Hər halda müsbət cavab eşitməsəm də, mənim üçün sənin yanında olmaq çox xoşdur.

- Axı, mən sənə izah etdim ki, məndə ikrah hissi doğuran bir adamla bu məkanda tək oturub söhbət etməzdim. Sənin xoş xasiyyətin məni demək olar ki, tilsim altına alıbdır. Nizami, səninlə elə söhbət edirəm ki, sanki biz uzun müddətdir bir-birimizi tanıyır və ürəyimizdəki sirrləri açıqlamaq fikirindəyik.

- Deməli, mənim ürək sözlərim sənin qəlbinə toxunmayıbdır. – deyə sevincdən alışıb-yanan oğlan hərarətlə dilləndi və qızın əlindən tutub sıxaraq səbirsizliklə sözünə əlavə etdi. – Liza, ətrafdakı insanlar tərəfindən mən çox

sarsıdıcı zərbələr almışam, lakin sənin “hə” cavabın, birdəfəlik həmin acı xatirələri həyatımdan silə bilər.

- Bu məsələdə tələskənliyə yol vermək lazım deyil. – deyə qız əlini geri çəkməsə də, amma müsbət cavabdan boyun qaçırdı. – Mənim üçün maraqlıdır, sən Rusiyada yaşaya bilərsən ya yox?

- Səninlə olsa, bəli! – deyə Nizami tərəddüd etmədən dilləndi.

- Onda fikirləşməyə dəyər.

Onlar yarım saat da kafedə əyləşəndən sonra xoş ovqatla oranı tərk etdilər.

## VIII fəsil. Köhnə dostu ilə görüşə gedən qonaq

Bakının baxımlı küçələrini gəzməyi səbirsizliklə gözləyən Sergey Əvəzgildən sonra ilk öncə dost Abramla görüşməli idi. Necə olsa da, yəhudi biznesmeni neytral bir adam idi və onun tərəfindən Azərbaycan haqda söylənəcək bir çox həqiqətlər, müəyyən qədər tarixçi pedaqoq üçün

inandırıcı görünəcək. Füzuligil həmin an rus qonağının məqsədi-məramını başa düşdülər və tələsik olaraq həmin adamı istənilən ünvana çatdırmağı qərara aldılar.

Abramın həyətyanı evi Hacı Zeynalabdin Tağıyev adına kombinatın yanında, demək olar ki, qaçqınların məskunlaşdığı yataqxanadan bir qədər aralıda yerləşirdi. Yəhudi biznesmen onları elə kombinatın yanında qarşıladı. O, dördmərtəbəli binanın yanından ötərkən tarixçi pedaqoqa dedi ki, Eduardın bacısı Klara ailəsi ilə birlikdə həmin binada yaşayır. Əvəz bunu eşidən kimi əli ilə bir qədər aralıda yerləşən beşmərtəbəli binanı göstərib ehtiramla:

- Sergey Vladimiroviç, həmin binada qaçqınlar məskunlaşıblar. Mənim qardaşlarım da orada yaşayırlar.

- Mümkündürsə, mən qardaşlarının şəraiti ilə tanış olardım. – deyə qarşısındakı adamın qaçqınlıq həyatına biganə qalmayan tarixçi pedaqoq, onun qardaşlarının da hansı şəraitdə yaşadığını öz gözləri ilə görmək istədi. – Mənim üçün maraqlıdır, görəsən bu neçə ili onlar hansı şəraitdə yaşayıblar?

Əvəz onun istəyini anlamasa da, Abram bir yəhudi kimi o dəqiqə başa düşdü elmlər namizədi nəyə nail olmaq istəyir. O, qaçqınlıq ömrü sürən həmin ailənin həyatını, vizual görüntü vasitəsilə beyninə həkk etməyə çalışırdı. Hazırki vəziyyətdə Sergey heç kimə heç nə demədən, özü

üçün bir şeyi aydınlaşdırmaq istəyirdi. Həm Eduard, həm də Nizaminin atası özlərini qaçqın kimi qələmə verirdilər. Eduard ilə məsələ aydın idi, o, bilmək istəyirdi ki, həqiqətən də Əvəz və onun qardaşları qaçqındırlar, yoxsa münasib ev-eşikdə yaşayaraq, başqalarının gözündə yanlış fikir yaratmağa çalışırlar. Əsas fakt o idi ki, Əvəzgilin doğulduğu kənddə bir nəfər də olsun, azərbaycanlı yox idi.

Yataqxananın ağzında faner taxtalardan balaca dükanlar tikildiyindən, qapının astanasında basırıq əmələ gəlmişdi. Balaca uşaqların oynamaları, orada səs-küy yaratmışdı. Zəif lampalar dəhlizi kifayət qədər işıqlandırmırdı.

Əvəz qonaqlar qarışıq ikinci mərtəbəyə qalxıb orada darısqal olan bir otağa daxil oldu. Bu İlqarın qaldığı ikiotaqlı mənzil idi. O, həyat yoldaşı və üç uşağı ilə birlikdə ümumi sahəsi $24^2$m. olan mənzildə 18 il idi ki, yaşayırdı və elə buradan Qarabağa həsrət dolu baxışlarını yönəldərək, vətən torpağının azad olunması gününü səbirsizliklə gözləyirdi.

Otaq darısqal olsa da, İlqar yüksək əhval-ruhiyyə ilə qonaqları qəbul etdi, lakin gördüklərindən məyus olan Sergey vaxtın məhdud olduğunu bəhanə gətirib, getmək istədiyini bildirdi.

Həmin an Əvəz bildirdi ki, üzbəüz mənzildə onun yaxın dostu şair Nazim atası ilə birlikdə qalır və onlara baş

çəkmək mütləq lazımdır. Ağır həyat yolu keçmiş təcrübəli həkim rus qonağına əsl ziyalının qaçqınlıq ömrü ilə tanış etmək istəyirdi.

Qapı döyülən kimi onun arxasında təxminən 50 yaşlı arıq, hündürboylu, qalın bir qədər ağarmış saçlı, yanaqları batmış, uzunsifətli bir kişi göründü. Onları qarşılayan şair Nazim idi. O, Əvəzlə qucaqlaşan kimi o biri qonaqlarla salamlaşıb, tərəddüd etmədən hamını içəri dəvət etdi. Füzuligil dost olmasalar da, amma Nazim və onun ailəsi ilə tanış idilər.

Nazimin də evi İlqarın evi ilə eyni ölçüdə idi və beş nəfər bu ikiotaqlı darısqal mənzilə sıxılıb, asan olmayan ömürlərini sürürdülər. Eyni olaraq Sergey bu mənzili də kənardan müşahidə etməklə kifayətlənmək istədi. Lakin Əvəz bildirdi ki, ev sahibi xəstələndiyindən onlar, ahıl kişi ilə görüşmək üçün içəri daxil olmalıdırlar.

Hündürboylu, iri qamətli, azacıq dolu bədənli, şax qamətli, qalın qaşlı, böyük düz burunlu, qalın dodaqlı, balaca gözlü, qalın nahamar qaşlı, hər iki üzündə qırış xətti yaranmış, 80-82 yaşlı qarayanız ev sahibi xəstə olmasına baxmayaraq, özündə güc tapıb ayağa qalxdı və hamını masa arxasına dəvət etdi. Başındakı kül rəngli dalğavari cod saçını arxaya daramış həmin ziyalı, Əvəzin atasının

yaxın dostu 50 ildən yuxarı maarif sahəsində çalışmış İsgəndər idi.

- Əziz qonaq, biz hələ uşaqlıqdan İsgəndər müəllimin özü və ailəsi ilə dostluq edir və şərdə də, xeyirdə də daim bir yerdə olmuşuq. O, yarım əsrdən çox həm ermənilərə, həm də azərbaycanlılara dərs keçmiş, onların savadlanması üçün demək olar ki, bütün sağlamlığını qurban veribdir. Nəticədə isə erməni milliyyətindən olan həmin uşaqlar və valideynlər silaha sarılaraq, qocaman pedaqoqun nəslinin bir neçə nümayəndəsi qətlə yetirdilər, özü isə gördüyünüz kimi 20 ilə yaxındır ki, belə bir darısqal yerdə qaçqınlıq ömürünü sürür.

- Şübhəsiz ki, belə dərdə dözmək çox çətindir. – deyə tarixçi pedaqoq təəssüf hissi ilə dilləndi.

- Hörmətli qonaq, qaçqınlıq həyatına birtəhər dözmək olar, amma biləndə ki, sənin üstünə silah çəkən, bütün ömrü boyu çörək verdiyin quduzlaşmış köpəklərdir, bax, bu bəlaya dözmək üçün adamda gərək dağ boyda ürək olmalıdır. – deyə qamətini düzəltməyə çalışan İsgəndər, masa arxasında əyləşmək istəməyən rus qonağına tərəf iki addım gedərək həqarətlə dilləndi. – Məni indi ən çox təsir edən Azərbaycanın səfalı Qarabağ guşəsində erməni adlı çaqqalların ulaşmasıdır.

- Müəyyən mənada mən bunun şahidi oldum və təəssüflənirəm ki, yaşıllıq içərisində olan həmin diyar göz qabağında solur.

- Əziz qonaq, bilirəm ki, siz harasa tələsirsiniz, amma bir neçə dəqiqəni məni dinləməyinizi xahiş edirəm. – dərindən ah çəkən qocaman pedaqoq aludəliklə dilləndi. – Hazırda ətrafınızda olan bu adamlar və mən uzun illərdir ki, bir-birimizi tanıyırıq. Hamımızın da amalı eynidir – Qarabağın murdar düşmənlərdən azad olunması. Füzuligil ən yaxın silahdaşlarını orada itirdilər, Əvəzin atası və digər qohumları, o cümlədən də mənim ən yaxın adamlarım vəhşicəsinə qətlə yetiriliblər. Ən dəhşətlisi isə odur ki, biz erməniləri müdafiə edən ölkələrin sayəsində öz torpaqlarımızı azad edə bilmirik. Azərbaycanın bütün bölgələrinə səpələnmiş bir milyondan artıq olan qaçqınların sayı son 18 ildə demək olar ki, iki dəfədən də çox artıbdır. – İsgəndər əli ilə darısqal otağı göstərib həmin tərzdə sözünə davam etdi. – Belə bir və bundan da ağır şəraitdə anadan olan yeni nəsil hərtərəfli olaraq Rusiya siyasətçilərinə qarşı nifrət hissi bəsləyir. Ona görə ki, SSRİ dövründə biz bütün varlığımızla ölkə iqtisadiyyatının dirçəldilməsi istiqamətində mühüm işlər görmüşdük. Bakıda hasil olan neftin sayəsində 1941-1945-ci illərdə baş verən Böyük Vətən müharibəsində faşist Almaniyasının süqutunu sürətləndirmiş Qızıl Ordu,

bütün yaxşılıqlara rəğmən, dövlət mənafeyini şəxsi ambisiyasına qurban vermiş başıboş Qorbaçovun cinayət xarakterli əmrinə əsasən, 1990-cı il 20 yanvarda Azərbaycanda dinc əhalinin qanını tökmüş, əvəzində isə bizim millətə qarşı qanlı terrorları təşkil edən və oğurluq etdikləri torpaqda dövlət qurmuş ermənilərə daim dəstək olduğunu nümayiş etdirdi.

Dediyim odur ki, rus siyasətçilərinin düşünülməmiş addımları nəticəsində milyondan çox insanın taleyi sınmış, on minlərlə vətəndaş amansız şəkildə öldürülmüş, vaxtı ilə çiçəklənən Qarabağ isə viran edildi. Məni indiyə qədər narahat edən sual vardı; Rusiynın hakim dairələri bununla nə emək istəyirdilər? Onlar belə bir iyrənc siyasətlə özlərinə qarşı Azərbaycan xalqının nifrətini qazansalar da, biz müdrüklüyümüz sayəsində elmi və mədəniyyəti ilə rus xalqına olan məhəbbətimizi heç vaxt unutmayacayıq.

1991-ci ilin noyabrın 20-də Qarakənd kəndi üzərində Beynəlxalq müşahidə missiysının və Azərərbaycanın dövlət nümayəndələrinin olduğu helikopter vurulanda və həmin cinayətin üstü ört-basdır ediləndə, onda başa düşdüm ki, Qarabağ probleminin düyünü uzun müddət açılmayacaq və ədalət bir neçə illiyə kölgədə qalacaq.

- Hörmətli həmkar, guya Qafqaz siyasəti ilə bağlı biz hakimiyyətlə həmrəyik? – deyə fikrini cəmləşdirən tarixçi

pedaqoq təmkinlə dilləndi. – Hakimiyyət bizi çiyin-çiyinə yaşadığımız xalqlarla düşmən etmək istəyir, lakin ağlımız aramızda olan mehribançılığımıza heç bir nifaq sala bilmir. Onu bilirəm ki, son nəticədə xalqlar arasında olan dostluq və mehribançılıq əlaqələri, həmin çirkin siyasəti ifşa edib aradan qaldıracaq.

- Bu, ölkələrimizdə yaşayan tərəqqipərvər insanların ümdə arzusudur. – deyə Heydər nikbinliklə dilləndi.

Qonaqlar evdəkilərlə sağollaşıb, ondan sonra düşüncələrə qərq olmuş şəkildə otağı tərk etdilər. Hamıdan çox İsgəndərlə olan söhbət tarixçi pedaqoqa təsir göstərdi.

Onlar aşağı düşənə qədər yataqxanada canlanma baş verdi. Gələn qonaqların gəlişi bütün yataqxanaya yayılmışdı və onlardan bir neçəsi həmin adamların guya beynəlxalq təşkilatlardan olduğunu zənn edib, şikayətlə bağlı həmin adamlara, xüsusən də Sergeyə yaxınlaşdılar. Şikayətlər eyni xarakter daşıyırdı; nəyə görə onların düşdükləri vəziyyətlə demokratik prinsipləri əsas tutan beynəlxalq təşkilatlar ciddi maraqlanmır, nə üçün Ermənistanın işğalçılıq siyasətinə son qoyulmur, hansı səbəblərdən işğal olunan torpaqlar geri qaytarılmır, nəyə görə on minlərlə günahsız insanları amansızcasına qətlə yetirən İnterpolun axtarışına verilən retsedevist quldurlar məsuliyyətə cəlb olunmur?

Qonağı dəhşətə gətirən məqam ondan ibarət idi ki, burada olan qaçqınların tam əksəriyyəti erməni əsirliyində olmuş və başlarına gətirilən qeyri-insani işgəncələrdən azacıq da olsa danışmağa imkan tapdılar. Buna bariz nümunə dişlərinin çəkilməsi, qulaqlarının kəsilməsi, sinələrinə xaç damğası vurulması, dərilərinin yandırılması, barmaqlarının kəsilməsi və s. Erməni vəhşiliklərini öz gözləri ilə görən həmin qaçqınlar biləndə ki, Sergey sadə bir qonaqdır, ondan sonra sakitləşdilər.

Əvvəlcədən razılaşdıqları kimi onlar buradan birbaşa Klaragilə getdilər. İlqar da onlara qoşuldu. Keçmiş əsirin belə bir qərarı tarixçi alimi tərəddüd qarşısında qoydu. Axı, onda olan məlumata görə ermənilər İlqarı qardaşı və digər qohumları ilə birlikdə əsir götürmüş və orada onların üzərində ən ağır işgəncələr tətbiq etmişdilər. Atası Qasım kişi, başqa qohumlarla yanaşı, erməni terrorçuları tərəfindən vəhşicəsinə qətlə yetirilmişdi.

## IX fəsil. Rus pedaqoqu Bakıda ərdə olan erməni qadını ilə görüşür

Hazırki durumda tarixçi alimi bir şey maraqlandırırdı, həyatından başqa demək olar ki, hər şeydən məhrum olan İlqar, görəsən buradakı ermənilərə necə münasibət bəsləyir? Abramın dediyinə görə Bakıda 30 mindən çox erməni yaşayır və heç kim də onları burada incitmir. Klaranın evinə çatmağa məsafə az qaldığından Sergey İlqarın Bakıda yaşayan ermənilərə, xüsusən də Klaraya qarşı olan münasibətinə dair fikrini öyrənməyə qərara aldı.

- Bildiyimə görə sən elə Eduardla bir kənddə böyümüsən? – deyə Sergey üzünü İlqara tutaraq mənalı tərzdə soruşdu.

- Elədir ki, var. – deyə keçmiş girov tərəddüd etmədən dilləndi və ara vermədən sözünə davam etdi. – Elə Klara da bizim yanımızda böyüyübdür.

- Klara ilə əlaqə saxlayırsan? – marağını gizlətməyən Sergey təəccübləndi.

- Əlbəttə! – deyə İlqar səmimiyyətlə dilləndi. – Axşamlar onların məhəlləsindən keçəndə Klaranı orada görəndə, hal-əhvalını soruşuram. – Onun əri Nazimlə də demək olar ki, hər axşam görüşüb söhbət edirik.

- Bildiyimə görə sən ermənilərdə girov olmuş və ən ağır işgəncələrə məruz qalmısan. O hadisələr səni buradakı ermənilərə qarşı nifrət bəsləməyə təhrik etmir ki?

- Qarabağda fəaliyyət göstərən quldurlarla buradakı ermənilərdə xeyli fərq var. Həm də Bakı erməniləri həmin vəhşiliklərə görə daim öz nifrətlərini bildiriblər. Buradakılar millətçi, ekstremist olsaydılar, çoxdan Bakını tərk etmişdilər.

Onların söhbətini eşidən Əvəz həmin mövzudan kənarda qalmaq istəmədi. O, arada yaranan fasilədən istifadə edib səbirsizliklə dedi:

- Sergey Vladimiroviç, hər dəfə qardaşlarımın yanına gələndə mən, Klaragilə də dəyirəm. Nəinki mən, elə qardaşlarım da mütəmadi olaraq bir-biriləri ilə görüşür və xeyir-şərdə bir yerdə olurlar. İş ondadır ki, atam həmişə deyirdi ki, aramızda olan dostluq heç zaman aradan qaldırılmasın. Biz daim onlara kömək əlimizi uzatmalıyıq.

- Baxmayaraq ki, müharibədə bir neçə qohumunuz ermənilər tərəfindən öldürülübdür? – Sergey soruşdu.

- Oradakılar əsasən, Qarabağda yaşamış ermənilərin bir çoxu istisna olmaqla, Yaxın Şərqdən, Kanadadan, Fransadan, elə Rusiyadan gələn "Daşnaksyütun" partiyasına daxil olan erməni qatilləri idi. – Vahid cavab vermək üçün araya girdi. - Onlar üçün Bakıda və Azərbaycanın digər şəhər-

lərində yaşayan ermənilərin müqəddəratı mühüm rol oynamırdı. Əksinə, onlar və başda erməni millətçi ideoloqları zənn edirdilər ki, Qarabağda törətdikləri vəhşiliklərə görə biz adekvat addımlar atacaq və buradakı ermənilərə qarşı soyqırım işlətməklə, öz əməllərinə haqq qazandıracaqlar.

- Faktiki olaraq Bakıda ermənilərə qarşı fiziki hücum baş vermiş və onlar qaçmağa məcbur olmuşdular. – deyə tarixçi pedaqoq vaxtilə Eduardın dediklərini yada saldı.

- Necə ki, Sumqayıtda, - deyə Heydər alidəliklə dilləndi. - eləcə də Bakıda DTK-nın iştirakı ilə erməni millətçiləri dağıntılara yol verdilər ki, bütün dünya bizi qınayaraq, azərbaycanlıların simasında vəhşi obraz yarada bilsinlər.

- Onlar fikirləşirdilər ki, - deyə söhbətə müdaxilə edən Füzuli həqiqəti söyləməklə həmkarının sözlərinə dəstək verdi. - biz bütünlüklə erməniləri Bakıdan və digər şəhərlərdən qovacaq və nəticə etibarilə bütün dünyaya yayacaqdılar ki, ermənilər azərbaycanlılar tərəfindən ən ağır təzyiq və təqiblərə məruz qalıblar.

- Bütün bunlara baxmayaraq siz ailəlikcə Bakıda yaşayan ermənilərə özünüzün yardım əlini uzadırsınız? – deyə təəccübdən keyiyən Sergey üzünü Əvəzlə İlqara tutaraq, onlardan cavab gözlədi.

- Bu həqiqətən də belədir. – deyə Abram qardaşların yerinə cavab verdi. – Nəinki onlar, ümumiyyətlə ətrafdakı

insanların əksəriyyəti onlara düşmən gözü ilə baxmırlar. Əgər, belə olsaydı, Klara və digər ermənilər çoxdan başlarını götürüb buradan qaçardılar.

- Hörmətli qonaq, yadda saxlayın ki, buradakı ermənilər, Ermənistanda səfalətdən boğulan ermənilərdən qat-qat yaxşı yaşayırlar. – deyə Vahid fürsətdən istifadə edərək, bu informasiyanı qonağın diqqətinə çatdırdı. - Ona görə ki, onlar azsaylı xalq kimi xüsusi imtiyazlara malikdirlər.

- Hazırda Klaranın Bakıda heç bir qohumu yoxdur. – sadəlövh görünən Əvəz təşəxxüslə dilləndi. - Qardaşı Eduard Rusiyada yaşayır və qorxudan Bakıya gələ bilmir. Belə bir şəraitdə biz Klaranı darıxmağa qoymuruq.

- Birdən Eduard Bakıya gəldi, onda onun gəlişinə sizin reaksiyanız necə olacaq? – deyə Sergey həkimə sualedici nəzər saldı.

- Eduard Bakıya gəlsə, onu uşaqlıq dostum kimi qarşılayıb, razı halda evinə yola salaram.

- Maraqlıdır, o, da səni eyniliklə qəbul edər? – deyə Eduardın nə dərəcədə kinli adam olduğuna bələd olan tarixçi pedaqoq qıcıqlandırıcı sual verdi.

- Əlbəttə! – deyə Əvəz qətiyyətlə dilləndi. – Biz Qaradağlıda yaşayanda aramızdan su da keçməyibdir. Uzun ayrılıqdan sonra o, məni və qardaşlarımı görsə, bəlkə də

sevincdən ağlayar. Mənim aləmimdə o, kövrək adamdır və əlindən pislik gələn deyildi.

Sergey həkimin ifadələrini eşitdikdə təəccübünü gizlədə bilmirdi. O, əvvəlcə elə zənn etdi ki, qardaşlar əsl simalarını və məqsədlərini gizlətməklə belə bir humanist fikirlər söyləyirlər. Eduard Rusiyada azərbaycanlıların arxasınca, olmazın böhtanlar yağdırır, burada isə onu humanist bir adam kimi qələmə vermək istəyirdilər. Pedaqoq onların əsl məqsəd-məramlarını başa düşmək üçün qıcıqlandırıcı ifadələr söyləməli oldu. O, dedi:

- Axı, necə olsa da ermənilər, sizi öz yurd-yuvanızdan qovublar? Şəxsən mən, Qarabağda olmuş və gördüklərimdən dəhşətə gəlmişəm. Azərbaycanlıların yaşadıqları kəndlər xarabazarlığa çevrilibdir.

- Buna görə Ermənistan hökuməti gec də olsa, cavab verəcəkdir. – deyə Füzuli ciddi halda dilləndi. - Hazırda onların ağzı isti yerdədir.

Sergey Vladimiroviç, çoxlarına bəllidir ki, bizim dövlət Cənubi Qafqazda ən böyük və güclü orduya malikdir və hər an işğal altında olan torpaqlarımızı hərb yolu ilə qaytara bilərik. Region dövlətlər, o cümlədən də Avropadakılar yaxşı bilirlər ki, bizim millət təbiətən humanistdir, bəlkə deyərdim ki, tolerantıq. Biz sülhpərvər olduğumuz üçün

Qarabağ probleminin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq.

Ermənilər havadarlarına arxalanaraq, özlərini son qətliamlarda cəzasız hiss edirlər. Təəssüflər olsun ki, nəinki Avropa Birliyi, hətta özlərini demokrat adlandıran digər ölkələr də ermənilərin bəşəri cinayətə, Azərbaycan xalqının başına açılan müsibətə göz yumur.

- Əziz qonaq, bilmirəm sizin ermənilərə münasibətiniz necədir, - deyə Əvəz səbirsizliklə əlavə etdi. - amma səmimiyyətlə bildirməliyəm ki, onlar yırtıcı heyvanlardan da amansızdırlar. Mənim, Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırov adlı dostum olmasaydı, əsirlikdə olan hər iki qardaşımın nəinki dirisini, hətta meyidlərini də ala bilməyəcəkdim. Allah qəni-qəni ona rəhmət eləsin!

- Amin! – deyə ətrafdakılar bir ağızdan dilləndilər.

Yuxarıda qeyd olunduğu kimi, Qarabağ müharibəsində həddindən artıq şücaət göstərmiş Allahverdi Bağırovun fəaliyyəti nəticəsində İlqarla Mariz başqa girovlarla birlikdə erməni əsirləri ilə dəyişdirilərək qohumlarına təhvil verilmişdilər. O, döyüşlər apara-apara yüzlərlə azərbaycanlıları girovluqdan azad edərək, onları ailələri ilə qovuşdurmuşdu.

Allahverdinin ən böyük hərbi uğuru 1992-ci ilin 12 iyunda Aranzəmin və Naxçıvanlı kəndi döyüşlərində olmuşdur.

O zaman Naxçıvanlı kəndində işğalçıların bütün canlı qüvvəsi və texnikası darmadağın edilmiş, döyüşçülər Əsgəran qalasına qədər irəliləmiş, Pircamal kəndindəki bütün yüksəkliklər tutulmuşdu. Onun taburu Kətük kəndi ilə üzbəüz mövqe tutmuşdu. Həmin döyüşdən Ağdama qayıdan Allahverdi Bağırov minaya düşərək şəhid olmuşdur.

Onlar nəzərdə tutulan mənzilə çatanda gördülər ki, Klara elə qonşularla birlikdə həyətdə qurulan çadırda idi. Qonşulardan kimsə dünyasını dəyişmiş və erməni qadını da bir qonşu kimi yas mərasimində iştirak edirdi. Daha doğrusu o, mətbəx adlanan çadırda yemək hazırlanmasında hüzr sahibinə köməklik göstərirdi. Belə olan halda qonaqlar elə bina girişinin ağzında Nazimlə görüşüb, ondan hal-əhval öyrəndilər. O, da tərəddüd etmədən onları evinə dəvət etdi. Müharibə veteranlarından başqa hamı Nazimgilə qalxdı. Füzuligil mənzildə diskomfort yaratmasınlar deyə, belə bir addımı atmalı oldular.

Nazimin evi üç otaqdan ibarət idi və yaxşı təmir olunmuşdu. Bahalı mebellər və aksesuarlar burada yaşayan ailənin pis yaşamadığından xəbər verirdi. Sergey Nazimlə Klaranın bizneslə məşğul olduğundan hali idi və onların Rüfət adlı oğlu isə Neft Şirkətində mühafizə sektorunda işləyərək, öz dolanışığını təmin edirdi.

Ev sahibi tələm-tələsik qonaqlar üçün çay dəmlədi və süfrəni şirniyyatla bəzədi. Onlar bir qədər söhbət edəndən sonra Klara evə gəldi. Gördüklərindən müəmma təsirinə düşən rus qonaq özünü saxlaya bilməyib hövsələsiz halda dedi:

- Müdriklər söyləyirlər ki, bir şeyi mükəmməl bilmək üçün gərək eşitdiklərinlə gördüklərin üst-üstə düşsün. Lakin mənim eşitdiklərimlə gördüklərimin arasında xeyli fərq var. Klara, əslində mən elə zənn etdim ki, sənin Bakıda yaşamağın üçün, Nazimə olan sonsuz məhəbbət amili məcbur edir. Buradakı ab-havadan gördüm ki, Bakıda qalıb yaşamaq Nazimə olan məhəbbətdən çox, qonşularının, ətrafdakı insanların sənə olan mehriban münasibəti vadar edir. İki dövlətin müharibə vəziyyətində olmasına baxmayaraq, bu məmləkətdə yaşayanlar heç də öz qonşularına qarşı düşmənçilik münasibəti bəsləmirlər.

O birilər tarixçinin dediklərini yaxşı anlaya bilməsələr də, Abram həmin söhbətin məğzini tutdu və cavab vermək üçün təmkinlə dedi:

- Əziz dostum, hələ Pyatiqorskidə olarkən sənə demədim ki, qalmaqallardan uzaq olmaq istəyən hər bir kəs gəlib Azərbaycanda yaşasın? Azərbaycanlılar pisliklə üzləşsələr, hətta fiziki məhrumiyyətlərə məruz qalsalar da, onlar qısa müddət ərzində həmin fəsadları tez unudur və əks tərəfə

növbəti dəfə kömək əllərini uzatmağa hazır olduqlarını bütün varlıqları ilə nümayiş etdirirlər. Onların qanı humanizm toxumları ilə boldur və xasiyyətləri də o cür hisslərlə yoğrulubdur.

- İndiki məqamda məni bircə sual düşündürür, - deyə bilmədiyi şeyə nail olmaq istəyən tarixçi səbirsizliklə dilləndi. – Klara, sən hüzürdə olan zaman, erməni olmağın oradakı insanları qıcıqlandırmırdı?

- Sergey Vladimiroviç, qonşularla o qədər sıx münasibətdəyəm ki, biz bir-birimizə "bacı" deyərək, müraciət edirik. – deyə erməni qadın həvəslə dilləndi. – Axşamlar, həyətə çıxıb bir-birimizlə doyunca söhbət edir, sirlərimizi bölüşürük.

- Bəs, elə olmur ki, əzizlərini müharibədə itirmiş yerli sakinlərdən kimsə, öz qəzəblərini sənin üzərinə yönəltsin? – deyə pedaqoq soruşdu.

- Xoşbəxtlikdən belə hallarla üzləşməmişəm. – deyə Klara tərəddüd etmədən cavab verdi. – İş ondadır ki, bir neçə addımlıqda öz yurd-yuvasından qovulmuş, ev-eşikləri əlindən alınmış qaçqınlar məskunlaşıblar, hətta onlar da mövcud şəraitlə barışaraq, bir neçə hal istisna olmaqla, mənə güldən artıq söz deməyiblər. Əksinə onlardan bəziləri ilə, demək olar ki, bir kənddə böyümüş həmyerlilərimlə yaxşı əlaqədəyəm.

- Mən belə başa düşdüm ki, sən qəti şəkildə Bakını tərk edib, Ermənistanda yaşamaq istəmirsən. – deyə Sergey dərindən köksünü ötürərək, hərarətlə dilləndi. – Halbuki bir çox ermənilər azərbaycanlıları barbar kimi qələmə verərək, onları dünya ictimaiyyətinin gözündən salmaq istəyirlər.

- Mənim subyektiv fikrim belədir, - deyə bir çox şeyləri öz beynində götür-qoy edən Klara səmimiyyətlə dilləndi. - Ermənistan ermənilərin vətəni olsa belə, iki ölkəni müqayisə etsək, bizim millətin nümayəndələri yalnız Azərbaycanda özlərini xoşbəxt hiss edirlər.

Heyrətini gizlətməyən Sergey heyrət içərisində Klaranın əlini sıxıb, onu əsl realist adlandırdı.

Qonaqlar Nazimgildən ayrılandan sonra Sergey fikir içərisində idi. Hər şeyə optimistcəsinə yanaşan ziyalı gördüklərinə inana bilmirdi ki, bütün bunlar həqiqətdə baş verir? Onu yalnız bircə şey maraqlandırırdı, görəsən ermənilər tərəfindən torpaqları zəbt edilən, ev-eşiklərindən qovulan, əzizləri öldürülən, yaraları hələ də sağalmayan, qaçqınlıq həyatı yaşayan insanlar necə olur ki, Bakıda olan ermənilərə nifrət bəsləyib, onlardan qisas almırlar?

## X fəsil. Yəhudi biznesmeni rus qonağına həqiqəti aşılamağa çalışır

Abram evinə gələndə orada heç kim yox idi. Məhz buna görə də o, özü vaxt itirmədən soyuq ərazqlardan yemək hazırlayıb masanın üstünü bəzədi. Sergey təkidlə bildirdi ki, o, bura çay içmək üçün gəldiyindən yemək yeməyəcək. Qonaqlar masa arxasında söhbət edə-edə hisə qoyulmuş kolbasa, duzlu balıq, salat yeməyə və araq içməyə başladılar. Süfrə arxasında olanların demək olar ki, hamısı Heydərlə Vahiddən başqa, spirtli içki qəbul edirdilər. Onların arasında yalnız Sergey sakitcə əyləşib nə haqdasa fikirləşirdi. Abram o dəqiqə başa düşdü ki, tarixçi pedaqoq qaçqınların məskunlaşdığı yataqxanada gördüyü səhnələrdən bir qədər məyus olubdur, elə buna görə də o, dostunu düşdüyü xəyallardan ayırmadı.

Bir neçə dəqiqə keçəndən sonra Sergey bağa baxmaq üçün çölə çıxdı. Dostunu darıxmağa qoymayan ev sahibi onu müşayət etməyə qərara aldı. Abram söz almaq üçün nə baş verdiyinin qonaqdan soruşdu. O, əvəzində xəyallara dalmış kimi dedi:

- Bu məmləkətdə hər şey mən təsəvvür etdiyim kimi deyil. Yerli əhali əvvəlki illərə nisbətən daha mehriban, istiqanlı və daha da qonaqpərvərdir. Sanki bu millət

ermənilərlə müharibə etməmiş və müharibə zamanı ağır itki ilə üzləşməyibdir. Onlar da elə bizim millət kimi kin-küdurət saxlamır və hər şeyi zamanın ixtiyarına buraxırlar.

- Sən lap psixoloqlar kimi danışırsan. Nəyə görə belə fikirləşirsən?

- Klaranın qardaşı Eduard Sankt-Peterburqda yaşasa belə, daim azərbaycanlıları lənətləməklə məşğuldur və əminəm ki, ona ixtiyar versələr, yaxınlıqda yaşayan hər bir azərbaycanlını xüsusi qəddarlıqla məhv edər. Burada erməni əsirliyində olan yerli əhali baxmayaraq ki, onlar tərəfdən ağır işgəncələrə məruz qalıblar, lakin həmin xəsarət alan adamlar onların ardınca lənətlər yağdırmırlar. Elə yerli əhalinin Klara ilə olan münasibəti, onların yüksək tolerantlığından xəbər verir. Belə bir millət ilə necə düşmənçilk aparmaq olar?

- Dostum Sergey, elə mən də bütün bu amilləri nəzərə alıb, gəlib burada məskunlaşmışam. Azərbaycanlılar pisliyi tez unudan bir millətdir.

- Məni, hazırda başqa bir şey düşündürür, – deyə pedaqoq fikirli halda dilləndi. – Eduard, elə Robert də evləri ola-ola Rusiyada hamıya car çəkirlər ki, onların evi yoxdur və ağır qaçqınlıq həyatına məhkum olunublar. Halbuki Robertin Pyatiqorskidə elə bir böyük evi var ki, orada

nəinki özü, hətta Eduard da ailəsi birlikdə yaşaya bilər. Anlamıram, nəyə görə onlar özlərini qaçqın adlandırırlar?

- Yaxşıdır ki, indi sən kimin qaçqın olduğunu öz gözlərinlə gördün. – deyə Abram ciddi halda dilləndi. – Robert kurort şəhərində böyük bir evdə yaşamaqla, özünü qaçqın adlandırması, bu artıq həyasızlığın son həddi deməkdir. Belə bir adamlarla nəinki dostluq etmək, hətta ünsiyyət də qurmaq qəbahət sayılır.

- İş ondadır ki, mən bir neçə ildir Nizamini tanıyıram. Lakin o, indiyə kimi bir dəfə də olsun, qaçqın olduğunu dilə gətirməyibdir.

- Amma Eduard dəfələrlə qaçqın olduğunu və bacısının guya Bakıda girov saxlanıldığını bütün aləmə yayır. – Abram istehza ilə dilləndi. - Yaxşıdır ki, sən özün Klaranın necə girov saxlanıldığının şahidi oldun. Əziz dostum, belə bir iyrənc üsuldan demək olar ki, hər bir millətçi, şovinist erməni istifadə edir.

- Maraqlıdır, bəs nəyə görə ermənilər onlara qarşı belə bir ifrat dərəcədə düşmənçilik bəsləyirlər? – deyə Sergey dostuna sualedici nəzər saldı. – Məndən olsa, Klaranın buradakı həyatını videoya çəkib, aparıb nəinki Eduarda və ailəsinə, hətta Sankt-Peterburqda yaşayan bütün ermənilərə göstərərdim ki, xəcalətlərindən yerə girsinlər.

Diskussiyanın xoş məcrada getdiyini görən Abram, çay dəstgahı zamanı söhbəti davam etdirmək qərarına gəldi. Lakin belə bir söhbətdən məyusluğunu gizlətməyən Sergey bir daha həmin mövzuya qayıtmamağı məsləhət bildi.

Onlar otağa qayıdan zaman Abram çay dəstgahını öz kabinetində təşkil etdirdi. Bu işdə İlqar ona yardımçı oldu.

Bir az neçə keçədən sonra ürəyi ilə bacarmayan Sergey bir tarixçi kimi yenə də həmin mövzuya qayıtdı. Füzuli müharibə veterenları arasında həm yaşlı, həm də müəyyən sirrlərə malik olduğundan rus qonağı əsasən, Qarabağda yaranmış müharibə ilə bağlı onunla dialoq aparırdı. İnsanları tanımaqda çətinlik çəkməyən veteran fikir verdi ki, Sergey Qarabağla bağlı olan sualları elə-belə vermir. Mövzu rus qonağını həddindən artıq maraqlandırdığından o, bununla əlaqədar daha dürüst məlumatlar almaq arzusundaydı. Abram onu sənədli faktlarla tanış etmək fikrinə düşdü.

Onun kabineti alim kabinetindən fərqlənmirdi. Otağın iki üzbəüz divarında cürbəcür ədəbiyyatlarla zəngin olan böyük kitab rəfləri yerləşirdi. Onun masa arxasında yerləşdiyi kreslo pəncərə ağzında idi və pəncərədən sol tərəfdə İkinci Dünya müharibəsində biznesmen kimi fəaliyyət göstərmiş, alman millətindən olan Otto Şindlerin portreti, sağ tərəfdə isə hələ XX əsrin əvvəlində çar Rusiyası zamanı Cənubi Qafqazın konturları çəkilmiş xəritəsi asılmışdı.

Sergey Vahidlə yanyanaşı, Füzuli ilə Kamildən sol tərəfdə Abramla üzbəüz əyləşib, masanın üstündə olan erməni vəhşiliklərindən bəhs edən elmi ədəbiyyatları nəzərdən keçirməyə başladı. Əvəz yəhudi biznesmenin yanında oturub, stəkanları çayla doldurdu.

Sergey bir tarixçi kimi dəqiq bilirdi ki, çar Rusiyası ilə İran arasında gedən müharibələr nəticəsində bağlanan 1813-cü il 12-i oktyabr tarixli Gülüstan və 1828-ci il 10-u fevral tarixli Türkmənçay müqavilələri nəticəsində Cənubi Qafqaz, indiki Şimali Azərbaycanla birlikdə tamamilə Rusiyanın əlinə keçmişdi.

Bu məqamda o, Qafqazşünas-alim P. İ. Şavrovun yazılarını nəzərdən keçirirdi. Rus çarizminin Cənubi Qafqazı xristianlaşdırmaq siyasəti əks olunan **«Güney Qafqazda rus işinin yeni təhlükəsi»** adlı kitabında o, yazırdı: «Biz Güney Qafqazda müstəmləkəçilik fəaliyyətimizi oraya rusları köçürməklə deyil, başqa dindən olanları köçürməklə başladıq… 1826-1828-ci illərdə iki il davam etmiş müharibə qurtardıqdan sonra 1828-1830-cu illərə kimi Güney Qafqaza İrandan 40 mindən yuxarı, Türkiyədən isə 84600 nəfər köçürdük və onları Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının erməni əhalisinin çox cüzi olduğu ən yaxşı dövlət torpaqlarında yerləşdirdik».

P. İ. Şavrovun yazdığından Sergey öyrənir ki, gəlmə ermənilər keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisi ilə yanaşı həm də Yelizavetpol quberniyasında Qarabağ və Zəngəzurun dağlıq bölgəsində və Göyçə gölünün sahillərindəki səfalı yaylaqlarda yerləşdirilmişlər. Rəsmi köçürülmüş 124 min nəfər erməni ilə yanaşı 10 minlərlə erməni ailələri də qeyri-rəsmi surətdə Cənubi Qafqaza axışmışlar. O, qeyd edirdi ki, «XX əsrin əvvəllərində Güney Qafqazda yaşayan 1 milyon 300 min ermənininin 1 milyondan çoxu yerli əhali olmayıb Rusiya hakimiyyət orqanları tərəfindən buraya köçürülənlərdi».

Qonaq öz aləminə qapansa da Vahid onun fikirini yayındırmaq istəmirdi, lakin son məqamda o, özünü saxlaya bilməyib, bir ziyalı kimi ürək ağrısı ilə, masanın üstündə olan tarixçi-alim Veliçkonun ərsəyə gətirdiyi **"Qafqaz"** əsərini həmkarının qarşısına qoyub, keçmişdə baş verən tarixi hadisələri xatırlamağa başladı:

- Əziz qonaq, ermənilər böyük torpaqların onlara pay verildiyini görüb sərsəm "Böyük Ermənistan" ideyasını ortaya atırlar. «Hnçak» («Zəng») və «Daşnaksütyun» («İttifaq») partiyaların XIX əsrin axırlarından başlayaraq başqa millətlərə, xüsusilə türk soyundan olan millətlərə qarşı törətdikləri qanlı cinayətlər öz coğrafi əhatəsinə və qəddar-

lıq dərəcələrinə görə tarixdə bu qəbildən olan hadisələr sırasında xüsusi yer tutur.

- Bu haqda qismən də olsa mənim məlumatım var. – deyə tarixçi pedaqoq qarşısında olan **"Qafqaz"** əsərinin səhifələrini vərəqləyə-vərəqləyə səbirsizliklə dilləndi. – Maraqlıdır, nəyə görə onlar bu dərəcədə özlərini barbar şəkildə nümayiş etdirir, başqa ölkələrdə isə boyun əyərək özlərini yazıq kimi göstərməyə başladılar? Heç pənah gətirdikləri ölkənin daxilində də ərazi iddiaları qaldırmaq olar? Doğrudan da onlar bu dərəcədə həyasızdırlar?

- Ermənilər ilk dəfə bura gələndə başladılar türklərin, iranlıların vəhşiliyindən dəm vurmağa. – Kamil narahatlıqla dilləndi. - Bizim millət də onları ev-eşik, məişət avadanlığı, ərzaqla təmin etdi. Sən demə ermənilər əvvəlki ərazilərdə soyğunçuluq, quldurluq, qaçaqçılıq etdiklərinə, Birinci Dünya müharibəsi zamanı isə Şərqi Anadoluda on minlərə mülkü türk vətəndaşlarını qətlə yetirdklərinə görə köklü millətlərin qınağı ilə üzləşmiş və məhz buna görə də onlar həmin yerlərdən qovulmağa başlamışdılar. Sonra isə ermənilər həmin cinayətləri bizim üzərimizdə tətbiq etdilər.

Sergey Vladimiroviç, bizim başımıza gətirilən müsibət bu cürdür. Ürəyiyumşaqlıq, unutqanlıq, sadəlövlük daim bizim başımıza bəlalar gətiribdir. Biz isə bunların heç birisindən nəticə çıxarmaq istəmirik.

- Adama təsir edən odur ki, Osmanlı türkləri Birinci Dünya müharibəsində (1914-1918) erməni vəhşiliklərin qarşısını almaq və arxa cəbhənin təhlükəsizliyini təmin etmək üçün erməniləri başqa yerə başqa yerə köçürməyi qərara alırlar və təbii olaraq həmin deportasiya vaxtı köçürülənlər arasında itkilər baş verir. – deyə Füzuli bütün fikrini cəmləşdirərək aludəliklə dilləndi. – Ondan sonra isə ermənilər həyasızlıq edərək, bütün dünyaya car çəkirlər ki, guya həmin deportasiya zamanı 1500000 nəfər adam qırılıbdır və bunu soyqırım kimi qələmə verirlər.

- Burada bir arayış verməli olacağam. – deyə Abram tələsik halda söhbətə müdaxilə etdi. – Fransız yazıçı-tədqiqatçısı Jorj de Molevil **"1915-ci il erməni faciəsi"** adlı əsərində yazır ki, deportasiyada nə qədər əhali olubdur ki, onlardan 1,5 nəfəri yolda ölübdür? Onun hesablama-larına görə yerdəyişmə vaxtı yalnız 600000 nəfər adam iştirak edə bilərdi, onlardan isə yalnız 200000 nəfərinin ölməsi inandırıcı görünürdü, bu da hər hansı bir köç zamanı baş verə bilərdi.

Maraqlıdır ki, bu soyqırım uydurması bəzi ölkələrin parlametlərində dinləmələrə qulaq asılır.

- Yaxşıdır ki, Abram bu məsələyə toxundu. – deyə Heydər səbirsizliklə dilləndi. – Ortaya qoyulan statistik məlumatlar ermənilərin dediklərini inkar edir. Artıq Birinci

Dünya müharibəsinə qədər 100 il müddətinə Cənubi Qafqaza, xüsusən də Azərbaycana tam əksəriyyət olmaqla, 1 milyona yaxın erməni köçmüşdü və belə bir axından sonra iddia etmək ki, 1915-ci ildəki deportasiya zamanı 1,5 milyon adam ölübdür, bu uşağın başını aldatmaq kimi bir şeydir.

Bütün bu yalana baxmayaraq erməni diasporası həmin qondarma nağılı, beynəlxalq aləmdə soyqırım kimi təqdim etmək istəyirlər. Bir sözlə, onlar harda gəldi Türkiyəni ləkələməklə məğuldurlar.

- Məlumdur ki, Türkiyə Azərbaycana böyük arxa durur və buna görə də Ermənistanla sərhədi bağlayıbdır. – deyə rus pedaqoqu həmsöbətlərini dilemma qarşısında qoymaq üçün məkrlə dilləndi. – Lakin elə bu yaxınlarda türk höküməti bildirmişdi ki, ölkəsinin Ermənistanla olan bağlı sərhədi açmaq və onlarla əlaqə yaratmaq fikirindədir. Başa düşə bilmirəm, nəyə görə belə bir bəyanat verilmişdi?

- Elə bu mövqe bizim millətin daxilində də şok effekti yaratdı. – deyə başını təəssüf hissi ilə tərpədən Füzuli həyəcanla dilləndi. – Həm bizim hakimiyyət, həm də xalqımız etiraz səsini ucaldandan sonra Türkiyə həmin məsələdən yan keçdi.

- Ununtmayın ki, bu məsələdə xaricdə yaşayan bəzi tanınmış azərbaycanlılar Türkiyəyə qarşı sərt reaksiya ver-

mişdilər. – deyə Vahid heyranlığını gizlətmədən xatırlatma etdi. – İş ondadır ki, Türkiyədə ən varlı adamlar sırasında xüsusi çəkisi olan və ölkədəki türk milliarderləri arasında 1,4 miliard dollarla 7-ci sırada duran, ***"Palmali"*** şirkətlər qrupunun prezidenti Mübariz Mənsimov həmin qərardan dəhşətə gələrək, belə bir bəyanat yaymağa məcbur olmuşdu: *"Əgər, Qarabağ məsələsi nəzərə alınmadan Türkiyə Ermənistanla olan sərhədlərini açsa,* ***"Palmali"****nin İstambuldakı qərargah-mənzilimi bağlayıb, məsələn, Maltadakı ofisə köçəcəm".*

Türkiyə belə bir bəyanatların üstündən yan keçə bilməzdi. Ona görə ki, ürəyi Vətən eşqi ilə döyünən Mübariz Mənsimov Ermənistanın həm Azərbaycanın, həm də Türkiyənin necə amansız düşmən olduğunu yaxşı dərk edir. Xatırlamaq istəyirəm ki, o, böyük tankerlər imperiyasının sahiblərindən biri sayılır və ***"Palmali"***nin tərkibində 180-ə yaxın tanker var ki, onlar 110 mln. tondan çox neft məhsullarının daşınması ilə məşğuldur.

- Mən ***"Palmali"*** şirkəti barəsində eşitmişdim, lakin onun prezidentinin belə bir qətiyyətli, cəsarətli və xalqının, dövlətinin mənafeyini, özünün biznes maraqlarından üstün tutduğunu ağlıma belə gətirə bilməzdim. – deyə Sergey hamıya qəribə nəzər salmaqla heyrətlə dilləndi. – Mübariz

Mənsimov belə bir bəyanata görə fəaliyyət göstərdiyi ölkədə ağır maneələrlə rastlaşa bilərdi.

- Lakin buna baxmayaraq o, qeyrətli və təəssübkeş bir oğul kimi həmin addımı ataraq, millətçi ermənilərin siyasətinə qarşı sərt mövqedə durduğunu hamıya sübuta yetirdi. – deyə Heydər fəxarətlə dilləndi.

- Təəssüflər olsun ki, bizim bir çox imkanlı həmvətənlərimiz var ki, onlar üçün biznes maraqları hər şeydən üstündür. – deyə Füzuli məyus halda dilləndi. – Ona görə də biz veteranlar Mübariz Mənsimovu namuslu, vicdanlı, qeyrətli və fədakar oğul kimi özümüzün silahdaşı hesab edirik.

- O, birdəfəlik bildirdi ki, evin qapısı nəcib, alicənab, xoşniyyətli, xeyirxah və əməli saleh insanların üzünə açıq olmalıdır, yırtıcı hisslərlə, vəhşilik instinkti, murdar xasiyyətli mənfur məxluqlara yox. – deyə Kamil qürurla dilləndi. – İnsanlıqdan uzaq olan erməniləri Afrika cəngəlliklərinə və savannalarına göndərsələr, oradakı çaqqal, kaftar və digər leş yeyən yırtıcılar, baş götürüb həmin materikdən qaçarlar.

## XI fəsil. Sadalanan faktlar qarşısında aciz qalan alim Qafqaz tarixi ilə dərindən maraqlanacağını bir məqsəd kimi qarşısına qoyur

Rus qonağı tarix üzrə elmlər namizədi olsa da o, XIX-XX əsrlərdə Qafqaz baş verən siyasi prosesləri kifayət qədər öyrənməmiş və bu sahədə bilmədikləri bildiklərindən hələ çox idi. Hazırda bəzi vacib məlumatları əldə etmək üçün onda yaxşı iman yaranmışdı. Çünki Abramda Qafqaz hadisələri ilə bağlı çoxlu ədəbiyyatlar vardı və o, həmin ədəbiyyatlardakı bir çox məlumatlardan hali idi.

- İş ondadır ki, qonaqpərvərlik, tolerantlıq, sadəlövlük sizin qanınızdadır. – deyə tarixçi pedaqoq həvəslə dilləndi. – Məhz bu səbəbdən siz qısa bir müddət ərzində hər şeyi unudub yeni həyata başlayırsınız.

- Sizin millət də sadəlöhvlükdə bizdən geri qalmır və əminəm ki, vaxt gələcək Şimali Qafqazda, Rusiyanın başqa bölgələrində yaşayan ermənilər baş qaldırıb, sizin xalqa və hökümətə qarşı da ərazi iddiaları irəli sürəcəklər. – deyə Füzuli əminliklə dilləndi.

- Məsələ burasındadır ki, həmin hadisələr zamanı onlar nəinki bizimkilərə, - deyə ermənilərin azğınlaşması ilə bağlı mətbu orqanlarında onlarla məqalə yazmış Vahid,

üzrxahlıqla həmkarının sözünü kəsərək araya girdi. - hətta başlarını sığallayan, ən pis günlərdə arxalarında duran ruslara qarşı da bir vaxt terror aktları həyata keçirmişdilər. Yelizavetpol qubernatoru A. Kalaçov qeyd edirdi ki, 1903-cü il iyunun 12-də Eçmiədzin kilsəsinə məxsus əmlakın müsadirəsinə dair rus çarı tərəfindən qəbul edilmiş fərman ermənilərin hiddətinə səbəb olur...

Onlar bir sıra ucqar bölgələrdə hakimiyyəti ələ keçirir, qatarları, dəmir, şosse yollarını, körpüləri partladır, yüksək rütbəli dövlət məmurlarını, polis və jandarm nümayəndələrini, nüfuzlu ictimai xadimləri, hətta jurnalistləri belə terror yolu ilə qətlə yetirirdilər. Bir-birinin ardınca general Əlixanov, qubernatorlar Nakaşidze, Andreyev, polkovniklər Bıkov, Saxarov və onlarla başqa hökumət mə’murları erməni terrorunun qurbanı olur.

- Əziz dostum, belə hadisələr Qafqaz tarixində yüzlərlədir. – deyə Abram ikrah hissi ilə dilləndi. – Ermənilər tərəfindən rus məmurlarına qarşı törədilən terror aktları müvafiq sənədlərdə həkk olunubdur.

- Abram, etiraf edim ki, bir tarixçi kimi bütün bunlardan mənim xəbərim yox idi. – deyə vəcdə gələn qonağın gözləri bərələ qaldı. – Qafqazın cənubuna olan səfərimə qədər mən, erməniləri dünyanın ən məzlum və yazıq milləti kimi tanıyırdım.

- 1905-ci ildə erməni-azərbaycanlı qırğını başlayır və azərbaycanlılar kütləvi şəkildə məhv edilir. – tarixi araşdırmalarla diqqətlə məşğul olmağa çalışan yəhudi biznesmeni bir qədər ara verəndən sonra, əldə etdiyi bilgini söyləmək üçün tələsik halda dilləndi. - Elə ki, onlar “böyük Ermənistan” ideyasını ortaya atdılar, başladılar yerli əhaliyə, o cümlədən də bizim millətə qarşı terror aktları həyata keçirməyə. Adama təsir edən odur ki, həmin qətliamlarda əvvəlcə çar Rusiyası, ondan sonra isə bolşeviklər dəstək oldular.

Ondan sonra Abram masanın üst siyirməsini açıb, oradan qalın olmayan bir kitab çıxardı və səhifələri vərəqləyərək özünə lazım olan hissəni tapıb oxumağa başladı:

- Arxiv sənədlərindən məlum olub ki, 1918-ci ilin aprel-may ayları ərzində ermənilər tərəfindən təkcə Quba qəzasında 36 min 782 nəfər qətlə yetirilib, 122 kənd tamamilə dağıdılıb.

Vəhşiliklər nəticəsində, Qarabağın dağlıq hissələrində 150-dən artıq kənd dağıdılmış, əhalisi isə ermənilər tərəfindən soyqrıma məruz qalmışdılar. İrəvan quberniyasında isə 211, Qarsda 82 kənd yandırılmışdır. Yuxarıdakı ərazilərdə əhalinin qırılması 1919-1920-ci illərdə də davam etmişdir. Belə ki, İrəvan quberniyasının əhalisi 378582 nəfərdən azalaraq 12000 nəfər qalmışdır. Bunun da əsas səbəbi

ermənilərin azərbaycanlılara qarşı törətmiş olduqları soyqırımın nəticəsidir.

Bununla yanaşı erməni silahlı dəstələri Andronik, Dro, Nijdenin başçılığı altında Qarabağ, Zəngəzur, Naxçıvana soxularaq kütləvi qırğınlar törətdilər.

Bütün bu sənədlərin surətini çıxarıb İsrailə göndərirəm ki, ermənilərin kimliyi bizim millətə də bəlli olsun.

- Abramın sözlərinə şübhə etməyə bilərsiniz. – deyə Heydər başını bir qədər sola çəpəki əyib fəhmlə dilləndi. - Yalnız 1918-ci ildə yaranmış Ararat Respublikası və 1920-ci ilin noyabrında Ermənistanda Sovet hakimiyyətinin qələbəsindən məharətlə istifadə edən ermənilər əsrlər boyu arzusunda olduqları, qədim Azərbaycan torpaqlarında Ermənistan dövləti yaratmaq ideyalarını reallaşdıra bildilər.

Abramın verdiyi məlumatlar Sergeyi düşündürməyə vadar etdi. O, həmin kitabı masanın üstündə olan digər kitablarla yanaşı tarixçi alimə uzatdı. Bu məsələyə marağını gizlətməyən rus alimi tərəddüd etmədən ona təqdim edilən, tarixi materiallarla zəngin olan elmi ədəbiyyatları nəzərdən keçirməyə başladı. Artıq ona agah idi ki, ərazisi bir neçə dəfə paçalanan Azərbaycan kimi ikinci bir dövlət dünyada yoxdur.

Sergey eşitdiklərindən vəcdə gəldiyini gizlətmədən başını hiddətlə yellətdi və əsəbi halda dedi:

- Biz uzun müddət bir ölkənin tərkibində yaşamışıq və ağlıma belə gətirməzdim ki, haçansa bir yerdə yaşayan iki millət arasında bu cür ifrat düşmənçilik yarana bilər. Axı, ermənilər Rusiyanın şəhərlərinə doluşaraq hər yerdə bəyan edirlər ki, Qarabağda müharibə başlanan kimi sizin millət mütəmadi olaraq onları fiziki cəhətcə məhv etməyə başlayıblar. Sumqayıt və Bakı hadisələrini əllərində şüar tutaraq özlərini zərərçəkmiş millət kimi təqdim edirlər.

- Sergey Vladimiroviç, artıq sübuta yetirilibdir ki, bütün bunların ssenarisi Moskvada DTK tərəfindən yazılmış və adlarını çəkdiyiniz şəhərlərdə ermənilərin özləri tərəfindən icra edilibdir. – deyə Füzuli müfəssəl şəkildə dilləndi. - Hazırda həm Bakıda, həm də Sumqayıtda on minlərlə erməni yaşayır ki, mövcud durumda heç kim onları nəinki fiziki cəhətcə məhv etmir, hətta onların xətirlərinə belə dəymirlər. Amma nəinki Ermənistanda, hətta yuridik olaraq bizim ölkənin ərazisi olan Qarabağda bir nəfər də olsun azərbaycanlı yoxdur.

- Bu haqda mən məlumatlıyam, - deyə Sergey dostu Abramla Pyatiqorskidə olan görüşü yadına saldı və ermənilərin bəyan etdikləri yalanlara görə öz nifrətini gizlətmədi. – həmin ərazilərdə olanda isə sakinlər arasında nəinki azərbaycanlı, hətta başqa millətin də nümayəndələrini görmədim.

- Bundan sonra onlarla heç bir millət çiyin-çiyinə mehribancasına yaşaya bilməz. – deyə Heydər boş olan armudu stəkanları çayla dolurub üzrxahlıqla dilləndi. – Ermənilər yaşadıqları ərazidə mono dövlət yaradaraq, indi də qonşuların torpaqlarını zəbt edirlər. Hələbir başqa ölkələrə car çəkirlər ki, blokadada olduqlarına görə onlara yardım versinlər. Bir sözlə, erməni siyasətçiləri qonşularla düşmənçilik siyasəti yürüdürlər, diplomatları isə böyük ölkələrin qapılarına gedib orada dilənçiliklə məşğuldurlar.

- İnanmıram ki, daim başqalarından yardım istəyən bir hökümət Qarabağ üçün bir gün ağlasın. – deyə Sergey ümidsiz halda dilləndi. – Üç-dörd il də keçsə, nəinki Qarabağda, hətta Ermənistanda da əhali qalmayacaq. Orada vəziyyət mən təsəvvür etdiyimdən də ağırdır.

- İanələrlə yaşayan dövlətin bünövrəsi çürük olur. – deyə dodaqlarında istehza təbəssümü yaranan Kamil ritorik tərzdə dilləndi. – Artıq onların heç bir həya-abırı qalmayıbdır. Ondan əvvəlki və indiki hökümətin işi yalnız qonşularla ədavət aparmaq, xəstə təxəyyüllərlə yaşamaqdan ibarətdir. Onlar iqtisadiyyatın dirçəldilməsi barəsində yox, elə Füzulinin dediyi kimi yalnız beynəlxalq təşkilatların və hökümətlərin qapısında dilənçilik etməklə məşğuldur. Belə bir siyasət kimə lazımdır?

- Hörmətli dostlar, qonşu-qonşu ilə gərək mehriban yaşamalı və əlbəttə ki, bir-birilərinə xoş münasibət bəsləməlidir. – deyə rus qonağı fəhmsizliklə dilləndi. - Məndə olan məlumata görə sizin hökümət erməniləri bütün kommunikasiya xəttlərindən məhrum edərək, onları blokada şəraitində saxlayır. Qonşu ilə düşmən münasibətdə yaşamaq, yalnız acı fəsadlara gətirib çıxaracaq.

- Kim ağlına gətirə bilərdi ki, pənah gətirənlərin iştaahasından daha şirin tikələr keçir. – deyə qalın qaşlarını gözlərinin üstündə sıxan yaşlı veteran təmkinlə dilləndi. - Bunu sadə şəkildə izah etməyə çalışacağam. Təsəvvür edin, bir gün kimsə sizin qapınızı döyür və gecələmək üçün sizə yalvarır. Biz həmin vaxt onları evimizə buraxdıq, lakin onlar güzaranlarının pis olduğunu bildirib, müəyyən vaxt evdə qalmağı xahiş edirlər. Bir müddət keçəndən sonra onlar azğınlaşaraq, bizdən öz evimizi tərk etməyi tələb edir və buna görə də nəinki zor tətbiq edir, hətta fiziki cəhətcə məhv etməyə başlayırlar. Sən də ailənin müəyyən üzvlərinin sağ qalması naminə öz evini tərk etmək məcburiyyətində qalırsan.

Bu təsiredici faktlardan dəhşətə gələn rus qonağının vəziyyəti dəyişdi və onun demək olar ki, danışmağa halı qalmadı. Vəziyyəti belə görən ev yiyəsi bir qədər həyətdə

gəzişməyi təklif etdi. Lakin vaxtın məhdudluğunu görən Kamil **“Şəhidlər Xiyabanı”**na getməyi məsləhət bildi.

## XII fəsil. Şəhidlərin uyuduğu məzarlar

**“Şəhidlər Xiyabanı”**na getmək üçün minik maşını olsa da, Sergey həmin yerə ictimai nəqliyyatın vasitəsilə getməyi xahiş etdi. O, camaatın içərisində olmaq istəyirdi ki, yaxından onların şəhər və məişətdəki mədəniyyətinə bələd olsun.

İlqar axşam işə çıxması ilə əlaqədar onlardan uzaqlaşdı. Kamil ağır çəkili olduğundan Füzulinin maşını ilə deyilən yerə yollandı. Qalanları isə avtobus və ya metrodan istifadə etməli və **“Şəhidlər Xiyabanı”**nın girişində Füzuligil ilə görüşməli idilər.

Hər şeyə diqqətlə fikir verən tarixçi pedaqoq avtobusa minən kimi gördü ki, özündən bir neçə yaş kiçik olan şəxslər, oturduqları yerdən durub ona yer verirlər. Bundan əlavə sərnişinlər ədəb-ərkanla geyinmiş və qabiliyyətlə dayanıb heç kimə mane olmadan hərdənbir bir-birilərilə söhbət edirlər. Həmin hal ilə o, metroda da rastlaşdı.

Heyranlığını gizlədə bilməyən pedaqoq ***"İçərişəhər"*** metrostansiyasından çıxan kimi Abrama dedi:

- Buradakı sakinlərin mədəniyyətinə, ədəb-ərkanına, əxalqına, tərbiyəsinə mən həsəd aparıram. Nəqliyyatdakı mədəniyyətə isə demək olar ki, dünyanın heç bir ölkəsində rast gəlməmişəm. Yaşda kiçik olanlar böyüklərə yer verir, cavan qızla oğlanlar və ər-arvad yanbayan dayansalar da, bir-biriləri ilə nə qucaqlaşır, nə də ki, öpüşürlər. Hətta qol-qola gedən cütlüklərin sayına nadir hallarda rast gəldim. Ümumiyyətlə, bəzi hallar istisna olmaqla kiçiklərin böyüklərə olan hörməti məni valeh etdi.

Bəs, geyimləri? Yerli sakinlərin geyimləri çox zövqlüdür, elə bil hamı kübar ailələrinin nümayəndələridir. İnsanda ikrah hissi doğuran açıq-saçıqlıqdan heç bir əsər-əlamət yoxdur.

- Sergey Vladimiroviç, bütün bunlar yüz illər bundan əvvəl ailələrdə cilalanan ənənələrdir ki, indiyənə kimi həmin ənənələr nəsillərdən-nəsillərə ötrülür. – deyə qonağın belə incəliklərə diqqət yetirməsindən həvəslənən Heydər, Abramı qabaqlayaraq ehtiramla dilləndi. – Hələ əvvəlki illərə nisbətən, indi həmin ənənədən yan keçməyə hazır olan cavanlar var ki, onlar öz əməlləri ilə cəmiyyət arasında yalnız nifrət qazanırlar. Bütün bu neqativ halların yaranmasında isə televiziya kanalları müstəsna rol oynayır.

- Lakin buna baxmayaraq, belə bir münasibətə və bənzərsiz mədəniyyətə görə, sizin millət yalnız tərif mükafatına layiqdir. – Sergey heyranlıqla dilləndi. – İnsanlar arasında belə bir isti münasibət olanda, həyatin özü hər bir kəs üçün ev kimi görünür. Yenə də təsəvvür etmək çətindir, belə bir istiqanlıq sizin millətdə necə yoğrulubdur?

- Fikir verdin, biz azərbaycanlılara oxşamasaq da, yerli camaat bizə heç gözucu da nəzər salmırdılar. – deyə Abram öz fikrini bildirdi. – baxanların isə üzündə yalnız təbəssüm sezilirdi.

- Mən belə şeyləri nəzərdən qaçırmıram. – deyə Sergey həvəslə dilləndi və ətrafdakı camaatı nəzərdən keçirə-keçirə həmin tərzdə sözünə davam etdi. – Həqiqətən də mən azərbaycanlıların mehribançılığına həsəd aparıram.

Beləliklə, onlar Fünikulyora tərəf gedib, oradan yuxarı qalxdılar. Ətrafdakı mənzərəni və cürbəcür arxitekturalı tikililəri diqqətlə nəzərdən keçirən tarixçi pedaqoq, sanki bütün gördüyü hər bir xırda detala vurulurdu. Heyranlığını gizlədə bilməyən qonaq başını bəh-bəhlə tərpədərək fəhmlə dedi:

- Mən əvvəl Bakıda olsam da, yadımda yalnız **“Gülüstan”** sarayı qalıbdır. Qalan tikililər isə demək olar ki, yenidən yaranıbdır və gözəlliyinə görə heç də **“Gülüstan”** sarayından geri qalmırlar.

- Hələ bu harasıdır, - deyə qonağın xoşhal olmasından məmnun olan Vahid canfəşanlıqla dilləndi. - yuxarıda bir-birindən gözəl olan modern tipli binalar var ki, onların hamısı şəhərindən simasına xüsusi gözəllik verirlər.

- Həqiqətən də Bakı postsovet şəhərləri arasında astronomik sürətlə inkişaf etmiş yaşayış məskənidir. – deyə Sergey təqdiredici tərzdə dilləndi.

Onlar söhbət edə-edə gəlib xatirə kompleksinin ərazisinə daxil oldular. Füzuligil ictimai nəqliyyatla gələnləri elə məscidin yanında qarşıladılar.

Mərmər plitələrlə və baş daşıları ilə əhatə olunmuş ziyarətgah sakitliyə qərq olmuşdu. Burada xeyli sayda insan olsa da, demək olar ki, onların heç birisi dinib-danışmırdı.

Füzuli xarakter etibarilə millətçi deyildi, amma vətənpərvər bir döyüşçü kimi, yaşlı olmasına baxmayaraq müharibə yenidən başlansa o, digər silahdaşları kimi növbəti dəfə öz ölkəsinin müstəqilliyi uğrunda canından keçməyə hazır idi. Ona görə də o, ayda ən azı iki dəfə **“Şəhidlər Xiyabanı”**na gedib, orada Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olanların, o cümlədən silahdaşlarının əziz xatirəsini yad edirdi. Vahid isə ayrılmaz bir dost kimi daim həmin missiyalarda onu müşayiət edirdi. Məhz bu səbəbdən xarici ölkələrdən Füzulinin, Kamiln və

ya Vahidin evinə kim qonaq gəlirdisə, onlar ilk növbədə həmin adamı Azərbaycan xalqının başına gətirilən müsibətlə tanış etmək üçün mütləq **"Şəhidlər Xiyabanı"**na aparırdılar. Hal-hazırda belə bir ənənəni bir çox müharibə veteranları da davam etdirirdilər.

Ziyarətçilər şəhidlərin uyuduğu müqəddəs ziyarətgaha gəlib **"20-si yanvar"** qurbanlarının məzarı üzərində olan şəkillərə baxa-baxa əbədi məşələ tərəf gedirdilər. Rus alimi həddi-buluğa çatmayan Svetlananın, İlqarın, gözləri tutulmuş Yuranın və digərlərinin məzarlarının yanından ötəndə dəhşətə gəlirdi. Axı, həmin qurbanlar sovet hərb maşınına müqavimət göstərən inqilabçılara oxşamır və onları necə amansızcasına qətlə yetirmək olardı?

Onlar əbədi məşəlin yanından ötüb meydançanın cənub kənarına çatdılar və oradan Xəzər dənizinə və Bulvar sahil zolağına baxmağa başladılar. Bir qədər keçəndən sonra Füzuli dərindən köksünü ötürüb ehtiramla dedi:

- Əziz dost, bu qurbanların əksəriyyəti barrikadalarda yox, tamamilə başqa-başqa yerlərdə öldürülüblər. Meyidlər nəzərdən keçiriləndə məlum olub ki, onların tam əksəriyyəti arxadan, ən azı üç-dörd güllə ilə qətlə yetiriliblər.

- İş ondadır ki, həmin gün mülkü azərbaycanlılara qarşı əsl cinayət törədilmişdi. – deyə Abram hüznlə əlavə etdi. - Ona görə ki, yanvarın 19-da axşam vaxtı Bakıya yeridilən

“rezervistlərin” 50 faizdən çoxu Rusiya ərazisində yaşayan ermənilər idi. Bax, 1941-1945-ci illərdə Alman faşistləri ilə gedən Böyük Vətən müharibəsində Sovet İttifaqı Bakı neftindən gen-bol istifadə edərək, düşmən üzərində qələbə qazanmağa nail olmuşdu. Həmin triumfal qələbənin üstündən 45 il keçəndən sonra SSRİ Siyasi Bürosunun üzvləri öz minnətdarlığını Azərbaycan xalqına belə bir çirkin şəkildə bildirdilər.

- İnana bilmirəm ki, Qorbaçov belə bir qətliamın baş verməsi üçün fərman imzalayıbdır. – deyə gördüklərindən vəcdə gələn rus qonaq həqarətlə dilləndi. – Qeyrəti olan rəhbər şəxs öz xalqının başına belə bir müsibət açmamalı idi.

- Bütün bu faciəli olayların ssenarisini Aqambekyan və Zori Balayanın iştirakı ilə Şaxnazaryan qurmuş, Raisa bəyənmiş, Qorbaçov isə təsdiqləmişdi. – deyə Kamil qalın səsi ilə həqarətlə dilləndi, sonra isə o, dayanıb sol əli ilə yeri göstərib məyus halda sözünə əlavə etdi. – Sergey Vladimiroviç, hələ 1918-ci ildə ermənilərlə bolşeviklərin qətlə yetirdikləri on minlərlə insan dayandığımız bu yerdə kütləvi məzarlıqda dəfn edilmiş və bu hadisələri millətə unutmaq üçün Semyon Kirovun heykəlini ucaltmışdılar.

Bəli, bəli, həmin dövrdə Bakıda əsl soyqırım törədilmişdi. 1918-ci il martın 30-dan aprelin 1-nə kimi bolşevik

qiyafəsinə bürünən ermənilər Sovet Rusiyasının hərbi yardımı ilə Bakıda soyqırımı törədərək 15 min nəfər azərbaycanlını xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirdilər.

- Həmin illərdə bolşeviklər hakimiyyətlərini qurmaq üçün hər bir ucqar bölgələrə öz casuslarını və ya emissarlarını göndərirdilər. – Sergey xatırlatma verdi.

- Bu vəhşiliklər haqqında həmin zamanlarda çıxmış qəzetlərdə də bildirilmişdir. – deyə vicdanlı vətəndaş kimi gələn qonağı məlumatlandırmağı özünə borc bilən Vahid ürəkyanğısı ilə dilləndi. – 25-i noyabr 1918-ci ildə çıxmış **”Qruziya”** qəzetində bildirilirdi ki, “erməni əsgərləri hamilə müsəlman qadınlarının qarnını yararaq, bətnində formalaşmış uşağı çıxararaq onun başını kəsirdilər və bunlara aid foto şəkillərini də yayımlamışdılar”. 4-ü aprel 1918-ci ildə **“Naş Qolos”** qəzetində isə yazılmışdır ki, ”hər yerdə meyitlər, qıc olmuş, eybəcər hala salınmış, yandırılmış meyitlər: kişi, qadın və uşaq meyitləri”.

- Bu haqda mən dürüst olmayan məlumatlara malikəm. – deyə təəssüfünü gizlətməyən qonaq hüznlə dilləndi. – Həmin hadisələri tarixə erməni-azərbaycanlı münaqişəsi kimi salmağa çalışıblar.

- Düz deyirsiniz, pula görə öz vicdanını satan bəzi alimlər Azərbaycan xalqının başına gətirilən faciəni, siz dediyiniz kimi qələmə verməyə çalışıblar. – yaşlı veteran

daxilində yaranan hirsini birtəhər dəf edə-edə kədərlə dilləndi. – Hətta onlar ermənilərin istəyinə uyğun olaraq bir neçə kitab da buraxmağa müvəffəq olublar. Əslində isə həqiqəti arxiv sənədlər söylədi.

- Xatırlatma verim ki, Bakı qırğınına qədər martın 18-i 1918-ci ildə 20 minlik erməni-bolşevik silahlı qüvvələri Şamaxıya daxil oldular və dinc əhaliyə divan tutdular. Onlar insanlara işgəncələr verirdilər. – deyə Abram söhbətə müdaxilə etdi. - Ermənilər qadınların döşlərini kəsərək və ya qarınlarını deşik-deşik edərək qətlə yetirirdilər və onların cəsədləri küçələrdə yatırdı. Əmirovun əlaltısı olan Lalayevin əsgərləri şəhərdə evlərə soxulmuş, tar-marla məşğul olmuş, yüzlərcə qoca və körpələri qırmışdılar. Məscidə yığdıqları insanları diri-diri yandırmışdılar. Həmin hadisələrdə Şamaxının 58 kəndi xarabazara çevrilmiş, 12 min nəfər insan öldürülmüş, Quba qəzasında isə müsəlmanların yaşadığı 122 kənd yandırılmış və dağıdılmışdır. Bu kəndlərdə ermənilərin keçirdikləri əməliyyatlar faciəvi miqyasına görə dünya tarixinin ən amansız hadisələrindən olmuşdur.

Abramın sözləri qonağı fikirə saldı. Ona görə ki, bu ifadələrin kökündə həqiqət dururdu. Sergey bacardıq qədər öz emosiyalarını saxlamağa çalışırdı. Axı, necə olsa da onun qonşuluğunda yaşayan “qaçqın” statusu almış

ermənilərin cəfəngiyyat dolu uydurmaları elə aşılanmışdı ki, onlarla ünsiyyətdə olan hər bir kəs azərbaycanlıların vəhşi, vandal və barbar olduqlarını zənn edərdi. Eduardgil ilk dəfə onunla ünsiyyət yaradandan sonra alim öz dost-tanışlarına və həmkarlarına birmənalı şəkildə bəyan etmişdi ki, onlar həyatlarını təhlükə altında qoymasınlar deyə, Azərbaycana səfər etməkdən boyun qaçırsınlar. Azərbaycanlıların etmədikləri cinayətlər barəsində məqalələr yazılıb qəzetlərdə dərc olunur, həmin hadisələri ziyalıların iştirakı ilə dəyirmi masa ətrafında müzakirə edirdilər. Müzakirə vaxtı kimsə irad bildirəndə dərhal həmin şəxs iştirakçıların tənqidinə tuş gəlirdi. Lakin gec olsa da həqiqət üzə çıxdı və Sergey bundan sonra hansı mövqe tutacağını özü üçün müəyyənləşdirdi.

Bir tarixçi kimi burada xeyli məlumat toplayan Sergey anladı ki, haqq azərbaycanlıların tərəfindədir, lakin informasiya maşınından istifadə edən ermənilər və onların havadarları, hərtərəfli olaraq, on minlərlə şəhid vermiş əzilmiş xalqı dünya ictimaiyyətinin gözündən salmağa çalışırlar.

**“Şəhidlər Xiyabanı”**ndan sonra ağır xəyallara dalan Sergey şəhər gəzintisinə çıxdı və onu demək olar ki, Bakının ən görməli yerlərinə apardılar. Tarixçi pedaqoqun ilk dəfə Bakıda olması ilə indikində xeyli fərq var idi. Şəhər

qısa müddət ərzində astronomik surətdə yaxşılığa doğru inkişaf etmiş və gözəlliyinə görə postsovet məkanında əksər şəhərləri arxada qoymuşdu. Sergey inana bilmirdi ki, bu əvvəlki Bakıdır.

## XIII fəsil. Müharibə dəhşətlərinin zavallı şahidləri

**“Eurovision”** yarışmasının finalı başa çatan günün səhərisi, Sergey gələcək işlərinə kömək olacaq bir faktı da öz gözü ilə görmək üçün, rayonların birində yerləşən çadır şəhərçiyinə getmək istəyini bildirdi. Şəhərdəki qaçqınların günü-güzaranı ona bəlli idi, lakin rayonlarda sığınacaq tapan qaçqınların həyatının necə olması rus pedaqoqunu bərk maraqlandırırdı. Çünki şəhər kommunikasiyaları ilə rayondakı şəraitlər bir-birindən kəskin surətdə fərqlənirdi.

Abram rus dostunun fikrini o dəqiqə başa düşdü. Qaçqın statusu almış Mariz ilə İlqar Əvəzin qardaşları idi və onlar düşdükləri acınacaqlı vəziyyəti istədikləri şəkildə rus qonağına çatdırmaq üçün müəyyən bir şou qura bilərdilər.

Ona görə ki, Sergey belə bir şou ilə Eduardın timsalında Sankt-Peterburqda üzləşmişdi. Hazırkı durumda onu ucqar rayonlarda və ya qəsəbələrdə yerləşən qaçqınların durumu maraqlandırdığından rayonların birinə getmək istədiyini bildirdi.

Bu dəfə Sergeyi bölgəyə Heydər ilə Vahid Abramın maşınında müşayiət etməliydilər. Kamil ilə Füzuli işlərindən ayrıla bilmədikləri üçün nəzərdə tutulan səfərdə iştirak edə bilmədilər.

Seçim qonağın elə öz öhdəsinə verildi. O, hansı rayonu istəsə idi, Abram da maşını ora sürməli idi. Sergey Gəncə yaxınlığında yerləşən qaçqın şəhərciyini seçdi.

Təsadüfdən, yoxsa zərurətdənmi həmin yer seçilmişdi. İş ondadır ki, orada məskunlaşan qaçqınlar əsl soyqırımı öz üzərlərində görmüş və ermənilərin Afrikadakı ölü cəsədi yeyən kaftarlardan və çaqqallardan da amansız yırtıcı olduqlarının şahidi olmuşdular.

Qonaqlar qaçqınların ərazisinə daxil olan kimi onları şəhərciyin komendantı qarşıladı və biləndə ki, gələnlər kimlərdir, tanıtım mərasiminə başladılar. Qaçqınların baraklarda, çadırlarda, fanerlə düzəldilmiş komalarda, köhnəlmiş avtobuslarda, sınıq-salxaq evlərdə, divarları paslanmış vaqonlarda yaşamaları Sergeyi şok vəziyyətinə saldı.

Əvəz Laçın qaçqınları ilə görüşən zaman orada əyani surətdə tanıdığı, 2 il erməni əsirliyində olan Yeganə və Müşfiq Əliyevlər bacı qardaşı gördü və tərəddüd etmədən qonaqlarla birlikdə onlara yaxınlaşdı. Peşəkar həkim qonağın kimliyini qaçqınlara izah edən kimi, əsirlikdə onların başına gələn müsibətlərin bəzi epizodlarını danışmağı xahiş etdi. Xatirələr acı olsa da, yaşı otuzu keçmiş xanım dedi:

- Biz, ermənilərin işğal etdikləri Laçından Kəlbəcərə gələndə orada əsir düşdük. 30 nəfərin mindiyi "Kamaz" güllləbaran edildi, anamı, atamı və digər qohumlarımı öldürdülər. Mən və qardaşlarım isə ağır yarlandıq. Mənə 8 güllə dəymişdi. Ermənilər (aralarında bir qadın da var idi) mənim və o biri yaralıların saçından tutaraq "KamAZ"dan yerə atdılar. 11 yaşlı balaca qardaşım yaralansa da, hələ sağ idi. Onu erməni əsgərləri təpiklə döydülər, sonra da "KamAZ"a atıb diri-diri yandırdılar. Digər qardaşım Müşfiq ayağından yaralanmışdı. Bizimlə bərabər, Səma adlı bir hamilə qadın və onun 2 balaca qızı da yaralı idi. Ermənilər onu qarnından gülləylə vurmuşdular. Bir "KamAZ" adamdan cəmi 5 nəfər sağ qalmışdıq. Bizi bir maşına "yığıb" Ağdərəyə apardılar və orada qarın üstünə yerə atdılar.

Səmanın 3 yaşlı qızı da ağır yaralı idi, güllə sinəsinə dəymişdi. Ermənilər onu zibil vedrəsinə atdılar. Bizi acsusuz, yaralı halda bir neçə gün saxladılar. Erməni əsgərləri

bizi döyür, təhqir edirdilər. Bizi Xankəndinə apardılar. Yolda meşədə bir hərbi hissədə çoxlu rus gördüm və oradakı tibb bacılarının əksəriyyəti ruslar idi. Xankəndidə 100-dən çox əsir uşaq gördüm. Orada 15 yaşlı qardaşım Müşfiqi tapdım.

İşgəncələr zamanı şikəst olan Müşfiq axsaq ayağını salamat ayağının üstünə qoyub hüznlə dedi:

- Ayağımın yarasından qan axırdı. Qanı kəsmək üçün buz kimi soyuq suyu yaramın üstünə tökürdülər. Bizə tək erməni əsgərləri yox, "həkimlər" də işgəncələr verirdi. Bir gün yanıma əlində qayçı olan başqa bir "həkim" gəldi. Tibb bacıları tərpənməyim deyə, qollarımdan tutdular. Keyidici, ağrıkəsici olmadan "həkim" yara olan ayağımın ətini doğramağa başladı. Ağrıdan qışqıranda isə məni möhkəm döyür və nəfəsim kəsilənədək boğurdu. Beləcə ayağımın ətini doğrayıb sümüyümə keçdi. Sümüyümü sındırıb hissə-hissə qoparırdı. İndi də ayağımdakı sümük 5 santimetr əskikdir. – Müşfiq sübut üçün şalvarının balağını qaldırıb ayağını qonaqlara göstərdi və həmin an sözünə davam etdi.
- Sümüyümü qoparandan sonra iynəylə ətimi tikdi. Yaralı vəziyyətdə ermənilər gəlib məni və başqa yaralı əsirləri işlətmək üçün aparırdılar. Yaram çox pis idi, çirk verirdi. İşləyə bilməyəndə döyürdülər, ona görə də məcbur qalıb odun daşımağa başladım.

Əsirləri sırayla düzüb sonra təlim keçmiş itləri onların üstünə buraxırdılar. İtlər onları parça-parça edirdi. Əsirləri döyür, ən ağır işləri gördürür, işgəncələr verirdilər. Bəziləri dözmür özlərini elektrik cərəyanına verərək öldürürdülər.

Yeganə qardaşının qəhər boğduğunu görüb ürəkağrisi ilə dedi:

- Bir dəfə 2 əsirin ayağından asıb, altında tonqal qaladılar. Onları diri-diri yandırdılar.

İşgəncləri seyr etmək üçün mülki ermənilər də gəlirdilər. Əsirləri erməni evlərində boğazlarına ip bağlayıb it yerinə saxlayırdılar. Harasa işlətməyə aparanda da boğazlarındakı ipdən tuturdular.

Bacı ilə qardaşın başlarına gələn ətürpədici hadisələri danışması Sergeyə təsir etməyə bilməzdi. O, hələ də inana bilmirdi ki, bütün bu insana sığmayan qətllər və işgəncələr yaxın keçmişdə, özü də SSRİ-nin tərkibində olan müttəfiq respublikaların birində baş vermişdi.

Heydər belə bir səhnələrə öyrəşsə də o, da yenidən eşitdiyi ifadələrə və gördüklərinə rahat göz yuma bilmirdi. Onların yanına qulaqları kəsilmiş daha bir ortayaşlı qadınla ağsaq vəziyyətdə olan gənc oğlan yaxınlaşdı və keçmiş döyüşçü fürsətdən istifadə edərək, əli ilə şikəst oğlanı göstərib hüznlə dedi:

- Sergey Vladimiroviç, bu oğlan Şövqi Əliyevdir, əsirlikdə olan zaman onun üç yaşı vardı. "Həsrət Yolu" Əsir və Girovlara Kömək İctimai Birliyin sədri Esmira Orucovanın araşdırmalarına görə, Şövqinin bazu sümüyü Xankəndində erməni həkimləri tərəfindən çıxarılmış, nəticədə isə Şövqi ömürlük şikəst qalıbdır. – Füzuli ara vermədən qadını göstərərək həmin tərzdə sözünə davam etdi. – İnsanlığa sığmayan müdhiş hadisələr zamanı isə Nəzakət Məmmədovanın 15 yaşı vardı. Ermənilər onun qulaqlarını kəsmişdilər. Balasının dərdinə və əzablarına tab gətirməyən ana bunlara dözməyərək dəli olmuşdu. Qızın özünü isə sonradan dörd milyon rubla ailəsinə satıblar.

Əziz qonaq, belə çıxır ki, biz müsəlman olduğumuz üçün avropalı hüquq müdafiəçiləri bu cinayətlərə arxa çevirməlidirlər?

- Mən də anlaya bilmirəm ki, Azərbaycan ərazisində yerli əhaliyə qarşı soyqırım xarakterli bir cinayət törədilibsə, dünya birliyi nəyə görə susmağa üstünlük verir? – deyə özünü halsız hiss edən qonaq çaşqınlıqla dilləndi.

Bir neçə dəqiqə ərzində qonağın yanına daha bir neçə şikəst adam gəlib onu salamladılar. Gələnlərin bəzilərinin ayaq, əl barmaqları, biləyi kəsilmiş, bəzilərinin sinəsinə, kürəyinə, alnına xaç damğası vurulmuş, bəzilərinin isə bir gözü çıxarılmış, burnu və ya qulağı kəsilmiş, avtomat

qundağı ilə endirilən zərbələrdən sifət quruluşu deformasiyaya uğramışdı. Onlar da dərdlərini rus qonağı ilə bölüşmək fikirində idilər.

Sergey hamısını da olmasa, lakin onların bir çoxlarını dinləməli oldu və mənəvi cəhətcə sarsılaraq özünü pis hiss etməyə başladı. Rus pedaqoqunun halı pisləşən zaman onun yanına yenə də bir neçə qaçqın gəldi. Dəhşətdən pedaqoqun az qala ürəyi dayanacaqdı.

Bütün eşitdikləri tarixçi pedaqoq üçün dəhşətli yuxu kimi görünürdü. Ona elə gəldi ki, sadəcə laraq adamlar ərz etdikləri hadisələrin tarixini səhv salırlar – yəni, həmin dəhşətli hadisələr indi yox, qırx il bundan əvvəl alman nasistləri tərəfindən törədilibdir.

Saat yarımlıq dinləmələrdən sonra Bakıdan gələnlər gəldikləri istiqamətdə geri qayıtmağı qərara aldılar. Çadır şəhərciyindəki görüntülər Sergeyi həddindən artıq sarsıtdığından o, demək olar ki, dinib-danışmırdı. Lakin buna baxmayaraq o, daxilində nəsə götür-qoy edərək, Qarabağda baş verən dəhşətli hadisələrin məğzini anlamağa çalışırdı. Maşının istiqaməti Yevlax rayonuna tuşlananda tarixçi pedaqoq dil açıb danışmağa qərar verdi. O, qabaqda əyləşdiyindən başını sol tərəfə yanakı çevirib həqarətlə dedi:

- Hələ də anlaya bilmirəm ki, müasir informasiya texnologiyasının inkişaf etdiyi bir dövrdə, Haaqa hərbi

tribunalının fəaliyyəti zamanı belə bir cinayətlər necə baş verə bilər və bütün bulara necə reaksiya verməmək olar? Axı, 1946-cı ildəki Nürnberq prosesi göstərdi ki, insanlığa qarşı kim cinayət törədibsə, həmin kəs mütləq şəkildə öz cəzasına, o cümlədən edam olunacaq. Bildiyimiz kimi həmin prosesdə böyük hegemon dövlət sayılan faşist Almaniyasının siyasi və hərbi rəhbərliyi ən layiqli cəzalarını almışdılar.

Keçmiş Yuqoslaviyanın ərazisində baş verən soyqırıma görə Miloşeviç, Qaraciç və ölkənin bir çox siyasi və dövlət xadimləri Haaqa hərbi tribunalının hökmü ilə məsulyyətə cəlb olundular.

Məgər, Ermənistan rəhbərliyi bütün bunları unudubdur? Mənə bəlli oldu ki, vaxtilə İrandan və Türkiyədən qaçan ermənilər gəlib Azərbaycanda məskunlaşıblar, onlar isə özlərini belə bir barbar şəkildə aparırlar.

Heydər o dəqiqə tarixçi pedaqoqun nə istədiyini anladı. Sergey ifadəsini tamamlayan kimi o, ürək ağrısı ilə dedi:

- Sergey Vladimiroviç, əlləri minlərlə dinc insanın qanına bulaşmış goreşən Köçəryan, Sərkisyan, Balayan və digər qatillər isə dünyanın hansı ölkəsinə istəyirlər, ora da gedirlər.

Ermənilər bu torpağa qədəm qoyduqdan bəri bizimkilərə yalnız düşmən gözü ilə baxmış və bir qədər keçəndən sonra

başladılar xalqımıza qarşı terror aktları həyata keçirməyə - evlər sakinlər qarşı yandırılır, gəmi, təyyarələr, helikopterlər, sərnişin qatarları və avtobuslar, metrostansiya partladılır. İş ondadır ki, bütün bu hadisələr atəşkəsdən sonra baş verir. Atəşkəsə qədər isə on minlərlə mülki əhali insanlığa sığmayan ən qəddar üsullarla qətlə yetirilmişdir.

- 1988-ci ildə Ermənistanda baş verən zəlzələyə köməyə gedən 78 nəfər azərbaycanlı ermənilər tərəfindən vurularaq partladılan təyyarədə həlak olur və yalnız bir nəfər möcüzə nəticəsində sağ qalmışdır. – deyə Abram bu faktı xüsusilə vurğuladı. – Göründüyü kimi onlar yaxşılıq belə qanmayan bir tayfadır.

## XIV fəsil. Qətliamların başında erməni ziyalıları durur

Maşındakıların sadaladıqları terror siyahısı həddindən artıq uzun idi. Bütün bu faktlar və rəqəmlər rus alimi üçün dəhşətli yuxu kimi görünürdü. O, bu məsələ ilə bağlı müstəqil araşdırma aparmasa heç cürə yekun qənaətə gələ bilməyəcəkdi. Bir millətin digər millətin başına bu

dərəcədə müsibət açması, mütəmadi olaraq dinc sakinlərə qarşı terror aktlarını həyata keçirməsi və bütün bu cinayətlərin fonunda dünya ictimaiyyətinin susması Sergey üçün qaranlıq göründü. O, düşünmək üçün bir qədər fasilə verməli oldu.

Yolçular yolüstü Bərdə rayonunun ərazisində yerləşən iki böyük çadır şəhərciyinin sərhədinə yaxınlaşıb, qaçqınları yalnız kənardan seyr etməklə müşahidə edilər. Sergeyə aydın oldu ki, həqiqətən də Azərbaycanın rayonları çadır şəhərcikləri ilə doludur və orada, öz dədə-baba torpaqlarından qovulmuş yüz minlərlə insan müvəqqəti sığınıblar. Lakin bu müvəqqəti sığınmaq iyirmi il idi ki, davam edirdi.

Onlar bir saatdan artıq idi ki, dayanmadan yol gedirdilər. Yolçular Gəncəni tərk etməmişdən əvvəl hələ səhər tezdən nahar yeməyini yemişdilər. Yaşlı müharibə veteranı qonağın acıdığını hiss etdi və günorta yeməyinin vaxtı çatdığını görüb Abrama bildirdi ki, maşını Kür çayı sahilinin kənarında yerləşən "Kür" kafesində saxlasın. Həqiqətən də Yevlax şəhəri yaxınlığında adı çəkilən kafe yerləşirdi və sürücü çox keçmədən idarə etdiyi maşınını deyilən ünvana çatdırdı.

Yolçular iki hündür söyüdün altında yer tutan kimi dərhal lülə, tikə kababları və buğlama sifariş etdilər. Spirtli içki isə yalnız rus qonağı ilə Abrama gətizdirildi.

Qaçqın düşərgəsində gördüklərindən və maşında eşitdiklərindən gərgin psixoloji stress keçirən Sergey çörək yemədən bir badə araq işərək, masadakı təamlardan dadmağa başladı.

Yolçular günorta yeməyini yeyən kimi həmin an süfrəyə çiyələk mürəbbəsi ilə pürrəngi çay gətizdirildi. Tarixçi pedaqoq çaydan bir-iki qurtum içən kimi gözlərini həmsöhbətlərinə tərəf yönəldərək əsəbi halda dedi:

- Hələ də anlaya bilmirəm, belə bir çirkin siyasətlə ermənilər nəyə nail olmaq istəyirlər? Onların ziyalıları, yaradıcı insanları bu haqda nə fikirləşirlər?

- İş ondadır ki, bütün bu yırtıcıların, qatillərin, vəhşilərin başında duran, onlara istiqamət verən ermənilərin elə dırnaqarası sayılan ziyalılarıdır. – deyə həmin suallara məmnuniyyətlə cavab verməyə hazır olan Heydər tələsik halda dilləndi. - Akademik Aqambekyan öz məkrli siyasətini işə salmaqla, daha doğrusu Mixail Qorbaçovun və onun ermənipərəst arvadı Raisanın qılığına girərək, mehribançılıq şəraitində yaşayan iki qonşu millətin arasındakı sülhü ləğv edir və nəticədə onlara daim arxa duran azərbaycanlıların qanını axıdaraq, bəşər övladının ağlına gəlməyən bir vəhşilikləri həyata keçirdilər. Özünü şair kimi qələmə verən, humanist hisslərdən heç bir əsər-əlamət olmayan

Silva Kaputikyan hərtərəfli olaraq, rus ziyalılarını bizim üstümüzə qızışdırırdı.

- Sergey Vladimiroviç, vampir kimi qaniçən olan erməni yazıçısı Zori Balayanın 13 yaşlı uşağın diri-diri dərisini soyması, bundan həzz alması, özünün bunları etiraf edib kitabına daxil etməsi, erməni həyasızlığın, cəzasılığın ən bariz nümunəsidir. – deyə Vahid səsinin tonunu aşağı salmadan nifrət hissi ilə dilləndi. - Ermənilər Xocalıda uşaqlara qarşı etdikləri vəhşilikləri özləri də etiraf ediblər. Zori Balayanın 1996-cı ildə yazmış olduğu **“Ruhumuzun dirilməsi”** kitabının 260-262-ci səhifələrində qeyd olunub: “…Mən və Xaçatur onların saxlandığı zirzəmiyə daxil olanda artıq əsgərlərimiz bir uşağı pəncərənin çərçivəsinə tikmişdilər. Onun çox səs-küy etməməsi üçün ölmüş anasının döşünü kəsib ağzına soxmuşdular. Sonra mən 13 yaşlı bir türkün baş, sinə və qarnından dərisini qopardım.

Təxminən yeddi dəqiqədən sonra uşaq qan itkisindən öldü. Mən birinci dərəcəli həkim kimi humanistəm, ona görə də uşağın başına gətirdiyim zülmlərdən xoşbəxtlik hiss eləmirdim. Lakin daxilən sevinirdim… Xaçatur uşağın cəsədini tikə-tikə doğradı və itlərə yem kimi atdı. Həmin axşam biz daha üç türk törəməsinin başına həmin oyunu açdıq. Mən patriot, vətəndaş, erməni borcunu yerinə yetirirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr

duyacaq". O, bütün bunları heç bir mühakimədən çəkinmədən öz cəlladlığını nümayiş etdiribdir.

Abram dostunun sualedici nəzərlərini öz üzərində hiss edən kimi - "bu əsl həqiqətdir" deyərək, təqdiredici tərzdə başını yellətdi. Fasilənin yaranmasına imkan verməyən Heydər qaşlarını alnının üstündə sıxaraq hiddətlə əlavə etdi. O, dedi:

- Belə bir faşist etiraflardan sonra həmin qaniçən Parisdə, Marseldə, Afinada, Nyu-Yorkda, Los-Ancelosda, Moskvada və Rusiyanın digər şəhərlərində mötəbər kuluarlarda yüksək vəzifəli şəxslərlə, özünü tanınmış ziyalı kimi göstərən vicdanı olmayan, mənliyini ermənilərin verdikləri pula satan əqidəsiz ünsürlərlə görüşlər keçirir. Deməli, bizim millətin amansızcasına qırılmasında həmin üzdəniraq adamların maraqları var.

Hər kəsin qabağında çay olsa da diskussiya gedən ərəfədə heç kim əlinə stəkan alıb çay içməyə macal tapmırdı. İşi belə görən Abram çay içmək üçün bir qədər fasilə verməyi təklif etdi. Lakin rus qonağı qəti olaraq buna etiraz etdi və qarşısındakı hazır çayı içə-içə verilən məlumatların ardına qulaq asmağa başladı. Arada yaranan qısa fasilədən istifadə edən Vahid heç kimə imkan vermədən aludəliklə dedi:

- Daha bir erməni, hazirda Livanda yaşayan yazıçı-jurnalist David Xerdiyan Xocalıda onların bizimkilərin başına gətirdikləri müsibətləri **“Xaç uğrunda”** kitabında fəxrlə xatırlayır. Kitabın 26-63-cü səhifələrində Xocalı soyqırımından yazır: “Səhərin soyuğunda biz Daşbulaq yaxınlığındakı bataqlıqdan keçmək üçün ölülərdən körpü düzəltməli olduq. Mən ölülərin üstünə getmək istəmədim. Bunu görən podpolkovnik Ohanyan mənə işarə etdi ki, qorxmayın. Mən ayağımı 9-11 yaşlı qız meyidinin sinəsinə basıb addımlamağa başladım. Mənim ayaqlarım və şalvarım qan içində idi. Və mən beləcə 1200 meyidin üstündən keçdim...”

“Martın 2-də *“Qaflan”* erməni qrupu (meyitləri yandırmaqla məşğul olurdu) 2000-ə yaxın alçaq monqolun (türklərin) cəsədlərini toplayıb ayrı-ayrı hissələrlə Xocalının 1 km-liyində yandırdı. Axırıncı yük maşınında mən başından və qollarından yaralanmış təxminən 10 yaşlı bir qız uşağını gördüm. Diqqətlə baxanda gördüm ki, o yavaş-yavaş nəfəs alır. Soyuq, aclıq və ağır yaralanmasına baxmayaraq, o hələ də sağ idi. Ölümlə mübarizə aparan bu uşağın gözlərini mən heç vaxt yaddan çıxarmayacam. Sonra Tiqranyan familiyalı bir əsgər onun qulaqlarından tutub artıq üzərinə mazut tökülmüş cəsədlərin içərisinə atdı. Daha sonra onları yandırdılar. Tonqaldan ağlamaq və imdad səsləri gəlirdi”.

Demək istəyirəm ki, bu yırtıcılara xarakterik olan bir xüsusiyyətdir.

- Mən, dəhşətə gəlirəm, bütün bu vəhşilikləri özlərini yazıq aparan ermənilər törədiblər? – deyə hərəkətsiz qalan qonaq sağ əli ilə sifətinin bir hissəsini tutdu və həmsöhbətinə sualedici nəzər salaraq əsəbi haldta sözünə davam etdi. – Həmin Balayan, elə Aqambekyanla, Kaputikyan nə murdar insanlar imiş? Onların hamısı iki millət arasına nifaq saldıqları üçün ədalət məhkəməsində mühakimə olunmalıdırlar. Sizin söylədiyiniz həqiqətdir, yoxsa..? - vəcdə gələn qonaq sözünü yarımçıq qoydu və çiyinlərini çəkərək həmsöhbətindən cavab gözlədi.

- Sergey Vladimiroviç, bunu sübuta yetirmək üçün bütün faktlar beynəlxalq təşkilatlara göndərilməsini biz sizə vurğulamışıq. - deyə əsəblərini birtəhər daxilində boğan Heydər təşəxxüslə dilləndi. - Təəssüflər olsun ki, hüquqi, qanunverici, icraedici sayılan həmin nüfuzlu təşkilalar ermənilərin bu vəhşiliklərinə, insanlığa sığmayan yırtıcı siyasətinə göz yumur.

- Sergey Vladimiroviç, siz Sankt-Peterburqa gedəndə mən, əcnəbi alimlərin bu məsələ ilə bağlı yazdıqları araşdırma kitablarını hədiyyə edəcəm. – deyə Vahid ehtiramla dilləndi. - Onda bilərsiniz ki, bu hadisələrdə kim haqq, kim nahaqdır.

- İnana bilmirəm ki, bütün bu vəhşiliklərin başında Ermənistanın rəsmiləri və tanınmış ziyalıları dururlar.

- Əziz qonaq, istəsəniz hələ bir neçə dənə də istintaqı başa çatmış cinayələrdən sadalaya bilərəm. – deyə erməni terrorunun bir çox epizodlarını öz beyninə həkk etmiş Heydər təmkinlə dilləndi. - 1994-cü il iyulun 3-də Bakı metrosunun ***"28 may"*** və ***"Gənclik"*** stansiyaları arasında 13 nəfərin ölümü, 42 nəfərin yaralanması ilə nəticələnən terror aktı Ermənistan xüsusi xidmət orqanları tərəfindən təşkil edilmişdir. Bu məqsədlə Qarabağ uğrunda gedən döyüşlər zamanı əsir düşmüş Azər Aslanovun anasını aldadıb Yerevana çağırmış, oradan Azərbaycanın işğal olunmuş ərazilərinə apararaq girov saxlayıb və əsiri həmin cinayəti törətməyə sövq etmişlər. Bu fakt erməni millətçi-separatçı ekstremizminin əsas ideoloqlarından biri, hazırda İnterpol xətti ilə axtarışda olan Zori Balayanın **"Cəhənnəm və cənnət arasında"** kitabında öz əksini tapmışdır.

İstintaq və məhkəmə prosesində sübuta yetirilmişdir ki, Azər Aslanovun terrorçu kimi hazırlanmasının "ideoloji təminatında" Zori Balayanın və Dağlıq Qarabağ erməni separatçılarının lideri olmuş, Ermənistan Respublikasının eks-prezidenti Robert Köçəryanın iştirakı olmuşdur.

- Xüsusilə də bir faktı qeyd etmək lap yerinə düşərdi. – deyə Vahid fikrini tamamlamaq üçün yenidən dilləndi. -

Fransada terror aktları törətdiyinə görə həbs edilmiş ABŞ vətəndaşı, tanınmış beynəlxalq terrorçu Monte Melkonyan azad olduqdan sonra 1990-cı ildə Ermənistandan Dağlıq Qarabağa göndərilərək azərbaycanlıları öz torpaqlarından məcburi köçkün vəziyyətinə salmış terrorçu qruplara rəhbərlik etmişdir. 1993-cü ilin yayında Azərbaycan qoşun hissələri tərəfindən məhv edilmiş Monte Melkonyanın İrəvanda dəfn mərasimində prezident daxil olmaqla Ermənistanın dövlət rəsmiləri iştirak etmiş, sonra bu beynəlxalq terrorçu Ermənistanın milli qəhrəmanı elan olunmuş, onun adı ER Müdafiə nazirliyinin diversiya mərkəzlərindən birinə verilmişdir.

- Robert Köçəryan hakimiyyətə gəldikdən sonra Ermənistanda terrorçu qrupların rəhbərlərinin reabilitasiyası halları daha da artmışdır. – deyə Heydər cəbhəçi yoldaşına dəstək olmaq üçün səbirsizliklə dilləndi. - Tanınmış terrorçu, İran vətəndaşı Qrant Markaryan həbsdən azad edilərək, Azərbaycana qarşı terror aktlarının keçirilməsində fəal iştirakına görə 1981-ci ildə Parisdə türk səfirliyinin zəbtinin təşkilatçılarından biri Vazgen Sislyanla birgə Robert Köçəryan tərəfindən Qarabağ müharibəsinin qəhrəmanı adına layiq görülmüşlər. Bütün bunlar Ermənistan rəhbərliyinin Azərbaycana qarşı terror aktlarının təşkilində bilavasitə iştirakını bir daha təsdiq edir. Əslində Ermənis-

tanın hazırkı rəhbərləri: Eks-prezident Robert Köçəryan, keçmiş müdafiə naziri, indi isə prezident olan Serj Sarkisyan və Dağlıq Qarabağdakı işğalçı-separatçı rejimin rəhbəri Arkadi Qukasyan terrorçularla sıx əlaqədə olduqlarını gizlətmirlər.

Maşına getmək üçün vaxtın çatdığını görən Abram əlindəki boş stəkanı nəlbəkiyə qoyub ciddi halda dedi:

- Əziz dostum, Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinin "sərhəd"i hazırda Ermənistanın silahlı qüvvələri tərəfindən qorunur, bu ölkədən olan çağırışçılar hərbi xidmət keçmək üçün həmin ərazilərdəki hərbi hissələrə göndərilir. Həmçinin hazırda işğal olunmuş ərazilərdə Ermənistanın silahlı qüvvələri və terrorçu qruplarla yanaşı, qeyri-qanuni silahlı birləşmələr də fəaliyyət göstərir və bütün bunlar terrorizmə qarşı mübarizə üzrə beynəlxalq konvensiyaların nəzarətindən kənardadır. Bu məsələni xüsusilə diqqətdə saxlamaq lazımdır.

Məhz bundan sonra Sergey Qarabağ, erməni terroru və qaçqınlar problemi ilə bol olan bir çox məlumatlarla təchiz olunaraq, sarsılmış vəziyyətdə maşına tərəf yollandı.

# XV fəsil. Həqiqəti dərk edən rus ziyalısı evində ziyafət təşkil edir

Üç gün ərzində Sergey Azərbaycanı gəzib oradan, ölkə və millət barəsində xoş təəssüratlarla, acınacaqlı tale yaşayan qaçqınlarla bağlı acı xatirələrlə ayrılmışdı. Yelizaveta isə Sankt-Peterburq kimi gözəl şəhərdə yaşamasına baxmayaraq demək olar ki, Bakıya vurulmuşdu. Oradakı insanların mehribançılığı xüsusi olaraq hər iki qonaqda heyrət hissi doğurmuşdu. Lakin bütün bu gözəl ovqata baxmayaraq Sergeyə təsir edən bir amil var idi, o da ki, yüz ildən çox çiyin-çiyinə yaşamış ermənilərlə azərbaycanlıların arasındakı ədavət. Onu bir sual düşündürürdü: həmin millətlər nəyi öz aralarında bölüşdürə bilmirlər? Torpaq iddiasıdırsa, nəyə görə bu məsələ çar Rusiyası dövründə yox, məhz SSRİ dağılan kimi gündəmə gəldi? Alimlik zirvəsinə ucalan Sergey onun şahidi olmuşdu ki, hər şey ermənilərin, xüsusən də erməni diasporasının dediyi kimi mövcud deyil. Onlara nisbətən azərbaycanlılar daha loyal, təmkinli, səbrli, tolerant, sülhpərvər, qonaqpərvər, istiqanlı və düşmənçilik mövqeyindən uzaq olan bir millətdir. Belə bir qonşu ilə sülh və əminamanlıq şəraitində yaşamaq olmaz? Əlbəttə ki, olar! Deməli, onların arasında yaranan

münaqişədə günahı elə ermənilərin özündə axtarmaq lazımdır.

Ermənilər hamıya car çəkirdilər ki, azərbaycanlılar müsəlman və qatı türkçü olduqları üçün erməniləri Qafqazdan didərgin salmaq istəyiblər. Əgər elədirsə, onda həmin müsəlmanlar xristian olan gürcülərlə necə sülh və əmin-amanlıq şəraitində yaşayırlar? Sergey dəqiq bilirdi ki, Azərbaycanda yaşayan gürcülərin sayı, azərbaycanlıların Gürcüstanda yaşayan azərbaycanlıların sayından xeyli azdır, lakin onların arasında heç bir narazılıq yoxdur.

Ortayaşlı pedaqoq evində oturub daim Eduardın azərbaycanlılarla bağlı olan neqativ fikirləri yadına salır və artıq dərk etmişdi ki, bütün bunların hamısı qeyri-obyektiv fikirlər kimi azərbaycanlıları gözdən salmaq xarakteri daşıyırdı. Vaxtilə kömək etdiyi bir insanın onu necə aldatması dekana pis təsir göstərmişdi. Məhz buna görə də onun həmin insana olan münasibəti kəskin surətdə dəyişdi.

Sergeyin səfərdən qayıtması ilə əlaqədar Eduard onu görmək üçün qızları ilə birlikdə dekanın evinə qonaq getməyə hazırlaşırdı. Paralel olaraq, Ermənistanda Robertin, Azərbaycanda isə Nizaminin valideynlərinin Sergeyə etdiyi yaxşılığın əvəzini çıxmaq üçün, o, evində ziyafət təşkil etmişdi. O, Nizamidən çox erməni qaçqını qarşısında "borclu" qalmaq istəmirdi. Səbirsizliyini gizlətməyən ziyalı

ən əsas gördüyü təəssüratlarla və əldə etdiyi bilgiləri bölüşmək üçün Eduradla və onun ailəsilə görüşməyə can atırdı. Sergey gördüyü və eşitdiyi həqiqətləri bəyan etmək üçün həmin ünsürlərlə son dəfə görüşmək istəyirdi. Çox şeylər vardı ki, açılmalı və bir çox mətləblərə aydınlıq gətirilməli idi. Bu gün o, məkrli erməninin yalanlarını üzü-nə vuraraq, həmin vicdanı olmayan adamı ifşa etməliydi.

Dekanın qızı Yelizaveta atasının işlədiyi universitetin filologiya fakültəsinin dördüncü kursunda təhsil alan yaxın rəfiqəsi İrina ilə birlikdə süfrə hazırlayaraq məclisi bir yerdə keçirmək fikirində idilər. Aleksandrın Raisa ilə arasında olan münasibətlərdə soyuqluq yaranandan sonra İrina hərtərəfli olaraq gələcəyin jurnalisti ilə sıx əlaqlər yaratmağa çalışırdı. O, bu işdə yaxın rəfiqəsi olan Yelizavetanın köməyindən də istifadə edirdi. Lakin İrina ilə Aleksandr arasında yaranan belə bir münasibətlərə baxma-yaraq, Raisanın oğlandan əl çəkmək fikiri yox idi. Məhz buna görə də o, qonaqlıq başlamamışdan əvvəl dekanın evinə gəlib, orada müəyyən işlərlə məşğul olmağa başladı.

Bakıda tamtəraqla keçirilən **“Eurovision”**un finalını, aatsı ilə birlikdə, canlı izləmiş Yelizaveta hara gedirdisə, **“Baku Crystal Hall”**un gözəlliyindən, finalın necə yüksək səviyyədə keçirilməsindən, oradakı ab-havadan, tədbirin möhtəşəmliyindən və xüsusən də azərbaycanlıların qonaq-

pərvərliyindən danışırdı. O, demək olar ki, eyforiya içərisində idi və Nizaminin həddindən artıq qabiliyyətli, mədəni olmasından heyrətə gələrək, özündən asılı olmadan həmin oğlana vurulmuşdu.

Nizami əvvəlcədən söz vermişdi ki, qonaqlıq başlamamışdan əvvəl o, gəlib süfrənin hazırlanmasında iştirak edəcək. İş ondadır ki, Sergey tələbəsinin necə dadlı kabab bişirməsinə bələd idi və istəyirdi ki, başqa nemətlərlə yanaşı sügrəyə həm lülə, həm də tikə kabablar da qoyulsun. Bu işdə Nizami yardımçı funksiyasını yerinə yetirməliydi.

Süfrənin bəzədilməsilə bağlı cavanların hərəsi bir işlə məşğul idi. Nizami həyətdə meyvə ağaclarının arasında quraşdırılmış manqalda kababları hazırlayıb masanın üzərinə düzmüşdü. O, müəllimini və onun ailəsini daha da heyrətləndirmək üçün badımcan, pomidor, istiot və kartof kababları da bişirmişdi. Havanın soyuq olmasına baxmayaraq kababın iyi evdəkilərin hamısını həyətə çıxarmışdı.

Nəzərdə tutulan təamlar tam hazır olana qədər Yelizaveta istədiyi oğlandan ayrılmadı. Qız rusların xarakterinə uyğun olaraq müəyyən qədər sərbəst olsa da o, atasının evdə olduğunu nəzərə alıb, Nizamiyə sarılmağı özünə ar bilirdi.

Süfrə hazırlanmasında xüsusi canfəşanlıq göstərən azərbaycanlı tələbə çoban salatı, duzlu kələmi, xiyarı, pomidoru

və göy-göyərtini kababın ətrafına düzüb, hamını masa arxasına dəvət etdi. Ən əsas isə o, Sergeyin Bakıda xoşuna gəldiyi bir salatı hazırlamışdı - nar suyuna soğan doğranması. Lakin Sergey Eduardın ailəsi ilə birlikdə qonaq gələnə qədər, cavanların əyləncəsinə mane olmamaq üçün öz kabinetində qalmağı qərara almışdı. Cavanlar isə heç kimi gözləmədən süfrəyə daraşıb, ortaya qoyulan təamlardan dadmağa başladılar.

Adəti üzrə Aleksandr həmişə ağzına bir tikə qoymadan ən azı badə araq içərdi. Lakin bu dəfə o, kababın məstedici iyinin qarşısında tab gətirməyib, ac qarnına həm tikə, həm də lülə kabab yeməyə başladı. O, bu təamın həddindən artıq ləzzətli olduğunu gizlətməyib, ağızdolusu Nizamini tərifləməyə başladı. Müəyyən mənada bu tərif Raisanın qəlbinə toxundu və o, da öz xislətinə uyğun olaraq hamıya bəyan etdi ki, kabab erməni xalqının milli mətbəxinin nümunəsidir. Ən dadlı kabab erməni aşbazlarının əlindən çıxır. Qızın həyasızlığına tab gətirməyən Nizami başını təəssüf hissilə tərpədərək aludəliklə dedi:

- Raisa, bizdə kababı aşbazlar yox, hər bir azərbaycanlı hazırlaya bilir. Əvvəlki dövrləri demirəm, XIX əsrin sonunda Nobel qardaşları Bakıda neft sənayesində çalışdıqları zaman, bizim milli mətbəxlə tanış olmuş və həmişə də kabab yeməkdən böyük həzz almışdılar. Hətta öz ölkələrinə

qayıdandan sonra bir çox aşbazlarına kabab hazırlatsalar da, etiraf edirdilər ki, heç kim kababın öhdəsindən azərbaycanlılar kimi gələ bilmir.

- Bizimkilər Osmanlı Türkiyəsi ilə müharibələr aparandan bəri cəbhə bölgələrində kabab bişirməklə məşğul olublar və bu sirri başqa millətlərin nümayəndələrinə açıblar. Azərbaycanlılar da kabab bişirməyi daim bizimkilərdən öyrəniblər.

- Raisa, incimə məndən, ermənilər kabab bişirməyi Qafqaza gələndən qat-qat sonra öyrəniblər. Elə indi də onlar kababı bizimkilər kimi hazırlaya bilmirlər. Adi bir nümunə: görkəmli dramaturqumuz Mirzə Fətəli Axundovun ***"Müsyö Jordan və dərviş Parisi partladır"*** adlı bir komediyasını yazıbdır və həmin əsər bədii film şəkilində dəfələrlə televiziya ekranlarda nümayiş etdirilibdir. XIX ərsrin ortalarında baş verən həmin hadisələrdə yazıçı kababın necə bişirilməsini və süfrəyə gətiriləndə fransız aliminin həmin kababın dadından necə məst olduğu və barmaqlarını necə yalaması xüsusilə göstərilibdir. Bildirmək istəyirəm ki, həmin obrazı ekranda SSRİ xalq artisti Sergey Yurski canlandırıbdır. Əslinə isə baxanda kababın tarixçəsi dəqiq məlum deyil, lakin o da bəllidir ki, kabab qadimdən Qafqazda yaşayan xalqlarının nemətidir.

- Nizami, sən dedin-demədin yadda saxla ki, həm Avropada, həm də Rusiyada yaşayanlar yaxşı bilirlər ki, kabab bizim milli mətbəximizin nümunəsidir və bu barədə çoxlu kitablar da yazılıbdır.

- Əsl mütəxəssislərin iştirakı olmadan yazılan hər hansı kitab, müəmmalı iş, ciddi ədəbiyyat sayılmır. – deyə Raisanın sözlərinə ciddi əhəmiyyət vermək istəməyən Nizami soyuqqanlıqla dilləndi. - Bunu Saşa da təsdiqləyə bilər. Necə olsa da o, elmlər namizədinin oğludur.

- Bu barədə narahat olma, - deyə dodaqlarında acı təbəssüm sezilən qız istehza ilə dilləndi. – həmin kitabları əsl mütəxəssislər yazıbdır.

- Elə mütəxəssislər araşdırma aparmadan min dollara nə istəsən yaza bilərlər. – deyə Aleksandr ağzında tikə kababı çeynəyə-çeynəyə həvəslə dilləndi.

- Raya, yadda saxla ki, mən əqidəsini heç bir maddiyyata dəyişməyən mütəxəssislərdən danışıram. – deyə Nizami əlavə etdi. – Gün kimi aydındır ki, biz bu məsələdə kompromiss variant əldə edə bilməyəcəyik. Sonra isə bunun üstündə bir-birimizə qarşı düşmən kimi qənim kəsiləcəyik.

Bu sözlərdən sonra erməni qızının qanı qaraldı və o, Nizaminin hazırladığı təamdan dadmadan həmsöhbətinə tərəf nifrətlə nəzər salmağa başladı. Onların arasında yaranan soyuq münasibətə əhəmiyyət verməyən Aleksandr elə

hey yediyi kababı tərifləyirdi. O, araqdan süzüb dalbadal iki badə içdi və kefi saz halda İqor Lozanın ifa etdiyi **"Plot"** mahnısının sədaları altında İrina ilə rəqs etmək istədi. Qız əlindəki kababı nimçəyə qoyub məmnu-niyyətlə həmin dəvəti qəbul etdi. Raisanın əsəbiləşdiyini görən Yelizaveta, erməni qızına acıq verə-verə, nazı-qəmzə ilə Nizamini rəqsə dəvət etdi və oğlanla söhbət edə-edə oynamağa başladı.

Onların arasında olan sıx əlaqələri görən Raisa paxıllığını gücbəla ilə saxlayırdı. Necə olsa da, Nizami bir neçə dəqiqə bundan əvvəl, arada yaranan söhbət zamanı erməni qızını susmağa vadar etmişdi.

Pərt olmağa öyrəşməyən erməni qızı elə hey fürsət axtarırdı ki, azərbaycanlı tələbədən qisas alsın və bu işdə elə Aleksandrın köməyindən istifadə etməyi qərara aldı. Bunun üçün o, bir neçə dəfə keçmiş sevgilisini içizdirərək hücuma keçməyə hazırlaşırdı. Hamı bilirdi ki, Aleksandr keflənəndən sonra siyasətlə bağlı söhbətlər açaraq ürəyindəki sözləri boşaltmadan sakitləşmirdi.

Lakin bu dəfə dekan oğlu erməni qızının dedikləri ilə oturub-durmaq istəmirdi. Aleksandrın belə bir saymazyana hərəkəti Raisanı daha da qıcıqlandırdı və o, belə bir özü üçün alçaldıcı vəziyyətdə qalmaq fikirində deyildi.

Həmişə özünü yuxarıdan aparan, daim təkəbbürü ilə ətrafındakı adamlarda ikrah hissi oyadan Raisa, bu dəfə sanki tək qalmışdı və hüç kim, hətta qızlar da onunla ünsiyyət qurmaq istəmirdilər. Hər şey bir neçə dəqiqədən sonra Robertin gəlişi ilə dəyişdi. Evdəkilərin bir-birilərinə olan təəccüb dolu baxışları ondan xəbər verirdi ki, heç kim həddindən artıq özünü lovğa aparan erməni kommersantının gəlişini gözləmirdi. Robertin qeyri-adekvat hərəkətləri onun içkili olmasından xəbər verirdi. Onun belə bir həyasız hərəkəti ilk növbədə Yelizavetanın əsəblərinə toxundu. Çünki qız yaxşı bilirdi ki, belə olan halda, həmin həyasız oğlan qalmaqal yaradırdı. Buna baxmayaraq o, gəlib düz Sergeyin qızının yanında əyləşdi və qarşısındakı badəyə araq süzüb, bir anda həmin içkini başına çəkdi.

Robert elə görüntü yaratmağa çalışırdı ki, guya təsadüf nəticəsində bura gəlibdir, halbuki bu gün bu evdə tədbir keçirilməsi haqda məlumatı ona Eduard çatdırmışdı.

Raisa qohumunun gəlişini görən kimi sanki hərəkətə gəldi və birbaşa gedib onun o biri tərəfində əyləşərək nəsə haqda pıçıldaşmağa başladı. Halbuki hərəkətlərinə görə qızın Robertdən xoşu gəlmirdi, lakin bu dəfə bir masa arxasında onunla yanyanaşı əyləşərək, özündə bir təpər hiss etdi.

Raisa qohumu ilə sövdələşərək sağlıq demək üçün söz aldı. O, dedi:

- Uşaqlar, universiteti bitirmək üçün bir aydan bir qədər çox vaxt qalıbdır. Mən, Mixail Lomonosovun, Leninin qardaşı Aleksandr Ulyanovun, Aleksandr Blokun və başqa görkəmli şəxsiyyətlərin təhsil aldıqları universitetə qəbul olanda özümə söz vermişdim ki, diplom alan kimi ən əziz adamlarımla birlikdə Şuşaya gedib, İsa bulağında həmin diplomu yuyacayıq. Həmin tədbirdə kim iştirak etmək istəsə, əvvəlcədən xəbər versin.

Erməni qızın belə bir həyasız bəyanatı Robertin ürəyindən olsa da, həmin ifadələr acı tikan kimi azərbaycanlı tələbənin ürəyini deşdi və o, az qala yerindən qalxıb Raisanın üzərinə yeriyəcəkdi. Lakin son məqamda Yelizaveta onu özünü ələ almağa çağırdı. Məhz bundan sonra Nizami elə sözlə də həmin qızın cavabını verməyə qərara aldı. O, badəsini masanın üstünə qoyub hirsindən boğula-boğula dedi:

- Raisanın istəyini başa düşmək çətin deyil. Azərbaycanın o qədər bir-birindən gözəl və səfalı yerləri var ki, bir çox insanlar müəyyən tədbirlərini keçirmək üçün məhz həmin yerlərə üz tuturlar. Şuşa isə Molla Pənah Vaqif, xan qızı Natəvan, Qasım bəy Zakir, Üzeyir Hacıbəyli, Bül-Bül, Polad Bül-Bül oğlu, Cabbar Qaryağdıoğlu, Xan Şuşinski,

Süleyman Ələsgərovun və başqa görkəmli şəxsiyyətlərin doğulduğu bir şəhərdir və həmin yaşayış məskəni, hətta YUNESKO-da belə, Azərbaycanın konservatoriyası kimi tanınır. Bunu təkcə mən yox, bizim ölkədə olmuş bütün tarixi şəxsiyyətlər dəfələrlə qeyd ediblər.

- Məlumatınız olsun ki, Şuşa Azərbaycanın yox, qədim Ermənistanın tarixi yaşayış məskənidir. – deyə Robert tərs nəzərlərini azərbaycanlı tələbəyə tərəf yönəldərək, hökmlə dilləndi. – Ümumiyyətlə, bizim tariximizdə Azərbaycan adlı bir məmləkət yoxdur.

- Dəqiq bilmək istəyirsinizsə, sizə bir fakt söyləyim. – deyə əsəbləri tarıma çəkilən Nizami başını dik tutaraq ciddi halda dilləndi. – Nəinki Şuşa və ya İrəvan, ümumiyyətlə ermənilərin Qafqazın cənubunda məskunlaşdıqları bütün yaşayış məskənləri azərbaycanlıların dədə-baba torpaqlarıdır. Bu haqda tarixi sənədlər var ki...

## XVI fəsil. Aşıb-daşan səbr kasası

Elə bu vaxt evin qapısı döyüldü və Nizaminin sözü yarımçıq qaldı. Ona görə ki, həmin məqamda Raisa “mən

sənə heç vaxt bu sözləri bağışlamayacağam" ifadəsini işlədərək, vəcdə gəlmiş halda verandaya çıxdı. Robert isə qığılcım saçan baxışlarını həmsöhbətinin gözlərinə doğru yönəldərək, qəzəbli halda erməni dilində bir-iki kəlmə söz işlətdi.

Onların arasında yaranan narazılıqdan məyus olan Yelizaveta hər ikisini sakitliyə dəvət edərək, qapıya tərəf getdi. Özünün azərbaycanlı tələbənin yanında alçaldığını büruzə vermək istəməyən eqoist erməni qızı, sir-sifətini səliqə-sahmana salıb, getdiyi yerdən qayıtdı və gələnlərin qarşısına çıxdı.

Gələn qonaqlar Eduardgil idi və onlar salamlaşaraq masa arxasına keçdilər. İş elə gətirdi ki, Eduardın kişik qızı Karmen Nizaminin sol tərəfində əyləşdi. Sergey öz kabinetindən çıxıb, qonaqları salamladı və içəridəkiləri bir-biriləri ilə tanış etdi və oğlunun yanında mövqe tutdu. Karmen biləndə ki, Nizami azərbaycanlıdır o, tərəddüd etmədən yerini tərk etdi və Raisa ilə vacib iş olduğunu bəhanə gətirib onun yanına keçdi.

Sergey birinci badəni evinə dəvət olunmuş bütün qonaqların sağlığına qaldırıb kababa əl atdı və onu qıcıqlandırmaq üçün həvəslə dedi:

- Edik, mən Qafqazın cənubunda yerləşən hər üç ölkədə oldum və hər yerdə hazırlanan kababların dadına baxdım.

Etiraf etməliyəm ki, Nizaminin bişirdiyi kabab kimi heç bir yerdə ləzzətli kabab yemədim. Buyurun baxın, özünüz qiymət verin.

Elmlər namizədi həmin izahatı verən zaman həm Eduard, həm də Karmen əllərindəki tikə kababı yemək istəyirdilər. Lakin ev sahibinin sözlərini eşidən kimi onlar həmin tikələri yerə qoyub, Yelizavetanın hazırladığı "paytaxt" salatını dadmağa başladılar. Sergey kifayət qədər arif adam idi və onların mərifətsiz hərəkətlərindən hiddətləndi. O, ağlına belə gətirməzdi ki, evinə gələn ermənilər bu dərəcədə azərbaycanlı tələbəsinə qarşı ifrat düşmənçilik hissi bəsləyirlər. Deməli, bu ədavət bir xəstəlik kimi onların hamısının qanına yeriyibdir. Bu məsələnin üstündən səti keçmək istəməyən və onlar barəsində düşündüklərini üzlərinə deməyə hazırlaşan pedaqoq Eduarda tərs nəzər salaraq maraqla soruşdu:

- Edik, xeyir ola, mən deyəndə ki, kababı Nizami hazırlayıb sən, sanki irgənirmiş kimi əlindəki tikəni yerə qoydun? Mən biləni siz ermənilər kabab yeməkdən böyük həzz alırsınız. Bunun səbəbini izah edə bilərsən?

- Nədənsə, mən Yelizavetanın əl məhsulu olan salata tamah saldım. – deyə Yelizavetanın üzünə yaltaqcasına gülən riyakar qonaq qeyri-müəyyən tərzdə dilləndi. – Kababı isə gündə yeyirəm, özü də ki, həmin kababı özüm bişirsəm

və yaxud da hansısa bir həmyerlim bişirəndə. O ki, qaldı sizin Bakıda bişirilən kababın təriflənməzə, mən deyərdim ki, siz əsl ermənininin bişirdiyi kababla üzləşməmisiniz. Bu sahədə bizim mütəxəssislər o qədər məşhurlaşıb ki, bütün Şimali Qafqazda restoranlarda yalnız erməni aşbazları çalışırlar.

- Bəs, bizim evdə keçirilən ziyafətlərdə kababı kim bişirirdi? – deyə Yelizaveta Eduarda təəccüblü nəzər saldı. – Edik, dayı elə həmin kababları sizdən və Robertdən başqa heç kim hazırlamırdı. Amma etiraf edim ki, Nizaminin bişirdiyi kabablar xüsusi reseptlərlə hazırladığından, ətin dadı bənzərsiz olubdur.

- Təəssüflər olsun ki, sən süfrədə olan kababdan dadmadın. – ev sahibi Eduardın cavab verməsinə imkan verməyərək istehza ilə dilləndi, daha sonra o, həmsöhbətini bir qədər diqqətlə süzəndən sonra mövzunu dəyişdi. – Eduard, desəm inanmayacaqsan və yaxud da kim mənə desəydi inanmazdım. Mən təxminən 30 il bundan əvvəl Bakıda olmuşdum və həmin şəhər bir çox sovet şəhərlərindən qəti olaraq seçilmirdi. İndi isə Bakını Avropanın bir çox gözəl şəhərləri ilə müqayisə etmək olar. Rəngarəng arxitektura üslubu, köhnə və modern tipli binaların heyranedici fasadları, ekzotik fəvvarələr, çoxsaylı parklar, dəniz qırağındakı bənzərsiz bulvar, əyləncə mərkəzləri, mədəniyyət, incəsə-

nət, ədəbiyyat, elm xadimlərinin heykəlləri, çoxsaylı körpülər, servisinə, tikilişinə, komfortuna görə hər hansı bir mehmanxanalar ilə rəqabət aparacaq möhtəşəm mehmanxanalar, müasir tipli supermarketlər, yaraşıqlı metrostansiyaları məni həddindən artıq heyran etdi. Demək olar ki, mən eyni vaxtda özümü həm Tokioda, Şanxayda, İstambulda, Parisdə, Madriddə, həm də Romada hiss edərək, həmin səfərdən ayrılmaq istəmirdim. Sanki mən başqa bir aləmə düşmüşdüm, yaradıcı insanın dili ilə desəm mən özümü nağıllar aləmində hiss etdim.

- Sergey Vladimiroviç, siz Bakını elə təsəvvür etdiniz ki, sanki həmin şəhər Sankt-Peterburqdan gözəldir. – deyə Raisa narazı halda dilləndi.

- Onların bəxti gətiribdir ki, Azərbaycan neft və qazla zəngin olan bir ölkədir və əldə olunan pulları necə gəldi sağa və sola xərcləyirlər. – deyə paxıllığını gizlədə bilməyən Eduard təəssüf hissilə dilləndi. – Özləri milyon qazanıb firavan yaşayırlar, bizi isə türklərin köməyindən istifadə edərək blokadada saxlayırlar. Qaçqın düşmüş soydaşlarımız qışda soyuqdan, yayda isə susuzluqdan ölürlər. Blokadada olduğumuz üçün onlar ərzaq tapmaqda çətinlik çəkirlər. Beynəlxalq təşkilatlar isə belə bir haqsızlığa göz yumur. Bax, Sergey Vladimiroviç bir alim, bir ziyalı kimi deyin

görək, belə bir vəziyyətdə biz nə etməliyik? Düşmənlərimiz hərtərəfli olaraq bizim milləti məhv etmək istəyirlər.

- Biz bu problemlər haqqında çoxlu müzakirələr aparmışıq. Axırıncı səfərdən qayıdandan sonra anladım ki, həmin münaqişədə kim haqlıdır, kim yox? Sən deyirsən ki, azərbaycanlılar türklərlə birlikdə sizin ölkəni blokadaya alıbdır. Sual verilə bilər, bəs onlar nə etməliydilər?

- Necə yəni nə etməliydilər? – deyə təəccübdən çiyinlərini çəkən Eduard çaşqınlıq içərisində həmsöhbətini süzməyə başladı. – Onlar coğrafi mövqedən istifadə edib belə bir alçaq metoda əl atmamalıydılar. Halbuki əsrlər boyu biz onlara hörmət etmiş və dar vaxtlarında kömək əlimizi uzatmışıq. Blokadanı tətbiq edəndən sonra biz anladıq ki, onlar hörmət qanan millət deyillər.

Nizaminin burada olmasına əhəmiyyət verməyən kobud adam ona ötəri halda tərs nəzər salaraq sir-sifətini turşutdu. Sanki o, yox, məhz azərbaycanlı tələbə onu təhqir etmişdi. Həmin ifadələri özü üçün təhqir hesab edən Nizami hirsini birtəhər daxilində dəf edərək iradə ilə dedi:

- Xahiş edirəm, ifadələrinizə diqqət yetirəsiniz. Heç kim sizə haqq verməyibdir ki, bizim milləti və türkləri təhqir edəsiniz. Yadda saxlayın ki, biz azərbaycanlılar yaxşı adamı bağlı qapılar arxasında saxlamırıq. Əldə olunan hörməti ayaq altına atan millətin kimliyi nəinki burada əyləşənlərə,

hətta dünyada yaşayan bütün kamil düşüncəli insanlara bəllidir. Ən azı Sergey Vladimiroviç bizimkilərin xasiyyətinə qismən də olsa bələddir.

- Görünür, Sergey Vladimiroviç, sizin milləti yaxından tanıya bilməyibdir. – deyə ən qatı düşməni kimi azərbaycanlı tələbəni süzən Robert ikrah hissi ilə dilləndi. – Yoxsa, o, sənin kimi pantürkisti özü ilə bir masada əyləşdirməzdi.

Ev sahibi o dəqiqə başa düşdü ki, Robert burada qalmaqal yaratmaq fikirindədir və bunun qarşısı alnmasa o, istədiyinə nail olacaq. Məhz buna görə də Sergey heç bir tərəfkeşlik etmədən həmin qaba adamı ram etməlidir. O, ayağa qalxıb Nizaminin yanına gəldi və sol əlini tələbəsinin sağ çiyninə qoyub Robertə ciddi halda dedi:

- Robert, sənə xəbərdarlıq etmək məcburiyyətindəyəm. Nizami, çox mərifətli və qanacaqlı oğlandır və hamı bilsin ki, o, mənim evimin qonağıdır. Məlumatınız olsun ki, şəxsi dəvətimlə o, mənim evimə qədəm qoyubdur.

- Niyə əsəbləşirsiniz? Sadəcə olaraq onun bu evdə görünməyi bizim üçün sürpriz oldu. – Elizabet dilləndi.

Elizabet ev sahibinə yaltaqlanmaq istəsə də, o biri ermənilər kompromissə getmək fikirində deyildilər. Xüsusən də Raisa onu burada biabır etmək üçün özünə bir proqram da hazırlamışdı.

- Nizami, daim ruslarla müharibə aparan siz türklərin rus torpağında gəzməyə mənəvi haqqınız yoxdur. – arada yaranan ixtilafdan istifadə edən Raisa qızışdırıcı mövqe tutaraq içəridə olan rusları da azərbaycanlı tələbənin üstünə qaldırmaq istədi. – Sənin kimiləri Rusiyadan sürgün etmək lazımdır.

- Keçmişdə müharibə yaradanlar layiqincə öz cəzalarına çatıblar. Türklər qüvvətli və güclü olsalar da, daim sülhü hər şeydən üstün tutublar.

- Cavan oğlan, bu haqda fikir yürütməkdə sən hələ uşaqsan. – deyə Eduard vacdə gəldi. – Sizin millət özünüzdən başqa heç kimi bəyənmir və bir qədər üstün olan kimi başlayırsınız təzyiq göstərməyə. Ona görə də hamı Azərbaycanı tərk etməli olur.

Bu dəfə Sergey gözləməli mövqe tutmağı qərara aldı. Ona görə ki, o, Nizaminin həm savadına, həm də səviyyəsinə yaxşı bələd idi və əmin idi ki, azərbaycanlı tələbə tutarlı dəlillərlə ətrafındakı erməniləri susdurmağa müvəffəq olacaq. Bunun əsas səbəbi isə Sergeyin Qarabağ problemi ilə bir çox mətləblərdən agah olması idi. Lakin bütün bunlara baxmayaraq Yelizaveta kənarda sakit oturub, istədiyi oğlanın təzyiqlər altında çapalamasını seyr etmək istəmirdi.

Nizaminin təkləndiyini görən ev sahibinin qızı fikir bildirmək üçün ortaya girmək istədi, lakin Aleksandr onu qabaqlayaraq səbirsizliklə dedi:

- Edik dayı, sizin bu fikirinizlə mən razılaşa bilmərəm. Atamın danışıqlarından başa düşdüm ki, azərbaycanlılar heç də qonşusuna düşmənçilik bəsləyən millət sayılmır. Onlar həddindən artıq ürəyiaçıq, qonaqpərvər xoş məramlıdırlar. Əvvəllər mən Bakıya getməyə ehtiyat edirdim, amma bundan sonra haçan istəsəm, heç kimdən, heç nədən çəkinmədən həddindən artıq təhlükəsiz sayılan həmin möcüzələr şəhərinə gedəcəm. Eşitdiyimə görə Abşeron çimərlikləri Krım çimərliklərindən daha isti, daha təmizdir.

- Oradakı türklər yalan vədlərlə və yalan görüntülərlə kimi istəsən yoldan çıxarda bilərlər. – deyə Eduardın bacısı qızı istehza ilə dilləndi və nifrət dolu baxışlarını Nizamiyə yönəldərək hüznlə sözünə davam etdi. – Bakıda o qədər millətçi və dini fanatiklər var ki, heç bir əcnəbi, xüsusən də xristian dininə sitayiş edən insanlar çox asanlıqla fiziki təzyiqlərə məruz qala bilərlər.

- Raya, sən düzgün danışmırsan, - Yelizaveta əsəblərini güclə saxlayan Nizamini qabaqlayıb səbirsizliklə dilləndi. – bundan sonra mən deyilənlərə yox, məhz gördüklərimə inanacağam. İçəridəkilər yaxşı bilir ki, mən hələ bir neçə gün bundan əvvəl atamla birlikdə **“Eurovision”**a baxmaq

üçün Bakıda oldum və deyərdim ki, həmin şəhər dünyanın ən tolerant şəhəridir. Orada dinindən, millətindən, irqindən asılı olmayaraq hər bir kəs azad gəzir, rahat işləyir və bizneslə məşğul olur. Açığını desəm, bizim şəhərdə Orta Asiya və Qafqaz respublikalarından çıxan adamlar mütəmadi olaraq, millətçi qruplaşmalar tərəfindən fiziki təzyiqlərə məruz qalır, hətta öldürülürlər də, amma nə Bakıda, nə də ki, Azərbaycanın başqa şəhərlərində mən belə bir neqativ halların şahidi olmadım. Orada nəinki, ləzgi, talış, kürd, türk, rus, gürcü, ukrain, və ya yəhudilər, hətta iranlı, ərəb, pakistanlı, əfqanistanlı, hindistanlı, çinli, britaniyalı, alman, amerikanlı, başqa millətlərin nümayəndələri, o cümlədən sizin millətin də nümayəndələri yaşayır və özlərini doğma vətənlərindəki kimi sərbəst və azad hiss edirlər. Cəsarətlə deyə bilərəm ki, Bakı adi yox, dünyavi şəhərdir. Bir sözlə, atam kimi mən də həmin şəhərə vuruldum.

- Sən elə danışdın ki, guya həmin şəhər nəinki Sankt-Peterburqdan, hətta Parisdən də gözəldir. – deyə Karmen naz edərək əda ilə dilləndi. – Həm də sən beynəlxalq tədbir vaxtı orada olmusan. Belə bir gündə hansı şəhərə getsən, onda onu yalnız gözəl qiyafədə görəcəksən.

- O ki qaldı Bakıya, bəlkə də həmin şəhər postsovet məkanında ən geridə qalmış şəhərlərdən biridir. – paxıllıq-

dan özünə yer tapmayan Raisa təkəbbürlə dilləndi. - Sadəcə olaraq orada sizin qulluğunuzda lazımi şəkildə durduqları üçün siz hamınız həmin şəhəri tərifləməyə başlamısınız.

- Sən nəyi nəzərdə tutursan? – deyə elmlər namizədi narazı halda soruşdu və ara vermədən təmkinlə sözünə əlavə etdi. – Raya, sən gələcəyin müxbiri kimi hər şeyi olduğu kimi qəbul etməlisən. Elə iş ondadır ki, hazırda Bakı post-sovet məkanının ən gözəl və modernləşmiş şəhərlərindən biridir.

- Onların tamtəraqla süfrə açmaları və dividend qazanmaq üçün özlərini yaltaqcasına aparmaları çoxdankı adətləridir. – deyə Raisa heç kimdən çəkinmədən həyasızcasına dilləndi.

Elə bu vaxt Nizami əlindəki çəngəli masanın üstünə qoyub, cavab vermək üçün əsəbi halda ayağa qalxdı. Lakin Robert azərbaycanlı tələbənin bu hərəkətinə tab gətirməyib, əlindəki çəngəli nimçəsinə vura-vura ikrah hissi ilə dedi:

- Ey türk, sən deyəsən, buranı öz evinlə səhv salmısan? Yerində oturmasan, onda mən səni özüm otuzdurmalı olacağam.

Robert içkili olduğundan öz hərəkətlərini nəzarət altında saxlaya bilmirdi və Nizaminin azacıq qeyri-adekvat addımı onu hövsələdən çıxara bilərdi.

Əvvəlcədən vəziyyətin gərginləşməsini istəməyən Sergey gördü ki, evinə gələn qonaqlar haqq-nahaq Nizamini acılayıb təhqir edirlər. Haqsızlıq isə birbaşa onun evində baş verirdi. O, azərbaycanlı tələbənin səbrli olmağa dəvət edib hökmlü şəkildə dedi:

- Mən heç kimə imkan verməm ki, evimə gələn qonağı təkləyib təhqir etsin. Hamınız, xüsusən də cavanlar bu evdə ifadələrinə diqqət yetirməlidirlər. – sonra pedaqoq üzünü təhqir olunmuş tələbəsinə tutub ərkiyanə şəkildə sözünə əlavə etdi. – Nizami zəhmət olmasa, Saşa ilə birlikdə o biri otağa keçin.

Böyüklərin sözünə qeyd-şərtsiz halda riayət edən Nizami öz tərbiyəsini nümayiş etdirərək, heç bir söz demədən Aleksandrla birlikdə otaqdan çıxdı. Eduardın, Raisanın, sonra isə Robertin özlərini kobud aparmaları Yelizavetanın da xətrinə dəymişdi və o, da heç nə bildirmədən iştirak etdiyi məclisi tərk etdi. Qızın bu hərəkəti hamıdan çox Roberti qıcıqlandırdı. Eduardın fikirincə, Yelizaveta Robertin sevgilisi sayılırdı və belə bir məqamda azərbaycanlı tələbənin mövqeyini müdafiə etmək və ya neytral mövqe tutmaq ona pis təsir göstərdi. Necə olsa da o, dekanın qızını artıq öz gəlinləri hesab edir və əmin idi ki, həmin qız mövzudan asılı olmayaraq daim onların tərəfində olmalıdır.

Lakin yaşlı ermənininin onların arasında yaranan soyuq münasibətlərindən xəbəri yox idi.

## XVII fəsil. Öz səhvlərini düzəldən tarixçi pedaqoq

Sergey ətrafında olan adamların keflərinin pozulduğunu görüb qanı qaraldı. O, Eduarda öz iradlarını bildirmək və son günlər əldə etdiyi həqiqətləri yaşlı ermənininin üzünə söyləmək üçün siqaret çəkmək adı ilə kabinetinə apardı. Özünü qaba insan kimi aparan Eduard kabinetin qapısını arxasınca örtən kimi narazı halda dedi:

- Sergey Vladimiroviç, bilirsiniz ki, sizin xətrinizi dünyalar qədər çox istəyirəm, amma inciməyin məndən, xristianları məhv edən azərbaycanlıları müdafiə etmək bizim kimi sivil insanlara yaraşmaz.

Xarakter etibarilə həddindən artıq səbrli olan dosent Eduardın pəncərənin ağzında kresloda oturduğunu görüb, özü masa arxasında əyləşdi və bütün fikirini cəmləşdirib aludəliklə dedi:

- Edik, azdan-çoxdan mən azərbaycanlıların xarakterinə bələdəm və istərdim ki, bundan sonra sən onları islam terrorçuları ilə səhv salmayasan. Qafqaza olan səfərlərimdən sonra əminamanlıqla deyə bilərəm ki, dünyada tək-tük mehriban xoş niyyətli millətlər var ki, onlardan da biri nifrət bəslədiyin azərbaycanlılardır. Onları acılamasan, onlara qarşı düşmənçilik mövqeyi bəsləməsən, onlar səninlə qardaş kimi rəftar edəcəklər. bir sözlə, onlar çox etibarlı və sədaqətli millətdir.

- Sergey Vladimiroviç, görünür siz onların iç üzünü tanımırsınız. Onlara xoş sifət göstərə-göstərə gəlib adamın boynunda otururlar. Heç kim onlarla bir məmləkətdə yaşamaq istəmir. **"Eurovision"**a gələn bir-iki əcnəbi turistini orada görüb, elə bilirsiniz ki, həmin adamlar Bakıda hansısa bir işlə məşğuldurlar.

- İş ondadır ki, mən hər iki ölkədə olanda özüm üçün çoxlu yeniliklər kəşf etdim. Açığını desəm, Ermənistanda olanda mən orada demək olar ki, rusları çıxmaq şərtilə qeyri millət görmədim. Həmin rusların əksəriyyəti isə sizin ölkədə yerləşən rus hərbi bazalarının hərbi qulluqçularıdırlar. Amma Azərbaycanda başqa millətləri demirəm, yerli azsaylı xalqlar olan ləzgilər, talışlar, kürdlər, lahıclar, yəhudilərin, hətta ermənilərin də yaşadığının şahidi oldum. Elə biri sənin bacın ailəsi ilə birlikdə Bakıdadırlar və çox

maraqlıdır ki, onların hamısı işlə də təmin olunublar. Halbuki sən mənə deyirdin ki, azərbaycanlılar sənin bacını girov kimi ən pis şəraitdə saxlayırlar.

Gözlənilməz halda söylənilən fakt qarşısında aciz qalan erməni utandığından heç bir söz deyə bilmədi. Onun hərəkətlərinə heç bir reaksiya verməyən tarixçi pedaqoq səbirsizliklə sözünə davam etdi. O, dedi:

- Başqa bir nümunə, bütün bəlalarda siz ermənilər Türkiyəni qınayırsınız. Mən Türkiyədə olanda orada yüz minlərlə erməninin yaşadığının şahidi oldum, həm də onların əksəriyyəti ticarətlə məşğul olaraq, külli-miqdarda pul qazanırlar. Əgər, türklər ermənilərin qatı düşmənləridirsə, onda nəyə görə həmin ölkəni tərk edib başqa ölkələrə üz tutmurlar? Ona görə ki, həmin məmləkətdə heç kim onların xətrinə dəymir. Eləcə də həmin ölkənin daimi vətəndaşları olan kürdlər ideoloji fanatiklər kimi orada terror aktları təşkil edib, mülkü vətəndaşları qorxu altında saxlayırlar. Təsəvvür edirsən, kürdlər Çində yaşayıb belə bir cinayətlərə əl atsaydılar nə baş verərdi? Onların hamısı zəlil günə düşərdilər.

Edik, məni başqa bir şey düşündürür, siz azərbaycanlılar ilə sülh və əminamanlıq şəraitində yaşamısınız və mən deyərdim ki, sizdən başqa heç bir millət bir-birilərilə o

dərəcədə mehriban ola bilməz. Hər şey birdən-birə neçə alt-üst oldu? Kim sizin aranıza belə bir nifaq saldı?

- Sergey Vladimiroviç, vicdanıma and olsun ki, inanın, bu yaxınlara qədər mən elə bilirdim bacım orada girov saxlanılır. O ki, qaldı müsəlmanlara, onlar bizi yer üzündən silmək, yaşadığımız torpaqları əlimizdən alaraq bizi dədə-baba yurdumuzdan didərgin salmaq istədilər. Lakin onlar buna nail ola bilmədilər. Müsəlmanların imkanı olsa, onlar hər an bizim qanımızı içərlər.

- Demək istəyirsən ki, bütün bu ədavət dini zəmində baş verir? – deyə dekan həmsöhbətinə sualedici nəzər saldı.

- Bütün dünya bilir ki, cənubdan türklər, şərqdən isə azərbaycanlılar bizi hərtərəfli olaraq məhv etmək üçün , əllərinin altında olan bütün mümkün vasitələrdən istifadə ediblər. Adını çəkdiyimiz millətlər hansı dinə mənsubdurlar? Əlbəttə ki, İslam dininə!

- Adəti üzrə mən Qarabağ münaqişəsi barəsində Eduardla, o cümlədən, Robertlə çox söhbət etmiş və çalışmışam ki, bu məsələdə obyektiv olum. Lakin həqiqəti dərk etmək üçün mən, daim hansısa bir maneələrlə rastlaşırdım. O da ki, əsasən, yalan informasiyaların əldə olunmasından ibarətdir. Amma bilirəm ki, tez və ya gec həqiqət üzə çıxır və ədalət öz yerini tutur. Əvvəllər Ermənistanda həyat

qaynayırdı, indi isə bir çox yaşayış məskənləri boş-boşuna qalıbdır. Bunu nə ilə izah edə bilərsən?

- Əziz dost, bayaq siz dediniz ki, ruslardan başqa bizdə qeyri-millətləri görməmisiniz. Bizdə də kifayət qədər kürdlər, iranlılar və digər millətlər var. Onların hamısı Ermənistanda yaşamaqdan xeyli məmnundurlar. Onların sayının az olması isə blokada ilə bağlıdır. Cammat iqtisadi blokadaya tab gətirməyib ölkədən çıxmaq məcburiyyətində qalıblar.

- Yaxşı, bəs nəyə görə siz ermənilər öz ölkənizi tərk edib başqa dövlətlərə üz tutursunuz?

- Sizə dedim axı, azərbaycanlılar türklərlə birlikdə kommunikasiya xətlərini kəsməklə bizi blokadaya aldılar. Dünya ölkələri isə buna göz yumdu. Hələ bu harasıdır, hər gün onlar Qarabağda təmas xəttində atəşkəsi pozub bizi müharibəyə təhrik etmək istəyirlər. Deyin görüm belə bir vəziyyətdə necə yaşamaq olar?

Sergey gördü ki, həmsöhbəti hərtərəfli olaraq qeyri-obyektiv fikirlər söyləməklə onu azdırmağa çalışır. Lakin bu dəfə o, kifayət qədər məlumatlı idi və heç kim onu bu mövzu ilə bağlı səhv məlumatlarla təchiz edə bilməzdi. Elə məhz buna görə Sergey həmsöhbətini yerində otuzdurmaq üçün həqiqətlə dolu olan məlumatları onun üzünə vurmağı məsləhət bildi. O, qonaq otağından iki badə və bir şüşə araq

gətirib həmin badələri doldurdu və masanın üstündəki vazadan bir armud götürüb arağı başına çəkdi. Dosent armudu dişləyib ağzında əritdi və siyasətçi kimi sözə başladı. O, dedi:

- Edik, sən bilirsən ki, mən tarixçi aliməm və çalışıram hər bir tarixi hadisələri əvvəlcədən analiz edib, ondan sonra yaranan diskussiyada lazımi qaydada iştirak edim. Sən deyirsən ki, blokadaya alındığınız üçün ölkəni tərk etmək məcburiyyətində qalmısınız. Yaxşı, bəs onlar torpaqlarının işğal altında olduğunu görüb nə etməliydilər? İşğaldan sonra azərbaycanlılar sizə qaz, elektrik enerjisi və başqa məhsullar verməliydilər?

- Onda belə çıxır ki, biz onların köləsi olmalıydıq? – deyə gözləri bərələ qalan Eduard vəcdə gəldi. – Biz öz azadlığımız və torpaqlarımızın işğaldan azad olunması uğrunda mübarizəyə qalxdıq və azərbaycanlıları dədə-baba yurdumuzdan qovmağa nail ola bildik. Onlar bizimkiləri Bakıdan, Sumqayıtdan qovanda yaxşı idi və biz həmin haqsızlıqlara göz yummalıydıq? Biz qaçqınlar aclıq və səfalət içərisində idik. Sabahkı günə heç bir ümidimiz qalmamışdı.

- Erməni siyasətinə görə Rusiya vaxtilə İran, Türkiyə, Azərbaycan və Gürcüstanla düşmən oldu. – deyə başını təəssüf hissilə tərpədən elmlər namizədi həqarətlə dilləndi. – Son vaxtlar apardığım araşdırmalardan məlum olur ki,

Rusiya ən böyük zərbəni Azərbaycana vurubdur. Qəribə paradoks yaranıbdır, bütün bunların müqabilində ən az rus Ermənistanda, ən çox rus isə Azərbaycandadır. Bizim millət harada onlara xoş münasibət göstərilirsə, həmin ölkədə də qalıb kök atır. Hal-hazırda Rusiya İranla sıx beynəlxalq əlaqələr qurubdur, rusiyalı turistlər isə böyük kütlə ilə Türkiyə şəhərlərində istirahət edir. Maraqlıdır ki, 20-si yanvarda və Xocalı soyqırımında biz sizin millətin maraqlarını müdafiə edərək, azərbaycanlıların başına olmazın müsibətlər açmışıq, lakin Azərbaycan hələ bizim ölkə ilə dostluq əlaqələrini pozmayıbdır. Halbuki Gürcüstan Abxaziyaya və Cənubi Osetiyaya dəstək göstərdiyimizə görə bizdən üz döndəribdir.

Siz ermənilərin düşmən adlandırdıqları millət elədir ki, onlara bir hörmət etsən, əvəzində isə ikiqat həmin hörmətin əvəzini çıxacaqlar. Məndə olan məlumata görə birinci azərbaycanlılar kütləvi şəkildə öz yurdlarından qovulur, ondan sonra isə onlar adekvat addımlar atmaq məcburiyyətində qalırlar.

- Sergey Vladimiroviç, lap birinci onlar Sumqayıtda minlərlə bizim soydaşlarımızı öldürüb, qalanlanlarını isə şəhərdən deportasiya etdilər. – deyə Edfuard yerindən dik atıldı. – Sumqayıt qırğını bütün dünyaya yayılıbdır. Bildiyiniz kimi həmin hadisələrədə mənim bacım da faciə ilə

üzləşmişdi. Onun əri müsəlmanlar tərəfindən vəhşicəsinə öldürülür, özü isə bir neçə quldurlar tərəfindən amansızcasına zorlanmışdı.

- Nəyə görə siz ermənilər rəqəmləri və faktları şişirdirsiniz? Həmin xaosda on nəfərə yaxın erməni öldürülmüşdü. Sumqayıt hadisələri ilə bağlı yaxşı araşdırma kitabları var və orada birmənalı şəkildə göstərilibdir ki, onların hamısını SSRİ DTK-i təşkil etmişdi ki, Azərbaycanda destabilizasiya baş versin. Ən dəhşətlisi isə odur ki, şəhərdəki qətlləri elə ermənilərin özləri ediblər ki, azərbaycanlıları dünya ictimaiyyətinin gözündən salsınlar. Bəli, bəli, Edik təəccüblənməyə dəyməz. Bu dəfə mən Stavropolda olan zaman bacınızla söhbət o, etiraf etdi ki, həmin qətllərin başında Eduard Qriqoryan adlı bir residivist durmuş və o, Jannanın ərini öldürmüş, özünü isə zorlamışdı. Bunu Sumqayıtda yaşayan bir çox ermənilərin özləri də yaxşı bilirdilər. Əslində Janna da öldürülməli idi, lakin xeyirxah azərbaycanlılar onu qatillərdən gizlətməyə müvəffəq olmuşdular. Təsəvvür edirsən, düşmən adlandırdığın həmin azərbaycanlılar, məhz sizin soydaşlarınızın törətdikləri qətllər zaman, bacınızı və bir çox erməni ailələrini ölümün pəncəsindən xilas etmişdilər.

- Janna ağlına gələni danışır, siz isə onun sözlərinə inanırsınız. – eşitdiyi sözlərdən pərt olan yaşlı erməni əsəb-

lərini saxlaya bilməib ikrah hissi ilə dilləndi. - O, harada gəldi bizim milləti biabır edir.

- Edik, gəl açıq danışaq, sən özünü ailən qarışıq qaçqın hesab edirsən? – deyə həmsöhbətinin yalanlarından bezən universitet müəllimi baxışlarını onun gözlərinin içərisinə dikərək kəskin şəkildə soruşdu.

- Qaçqın olmasaydıq, biz burada nə edirik? – deyə yaşlı erməni sir-sifətini turşutdu. – Belə bir yaşayış kimə lazımdır? Heç kim bizim dərdimizi başa düşmək istəmir.

- Təəssüflər olsun ki, bu düzgün cavab deyil. Mən sənin anadan olduğun və uzun müddət yaşadığın evdə olmuş və orada dəqiq öyrənmişəm ki, həmin kənd Qarabağın daxilində yerləşir və müharibə vaxtı heç vaxt təcavüzə məruz qalmayıbdır. Əksinə, Qarabağdan kənarda olan yeddi rayon ermənilər tərəfindən işğal olunubdur. Deməli, Azərbaycan dövlət başçısının beynəlxalq təşkilatlarda verdiyi bəyanatların yuridik əsasları var. BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrində Azərbaycanın ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan Respublikası hal-hazırda işğalçılıq siyasətini davam etdirməkdədir.

Mən, Ermənistanda və Qarabağda olanda bir dənə də olsun, qaçqın şəhərciyi görmədim, əksinə orada xarabazar-

lığa çevirilmiş işğal olunan Azərbaycan kəndlərini gördüm. Amma Azərbaycanın bir çox rayonlarında qaçqın şəhərcikləri var və oradakı insanlar iyirmi ilə yaxındır ki, dözülməz şəraitdə yaşayaraq, böyük bir həsrətlə doğma ocaqlarına qayıdacağı günü gözləyirlər.

Edik, mən Qarabağda olarkən, işğal olunmuş Azərbaycan kəndlərindən bir neçəsini gördüm. Onların evləri insan yaşamadığından xarabazarlığa çevrilibdir. Bu dəhşətdir! Qovulmuş insanlar çadırlarda, vaqonlarda, baraklarda, su çənlərində yaşayır, onların isə evlərində yarasalar yuva qurubdur. Başa düşürsən, həmin insanlar öz yurdlarından didərgin düşüblər və işğalçılar onlara həmin ocaqlara qayıtmağa imkan vermirlər. İşğalçılar da ki, kimlərdir, vaxtinlə Osmanlı Türkiyəsindən, İrandan qaçan və Azərbaycan torpaqlarına pənah gətirən ermənilərdir.

Azərbaycanın hər bir yerində şəhidlərin məzarlığı var, həlak olanların əksəriyyəti isə yaşı 19-a çatmamış cavan oğlanlardır. Qubada qətlə yetirilmiş mülki insanların məzarlığında olmuşam. Qubadakı məzarlıqda tapılan sümüklərin ermənilərin 1918-ci ildə törətdiyi soyqırımı qurbanlarına aid olduğu təsdiqlənib. Qubadakı kütləvi məzarlıqda aşkar edilən iki arx skeletlərlə doludur. Bu, ermənilərin 90 il əvvəl Qubada soyqırım həyata keçirdiyini sübut edir.

Xocalıda dinc insanlara qarşı törədilmiş soyqırım haqqında sənədli filmə baxanda inanmırdim ki, həmin vəhşilikləri insanlar törədibdir. Məlum olanda ki, həmin soyqırımda bizim əsgərlərin xidmət göstərdikləri 366-cı motoatıcı alay iştirak edibdir, xəcalətdən özümə yer tapa bilmədim. Hələ də anlaya bilmirəm ki, əlində silah olmayan körpə uşaqları, qadınları, ahıl insanları, insanlığa sığmayan üsullarla necə qətlə yetirmək olar?

- Bu türklərin növbəti yalanıdır. – belə ittihamların qarşısında vicdan əzabı çəkməyən Eduard etiraz etməyə çalışdı. – Hazırda onlar informasiya hücumuna keçmiş və hər yerdə bizi biabır edirlər.

- Yox Edik, onlar başlarına gələn müsibətləri dünya ictimaiyyətinə çatdırmaq istəyirlər. – hirsindən boğulan pedaqoq daha bir badə araq içdi. - Həqiqət zəhər kimi acı olsa da onu udmaq lazımdır. Bax, sən həmişə deyirsən ki, onlar sizin ölkəni blokadaya alıbdır və buna görə siz səfalətlə üzləşdiniz. Mən orada olanda gördüm ki, həm İranla, həm də Gürcüstanla sərbəst gediş-gəliş var. Amma Xocalı şəhəri hələ 1991-ci ilin oktyabrında blokadaya alınmışdı.

Şəhərin müdafiəsi əsasən avtomat və ov tüfəngləri ilə silahlanmış yerli özünümüdafiə dəstəsi, yerli milis qüvvələri və Milli Ordunun iyirmiyə yaxın döyüşçülərindən təşkil olunmuşdu.

Ondan sonra ev sahibi Veliçkonun **“Qafqaz”** əsərini masanın üstünə qoyub, səhifələrin arasından bir vərəq götürdü və tələsmədən orada yazılanları oxumağa başladı:

- Xahiş edirəm, bir qədər səbrli ol və mənə diqqətlə qulaq as. Fevralın 25-i axşam şəhər 2 saat “Alazan” tipli zenit toplardan və ağır artileriyadan şiddətli atəşə tutulub. Nəticədə, fevralın 26-ı səhər saat 5 radələrində Xocalı tam alova büründü. Mühasirəyə alınan şəhərdə qalmış təqribən 2500 nəfər xocalılı Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk edir. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əsgəran-Naxçıvanik düzündə erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla məhv edilmişdir.

2500 Xocalı sakinindən 613-ü düşmən gülləsinə tuş gəlib qətliamın qurbanı olur. Bu soyqırım nəticəsində 63-ü uşaq, 106-ı qadın, 70-i qoca və qarı olmaqla – 613 nəfər Xocalı sakini qətlə yetirilmiş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmişdi. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir, 150 xocalılı itkin düşmüşdü.

- Əziz Sergey Vladimiroviç, bu artıq cəfəngiyyatdır və türklərin növbəti uydurmasıdır. – deyə yaşlı erməni hiddətləndi və özünə haqq qazandırmaq üçün səsini bir qədər

qaldırmalı oldu. – Onlar bizi nüfuzdan salmaq üçün bu cür yalanlara əl atırlar.

- Edik, səsini aşağı salsan yaxşı olar. – Sergey soyuqqanlı tərzdə dilləndi. – İş ondadır ki, belə bir sənəd bir çox beynəlxalq təşkilatların ofisində çap olunubdur. Onlar isə Xocalıda baş verən soyqırımın miqyasını anlayaraq, belə bir faktları nəzərə almaq məcburiyyətində qalıblar.

## XIII fəsil. Güllə yarasından da acı olan həqiqət

Elə bu vaxt kabinetin qapısı döyüldü və nitqini kəsən ev sahibi kimin olduğunu soruşdu. Raisa qapını açıb onları süfrəyə dəvət etmək istədi, lakin fürsəti əldən verməyən pedaqoq qızı görən kimi ona bildirdi ki, Aleksandrı, Yelizavetanı və Roberti çağırıb, onlarla birlikdə kabinetə gəlsin. Bir az keçən kimi adları çəkilənlər dəvət olunan yerə gəldilər. Aleksandr Eduarddan kənarda divanda əyləşsə də, Raisa da onun yanında özünə yer tutdu və əlini

oğlanın dizinə qoydu. Robert artıq kefli idi və içəyiyə damağında siqaretlə gəlmişdi.

Sergey içkili olsa da hərəkətlərini nəzarət altında saxlaya bilirdi və sırtıq erməni belə bir görkəmdə gördükdə öz iradını bildirdi. Robert də pencərə ağzında əyləşərək əlindəki siqareti bayıra tulladı. Ev sahibi başladığı söhbəti başa çatdırmaq üçün son hücuma keçdi. O, söylədiyi ifadələrə görə məsuliyyət daşıyırdı və istəyirdi ki, həmin sözləri uşaqlar da eşitsin. O, əli ilə Raisa ilə Aleksandrı göstərib, üzünü yaşlı erməniyə tutdu və iradə ilə dedi:

- Edik, istərdim ki, qısa müddət ərzində jurnalist fakültəsini bitirəcək bu tələbələr də bizim diskussiyanın şahidi olsunlar ki, gələcəkdə obyektiv olmaqda onlara yardımçı olsun.

Xocalıda baş verən soyqırımdan iki gün sonra, yəni, fevralın 28-də tərkibində yerli jurnalistlərin də olduğu qrup 2 vertolyotla azərbaycanlıların həlak olduqları yerə çata bilmişdilər. Gördükləri mənzərə hamını dəhşətə gətirdi – düzənlik cəsədlərlə dolu idi. İkinci vertolyotun havadan mühafizəsinə baxmayaraq, ermənilərin güclü atəşi altında ancaq 4 meyidi götürmək mümkün olmuşdu. Martın 1-də yerli və xarici jurnalistlərin iştirakı ilə hadisə yerində daha da dəhşətli vəziyyət müşahidə olunmuşdur. Meyidlərin skalplarının götürülməsi, qulaqlarının və digər orqanlarının

kəsilməsi, gözlərin çıxardılması, çoxsaylı bıçaq və güllə yaraları, ağır texnika ilə əzilmələr, yandırılma halları aşkar edilmişdir.

Edik, sənə sual verirəm, özünə insan deyən bir kəs belə bir ağlasığmaz soyqırımı törədə bilər, ya yox?

Bu sözlərdən vəcdə gələn Raisa əlini oğlanın dizindən çəkdi və qormuş halda dayısına nəzər saldı. Eduard isə qəzəb içərisində təkzib verməyə tutarlı faktlar söyləməkdə aciz qalsa da, lakin son anda bu ittihamları rədd etmək üçün əsəbi halda dedi:

- Sergey Vladimiroviç, bunların hamısı türklərin uydurduğu cəfəngiyyatdır. Öz cinayətlərini başqalarının boynuna yıxmaq istəyirlər. Sizə neçə dəfə deyim axı, müsəlmanlar xristianların düşmənidir.

- Ola bilsin eşitdiyim hadisələr olsaydı, mən inanmazdım. – deyə ev sahibi videoya tərəf gedib Bakıdan gətirdiyi diski aparata saldı və televizorun düyməsini basdı. – Lakin əhalinin kütləvi surətdə qırılması ilə bağlı, bu sənədli filmə nə demək olar? Bu da yalandır?

Ondan sonra ekranda Azərbaycanın Milli Qəhramanı Çingiz Mustafayevin çəkdiyi Xocalıdan qaçan sakinlərin eybəcər hala salınan meyidlərin görüntüləri ekranda canlandı.

Ermənilərə nisbətən Aleksandr həmin faciənin ilk kadrlarını görəndə şok vəziyyətinə düşdü. Gələcəyin jurnalisti içkili olsa da, həmin tükürpədici kadrları görəndə, həmin an sanki yuxudan ayıldı və atasına baxmadan seyr etdiyi qətliamın kimlər tərəfindən törədildiyini soruşdu.

- Bunu sən jurnalist həmkarından soruşsan, daha münasib olar.- deyə Sergey həqarət içərisində olsa da, bu ifadəni istehza ilə söylədi. - Mənə elə gəlir o, bu kadrlara bir neçə dəfə baxıbdır.

- Birinci dəfədir ki, mən bu kadrları seyr edirəm. – deyə özünü bilməməzliyə vuran hiyləgər qız çiyinlərini çəkdi.

- Əziz Saşa, bu türklərin öz millətinin başına gətirdiyi müsibətdir və bu cinayəti bizim boynumuza yıxmaq istəyirlər. – deyə sir-sifətini əyən yaşlı erməni bir daha həyasızlığını nümayiş etdirməkdən çəkinmədi.

- Edik, bəsdir bu cavanlara yalan söylədin. - əsəbləri tarıma çəkilən ev sahibi səsini yaşlı erməninin üstünə qaldırdı. – Demək, bütün bu vəhşiliyi də başqalarının boynuna yıxmaq istəyirsiniz? Ola bilsin, sizlərin heç nədən xəbəri yoxdur. Bəs, indi sadaladığım faktlara qarşı hansı tkzibi verəcəksiniz.

Həmin dövrdə erməni diasporasının müqavimətinə baxmayaraq, 1992-ci ildə dünyanın nüfuzlu qəzet səhifələrində baş verən qətliam barəsində silsilə yazılar dərc olunmuşdu.

– Sergey sol tərəfdəki kitabxananın rəflərin birindən bir kağız parçası götürüb oxumağa başladı. - **“Krua l'Evene-man”** jurnalı (Paris), 25 fevral:“Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyidlərin şahidi oldu”. **“Sandi Tayms”** qəzeti (London), 1 mart: “Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər”. **“Tayms”** qəzeti (London), 4 mart: “Çoxları eybəcər hala salınmışdır, körpə qızın ancaq başı qalmışdır”. **“İzvestiya”** (Moskva), 4 mart: “Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının sifətinin yarısı kəsilmişdir. Kişilərin skalpları götürülmüşdür”. **“Faynenşl Tayms”** qəzeti (London), 9-u mart: “Ermənilər Ağdama tərəf gedən dəstəni güllələmişlər. Azərbaycanlılar 1200-ə qədər cəsəd saymışlar”. **“Le Mond”** qəzeti (Paris), 14 mart: “Ağdamda olan xarici jurnalistlər, Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxardılmış 3 nəfəri gör-müşlər. Bu azərbaycanlıların təbliğatı deyil, bu reallıqdır”. **“İzvestiya”** (Moskva), 13 mart: Mayor Leonid Kravets: “Mən şəxsən təpədə yüzə yaxın meyid gördüm. Bir oğlanın başı yox idi. Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü”. **“Valer aktuel”** jurnalı (Paris), 14 mart: “Bu "müxtar regionda" erməni silahlı dəstələri Yaxın Şərqdən çıxmışlarla birlikdə müasir texnikaya, o cümlədən vertolyotlara malikdirlər. ASALA-

nın Suriya və Livanda hərbi düşərgələri və silah anbarları vardır. Ermənilər yüzdən artıq müsəlman kəndlərində qırğınlar törədərək Qarabağdakı azərbaycanlıları məhv etmişlər”. R. Patrik, İngiltərənin **"Fant men nyus"** teleşirkətinin jurnalisti (hadisə yerində olmuşdur): “Xocalıdakı vəhşilikllərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz”.

- Ata, bu nə dəhşətdir? – deyə Aleksandr əlləri ilə başını tutaraq şok vəziyyətinə düşdü.

- Demək istəyirsiniz ki, həmin vəhşilikləri bizimkilər törədiblər? – çaş-baş qalan Eduard dili topuq vura-vura dilləndi. – Oxuduqlarınız türklərin informasiya təbliğatıdır. Bakıda baxdığnız videolar sadəcə olaraq montajdır. Məni təəccübləndirən odur ki, həmin müharibədə qırılan bizik, lakin azərbaycanlılar günahsız kimi qələmə verilir.

- Bəlkə, əksinə demək istəyirsən, qırılan onlardır, günahsız göstərilən isə sizinkilərdir. Montaj hesab etdiyin videoları universitetin humanitar fakültələrində təhsil alan tələbələrə təqdim edəcəm və həmin faciə ilə bağlı onların fikrini öyrənəcəm. Məhz ondan sonra görüm nə deyəcəksən?

O ki qaldı mənim oxuduqlarıma və disklərdəki görüntülərə, mən həmin yazıların hamısını Sankt-Peterburqa qayıdan kimi yoxlamış və əmin olmuşam ki, bütün bunlar əsl həqiqətdir.

Mən biləni Raisa ilə Saşa bu mövzu ilə bağlı xeyli sayda məqalələr yazmış və bizim universitetdə yaymışdılar. Özü də bu işdə mən müəyyən köməkliklər göstərmişəm. Onda belə çıxır ki, Qarabağ münaqişəsi ilə olan hadisələri Raisa mənə və Saşaya yanlış şəkildə nəql edibdir.

- Sergey Vladimiroviç, mən qohumlardan və dost-tanışlardan eştdiyim hadisələrlə sizi tanış etmişəm. – deyə yalanın üstünün açıldığını görən qız, üzü qızara-qızara günahı başqalarının boynuna atmağa çalışdı.

- Təəssüflər olsun ki, mən bu məsələ ilə bağlı araşdırmalarımı gec apardım. – Sergey başını bulayaraq pəncərəyə tərəf getdi və üzünü uzaqda ucalan Petropavlovsk məbədinin qülləsinə tutaraq sanki xəyala dalmış bir insan kimi sözünə əlavə etdi. - Məni dəhşətə gətirən odur ki, azərbaycanlılar dədə-baba toraqlarından qovularaq çadırlarda məskunlaşmağa məcbur olur, ermənilər isə böyük bir ərazini işğal etməsinə baxmayaraq, hətta öz yaşadıqları ocaqları tərk edib Rusiyaya, Fransaya, Amerikaya və digər dövlətlərə üz tutur və hamıya bəyan edirlər ki, onları müsəlmanlar qovublar.

Xocalıda törədilən qətliamdan sonra bu cinayəti başqasının boynuna atmaq Allahın özünə də xoş getməz. İnanmaram ki, azərbaycanlılar körpə uşaqların başını yarı bölsün, qocaların başının dərisini soysun, qadınların müəyyən

orqanlarını kəssin və ümumiyyətlə, ölən adamların cəsədlərini tanınmaz hala salsın. Çünki insana zülm etmək, balaca uşaqların və meyidlərin üzərində işgəncələr aparmaq onların xislətinə uyğun deyil.

Edik, Xocalı soyqırımında iştirak etmiş soydaşlarının və onların köməkçilərinin hərəkətləri insan haqlarının kobud surətdə pozulması, beynəlxalq hüquqi aktların – Cenevrə konvensiyası, Ümumdünya İnsan Haqqları Bəyannaməsi, vətəndaş və siyasi hüquqlar barədə Beynəlxalq Sazış, Fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi Bəyannaməsinə məhəl qoyulmamasıdır.

Eduard gördü ki, qısa müddət ərzində tarixçi pedaqoqun xassiyyəti kəskin dərəcədə dəyişibdir və o, Bakı səfərindən sonra Qarabağ münaqişə ilə bağlı bir çox faktlara yiyələnibdir. Sergey həmin faktları sadalamaqla bir növ onların insanlığa qarşı törədilən çirkin siyasətini ifşa edirdi. Lakin bütün bunlara baxmayaraq başqalarına böhtan atan evdəki ermənilər hələ də öz həyasızlıqlarını davam etdirməkdə idilər.

- Sergey Vladimiroviç, bildiyiniz kimi valideynlərim Sumqayıtda yaşayırdılar. – deyə bəraət qazanmağa çalışan Raisa ev sahibi ilə dayısının arasında gedən əvvəlki söhbətdən bixəbər kimi, xəcalət çəkmədən dilləndi. – Həmin

şəhərdə yaşayan türklər mənim atamı öldürdülər, anamın başına min-bir müsibət açdılar, özümüzü isə doğma ev-eşikdən didərgin saldılar.

- Sən heç vaxt özünə belə bir sual verməmisən ki, atanı öldürdükləri halda anan necə sağ qalıbdır? – deyə pedaqoq həmin an qızı sorğuya tutdu. – Axı, sən həmişə deyirdin ki, yerli adamlar minlərlə sizin millətin nümayəndələrini qətlə yetiriblər.

- Dəqiq bilmirəm necə, amma eşitdiyimə görə o, başqa ermənilərin evində gizlənməyə imkan tapmışdır. – Raisa dayısına nəzər sala-sala tərəddüdlə cavab verdi.

- Sənin atanı elə ermənilərin özləri öldürmüş, ananı da həmin canilər zorlamışdılar və onun sağ qalmasında məhz azərbaycanlılar mühüm rol oynayıblar. – deyə ev sahibi ekstremist ruhlu qızın diqqətini özünə cəlb edərək qətiyyətlə dilləndi. – Kim də bilməsə, dayın Eduard həmin məlumatı dəqiq bilir. Həqiqəti anlamaq istəmirsənsə, sən son anda fəlakətlə üzləşəcəksən.

Söylənilən ifadələr qarşısında pərt qalan qız təəccüb dolu hisslərlə dayısını süzməyə başladı. Ortaya bir arqument çıxara bilməyən yaşlı erməninin dili-ağzı qurumuşdu. Çünki bu sözləri başqa bir kəs yox, vaxtilə onun hər bir kəlməsinə inanan rus ziyalısı söyləyirdi. Lakin buna baxmayaraq, belə bir ifadələr qarşısında sudan duru çıxmağa

çalışan, eşitdiyi sözləri qulaq ardına vuran, həyasızlığını boynuna alan, sərt ittihamlardan çəkinməyən, daim öz dediklərini yeritməyə öyrəşmiş Eduard titrəyən əllərini sıxıb sırtıqcasına dedi:

- Sergey Vladimiroviç, siz mənim xətirimə dəyirsiniz. İki gün Bakıda qalmaqla siz heç bir şeyi araşdırmadan müsəlmanların uydurmalarına inanmısınız. Bağışlayın məni, əsl xristian belə bir cəfəngiyyatları iftira saymalıdır. Türklər daim biz erməniləri ləkələməyə çalışıblar. Bütün dünya bilir ki, biz ermənilər Cənubi Qafqazda vəhşi sayılan müsəlmanların bütün təzyiqlərinə sinə gərərək, orada xristianlığı nəinki qorumağa müvəffəq olmuş, hətta yaymaqda da xüsusi fəallıq göstərmişik. Bu bizim minnətdarlığımızdır?

- Azərbaycanlılar kimi istəsəniz yoldan çıxara bilərlər. – deyə Robert əsl millətçi kimi öz millətinin mövqeyini qorumağa çalışdı. – Biz xristianlar bir-birimizi müdafiə etməliyik ki, müsəlmanlar başımızın üstündə at oynada bilməsinlər.

- Deyəsən, unudursunuz ki, mən tarixçiyəm. Mənim ağlım var, həmişə də ağlım ilə də hərəkət edirəm. Bəzən məni sadəlövlük və insanları yaxşı tanımamağım pis vəziyyətdə qoyur. Azərbaycanda həqiqəti həm qulaqlarımla eşitdim, həm də gözlərimlə gördüm və vaxt itirmədən

əcnəbi yazıçıların həmin hadisələrlə bağlı elmi ədəbiyyatları nəzərdən keçirdim və hal-hazırda da gecə-gündüz həmin materiallarla məşğulam. – O, üzünü yaşlı ermənıyə tutub siddi halda sözünə əlavə etdi. - Amma etiraf etməliyəm ki, vaxtilə sənin söylədiklərinin əksəriyyəti uydurmalar imiş.

- Siz mənim...

Eduardın coşmaq istədiyini görən elmlər namizədi sağ əlinin hərəkətini ilə onun yerində qalmasına işarə etdi və ara vermədən sözünə davam etmək üçün həmin tərzdə dedi:

- Xahiş edirəm, yerində qal və sözümü kəsmə. Axı, əvvəlcədən dedim ki, biz bir-birimizlə açıq söhbət edəcəyik.

Həmin vaxt mən elə bilirdim ki, həqiqətən azərbaycanlılar türk emissarlarının fitvasına uyaraq, sizin millətin deportasiyası ilə məşğuldur. Onsuz da illər boyu mənəvi əzab çəkən ermənilərin Bakıdan, Sumayıtdan və digər yaşayış məntəqələrindən qovulmasına görə mən azərbaycanlılara üz göstərmir, onlarla heç bir məclislərdə iştirak etmir, ümumiyyətlə onlara qarşı nifrətim artmışdı. Azərbaycan xalqının tarixinə qara həriflərlə həkk olunmuş 20-si yanvara görə Mixail Qorbaçova və Sovet ordusuna haqq qazandırırdım. Məhz bu yaxınlarda başa düşdüm ki, mənim şübhələrim və mülahizələrim yanlışdır.

Hər bir insan bu dünyaya gələndə valideyn onun xoşbəxt olmasını arzulayır. Bunun üçün yaxşı ev-eşik, münasib iş və ətrafdakı insanların diqqət və qayğısı lazımdır. Sizin millətin nümayəndələri Bakı, Sumaqayıt, Gəncə və başqa şəhərlərdə əlverişli yerlərində azərbaycanlılardan yaxşı ev-eşiklərə, milis və prokurorluq orqanlarında, bütün nazirliklərdə, rayon icraiyyə, partiya komitələrində, Mərkəzi Komitədə yüksək vəzifələrdə işlə təmin olunmuş və onlara həddindən artıq hörmət bəslənilirdi. Qarabağın ən səfalı yerləri sizlərə verilmişdi ki, heç bir şeydən narazı qalmayasınız. Sizin millət isə bununla razılaşmayıb onlara qarşı silahlı münaqişəyə başladı. Müsəlmanların elə Bakıda yaşadıqları qəsəbələri, Qarabağdakı, Ermənistandakı yaşayış məntəqələri və tutduqları vəzifələrini üzə çıxardanda, onda başa düşdüm ki, burada ədalət kobud surətdə pozulubdur. Anlaya bilmirəm ermənilər niyə belə yaxşılıqları unudurlar? Yoxsa, onlara bütün bunlar azlıq edibmiş?

- Türklər ev-eşiklə, verdikləri vəzifələrlə başlarımızı qatmaq istədilər, - deyə hirsindən partlayan Eduard bir badə araq içib həyasız halda təkzib bildirməyə başladı. - biz isə öz sayıqlığımızı itirmədik.

Sergey Vladimiroviç, sizin iradlarınızın heç bir əsası yoxdur. Ona görə ki, biz öz müstəqilliyimiz, azadlığımız, torpaqlarımızın geri qaytarıl-ması uğrunda mübarizəyə

qalxdıq və qismən də olsa buna nail olmuşuq. Əsas ərazilərimiz Türkiyə və İranda qalıbdır. Gec-tez Qarabağın müstəqilliyi beynəlxalq ölkələrdən tərəfindən tanınacaq və biz suveren bir ölkə kimi öz fəaliyyətimizi davam etdirəcəyik.

Torpaqlarımızı türklərdən azad etmək bizim milli ideologiyamızın əsasını təşkil edir. bu torpaq uğrunda həlak olmuş babalarımızın ümumi arzusudur.

Siz onları yaxşı tanımırsınız, azacıq imkanları olsa onlar nəinki bizim, hətta Yer kürəsində olan bütün xristianların qanını içərlər. Təəssüvlər olsun ki, xristian ölkələri bunu dərk etmirlər.

Elə bu məqamda ev sahibi otaqda olan hər bir erməninin gözlərinə nifrət dolu olan baxışlarını yönəldərək, daxilində nəyisə götür-qoy etməyə başladı. Sanki o, həyasızlıq nümayiş etdirən həmin ünsürlərə qarşı son həmlə endirməyə hazırlaşırdı.

## XIX fəsil. Yalançıların ifşa olunması

Ermənilər başa düşdülər ki, ev sahibi onların bütün məkrli planlarını alt-üst edir və onların iç üzünü öz

övladlarının yanında açırdı ki, həmin adamların kimliyi onlara bəlli olsun. Tarixçi pedaqoqun belə bir münasibəti görən ermənilər açıq-aşkar şəkildə hiddətlənsələr də, Sergey onların hamısını sakitləşdirərək, hökmlə dedi:

- Məlumatınız olsun ki, Nizami mənim ən tərbiyəli, mədəni, qanacaqlı tələbələrindən biridir. Bakıya getməyənə qədər biz dəfələrlə söhbət etsək də, o, heç vaxt qaçqın olduğunu vurğulamamışdı. Mənim sözümün canı var, çalışın mənim sözümü kəsməyin. Son zamanlar mən bilmişəm ki, o, həqiqi mənada qaçqındır və indiyənə kimi onun ailəsi qaçqınlıq həyatı yaşayır. Amma Edik Sankt-Peterburqa qədəm qoyan gündən hamıya qaçqın olduğunu car çəkirdi. Halbuki məlum olur ki, o, qaçqın deyil öz soydaşlarını aldadaraq doğulduğu yerdən qaçaq düşən bir adamdır.

Statistik məlumata əsasən, Qarabağ müharibəsinə qədər Qaradağlı kəndində məskunlanşan əhalinin əksəriyyəti azərbaycanlılar idi və onlar azlıq təşkil edən ermənilərlə qardaş-bacı kimi yaşayıblar. Sonrakı hadisələr zamanı azərbaycanlıların bir çoxu öldürüldü, sağ qalanlar isə qaçqın kimi Azərbaycanın digər bölgələrinə səpələndilər. Əgər, həmin kənd sırf ermənilərin nəzarəti altındadırsa, bəs nəyə görə Eduard həmin kənddə qalmaq istəməmiş və özünü mənə qaçqın kimi təqdim etmişdi?

Mən Robertlə həmin kənddə olanda orada yaşayan yerli əhali Eduardın kimliyini açıqlayanda mən dəhşətə gəldim. İş ondadır ki, Eduard o biri soydaşları ilə birlikdə, yaxınlıqda olan qəbristanlıqda azərbaycanlıların qəbir üstü mərmər daşları qoparıb, Ermənistanın paytaxtında kommersantlara satırmış. Belə əməliyyatların birində o həmkəndlilərin aldadıb, onların ona etibar etdiyi başdaşları ilə birlikdə doğulduğu kəndi birdəfəlik tərk edir.

- Bütün bunların hamısı yalandır. – deyə stress vəziyyətdən sir-sifəti əyilmiş yaşlı erməni səsini qaldırdı. – Qonşularım mənim həyatıma və dolanışığıma həsəd apardıqlarından, mənim adımı ləkələməyə çalışıblar.

- Eşitdiyim sözlər yalan olsaydı, yanımda olan Robert təkzib verərdi. Edik, sən çox yaxşı bilirsən ki, doğulduğun yurdda nə gözləyir, ona görə də sən, hətta doğmalarının hüzrünə ora gedə bilməmisən. Bundan əlavə sən Xankəndi həbsxanasında nəzarətçi işləmiş və ora düşən hər bir azərbaycanlını, hətta öz qonşularına da işgəncələr vermisən. Bu azmış kimi sən hər şeydə azərbaycanlıların sizin ailənizə xəsarət yetirdiyini bəyan etmisən. İndi mənə deyə bilərsən kimdir burada qaçqın, sən, yoxsa Nizami?

Tarixçi pedaqoqun qığılcıma bənzər ifadələri Eduardı və başqa ailə üzvlərini pis vəziyyətdə qoymuşdu. Yaşlı ermənininin qızları bu biabırçılığa tab gətirməyib ağlaya-

ağlaya kabinetdən çıxdılar. Raisa isə bunun nə ilə qurtaracağını gözləməyi qərara aldı. Əsəblərini birtəhər cilovlayan Eduardın dili-ağzı qurumuşdu. Yalnız Robert fikir bildirmək üçün ağzını açmaq istədi, lakin ev sahibi onun sakit olmağa dəvət etdi.

Övladlarından başqa qarşısındakı adamların nə dərəcədə həyasız, siyapur, riyakar, yaltaq, evyıxan olduqları sübuta yetiriləndən sonra Sergeyin onlara olan hörməti birdəfəlik yoxa çıxmışdı. Sanki qarşısında olan ermənilər insan yox, gör eşən, ölü yeyən çaqqallar idi. Bundan sonra ev sahibi kin-küdurətdən, düşmənçilikdən, nifrətdən, başlarını itirmiş, yaxşını pisdən ayıra bilməyən həmin adamları saxlamaq fikirində deyildi. Lakin son söz deməklə, onların son fikirini öyrənmək üçün pedaqoqlara xas olan tərzdə sual verdi:

- Edik, sənə bir sualım var. Sən Zori Balayanın **"Ruhumuzun dirilməsi"** əsərini oxumusan? Amma düzgün cavab ver.

- Həmin əsəri nəinki mən, hətta ağlı kəsən hər bir erməni oxuyubdur. – deyə yaşlı erməni dili topuq vura-vura tərəddüd etmədən cavab verdi.

- Elə mən də həmin əsəri ən azı üç dəfə oxumuşam. – deyə emosional tərzdə olan Raisa da bir qədər rahatlaşaraq səbirsizliklə dilləndi.

- Həmin əsəri oxuyanda, mən sanki dirçəlir və kimliyimiz ilə fəxr edirəm. – deyə Robert kinli halda dilləndi. – **“Ruhumuzun dirilməsi”** əsəri bilavasitə bizim milli ideologiyamıza xidmət göstərir və cavan nəsil demək olar ki, oradakı sətirlərlə milli-mənəvi dəyərlərə söykənən özünəməxsus şəkildə təlim-tərbiyə alır və mentalitetimizin möhkəmlənməsində mühüm rol oynayır.

- Əsəri oxuyandan sonra heç birinizdə vicdan əzabı oyanmadı? – deyə Robertin fikirindən sonra daha da qəzəblənən rus ziyalısı nifrət hissilə soruşdu.

Bu sual kabinetdəki erməniləri daha da sarsıtdı və onlar verilən sualı təhqir olunmaq kimi başa düşərək, öz narazılıqlarını bildirdilər. Tarixçi pedaqoq onları birtəhər sakitləşdirərək, fikrini tamamlamaq üçün ciddi halda dedi:

- Həmin əsərdə Xocalının işğalı ilə bağlı bəzi məqamlar göstərilibdir. Zori Balayanın 13 yaşlı uşağın başına hansı müsibətin açdığı yeri oxumusunuz da?

- Əlbəttə! – deyə özündən müştəbeh halda razı olan Robert cəlladlara xas olan tərzdə dilləndi və tarixçi pedaqoqun ifadəsinə düzəliş vermək üçün əlavə edir. – Sergey Vladimiroviç, adi uşağın yox, türk uşağının başına müsibət açılıbdır. Hörmətli yazıçımız axşama qədər daha üç türk uşağını həmin üsulla o dünyaya göndərir.

Robertin bu açıqlaması ilk növbədə Aleksandrla Yelizavetada şok effekti yaratdı və onlar sanki təşvişə düşərək, az qala bir-birilərinə qısılacaqdılar. Onun son ifadələri, hətta Raisanın da xoşuna gəlmədi. Dialoq zamanı etik normaları qulaqardına vuran  Robert kefli olduğu üçün ürəyində olan hər bir sirri açıqlamağa hazır idi. Bu səmimiyyəti ilə o, nəyə qadir olduğunu ətrafdakılara nümayiş etdirdi.

- Robert, yalnız yırtıcılar o cür vəhşilikləri həyata keçirə bilərlər. – deyə dəhşətdən gözləri bərələ qalan Yelizaveta qəzəbini saxlaya bilmədi və üzünü qardaşına tutub qorxu hissi keçirən bir adam kimi sözünə əlavə etdi. – Saşa, mən bir-iki dəqiqədə burada qalsam, eşitdiyim dəhşətlərdən dəli olaram. Belə bir ekzekusiyalar ilə yalnız heyvani hisslərlə yaşayan canlılar öyünə bilər və bundan da vicdan əzabı çəkməzlər.

- Alfred Hiçkoka demək lazımdır ki, qorxulu, dəhşətli filmlər çəkmək istəyirsə, Zori Balayana, digər erməni ziyalılarına və və qeyri-insani əməllərlə fəxr edən bütün anormal ermənilərə müraciət etsin. – deyə eşitdiklrindən hələ də özünə gələ bilməyən Aleksandr nifrət dolu hisslərlə dilləndi və üzünü Raisaya tutub nifrət hissi ilə sözünə əlavə etdi. – Raya, normal adam bir dəfə adı çəkilən xəstə təxəyyüllü yazıçının əsərini oxusa, özünü erkən əsrlərdə Avropanın bir çox şəhərlərində baş verən qətliamlarda hiss

edər və bəlkə də dəli olar. Sən isə utanmadan böyük fəxarətlə deyirsən ki, həmin tükürpədici əsəri üç dəfə oxumusan. Belə bir ekzekusiya ilə yalnız yırtıcılar fəxr edə bilər. Təəssüflər olsunt ki, mən səni əvvəllər tanımamış və səninlə dostluq etdiyimə görə özümbağışlamıram.

Məhz belə bir təsiredici sözlərdən sonra Aleksandr atasından icazə almadan, qeyri-ixtiyari halda bacısı ilə buranı tərk etdi. Nəinki Eduard, hətta Raisa da ifşa olunaraq hamının gözü qarşısında təhqir olundu.

Bacı ilə qardaşın belə bir davranışı ondan xəbər verirdi ki, Sergeygil birdəfəlik olaraq Eduardın ailəsindən üz döndərirlər. Bütün bunların hamısının təqsirkarı Robertin düşünülməmiş hərəkətləri idi.

Əmisi oğlunun bu cür hərəkətindən sonra ən əsas Eduard pis vəziyyətdə qaldı. Çünki o, tarixçi pedaqoqun həmin sualı verməklə nə istədiyini yaxşı bilirdi. Adi söhbət zamanı insan xarakterinin nəyə qadir olduğunu müəyyən etməkdə çətinlik çəkməyən Sergey aldığı cavabla həmsöhbətinin iç dünyasını öyrənmək istəyirdi. Müəyyən mənada o, buna nail oldu. Halbuki illər boyu Eduard yalan ifadələr verməklə, başqalarını şərləməklə, özünü yazıq görkəmdə nümayiş etdirməklə tarixçi pedaqoqu aldatmağa müvəffəq olmuşdu. Artıq bu dəfə bütün sirrlər açılmış və yaşlı erməni ailəsi ilə birlikdə ev sahibinin yanında ifşa olunmuşdu.

Qarabağ faciəsi ilə bağlı bir çox materialları əldə edən və faktlara söykənən müvafiq məlumatlara malik olan Sergey qəddar ermənin etirafından sonra əsəbilərini saxlaya bilmədi və o, nifrət dolu baxışlarını həm Eduarda, həm də Robertə yönəldərək emosional tərzdə dedi:

- Siz neçə adamlarsınız? Belə bir ekzekusiya ilə necə fəxr etmək olar? İnsanlığa sığmayan qəddarlığını, törətdiyi qeyri-insani cinayət əməlini ədəbi-publisistik əsərdə nümayiş etdirən bir millətin ziyalısına nə ad vermək olar? Yalnız cəllad adı!

Bir millət ki, Zori Balayana ziyalı deyir və onun əməlləri ilə fəxr edirsə, ona millət demək olmaz. Belə bir cinayətləri törədən və həmin cinayətlərə haqq qazandıran ünsürlərə, humanizm prinsipləri ilə yaşamağı bir məqsəd kimi qarşısına qoyan sivil dünyada yer olmamalıdır. Çünki əlləri qana bulaşan, körpələrə, uşaqlara, hamilə qadınlara, qocalara ən ağır işgəncələr verib, sonra isə amansız şəkildə edam etmək və bundan böyük həzz alan həmin ünsürlərin ətəklərindən qan iyi gəlir.

- Xahiş edirəm, sözlərinizə diqqət yetirəsiniz. – deyə hərtərəfli biabır olan Eduard da qəzəblənərək coşdu və ayağa qalxıb əl-qolu əsə-əsə həmin tərzdə sözünə davam etdi. – Hər şeyin səbri var, bu qədər dözmək mümkün deyil.

Sergey Vladimiroviç, siz mənim millətimi təhqir etməklə mənim şəxsiyyətimə toxunursunuz. Başqa adam olsaydı mən onu əlil olana qədər şil-küt edərdim. Təəssüflər olsun ki...

- Sən kimsən axı, müasir sivilizasiyanı qurub-yaradan erməniləri təhqir edirsən? – deyə kifayət qədər kefli olan və ayaq üstələngər vuran Robert yumruqlarını sıxaraq ikrah hissi ilə dilləndi. – Bu sözlərə görə səni nəslin qarışıq yox edərəm.

- Qarabağda etdiyiniz quldurluğu mənim evimdə etmək istəyirsiniz? – deyə səsini qaldıran Sergey hiddətləndi. – Düz sözə tab gətirmirsiniz?

Öldürülmüş uşaqların cəsədlərinin iyi gələn ziyalısının əsəri ilə fəxr edən bir millətə, - "tfu" deyərək lənətləyirəm.

- Bu artıq ağ oldu. – deyə daha da qəzəblənən Eduard həyasızcasına qışqırdı. – Mənə yaşamaq üçün ev vermisiniz deyə, kefiniz istədiyiniz şəkildə təhqir etməlisiniz. Kefli olduğunuza görə ağınıza nə gəldi danışırsınız.

- Hamı bilir ki, mən qədərində içir və heç vaxt da keflənməmişəm. – deyə ev sahibi qətiyyətlə dilləndi.

- Mənim də özümə görə qürurum var və təhqir olunmağımı heç cürə qəbul edə bilmərəm. – Eduard əvvəlki tərzdə fikrini bildirdi. – Guya ruslar türklərin qanını axıtmayıblar?

- Biz türklərlə müharibə aparmış və heç vaxt dinc əhaliyə qarşı ekzekusiya tətbiq etməmişik. – Sergey əlində olan kağızları yuxarı qaldırıb əsəbi halda dilləndi. – Çox təəssüflənirəm ki, bizimkilər erməniləri müdafiə etməklə, onlara yaşamaq üçün yer ayırmaqla özümüzə çoxsaylı düşmənlər qazandıq.

- Bizim millət olmasaydı, Qafqaz çoxdan türklərin və ya iranlıların olardı. – deyə Qarabağda törədilən cinayətlərə bəraət qazandırmağa çalışan yaşlı erməni israrla dilləndi. – Milli ideologiyamızın əsas şərtlərindən biri odur ki, öz torpaqlarımızı türklərdən azad edib, onları bir millət kimi yer üzündən silək. Katolikos da bu ideyanın gerçəkləşməsi üçün öz xeyir-duasını veribdir.

- Əgər, sizin millətin kilsə başçısı terroru, qətliamları, soyqırımları dəstəkləyirsə siz kanniballardan da beşbetər-siniz. – deyə ev sahibi daha da coşdu və qapıya tərəf gedib əlini dəstəkdən tutaraq qəzəblə sözünə əlavə etdi. – Faşist ideologiyasından seçilməyən bir ideologiya ilə öyünən bir millətin nümayəndələrinin mənim evimdə olması mənim üçün qəbahətdir və bundan sonra mən sizin kimiləri heç vaxt yaxınıma buraxmayacağam.

- Bundan sonra sözlərinizə hədd qoymasanız aramızda böyük narazılıq yaranacaq. – deyə Robert də araya girdi. – Bakıya gedib türklərin ağızdolusu uydurmalarından sonra

siz bizi təhqir etməklə məşğulsunuz. Bir xristian kimi müsəlmanları müdafiə etmək sizə başucalığı gətirməz.

- Robert, mənim evimdə oturub mənə hədə-qorxu gəlmək, sənin yaramaz olduğundan xəbər verir. – deyə əsəb içərisində boğulan ev sahibi daha da hiddətləndi və qapını açaraq həmin tərzdə əlavə etdi. – Türklər nə qədər yalançı olsalar da, onlar həmin sahədə sizin millətə, xüsusən də Edikə çata bilməzlər. İndi isə mənim evimi tərk edin.

Bu dəfə Eduard əmisi oğlunu qabaqlayaraq ev sahibindən sözlərinə hədd qoymasını tələb etdi. Hər iki qohum az qala tarixçi pedaqoq qarşı güc də tətbiq edəcəkdilər. Lakin onların hədə-qorxusuna heç bir əhəmiyyət verməyən elmlər namizədi zala keçib əli ilə çöl qapısını göstərərək təkidlə dedi:

- Sizə dedim axı, hamınız evimi tərk edin. Edik, sənin üçün aydınlıq olsun deyim ki, iki gün ərzində qaldığın evi tərk edib açarları mənə təhvil verməlisən. Həmin evdə sənin kimi yalançı yox, əsl qaçqınlar qalıb öz güzəranlarını bir qədər yaxşılaşdırmalıdırlar.

Ev sahibinin bu tələbi Eduardı və onun qohumlrını tamamilə rüsvay etdi. Belə bir təhqirə dözmək istəməyən Robert yumruğunu sıxıb Sergeyi vurmaq istədi, lakin son anda o, bir qədər aralıda Nizamini görüb – “araya düşmənçiliyi

salan, bu türkdür" deyərək,ləngər vura-vura həmin səmtə yollandı.

Vəziyyətin gərginləşməsini istəməyən Yelizaveta qardaşı ilə birlikdə onun qabağını kəsib, fiziki zor tətbiq etməməsini tələb etdilər. Lakin buna baxmayaraq Robert hücumunu davam etdirmək üçün onları kənar itələdi. Bu məqamda ev sahibinin qızı tarazlığını saxlamayaraq, arxası üstə yerə sərildi. Gözlərini qan bağlamış kefli erməni qızın yıxılmasına əhəmiyyət vermədən Nizamiyə yaxınlaşdı və ona var gücü ilə yumruq zərbəsi endirdi.

Hamıdan ayıq olan azərbaycanlı tələbə özünü sığortalamaq üçün, boksçulara xas olan, ani məqamda aşağı əyilib təzədən qalxmaq fəndini işlətdi. Zərbəsi boşa çıxan erməni yerində fırlanaraq böyrü üstə, yenicə ayağa qalxmış Yelizavetanın ayaqları altına yıxıldı. Robert ayağa qalxmaq istəyəndə, kefli olduğundan tarazlığını itirib bir daha yerə sərildi, lakin bu dəfə onun başı yemək masasının küncünə dəyərək, möhkəm zədələndi. Erməni kommersantının başından açılan qan yeri bulayanda, o biri qohumlar qışqırbağır salaraq, Nizaminin üstünə yeridilər. Heç bir təqsiri olmayan azərbaycanlı tələbə çaşqınlıq içərisində, onları özündən kənarlaşdırmağa başladı.

İşi belə görən Sergey gənc oğlanın müdafiəsinə qalxaraq, həyasızlıq edənlərdən evini tərk etməsini tələb etdi.

Əmisi oğlunu yerdən qaldıran Eduard qəzəbini saxlamayıb, ev yıxanlara xas olan tərzdə dedi:

- Hansısa bir türk mənim Robikin qanını axıdır, sən isə həmin cinayətkarı müdafiə edirsən?

Həmin an o biri qohumlar da Eduarda dəstək oldular.

- Siz nə qədər şər adamlarsınız. – deyə əsəblərini cilovlaya bilməyən rus ziyalısı emosional tərzdə dilləndi. – Yazıq oğlanın barmağı Robertə dəyməmiş, siz hamınız onu cinayətkar adlandırırsınız.

Tez ol, özünü ayaq ütsə saxlaya bilməyən – o, əli ilə başı yarılmış Roberti göstərərək – bu alkaşı götürüb mənim evimdən çıxın. Yoxsa, mən başqa tədbirlərə əl atmalı olacam.

Onlar nə qədər şər yağdırsalar da, Sergey hərtərəfli olaraq öz mövqeyində durdu və həyasız adamların evindən çıxmasına nail oldu.

## XX fəsil. Ermənilər böhtana əl atsalar da son nəticədə ədalətlə üzləşirlər

Universitetdəki işlərə başı qarışan Sergey elə zənn edirdi ki, verdiyi vaxt zamanı ermənilər onun evini boşaldıb, açarı isə təhvil verəcəklər. O, ağlına belə gətirə bilməzdi ki, Eduarda ailəsi qarışıq on səkkiz ildən yuxarı hörmət etdiyi adamların həyasızlığı heç bir əndazəyə sığmayacaq.

Yorğun-ağrın öz iş yerindən evinə qayıdan tarixçi pedaqoq kabinetində oturub, Eduardın gəlişini gözləməyə başladı. Yelizaveta da həmin ünsürlərin çıxmasını səbirsizliklə gözləyirdi. O, atasına yemək hazırlayıb süfrə başına dəvət etdi.

Qız atası ilə üzbəüz əyləşib, günorta yeməyini yeyə-yeyə söhbət etməyə başladı. O, atasının badəsini araqla doldurub narahat halda dedi:

- Ata, yaxşıdır ki, sən həmin günü evdə idin, yoxsa onlar heç bir şeyə məhəl qoymadan Nizamini günahkar çıxaracaqdılar.

- Elə məni dəhşətə gətirən onların həyasızlığı idi. Onların imkanı olsa, elə məni də şərləyərlər. Yaxşıdır ki, on səkkiz illik verdiyim çörəyi nəzərə alıb cızıqlarından kənara çıxmadılar.

- Buna baxmayaraq onlardan hər şey gözləmək olar. – deyə Yelizaveta xəbərdarlıq etdi. – Yaxşıdır ki, biz onlarla qohum deyilik, yoxsa həmin həyasızları həyətdən çıxarmaq mümkün olmayacaqdı.

- Məni ən çox yandıran, Eduardın məni uşaq kimi barmağına dolamasıdır. Başqası olsa, bəlkə də qaldığı müddətə ondan kompensassiya alardı.

- Qorx ki, onlar səndən kompensassiya alsınlar. – deyə qız gülərək zarafatla dilləndi.

Elə bir az keçmişdi ki, Eduard qaldığı evin həyətindən səs-küy gəlməyə başladı. Yelizaveta tərəddüd etmədən pəncərə ağzına getdi və üsünü döndərmədən atasına dedi:

- Eduard yerlilərini başına toplayıbdır. Deyəsən, onlar mebelləri daşımaq üçün ora gəliblər. Robert də başı sarıqlı halda oradadır.

Sonra qız yenə də masa arxasına keçib, atası ilə başlanan söhbəti davam etdirməyə başladı. Heç beş dəqiqə keçməmiş evin qapısı döyüldü.

- Görünür, Eduard qaldığı evin açarlarını gətiribdir. – eylizaveta bu sözləri deyərək, qapıya tərəf yollandı.

Qapı açılanda Sergeyin şəxsən tanıdığı sahə müvəkkili kapitan İvan Alekseyev içəri daxil oldu. Onun gəlişi tarixçi pedaqoqda təəccüb hissi yaratdı.

- Sergey Vladimiroviç, üzr istəyirəm sizdən, mən şikayət ərizəsi ilə bura gəlmişəm.

- Hansı şikayət ərizəsi ilə? – deyə çiyinlərini çəkən ev sahibi daha da təəccübləndi.

- Sizin qonşunuz Eduard Muradyan tərəfindən.

- Bu, nə cəfəngiyyatdır? – Sergey istehza ilə dilləndi.

- Təəssüflər olsun ki, bu cəfəngiyyat deyil. – kapitan əlindəki qovluqdan bir vərəq çıxarıb ev sahibinə uzatdı.

Sergey vərəqin ilk sətirlərini oxuyanda, - onlar nə dərəcədə hörmətsiz olarmışlar – deyərək, yerindəcə donub qaldı.

- Hörmətli müəllim, sizə nə oldu? – deyə kapitan narahat oldu.

- Eduardgil bu iftiralarla nəyə nail olmağa çalışırlar?

- Deyəsən, geydirmə qaçqınlar bizi də şərləmək istəyirlər. - deyə Yelizaveta atasının düşdüyü vəziyyətdən nə baş verdiyini təxmini anlayaraq coşmuş halda dilləndi.

Ondan sonra tarixçi pedaqoq sahə müvəkkilini süfrə arxasına dəvət edib, çay içə-içə yaranan problemi müzakirə etməyə başladı. İlk növbədə ev sahibi Eduardın son iyirmi ildəki tarixçəsini polis əməkdaşına nəql etdi. Sanki kapitan onları tanıyırmış kimi başını təqdiredici tərzdə tərpədərək aludəliklə dedi:

- Sergey Vladimiroviç, onların həyasızlığı nəinki mənə, hətta bütün qəsəbə sakinlərinə bəllidir.

- Söhbət bizim yardım etdiyimiz ermənilərdən gedirsə, onlar elə bil öz evləri kimi oradan çıxmağı özlərinə böyük dərd hesab edirlər. – deyə Yelizaveta atasının yanında dayanaraq, narazı halda dilləndi.

- Qızım, elə iş ondadır ki, onlar həmin evi özünkü hesab edirlər. – deyə fikirli halda olan pedaqoq qeyri-müəyən tərzdə dilləndi və üzünü kapitana tutub, ciddi halda sözünə davam etdi. – Eduardın ilk dəfə mənim qapıma necə gəlməsi, gözlərimin önünə gəlir. Sanki o, dünyanın ən məzlum və yazıq adamı idi. Məhz o, səbəbdən mən həmin alçaq adamın sözlərinə inanıb onun üçün torpaq ayırıb ev tikdirdim. İndi isə Eduard deyir ki, həmin evi o, öz puluna tikibdir və sonradan guya qaldığı torpağın da pulunu mənə ödəyibdir.

Ən azı iki il dalbadal mən onları ərzaq və geyimlə təchiz etmiş və xəstələndikləri anlarda müalicə olunmaları üçün əlmdən gələni etmişəm. Ac qalmasınlar deyə, onların hər bir üzvünü işlə təmin etmişəm.

- Ata, sənin dediklərini anlamadım? – deyə qız çaşqınlıq içərisində soruşdu.

- Yelizaveta Sergeyevna, atanızın illər boyu hörmət etdiyi həmin Muradyanlar ailəsi, sizin tərəfdən onların

hüquqlarının tapdalanması ilə şikayət ərizəsi yazıblar. Onlar bildirirlər ki, on səkkiz il bundan əvvəl atanızdan iki sot torpaq almış və orada tikilən evin də pulunu ödəyiblər. Rusiya Federasiyasının vətəndaşları olmadıqlarına görə onlar rəsmi qeydiyyata düşə bilməyiblər.

Hazırda isə Eduard Muradyan evi tərk edəcəyi halda, sizin atanızdan təzminat tələb edir. Nə vaxt 120 min dollar ödənilsə, onda onlar da yaşadıqları evin açarlarını sizə təhvil verəcəklər. Əks təqdirdə onlar hüquqlarının kobud şəkildə pozulmasına görə əvvəlcə Rusiyanın Baş prokurorluğuna, ondan sonra isə Avropa Şurasına müraciət qəbul edəcəklər.

Düşüncələr içərisində olan ev sahibi hələlik qəti fikir bildirmək iqtidarında deyildi. Onun demək olar ki, dil-ağzı qurumuşdu. Səbrini saxlaya bilməyən qız isə dəhşətə gələrək, qəzəbli halda dedi:

- Bu ki, absuddur. Onların həyasızlığı heç bir əndazəyə girmir. Kapitan Alekseyev, atam onlardan evi tərk etməyi tələb edəndən sonra, həmin naşükürlər belə bir iyrənc addıma əl atıblar.

- Ermənilərin hansı hoqqalardan çıxması hamıya bəlli olduqları bir vaxt, siz onlara sığınacaq verdiniz. – deyə kapitan narazılığını gizlədə bilmədi. – Muradyanlar elə şikayət ərizəsi yazıblar ki, onları və sizin ailənizi yaxından

tanımayanlar, ərizədə yazılanları həqiqət olduğunu zənn edərlər. Hər yerdə özlərini məzlum göstərən həmin ailə belə bir şayiə buraxıblar ki, guya siz onları on ildən çox kirayədə saxlamış və daim şantaj edərək, qızlarının namusuna təcavüz etmisiniz.

- İndi mən başa düşdüm ki, ermənilərin üçün ülvi hisslər, istiqanlıq meyarları mövcud deyil. – deyə başını təəssüf hissi ilə tərpədən pedaqoq məyus halda dilləndi. – Axı, ermənilərə necə hörmət etməlisən ki, son anda onlar həmin hörməti qansınlar.

Mən demək olar ki, onları səfalətdən qurtardım. Onların yerinə kim olsaydı bəlkə də mənim və ailəmin başına dönərdi. Uşaqlarım ac olanda belə mən evimə gətirdiyim çörəyi onlarla bölüşdürürdüm.

- Sergey Vladimiroviç, buna baxmayaraq mən sahə müvəkkili kimi Muradyanların şikayət ərizəsinə baxmalıyam. – deyə daxilində vicdan əzabı çəkən kapitan sıxıla-sıxıla dilləndi.

- Onda belə çıxır ki, sən təcrübəli polis əməkdaşı həmin vərəqdə yazılanlara inanırsan? – deyə ev sahibi başını çəpəki tutaraq həmsöhbətinə sualedici nəzər saldı.

- Əlbəttə ki, yox! Sadəcə olaraq həmin ərizəyə reaksiya bildirilməlidir, ona görə ki, Sankt-Peterburqda fəaliyyət

göstərən erməni diasporasının nümayəndəsi bura gəlibdir və sizinlə görüşmək niyyətindədir.

- Bu nə biabırçılıqdır? – deyə pedaqoq daha da vəcdə gəldi və əsəbidən əl-qolu titrəməyə başladı. – Onlar nə haqla mənim qapıma gəliblər? Lakin buna baxmayaraq mənim ermənilərin mövqeyini müdafiə edən səlahiyyətli nümayəndəsinə iradlarımı bildirmək üçün yaxşı zəmin yaranıbdır.

Bu sözlərdən sonra kapitan eybəcər sifətli, ortayaşlı, kök kişini içəri dəvət edib, onu Mesrop Məlikyan kimi ev sahibinə təqdim etdi. Sergey ilk öncə onu dinləməyi qərara aldı ki, sonradan asudə şəkildə ürəyindəki sözləri boşaltmağa imkan tapsın. Diaspora nümayəndəsi süfrə arxasına keçən kimi heç kimdən icazə almadan, kəsilmiş tort dilimini yeyə-yeyə sözə başladı:

- Mən təəssüf edirəm ki, sizinlə Eduard Muradyanın arasında belə bir xoşagəlməz ixtilaf baş veribdir. Hörmətli pedaqoq, insan taleyi daim problemlər əhatəsində olur və illər boyu həmin problemlərin həll olunması üçün böyük bir fiziki və əqli enerji sərf olunur. Lakin siz yaxşı bilirsiniz ki, bizim millət əsrlər boyu türklər tərəfindən fiziki məhrumiyyətlərə məruz qalıbdır və nakam taleyimizi sağalmaz yaralar basıbdır. Bildiyiniz kimi Eduardın keçdiyi keşməkeşli

həyat yolu erməni xalqının taleyinin bir hissəsidir və demək olar ki, o, xoşbəxt anların nə olduğunu bilmir.

Daha sonra Mesrop Sergeyin qulağını qabar edən Eduardın uydurduğu həyatının müəyyən dövrünü nəql edərək, masa arxasında olanları həmin iftiralı həyatla bezikdirdi. Ev sahibi təngə gələrək onun sözünü kəsdi və başını dik tutaraq ciddi halda dedi:

- Dünyada ruslar kimi fiziki məhrumiyyətlərə məruz qalan ikinci xalq tanımıram. XIII əsrdən başlayaraq monqollar, isvec və alman cəngavərləri, polyaklar, Osmanlı türkləri, XII Karlın isveç ordusu, II Fridrixin Prussiyası, Napoleon Fransası, başda Avstriya-Macarıstan olmaqla üçlər ittifaqı, Hitler Almaniyası ölkəmizə daxil olaraq, burada total qırğınlar törətmişdilər. Lakin buna baxmayaraq biz həmin xalqlara qarşı nifrət hissi bəsləmirik.

Siz əminsiniz ki, Eduardın taleyi erməni xalqının taleyi kimi eyni oxşarlıq təşkil edir?

- Elə bir taleyi demək olar ki, hər bir erməni vətəndaşı yaşayıbdır və bütün varlığımız ilə başımıza gələn müsibətləri bütün dünya istimaiyyətinə çatdıracayıq. Əks təqdirdə başımıza gələn müsibətlər bir daha təkrarlana bilər.

- Əgər, hər bir erməni Eduard kimi ağır həyat tərzi yaşayıbdırsa, onda ümumiyyətlə, ermənilərin belə bir həyat sürməsi məndə şübhə doğurur. – Sergey istehza ilə dilləndi.

– İş ondadır ki, onun kimi fırıldaq, dələduz, aferist adamla mən heç vaxt rastlaşmamışam. O, daim qarşımda ağlamaqla özünü məzlum adam kimi təqdim etməyə çalışıbdır. Halbuki məzlum yox, miskin bir ünsür imiş.

- İnciməyin məndən, amma imkan vermərəm ki, kimsə mənim yanımda hüquqları tapdalanmış həmyerlimi ən sərt ifadələrlə təhqir etsin. – deyə başını narazı halda yellədən Mesrop emosonal halda dilləndi və üzünü sahə müvəkkilinə tərəf tutaraq, işlədilən təhqirlərin qeydə almasını tələb etdi. Lakin mövzunun dəyişməsinə imkan verməyən pedaqoq səbirsizliyini nümayiş etdirərək, ciddi halda dedi:

- Mənim sözümü kəsməyin. Canıma yığılan sözləri söyləməsəm ürəyim partlayar. Mən adını çəkmək istəmədiyim həmin çirkin ünsürə uzun müddət hörmət edərək, onu ailəsi ilə birlikdə səfalətdən qurtardım. Lakin bütün bu hörmətin müqabilində o, həyasızcasına məndən 120 min dollar tələb edir. həmin əclaf düşünür ki, məni də azərbaycanlılar kimi şərləyə bilər.

Məzum insanlara qan udduran, onları fiziki cəhətcə məhv edərək əmlakını mənimsəyən, öz həmyerlilərini aldadaraq pullarını oğurlayan, ümumiyyətlə Qarabağda qatil kimi tanınan həmin canini müdafiə edənlər, birdəfəlik anlamalıdırlar ki, onun kimiləri başqalarını şərləyərək pul

tələb etmək yox, qatil kimi dəmir barmaqlıqlar arxasında saxlanılmalıdır.

- Hər kəs özünü müdafiə etmək üçün belə bir absurd fikirlər söyləyir. – deyə ev sahibinin sözlərinə əhəmiyyət vermək istəməyən diaspora nümayəndəsi, özünü arsızlığa qoyaraq, həqiqəti qulaq ardına vumaqdan çəkinmədi. – Siz məsuliyyət hiss etmədən mənim həmyerlimi təhqir edir-siniz.

Eduard Muradyanın ailəsi başqa erməni ailələri kimi Qarabağda xəsarət alan ailə sayılır. Heç bilisiniz azərbay-canlılar onların neçə ailə üzvünü qətlə yetiriblər? Bir bacısı isə indiyədək Bakıda girovluqda saxlanaraq, ağır işgəncə-lərə məruz qalır.

- O, belə bir rəvayəti qoşmaqla böyük fırıldaqçı olduğunu sübuta yetiribdir. – deyə pedaqoqun dodaqlarında acı təbəssüm sezildi və o, bir qədər ara verəndən sonra Muradyanlar ailəsinin demək olar ki, hər bir üzvünün tarixçəsini millətçi erməniyə danışdı.

Mesrop həqiqət dolu ifadələri eşitdikdə sir-sifətini əyərək, bütün bunların uydurma olduğunu bəyan etdi. Onun fikirlərinə heç bir əhəmiyyət verməyən pedaqoq gözlərini bərəldərək, hiddətlə dedi:

- Mən hələ də başa düşmürəm, siz ermənilər üçün həqiqət nəydən ibarətdir? Bütün hərəkətləriniz üzdə ola-ola

yenə də həqiqəti inkar etmək istəyirsiniz. Onu bilin ki, xristian pərdəsi altında belə bir qeyri-insani hərəkətlərlə siz bütün sivil dünyadan təcrid oluna bilərsiniz. Ümumiyyətlə, sizin kimilər müqəddəs amalın nə olduğunu azacıq da olsun anlamır.

- Deməli, biz öz haqqımızı tələb edəndə, siz bunu qeyri-insani hərəkət kimi qəbul edirsiniz? – deyə özünü təhqir hesab edilən diaspora nümayəndəsi həyasızcasına soruşdu.

- Haqqınız nəydən ibarətdir? – deyə əsəbləri tarıma çəkilən ev sahibi qəzəbli halda sual verdi. – Qarabağda dinc insanları amansızcasına qətlə yetirmək, onların varidatını və torpaqlarını ələ keçirmək sizin haqqınızdır?

- Yoldaş pedaqoq, birincisi bizi dədə-baba torpağımız sayılan Qarabağda azadlıq müharibəsi gedirdi. Bu müharibədə bizim soydaşlarımız müdafiə olunmaq üçün silahdan istifadə etməli olmuş və bununla da türkləri layiqincə məhv etmişdilər. Bu, nəinki bizim, ümumilikdə xristian dünyasının müsəlmanlar üzərində qələbəsi deməkdir və buna görə də bir çox dövlətlər və nüfuzlu təşkilatlar hərtərəfli olaraq bizi dəstəkləyirlər.

- Xristian dini buyurmayıbdır ki, başqa dindən olan bəndələrin hamısı ucdantutma fiziki cəhətcə məhv edilsin. Eduard kimi mənfur adamı müdafiə etdiyinizə görə sizə bir neçə sualım olacaq. Birincisi, Xocalıda öldürülən uşağın nə

günahı vardı ki, onu elə əsirlikdə ən amansız işgəncələrlə öldürürdünüz? İkincisi, müharibəyə heç bir aidiyyatı olmayan qız-gəlinlərin başına min-bir oyun açmaqla, onları öldürüb, sonra isə meyidlərini ailələrinə satırdınız. Üçüncüsü, onların və əlinə silah almaq gücünə malik olmayan ahıl insanların günahı nə idi ki, həmin məzlum kəslər həyatdan məhrum edildilər?

- Elə danışırsınız ki, guya siz rus milliyyətinin nümayəndəsi kimi xristian yox, müsəlmansınız? Mənim Qarabağdakı qətliamlardan xəbərim yoxdur, əgər bu baş veribsə, onda demək olar ki, yüz illər boyu həmin torpaqda millətimizin başına gətirilən həmin müsibətlərə görə biz, öz qisasımızı türklərdən almışıq.

- Əgər, siz Qarabağı öz torpağınız hesab edirsinizsə, - ev sahibi narazı halda dilləndi. - bir tarixçi kimi deyə bilərəm ki, həmin torpaq heç vaxt ermənilərin ərazisi olmayıbdır.

- Bu sözlərə görə siz bizim diaspora tərəfindən məhkəməyə verilə bilərsiniz. – deyə hirsli görünən Mesropun sifəti daha da eybəcərlərşdi.

- Məni məhkəmə ilə qorxuzmayın, - deyə pedaqoq soyuqqanlıqla dilləndi. – bunu hər an sübut etməyə hazıram. Lakin siz mənim əsas sualıma cavab vermədiniz, nəyə görə həmin münaqişə zamanı günahı olmayan körpə, uşaq, qadın, qocalar qətlə yetirildilər?

- Sizə dedim axı, həmin qırğınlar zamanı mən orada olmamışam və deyə bilmərəm ki, ümumiyyətlə, orada gəlmə türklərə qarşı qırğın törədilibdir, ya yox?

- Qarabağda baş verən qətliamları sübut yetirən kifayət qədər video yazılar və sizin yazıçıların ərsəyə gətirdikləri əsərlər var. Siz bir neytral ərazidə olan erməni kimi baş verən qətliamı dəstəkləyirsiniz, ya yox?

- Bir erməni kimi açıq desəm, bəli. İstəyirsiniz bunun səbəbini izah edim. Unutmaq lazım deyil ki, həmin analar bizim millətin qanını axıdacaq türk yaraqlıları doğacaqdılar, uşaqlar da həmçinin böyüyəndə türk yaraqlısı olacaqdı. O ki, qaldı ahıl insanlara onlar bizimkilərə silah qaldıran yaraqlıların valideynləri idi.

Bu məqamda Sergey dəhşətə gələrək əlləri ilə başını tutdu və qurumuş halda yerindəcə donub qaldı. Sahə müvəkkili elə zənn etdi ki, ermənilərin mövqeyini bu şəhərdə müdafiə edən Mesrop bu sözlərlə zarafat edir və hələ də neytral adam kimi kənarda durmağı məsləhət bildi. Atası kimi dəhşətə gələn Yelizaveta fürsətdən istifadə edərək ikrah hissi ilə dedi:

- Siz nə danışdığını bilirsiniz? İşgəncələrlə öldürülənlər uşaqlar, qadınlar və ahıl insanlar idi. Onları amansızcasına məhv etmək, yalnız heyvanların arasında yaşayan yırtıcılara məxsus olan instinkdir. Anlaya bilmirəm, körpə uşağı necə

öldürmək olar? Şahid ifadələrində göstərilir ki, onları yuxarı atıb süngülərə keçirirdilər. Yaşı 10-a çatmayan qızcığazları dəfələrlə zorlayıb, sonra isə üstünə benzin töküb yandırmağı, heç cəlladlar da belə bir ekzekusiyanı özlərinə rəva bilməzdilər. Özünü insan adlandıran kəs, belə bir vəhşi üsullardan istifadə etməz. Əgər edibsə, onda həmin kəs milliyyətindən asılı olmayaraq, məhkəmə olmadan qeyd-şərtsiz, dərhal məhv edilməlidir.

- Bu nədir? – deyə erməni özünü təhqir edilmiş kimi dilləndi. – Evdəkilərin hamısı türkləri müdafiə edirlər?

Dəhşətdən bağrı çatlayan pedaqoq bütün gücnü taplayaraq, birtəhər özünü ələ aldı və dişlərini bir-birinə sıxaraq hirsli halda dedi:

- İndi başa düşürəm ki, Qriboyedov Azərbaycan xalqını hansı zibilə salıbdır. O, İranda işlədiyi qısa müddət ərzində sizin millətin xasiyyətinə bələd olandan sonra I Nikolaya məktub yazdı: "Əlahəzrət, ermənilərin mərkəzi rus torpaqlarında yerləşməsinə icazə verməyin. Onlar elə tayfadandırlar ki, bir neçə il yaşayandan sonra bütün dünyaya bu torpaqların ata və babalarına aid olduğunu qışqıracaqlar". Sizi isə Qafqazın ən qonaqpərvər, sülhsevər bir xalqın yanında yerləşdirdilər. Bu azərbaycanlılara olan minnətdarlığınız.

- Siz bu sözlərə görə qanun qarşısında cavab verəcəksiniz. – deyə sifəti qaralan erməni qışqırdı.

- Çalış həqiqəti axıra qədər dinlə. – deyə nifrət dolu baxışlarını həmsöhbətinə yönəldən pedaqoq ikrah hissi ilə dilləndi. - Belə bir vəhşiliyi tətbiq edən və bununla öyünənlər özlərinə yerin sakini deyə bilməzlər. Əgər, bütünlükdə insan qiyafəsindən çıxan erməni ideoloqlarının sərsəm faşist ideologiyasını bir millət həzm edibsə, o millət deyil, sadəcə olaraq siçovullardan ibarət olan bir tör-töküntüdür. Siçovulların isə müstəqil ölkəsi olmur, onların vətəni zibil qutularıdır. Bütün dünyaya səpələnmisiniz və hər yerdə də fitnə-fəsadlarla məşğulsunuz.

Adın da yadımdan çıxdı, qulaq as gör nə deyirəm. Bayırdakı iyrənc soydaşlarını götürüb rədd olun mənim həyatimdən. Öz murdar ləpirlərinizlə mənim torpağımı korlamayın.

- Kapitan, bu yaramazın sözlərini eşitdin? – deyə Mesrop hiddətlənərək, ev sahiibinin üzərinə yeridi.

Ermənininin özbaşınalığını görən sahə müvəkkili onun qolundan tutub özünə tərəf çəkdi və üz-gözünü bozardaraq ciddi halda dedi:

- Bu nədir, mənim yanımda ev sahibinə əl qaldırmaq istəyirsən? İndi sənin bu xuliqanlığını protokollaşdıracam və özünü isə polisə aparacam. Siz ermənilərin həyasızlığı artıq bütün sərhədləri aşıbdır.

Sergey Vladimiroviç, bizim rayonun ən hörmətli ziyalısıdır və bu ətrafda yaşayan hər bir sakin yaxşı bilir ki, o, iyirmi ilə yaxın Muradyanlar ailəsini evində saxlayaraq, onları səfalətdən qurtarıbdır.

Siz isə camaatın üstünə şər və böhtan atmaqla onları şantaj edirsiniz.

Səs-küyü eşidən Eduardla Robert qapını döymədən işəri daxıl olur və qışqıra-qışqıra polisin üstünə cumub onu vurmağa cəhd göstərdilər. Kapitan cüssəli və qolu qüvvətli olmasaydı, bəlkə də onu burada döyərdilər. O, hamını özündən kənar itələyəndən sonra Yelizaveta ermənilərin təcavüzü ilə bağlı polis idarəsinə zəng etdi. Məhz bundan sonra ləyaqətini itirmiş həmin ünsürlər bir qədər sakitləşdilər.

Eduardgilin həyasızlığından bezən Sergey sir-sifətini bozardaraq möhkəm səslə dedi:

- Sizə kim ixtiyar verdi ki, mənim evimə soxulasınız. Tez olun buradan rədd olun! Günahsız insanların qanını axıdan cəlladlara nəinki mənim evimdə, hətta həyətdə olan it damxasında da yer yoxdur. Üç saat ərzində bütün zir-zibilinizi evimdən götürüb, oranı boşaltmalısınız. Mən təcili otaqları dezinfeksiya etməliyəm ki, oradakı hava təmizlənsin. – sonra o, üzünü Mesropa tutub ciddi halda sözünə davam etdi. – Diqqətlə qulaq as gör nə deyirəm.

Əgər, bizim şəhərdə fəaliyyət göstərən erməni diasporası Eduard kimi əli mülki vətəndaşların qanına bulaşan qatilləri müdafiə edirsə, deməli onlar da həmin qatillərin tayıdırlar.

Bu sözlərdən sonra onlar daha da bərkdən qışqıraraq ev sahibi ilə sahə müvəkkilini prokurorluq orqanları ilə hədələməyə başladılar. Eduardın xasiyyətinə tam bələd olan tarixçi pedaqoq onu daha da yandırmaq üçün soyuqqanlıqla:

- Təəssüflər olsun ki, mən on səkkiz ili goreşənləri qaçqın adı altında evimdə saxlamaqla böyük bir səhv etmişəm. Lakin bundan sonra öz səhvimi düzəltmək üçün sözün əsl mənasında həmin evin açarlarını həqiqi mənada qaçqın olan bir ləyaqətli bir adama verəcəm. İstəsən onun kimliyini də deyə bilərəm. O, sənin tərəfindən ailəsi bir neçə üzvü öldürülmüş, bütün varidatı sənin tərəfindən qarət edilmiş və ev qarışıq torpağını quldurluqla ələ keçirdiyin Nizamidir. Bəlkə, bundan sonra mən öz günahlarımı yumuş olacam.

Son ifadələri eşidən erməni vəcdə gəldiyindən qeyri-insani halda qışqıraraq, bağrı çartlayıb yerə yıxılıb döşəmənin üstündə çapalamağa başladı. Robert ilə Mesrop tələsik halda onu götürüb divana tərəf aparmaq istədilər. Ürəyi daşlaşan pedaqoq onların qarşısını kəsib – “paxıllıqdan bağrı çatlayan bu leşi, bayıra çıxarın” deyərək, ermənilərin evindən çıxmasına nail oldu.

## I hissə: Faciə ilə üzləşən məzlum insanların şərlənməsi


Ön söz.............................................................. 5-11
I fəsil. Tutqun havada helikopterin vurulması........... 13-22
II fəsil. Azərbaycanlıların qonşularına göstərdikləri qayğı və nəvazişləri.................................................... 23-33
III fəsil. Bakıdan gələn könüllülər........................... 34-43
IV fəsil. Vəziyyətin gərginləşməsinə baxmayaraq həmyerlilər arasında münasibətlər pozulmayıbdır.......... 44-50
V fəsil. Qaradağlının işğalı və qaradağlıların qara günləri.............................................................. 50-69
VI fəsil. Törədilən cinayətlərə görə layiqli cəzanın verilməsi və nəticədə Muradyanlar ailəsi Qarabağı tərk etməli olurlar....................................................... 70-76
VII fəsil. Bəzi quldurlar öldürülür, bəziləri isə cəzadan qorxaraq yaxalarını kənara çəkirlər................. 77-86
VIII fəsi. Özünü qaçqın kimi təqdim edən riyakar erməni................................................................. 87-99
IX fəsil. Rus ziyalısının mərhəmətindən sui-istifadə edən erməni qaçqınları............................................... 100-107
X fəsil. Hiyləgərlikdə dayısından geri qalmayan tələbə qız............................................................ 107-116
XI fəsil. Şan-şöhrətə görə şərəf və ləyaqətini tapdaq altına atan ailə.......................................................... 116-127

XII fəsil. Qeyri-adi bir hadisənin baş verməsi........ 127-141
XIII fəsil. Uydurma hadisələrlə bağlı qondarma yığıncaqların təşkil olunması...................................... 141-150
XIV fəsil. Qaradağlı kəndində müəyyən sirlərin açılması..................................................................... 151-160
XV fəsil. Erməni millətçilərinin qonaqpərvərliyi... 161-171
XVI fəsil. Qarabağdakı faktlar ermənilərin dediklərinin tam əksindən xəbər verir............................................. 171-180
XVII fəsil. Ermənilərin həm insanlıq, həm də təbiət qarşısında törətdikləri cinayət...................................... 180-188
XVIII fəsil. Ermənistandan Pyatiqorskiyə gələn rus ziyalısı, orada köhnə tanışları ilə rastlaşır.................... 188-203
XIX fəsil. Səmimi söhbətdən sonra tarixçi alimin ermənilərə olan münasibəti yavaş-yavaş dəyişir......... 204-215
XX fəsil. Erməni qadını uzun illərdən sonra həqiqəti söyləməyi qərara alır................................................. 216-226

## II hissə: Miskin ermənilərin tam şəkildə ifşa olunması

I fəsil. Hiyləgər fəndə əl atmaq istəyən biznesmen.228-234
II fəsil. Arada yaranan gözlənilən münaqişə.......... 235-244
III fəsil. Azərbaycanlı tələbənin pedaqoqları ilə apardığı maraqlı diskussiya..................................... 244-251.

IV fəsil. Tükürpədici faktların sadalanması............ 251-262
V fəsil. İyirmi beş illik ayrılıqdan sonra tarixçi pedaqoq yenidən Bakıya gəlir................................. 262-277
VI fəsil. Azərbaycanlı tələbə rus qonağını Bakı ilə tanış edir............................................................ 278-287
VII fəsil. Ürəklərdəki sirrlərin üzə çıxması........... 287-297
VIII fəsil. Köhnə dostu ilə görüşə gedən qonaq..... 297-305
IX fəsil. Rus pedaqoqu Bakıda ərdə olan erməni qadını ilə görüşür................................................. 306-315
X fəsil. Yəhudi biznesmeni rus qonağına həqiqəti aşılamağa çalışır................................................. 316-326
XI fəsil. Sadalanan faktlar qarşısında aciz qalan alim Qafqaz tarixi ilə dərindən maraqlanacağını bir məqsəd kimi qarşısına qoyur................................. 327-334
XII fəsil. Şəhidlərin uyuduğu məzarlar................ 334-343
XIII fəsil. Müharibə dəhşətlərinin zavallı şahidləri.343-351
XIV fəsil. Qətliamların başında erməni ziyalıları Durur................................................................. 351-360
XV fəsil. Həqiqəti dərk edən rus ziyalısı evində ziyafət təşkil edir.................................................. 361-371
XVI fəsil. Aşıb-daşan səbr kasası........................ 371-383
XVII fəsil. Öz səhvlərini düzəldən tarixçi pedaqoq.383-395
XVIII fəsil. Güllə yarasından da acı olan həqiqət.. 395-407
XIX fəsil. Yalançıların ifşa olunması.................. 407-419
XX fəsil. Ermənilər böhtana əl atsalar da son nəticədə ədalətlə üzləşirlər...................................... 420-436

**Ramiz Dəniz**

***Həqiqət***

**Nəşriyyatın direktoru F. Q. Kərimov**

**Çapa imzalanmışdır: 30.09. 2014**
**Formatı: 60x84 1/16**
**Fiziki çap vərəqi: 27,5**
**Tiraj: 500**
**"Nasir" nəşriyyatı**

**Tel: (050) 314 09 37**
**(012) 431 11 00**